JAN – POL SARTR

Tərcümə: ***Nəriman Əbdülrəhmanlı***

Sözlər

(Povest)

Oxuma

Ötən əsrin qırxıncı illərinin sonunda elzaslı çoxuşaqlı məktəb müəllimi dərddən baqqal oldu. Amma rütbəsi əlindən alınmış keşiş-tərbiyəçi hayıf çıxmağı arzulayırdı: o, ağılları tərbiyə etmək haqqını qurban verdi – qoy oğullarından biri qəlbləri tərbiyə etsin. Ailədə keşiş olacaq. O, Şarl olacaq. Amma Şarl sirkdə atçapan qızın dalınca düşüb aradan çıxmağa üstünlük verdi. Ata oğlunun şəklini üzü divara çevirməyi əmr eləyib onun adını çəkməyə qadağa qoydu. Növbəti kimdir? Ögüst atasının yoluyla getməyə tələsdi, kommersant olub uğur qazandı. Balacada, Luidə diqqət çəkən meyl yox idi. Ata bu sakit oğlanın taleyilə özü məşğul oldu və uzun-uzadı fikirləşməyib onu keşiş elədi. Nəticədə Lui öz oğulluq itaətini o qədər genişləndirdi ki, öz növbəsində dünyaya həyat yolu hamıya tanış olan keşiş Albert Şveytseri gətirdi. Bununla belə, Şarl öz atçapan qadınını haqlaya bilməmişdi. Atasının rəmzi hərəkəti onda silinməz möhür qoymuşdu: onda ömür boyu ali şeylərə meyl qaldı, adi əhvalatları hadisələrəcən şişirdib dəridən-qabıqdan çıxırdı. Başqa cür desək, o, heç də özündə ailə meylini boğmağa çalışmırdı, yalnız özünü daha liberal yönümlü ruhani fəaliyyətə həsr eləmək, atçapan qadınlarla bir yerə sığışan mənsəb qəbul eləmək istəyirdi. Universitet sahəsi lap yerinə düşdü. Şarl alman dili müəllimi olmaq qərarına gəldi. O, Hans Saks haqqında dissertasiya müdafiə elədi, sonralar özünü onun banisi elan eləyib «birbaşa metod»un tərəfdarlarından oldu, cənab Simonnoyla birgə sanballı «Deutches Lesebuch» dərsliyi buraxdı, sürətlə ucaldı:

Makon-Lion-Paris. Parisdə buraxılış gecəsində ayrıca nəşr olunmağa layiq görülən nitq söylədi: «Cənab nazir! Xanımlar və cənablar! Əziz uşaqlar! Sizə bu gün nə barədə danışacağımı heç bilməzsiniz! Musiqi barədə!». O, hər ehtimala qarşı əlini şeirdə də sınayırdı. Ailə çevrəsində təkrar elməyi xoşlayırdı: «Lui ən namusludu, Ögüst ən varlıdır, mən ən ağıllıyam». Qardaşlar qəhqəhə çəkib gülürdülər, gəlinlər dodaqlarını gəmirirdilər.

Makonda Şarl Şveytser katolik vəkilin qızı Luiza Qiyemenlə evləndi. Luiza toy səyahətini iyrənə-iyrənə xatırlayırdı. Bəy ziyafətin qızğın çağında gəlini oğurlayıb qatara itələdi. O, yetmiş yaşında hələ də bir vağzal bufetində onlara necə soğan-kəvər salatı verdiklərini unuda bilmirdi: «Şarl bütün soğanları yedi, göyərtinisə mənə saxladı». Onlar iki həftə Elzasda yaşadılar, bütün bu müddət ərzində də stolun arxasından çıxmadılar. Qardaşlar yerli ləhcədə abırsız lətifələrlə ad qazanmışdılar; bəzi vaxtlar keşiş Luizaya sarı dönüb xristian mərhəməti üzündən onları tərcümə eləyirdi.

Luiza tanışlıqla onu arvad borcunun yerinə yetirilməsindən azad eləyən, ayrıca yataq otağı tutmaq hüququ verən tibbi şəhadətnamə əldə eləməyə vaxt itirmədi. O, baş ağrısından şikayətlənirdi, azacıq bir şey olan kimi, yatağa yıxılırdı, səs-küyü, ehtirası, vəcdi – Şveytserlərin gerçək, teatral olan bütün kobud məişətini görməyə gözü yox idi. Bu canlı, amma soyuq masqaraçı qadın sağlam, ehtiyatlı fikir yürüdürdü, çünki əri qərəzsiz, mənasız düşünürdü, o, yalançı, sadəlövh olduğundan, hər şeyə şübhəylə yanaşırdı. «Deyirlər, güya yer fırlanır – bunu haradan bilirlər?» Xeyirxah hoqqabazlarla əhatə olunan qadın hoqqabazlığa və xeyirxahlığa nifrət eləyirdi. Spiritualist qanmazların ailəsinə düşmüş zərif realist qadın Volteri oxumadan ziddiyyətli ruhundan Volter tərəfdarı oldu. Balaca, gonbul, arsız, oynağan qadın qeyd-şərtsiz inkara uymuşdu. O, çiyinlərini çəkməklə öz kefi xətirinə – ətrafdakılar üçün yox, istehzalı təbəssümlə bütün təmtəraqlı görkəmləri heçə endirirdi. Onu hər şeyi inkar vüqarı, qəbul eləməmək eqoizmi yeyib tükədirdi. O, kimsəylə münasibət saxlamırdı – birinci yerə çatmaq üçün həddən artıq yekəxana, ikinci yerlə kifayətlənmək üçün həddən artıq şöhrətpərəstiydi. «Özünüzü elə qoymağı bacarın ki, sizi axtarsınlar», - o, təkrar eləyirdi. Onu cani-dildən

axtarırdılar, sonra get-gedə daha seyrək axtarırdılar, nəhayət, görmədən unutdular. İndi o, öz kreslo, çarpayısından qalxmırdı.

Cansevərlər və puritanlar xeyirxahların hesab elədiklərindən daha geniş yayılmış birləşməsi idi. Şveytserlər cismi alçaldıb xristian mərhəmətinə yardım göstərən, eyni zamanda geniş mərhəmətə, onun təbii təzahürlərindən xəbər verən möhkəm sözü sevirdilər; Luiza ikibaşlı fikirləri üstün tuturdu. O, yüngül romanlar oxuyur, onların fabulasından çox geyindikləri şəffaf geyimləri sevirdi. «Çox risqli və gözəldir», - eyhamla qeyd eləyirdi. «Bura sürüşkəndir – ehtiyatlı olun!». Bu buz-qadın Adolf Belonun «Odlu qız»ını oxuyub az qala gülməkdən partlayacaqdı. O, zifaf gecəsi haqqqında həmişə axırı pis qutaran lətifələr danışmağı sevirdi: gah əri kobud səbirsizliklə arvadının boynunu çarpayının söykənəcəyinə dirəyirdi, gah ağlını itirmiş gəlini ərindən gizləndiyi rəfdə tapırdılar.

Luiza yarızülmətdə yaşayırdı. Şarl onun otağına girirdi, pəncərələri taybatay açırdı, bütün lampaları birdən yandırırdı, o, gözlərini əlləriylə örtüb inildəyirdi: «Şarl, kor olacağam!». Bununla belə, etirazı parlament müxalifəti çərçivəsindən çıxmırdı. Şarl Luizanı qorxudurdu, dözülməz hiddət bəzən əksinə, nifrət doğururdu, o, bircə şey – ərinin ona toxunmamasını istəyirdi. Amma Şarl qışqırmağa başlayan kimi, bütün mövqelərini əldən verirdi. O, Şarla dalbadal dörd uşaq doğdu: körpə vaxtı ölən qız, iki oğlu və daha bir qız. Etinasızlığındanmı, loyallıq əlaməti olaraqmı, Şarl uşaqları katolik əqidəsində tərbiyə eləməyə icazə verdi. Allahsız Luiza protestanlığa nifrətindən uşaqlarına küfrü təlqin eləyirdi. Hər iki oğlu analarının tərəfini saxladılar. Ana onları hiss olunmadan ipə-sapa yatmayan atalarından uzaqlaşdırdı. Şarl bunu, hətta sezmədi. Böyük, Jorj Politexnik institutuna girdi, kiçik, Emil alman dili müəllimi oldu. O, məndən ötrü sirr idi. Subay qalıb başqa hər şeydə atasını təqlid eləyirdi, bununla belə, onu da sevmirdi. Axırda ata ilə oğul dalaşdılar; arada bir təntənəli barışıq baş verirdi. Emil özünə sirli görkəm verirdi. O, anasına pərəstiş eləyirdi, son günədək xəbər vermədən gizlicə onun görüşünə gəlmək adəti var idi: onun öpüşlərə, nəvazişlərə qərq eləyirdi, sonra əvvəlcə istehzayla, sonrasa hiddətlə atası barədə söhbət başlayırdı,

vidalaşandasa qapını çırpırdı. Görünür, Luiza onu sevirdi, amma qorxurdu. Bu sərt inadkarlar – ata ilə oğlu – onu yorurdular, o da həmişə evdə tapılmayan Jorju onlardan üstün tuturdu.

Emil tənhalıqdan ağılını itirib 1927-ci ildə öldü; onun yastığının altında revolver, çamandanlarında isə, iki yüz yırtıq corab, iyirmi cüt tapdanmış çəkmə tapdılar.

Ann-Mari, kiçik qızı bütün uşaqlığını stulda oturdu. Ona darıxmağı, düz oturmağı və tikməyi öyrətdilər. Ann-Marinin qabiliyyəti vardı – abır üzündən onları gizli saxladılar; o, görkəmcə yaraşıqlı idi – bunu ondan gizlətməyə çalışırdılar. Ciddi, vüqarlı burjua Şveytserlər hesab eləyirdilər ki, gözəllik onların cibinə və görkəminə yaraşmır. Onlar gözəlliyi qrafinyalara və fahişələrə güzəştə gedirdilər. Luizanı çox bəhrəsiz yeyib tükədirdi: axmaq vəziyyətə düşməkdən qorxduğundan nə uşaqlarının, nə ərinin, nə özünün ən oxşar üstünlüklərini qəbul eləyirdi. Şarl kimin gözəl, kimin çirkin olduğunu bilmirdi – o, gözəlliyi sağlamlıqla qarışdırırdı. Arvadı naxoş olduğu vaxtdan yekəpər bığlı və gənc çılğın, südlü-qanlı idealist qadınların yanında təskinlik tapırdı. Əlli ildən sonra ailə albomuna baxanda Ann-Mari gözəl olduğunu gördü.

Şarl Şveytserin Luiza Giyemenlə tanış olduğuyla təxminən eyni vaxtda bir kənd həkimi Periqordan zəngin torpaq sahibinin qızıyla evlənib onunla Tivyenin ölgün baş küçəsində düz apteklə üzbəüz evdə məskən saldı. Toyun səhəri günü məlum oldu ki, qaynatanın bir qəpiyi də yoxdur. Hidətlənmiş doktor Sartr arvadı ilə münasibətini kəsdi, qırx il ərzində ona bir söz də demədi. Masa arxasında fikrini hərəkətlərlə bildirdi, axırda arvadı onu «mənim kirayənişinim» çağırmağa başladı. Bununla belə, hərdən bir arvadı ilə eləcə ağzını açmaqdan yatağa girirdi, ona növbəti uşağı düzəldirdi: ərinə iki oğul və bir qız doğdu. Bu sükut övladlarını Jan-Batist, Jozef və Elen adlandırdılar. Elen artıq vaxtı keçmiş qız kimi, axırda dəli olan süvari zabitinə ərə getdi. Jozef orduda öz müddətini başa vurub ehtiyata çıxmağa, ata evinə qayıtmağa tələsdi. Onun peşəsi yox idi. Lal-dinməz atası ilə qışqır – bağır salan anasının arasında qalıb kəkoy oldu, son gününədək sözə düşmən kəsildi. Jan – Batist dənizi görmək üçün dənizçilik məktəbinə girdi. 1904-cü ildə Şerburda artıq tropik qızdırmanın əldən saldığı dəniz zabiti Ann-

Marn Şveytserlə tanış oldu, bu atılmış uzundraz qızın başını tovladı, onunla evləndi, bir göz qırpımında uşaq – məni - bəxş elədi və dünyasını dəyişməmişdən qabaq əlini yumağa cəhd göstərdi.

Amma ölmək o qədər də asan deyil: torpik malyariya asta-asta inkişaf eləyirdi, hərdənbir yaxşılaşma baş verirdi. Ann-Mari ərinə fədakarcasına, amma özünə sevgi kimi bir abırsızlığı rəva görmədən qulluq eləyirdi. Luiza qızını ər-arvadlığa qarşı kökləyirdi: qanlı mərasim hər gecəki əxlaqsızlıqla birgə gündəlik qurbanlar sırasını açırdı. O, atamı nə toyda əvvəl, nə də toydan sonra, demək olar, tanıyırdı, ola bilsin, bəzən çaşqınlıq içində özündən bu yad adamın ağlına niyə onun əlində canını tapşırmaq gəldiyini soruşurdu. Xəstəni Tivyenin yaxınlığında şəhər kənarındakı evə gətirdilər, ata hər gün oğluna ikitəkərli arabada baş çəkirdi. Vurnuxma və qayğılar Ann-Marinin gücünü tükədirdi, onun südü qurudu, məni qonşuluqda yaşayan süd anaya verdilər, mən də nazik bağırsağın iltihabından, bəlkə də, sadəcə, qisas üzündən o dünyaya yollanmaq üçün bütün səylərini göstərdim. İyirmi yaşlı təcrübəsiz, tənha anam ona tamamilə yad olan iki ölməkdə olan adamın arasında çabalayırdı. Onun ağıla əsaslanan nigahı xəstəliyə, matəmə çevrildi.

Bununla belə, vəziyyət mənim xeyrinə idi: o vaxt analar körpələri özləri əmizdirir, uzun müddət süd verirdilər. Xoşbəxtliyimdən, bu iki cançəkişməsi özünü yetirməsəydi, döşdən gec ayrılan uşağın məruz qaldığı təhlükə məndən yan keçməyəcəkdi. Amma xəstəydim, məni on aylıq uşağı qızdırma və şüursuzluq içində ananı körpə ilə bağlayan son bağı qayçının bir hərəkətlə kəsən kimi, döşdən ayırmaq lazım gələndə bunu hiss eləmədim. Mən adi qarabasmalar, ilkin bütlər olan aləmə cumdum. Atamın ölümündən sonra Ann-Mari ilə birlikdə hər ikimiz də cəhalətdən oyandıq, mən sağaldım. Amma uyğunsuzluq oldu: Ann-Mari əslində, heç vaxt unutmadığı sevimli oğlunu tapdı, mən tanımadığım qadının dizləri üstündə özümə gəldim.

Ann-Mari pulsuz, təhsilsiz qalıb ata ocağına qayıtmağı qərara aldı. Amma Şveytserlər atamın xoşagəlməz ölümündən məyus olmuşdular: bu, boşanmağa çox oxşayırdı. Anam o ölümü qabaqcadan görmədiyindən, qabağını ala bilmədiyindən də,

məsuliyyəti onun üzərinə qoydular: o, ağılsızcasına nəzakət qaydalarını pozan adama ərə getmişdi. Qucağında uşaq Medona qayıdan uzundraz Ariadnanı gözlədiyindən də yaxşı qarşıladılar: babam yenicə istefaya çıxmışdı, qızına tənəli bir söz də deməyib qulluğa qayıtdı; hətta nənəm də narazılığını bildirmədi. Amma minnətdarlıqdan əzilən Ann-Mari ləkəsiz münasibətdə töhmət sezirdi. Nə demək olar ki, doğmaları dul qadını tək qadından üstün tutur – amma buna da şükür. Ann-Mari bağışlanmış günahlarına layiq olmağa var gücü ilə çalışırdı. O, əvvəl Medonda, sonra Parisdə təsərrüfatı öz üzərinə götürdü, eyni zamanda dayə, xəstə baxıcısı, ev idarəcisi, kampanyonka, qulluqçu idi, amma heç cür anasının gizli incikliyini yumşalda bilmədi. Gününü menyunun tərtibiylə başlamaq, hesabların yoxlanması ilə başa vurmaq Luizanı cana doydurmuşdu, amma üstünlüyünü itirmək istəmirdi. Luiza yeganə bir illüziyasını qoruyub saxlamışdı: o, özünü əvəzedilməz sayırdı. İllüziya dağıldı – Luiza qızına qısqanclıqla doldu. Yazıq Ann-Mari! Əlini bir-birinin üstünə qoyub oturanda tənə eləyəcəkdilər ki, yükdür, amma əllərini dinc qoymurdu, onun evdə sahibə olmaq istəməməsindən şübhələnirdilər. Birinci maneəni keçmək üçün özünün bütün dözümünü, ikincini keçmək üçün bütün səbrini köməyə çağırmalı oldu. Bir il də keçmədi ki, gənc dul qadın təzədən yeniyetmə qız-nifuzuna ləkə düşmüş qız hüququnda oldu. Kimsə onu cibxərcliyindən məhrum eləmirdi - sadəcə bunu ona verməyi unudurdular, o, paltarı az qala yırtılanacan geyinirdi, babasınınsa təzəsini almaq ağlına gəlmirdi. Hətta onu qonaqlığa tək candərdi buraxırdılar. Əksəriyyəti evli xanımlar olan rəfiqələri dəvət eləyəndə əvvəlcədən babasının icazəsini almalı olurdular, həm də söz verirdilər ki, qızını saat ondan gec olmayaraq evə çatdıracaqlar. Şam yeməyinin ortasında ekipaj çağırırdılar, ev sahibi Ann-Marini ötürmək üçün masa arxasından qalxırdı. Həmin vaxtda babam gecə köynəyində saatı əlindən yerə qoymadan yataq otağında var-gəl eləyirdi, saat onu vuranda ildırım çaxırdı. Dəvətlər get-gedə artırdı, anam da bu qədər baha başa gələn əyləncələrə marağını itirdi.

Jan-Batistin ölümü həyatımda çox böyük rol oynadı: bu ölüm anamı ikinci dəfə köləyə çevirdi, mənəsə azadlıq verdi.

***

Yaxşı atalar olmur – qanun belədir; burada kişilərin günahı yoxdur - atalıq bağları çürüyüb. Uşaq yaratmaq - buyurun; uşaq sahibi olmaq – hansı günaha görə? Atam sağ olsaydı, öz ağırlığını üstümə salıb məni əzərdi. Xoşbəxtlikdən, onu körpəlikdə itirdim. Çiyinlərində öz Anxizlərini aparan Yeneylərin qələbəliyində təkbaşıma dolaşıram, ömürləri boyu gözə görünmədən doğma uşaqlarının boynunda oturan istehsalçılara nifrət eləyirəm. Atası olmağa macal tapmayan, indi oğlum ola biləcək cavan mərhumu hardasa keçmişdə qoydum. Bəxtim gətirdi, ya yox? Bilmirəm. Amma məşhur psixoanalitikin rəyinin altına imza atmağa ikiəlli hazıram: «fövqəl - mən» kompleksi mənə yaddır.

Ölmək-heç də hər şey deyil: vaxtında ölmək lazımdır. Atam gec ölsəydi, məndə günah hissi yaranardı. Öz yetimliyini dərk eləyən yetim özünü ittiham eləməyə meyllidir: onu görməkdən dərd-qəmə batmış ata-anası göydəki sığınacaqlarına gediblər. Mən kef çəkirdim: kədərli taleyim hərəkət doğurur, mənə sanbal gətirirdi, yetimliyi öz xeyirxahlarımın ayağına yazırdım. Atam öz günahı üzündən nəzakətlə əbədiyyətə qovuşdu – nənəm həmişə təkrar eləyirdi ki, o, borcunu yerinə yetirməkdən boyun qaçırdı. Haqlı olaraq, Şveytserlərin yaşarılığı ilə fəxr eləyən babam otuz yaşında ölümü qəbul eləmirdi: bu qədər şübhəli ölümün sayəsində o, ümumiyyətlə, bir vaxtlar kürəkəni olub-olmadığına şəkk gətirirdi, axırda da onu unutdu. Mənsə, hətta unutmalı olmadım: Jan-Bkantist gerçək dünyanı ingilissayağı tərk eləyib məni tanışlığa layiq bilmədi. Mən bu gün də onun barəsində nə qədər az bildiyimə təəccüblənirəm. Bununla belə, o, sevirdi, yaşamaq istəyirdi, öldüyünü anlayırdı, - başqa cür desək, insan idi. Amma ailəmin üzvlərindən kimsə məndə bu insan şəxsiyyətinə maraq oyatmadı. Uzun illər çarpayımın üstündən sadəlövh baxışlı, girdə daz başlı, iri bığlı balaca zabitin portreti asılmışdı; anam ikinci dəfə ərə gedəndə portret yox oldu. Sonralar mərhumun kitabları əlimə keçdi: Le Dantekin elmin perspektivi haqqında traktatı, Beberin «Mütləq idealizm vasitəsilə pozitivizmə doğru» əsəri. Bütün müasirləri kimi, Jan-Bantist əlinə keçəni oxuyurdu. Kitabların qıraqlarında qarışıq cızmaqaralar - qısa müddətdə yanan, mənim

dünyaya gəldiyim vaxtda canlı və həyacan doğuran alovun ölü izini tapdım. Kitabları satdım: bu mərhumla nə işim vardı? Onun barəsində eşitdiklərimdən, Dəmir Maska, yaxud şevalye d'Eone barəsində bildiklərim qədər bilirdim, məlum olanların da mənə dəxli yox idi; hətta o, məni sevsə də qucağına götürüb oğluna aydın, indi çürümüş gözlərlə baxırmışsa, kimsə yaddaşında sevginin bu bəhrəsiz səylərini saxlamayıb. Atamdan nə kölgə, nə baxış qaldı- hər ikimiz, o və mən bir müddət eyni torpağın üstündə gəzmişik, vəssalam. Məni ölmüş adamın oğlundan daha çox, möcüzənin övladı olduğum şüuru ilə tərbiyə elədilər. Bənzərsiz yüngülxasiyyətliliyim, yəqin, bununla izah olunur. Mən başçı deyiləm, başçı olmaq da istəmirəm. Əmr verməklə tabe olmaq – bu, mahiyyətcə eyni bir şeydi. Tam hakimiyyətli adam həmişə başqasının – qanuniləşdirilmiş müftəxorun, öz atasının adından əmr verən, ona sarınmış mücərrəd iradəni həyata keçirəndi. Mən anadan olandan elə özümü və ətrafdakıları güldürməmək üçün əmr vermirdim. Hakimiyyətsevərlik yarası, məni yeyib-bitirmir, təsadüfi deyil ki, – məni itaətə öyrətmədilər.

Tabe olmaq – amma kimə? Mənə gənc heyvərəni göstərib deyirlər, bu anamdır. Özüm daha çox onu anam saymağa meylliyəm. Mənə tamamilə aydındır ki, nəzarət altında, bütün ailənin tam tabeçiliyi altında yaşayan bu bakirə qız mənə qulluq eləməlidir. Mən Ann-Marini sevirəm, amma kimsə onu adam yerinə qoymursa, ona necə hörmət eləyim? Üç otağımız var: babamın kabineti, nənəmin yataq otağı və «uşaq otağı». «Uşaqlar» – anamla bizik; hər ikimiz həddi-buluğa çatmamışıq, hər ikimiz himayədəyik. Amma bütün imtiyazlar mənə məxsusdur. Mənim otağıma qız çarpayısı qoyublar. Qız tək yatır, onun niyyəti təmizdir: mən hələ gözümü açmamışam, amma o, artıq çimmək üçün vanna otağına cumur; başdan-ayağa geyimli qayıdır – məni necə doğa bilərdi. Məni öz dərdlərindən hali eləyir, mən dərdinə şərik halda qulaq asıram; bir müddət sonra onunla evlənib öz himayəmə götürəcəyəm. Sözüm qətidir: onu incitməyəcəyəm, ondan ötrü özümün gənclik təsirimi işə salacağam. Amma doğrudanmı onun sözünə baxacağam? Qəlbən xeyirxahlığıma görə dualarına rəhmim gəlir. Bununla belə, o heç vaxt məndən heç nə tələb eləmir. Elə bil, ortaya atdığı sözlərlə gələcək

əməllərimin mənzərəsini cızır, o hərəkətləri yerinə yetirməyə imkan verməyim üçün mənə tərifl ər yağdırır: «Biçarə oğlum ağıllı-kamallı oğlan olacaq, anasına burnuna dərman tökməyə icazə verəcək», - mən də uyuducu peyğəmbərliyin qarmağına keçirəm.

Bir də patriarx vardı: o, Allaha elə oxşayırdı ki, çox vaxt onu İlahi kimi qəbul eləyirdilər. Bir dəfə o, kilsəyə pəncərədən girdi-həmin dəqiqələrdə keşişlər yolsuzları göylərin cəzası ilə hədələyirdi. Qəfildən möminlər kafedranın qarşısında ucaboy saqqalı qoca gördülər – qoca onlara baxırdı; möminlər qaçıb dağılmışdılar. Bəzən babam iddia eləyirdi ki, onun qarşısında üz üstə döşəndilər. O, belə gəlişlərdən ləzzət alırdı. 1914-cü ilin sentybrında o, Arkaşon kinoteatrında özünü camaata göstərdi. Anamla mənim yerim eyvanda idi – qəfildən babamın səsi eşidildi: o, işığın yandırılmasını tələb eləyirdi. Onun ətrafında mələklər yığınına oxşayan tanımadığım cənablar qışqırırdılar: «Qələbə! Qələbə!» Allah səhnəyə çıxıb Marnada qələbə haqqında bəyannamə oxudu. Babam hələ qarasaqqallı olanda özünü Yeqov kimi göstərirdi, şübhələnirəm ki, o, Emilin ölümündə – əlbəttə, dolayısıyla -günahkardır. Bu qəzəbli Bibliya allahı öz oğullarının qanını içirdi. Amma mən dünyaya uzun ömrünün axırında gəldim. Onun saqqalı ağardı, tütündən saraldı, ata rolundan bezdi. Yeri gəlmişkən, oğlu olsaydım, şübhəsiz, özünü saxlaya bilməzdi, məni də, sadəcə, adəti üzrə – köləyə çevirərdi. Xoşbəxtliyimdən mən ölüyə məxsusuydum. Ölü adi bəhər – uşaq toxumu səpdi. Mən kimsənin torpağı deyildim – babam üzərimdə mülkiyyət hüququ olmadan məndən istifadə eləyə bilərdi. O, məni «gözlərimin işığı» çağırırdı, çünki qəbrə gözlərinə işıq gələn qoca obrazında getmək istəyirdi. O, məndə hər dəqiqə məhrum ola biləcək xüsusi görücülük mərhəməti, ali bəxşiş görməyi qət eləmişdi. Axı mənə hansı tələb irəli sürə bilərdi? Mənim mövcudluq faktımın özü onu vəcdlə doldururdu. Babam Ata Allahın saqqalı və Oğul Allahın qəlbinə malik sevgi Allahı roluna girmişdi. O, əllərini başıma qoyurdu, mən əmgəyimlə əlinin istisini duyurdum, mərhəmətdən titrəyən səslə məni öz övladı adlandırırdı, soyuq gözləri yaşla dolurdu. Tanışlar çaş-baş qalırdılar: «Bu küçük onun ağlını başından çıxarıb!» Babam mənə pərəstiş eləyirdi – bunu hamı görürdü. O, məni sevirdimi? Kütləyə bu qədər hesablanmış ehtirasda cəmiyyətin harda, saxtalığın harda olduğunu ayırmaq çətin

idi. Babamın başqa nəvələrinə xüsusi qızğın hisslər bildirdiyini nəsə xatırlamıram. Düzdür, onları nadir hallarda görürdü, onlar da babama ehtiyac duymurdular, mənsə tamamilə ondan asılıydım, – o, məndə öz genişürəkliliyinə pərəstiş eləyirdi.

Vicdanla desək, qoca vəcd məsələsində bir qədər ifrata varırdı. O, bir çoxları, Viktor Hüqonun özü kimi, XIX əsrin övladı idi, özünü Viktor Hüqo sayırdı. Məncə, əyyaş növbəti içkisinin intizarında olan kimi, həmişə növbəti teatr effektinin həsrətini çəkən bu yaraşıqlı, uzun saqqallı qoca iki ən yeni kəşfin: foto sənətinin və «baba olmaq sənətinin» qurbanı olmuşdu. Xoşbəxtliyindən və bədbəxtliyindən o, fotogenik idi; evimiz onun təsvirləri ilə dolu idi. O vaxtlar hələ təcili şəkillər çəkmirdilər, buna görə də babam pozalara, canlı şəkillərə uymuşdu. Hər hansı bəhanəylə qəfildən dayanırdı, effektlə quruyub daşa dönürdü; özü-özünə heykələ çevrildiyini bu qısa əbədiyyət anlarına pərəstiş eləyirdi. Canlı şəkillərə vurğunluğu üzündən o, yaddaşımda yalnız sehrli fənərin donmuş proyeksiyası kimi qalıb. Meşə talası, mən sınmış budağın üstündə oturmuşam, beş yaşım var. Şarl Şveytserin başında panama, əynində flaneldən qara zolaqlı krem rəngli kostyum, saatın zənciri ilə kəsilmiş ağ qabarıq naxışlı jilet var, qaytandan pensne sallanır; babam mənə doğru əyilib, qızıl üzüklü barmağını qaldırıb danışır. Ətraf qaranlıqdır, rütubətdir, yalnız onun saqqalı işıq saçır: babam çənəsinin altında öz haləsini gəzdirir. Onun nə barədə danışdığını bilmirəm. Elə ciddi-cəhdlə qulaq asmağa çalışırdım, bir sözünü də eşitmədim. Məncə, İmperiya dövrünün bu köhnə respublikaçısı mənə vətəndaş borclarım barədə öyüd-nəsihət verirdi, burjua tarixini izah eləyirdi: biri vardır, biri yoxdur, qədim vaxtlarda krallar, imsperatorlar vardı, onlar yaramaz adamlarıydılar, dünyaların bu yaxşı dünyasında hər şey yaxşılığa doğru gedir.

Axşamlar babamı yolda qarşılayıb onu dərhal uca boynundan və rəqs ustası cizgilərindən funikulyordan tökülən kütlənin içində tanıyırdı. O, bizi hələ uzaqdan görüb bir göz qırpımında gözəgörünməz fotoqrafın göstərişlərinə tabe olur, «mövqedə dayanırdı»: saqqalını külək yellədir, çiyinləri dik durur, dabanları bitişik , pəncələri ayrı, sinəsi qabarıq, ağuşu geniş açılıb. Bu işarə üzrə mən azacıq irəli əyilib donurdum – qaçmağa hazırlaşan qaçışçı, indicə aparatdan çıxacaq quş. Bir neçə an bu vəziyyətdə

dururduq – sakson çinisindəki gözəl qrup - sonra mən irəli atılırdım – çiçəklərlə, meyvələrlə və babasının xoşbəxtliyilə oğlan yalandan tövşüyə - tövşüyə burnunu onun dizlərinə söykəyirdi, o da məni irəli uzatdığı əllərində atıb tuta-tuta, «mənim varım-dövlətim!» pıçıldaya-pıçıldaya sinəsinə sıxırdı. Ötüb-keçənlərin böyük uğurla qarşıladıqları rəqsin ikinci fiquru belə idi. Biz, ümumiyyətlə, yüzlərlə cürbəcür səhnələrdən ibarət bitib-tükənməz tamaşalar düzəldirdik: burda mazaqlaşma da, bir dəqiqəlik dava-dalaş da, səmimi acıqlandırmalar da, mehriban qaqqıltılar da, sevgi incikliyi də, incə civilti də, ehtiras da vardı. Biz aradan qaldırmaqdan ləzzət almaq üçün sevgimizin yolunda maneələr yaradırdıq. Hərdənbir inadkarlığım tuturdu, amma, hətta mənim şıltaqlıqlarımda da nadir hissiyyatlılıq özünü göstərirdi: onun günahı babalar kimi, nəcib və sadəlövh şöhrətpərəstlik – kor-koranəlik, Hüqonun resepti üzrə mühakiməçi fərziyyə idi. Anamla nənəm məni çörəklə suya möhtac qoysaydılar, babam şirniyyat gətirərdi, amma bu qorxmuş qadınların ağlına da gəlməzdi. Beləliklə, mən gülməşəkər oğlanıydım; rolum elə xoşuma gəlirdi ki, ondan çıxmağa hazırlaşmırdım. Doğrudan da atamın tələsik yox olması məni çox zəifləmiş «Edip kompleksi» ilə mükafatlandırmışdı: heç bir «fövqəl - mən» və üstəlik, azacıq təcavüzkarlıq da olmaz. Anam tamam mənə məxsus idi, kimsə onun asanlıqla mənim əlimdən ala bilməzdi; mən zorakalığın, nifrətin nə olduğunu bilmirdim, kədərli qısqanclıq təcrübəsindən azad olunmuşdur. Şiş ucların bir dəfə də olsun, rast gəlmədiyim gerçəklik əvvəlcə mənim qarşımda gülümsər cismsizliyi ilə durdu. Kimə, yaxud nəyə qarşı qiyam eləməliydim? Kimsənin istəyi bir dəfə də olsun, mənə hərəkət qaydasını diqtə eləməyə çalışmamışdı.

Mən nəzakətlə ayaqqabımı geyindirmələrinə, burnuma damcı tökmələrinə, saçımı daramalarına, yuyundurmalarına, paltarımı geyindirib-soyundurmalarına, sevib, əzizləmələrinə icazə verirəm. Mənim sevimli əyləncəm - gülməşəkər oğlan rolunu oynamaqdı. Mən ağlamıram, demək olar, gülürəm, səs-küy salmıram; dörd yaşım olanda məni mürəbbəyə duz tökmək istəyən vaxt yaxaladılar, - məncə, pis niyyətdən yox, elmə sevgimdəndir. Necə olursa olsun, yaddaşım başqa bir şuluqluq saxlamayıb. Bazar günləri bizim xanımlar hərdənbir ibadətə məşhur orqan çalanın yaxşı musiqisinə qulaq

asmağa gedirlər. Nə o, nə o biri adətlərə əməl eləyirlər, amma möminlərin coşğunluğunu onların musiqi vəcdinə yozurlar: nə qədər ki, tokkata* səslənir, onlar Allaha inanırlar. Məndən ötrü bu ruhi uçuş dəqiqələrindən şirin heç nə yoxdu. Ətrafdakılar burunları ilə dimdikləyirlər: nəyə qabil olduğumu göstərmək vaxtıdı: dizlərimi oturacağa söykəyib heykələ dönürəm, Allah eləməsin ki, çeçələ barmağımı tərpədim; gözlərimi də qırpmadan yanaqlarımla göz yaşı axınacan düz irəli baxıram. Əlbəttə, mən ayaqlarıma dırmaşan qarışqalarla böyük mübarizə aparıram, amma qələbəyə inanıram, öz qüvvəmi elə dolğun duyuram ki, onların üzərində zəfərin şirinliyini dadmaq üçün qorxmadan özümdə ən günahkar arzuları oyadıram. Qəfildən yerimdə sıçrasam, «Tarrarabum!» bağırsam nə olar? Əgər sütuna dırmaşıb ətirli su qabına çiş eləsəm, nə olar? Bu dəhşətli qarabasmalar duadan sonra anamın tərifləri̇nə xüsusi dəyər verir. Bununla belə, mən özüm-özümə yalan danışıram – şöhrətimi artırmaq üçün özümü elə göstərirəm ki, güya məni təhlükə gözləyir.

Əslində heç bir tərifl̇ər məni başdan çıxarmağa qabil deyil: qalmaqaldan yaman qorxuram. Əgər ətrafdakıları heyrətə salmaq niyyətim varsa, bunu yalnız səxavətimlə eləyirəm. Bu qələbələri asanlıqla qazanmağım göstərir ki, məndə yaxşı qabiliyyət var. Öz iç səsimə qulaq asmağa bəndəm ki, üstünə tərif yağdırırlar. Əgər məndə axmaq arzular, fikirlər yaranırsa, əvvəlcədən gəlirlər; onlar qəlbimə girən kimi pisləşir, vərəmləyirlər – mən günah üçün naşükür zəminəm. Çəkməyə sevgimdən xeyirxaham, bundan ötrü dəridən-qabıqdan çıxmıram, özümü zorlamıram - mən yaradıram. Mən tamaşaçıları gərginlik içində saxlayıb öz rolunu cilalayan aktyorun şahanə sərbəstliyindən ləzzət alıram. Mənə pərəstiş eləyirlər, – deyəsən, pərəstişə layiqəm. Bu da tamamilə aydındır, axı dünya gözəl qurulub. Mənə deyirlər, yaraşıqlıyam, mən də buna inanıram. Müəyyən müddətdən bəri sağ gözümdə ləkə var, nəticədə çəpgöz olacağam, əyri görəcəyəm, amma bu hələ bilinmir. Tez-tez şəklimi çəkirlər, anam da onları rəngli karandaşlarla boyayır. Fotolardan biri qalır: mən o şəkildə sarışın, çəhrayı yanaqlı, qıvrımsaçam, yanaqlarım gonbuldur, baxışlarımda müəyyənləşdirilmiş dünya qaydalarına mehriban hörmət, şişkin dodaqlarımda gizli həyasızlıq var – mən öz

qiymətimi bilirəm.

Mənim yaxşı qabiliyyətim var, amma bu, azdır: mən peyğəmbər olmalıyam, axı həqiqət körpənin ağzından çıxır. Onlar hələ təbiətdən ayrılmayıblar, onlar küləyə, dənizə oxşayırlar, - qulaqları olan onların pıçıltılarında qəribə, yayğın açıqlamalar tuta bilər. Babam Anri Berqsonla Cenevrə gölündə üzməli olub. «Sevincdən başımı itirmişdim, - babam danışırdı, - parıldayan avarlara, güzgü kimi parıldayan suya baxa bilmirdim. Berqsonsa elə hey gözlərini döşəməyə dikib çamadanın üstündə oturmuşdu». Şarl bu yol müşahidələri əsasında nəticə çıxartdı ki, poetik görüm fəlsəfədən uzaqdır. Sonra o, mənə baxırdı: bağda əlinin altında bir parç pivə ilə yaylı çarpayıda yarıuzanıb mənim necə qaçıb oynadığıma baxırdı, rabitəsiz boşboğazlığımda müdriklik axtarırdı və tapırdı. Sonralar mən o düşkünlüyü ələ salırdım – indi bunu boynuma alıram: bu, ölümün xəbərdarlığı idi.

Şarl vəcdin köməyilə qorxuya üstün gəlməyə çalışırdı. O, özünü hər şeyin, – hətta bizim miskin sonumuzun gözəl olduğuna inandırmağa çalışa-çalışa məndə torpağın heyrətamiz varlığından gəlirdi. Hər yerdə - dağların zirvəsində, dalğalarda, ulduzlar arasında, mənim gənc həyatımın mənbələrində – o, tezliklə ağuşuna qayıdacağı təbiətlə təmasda olmağa, onu bütövlükdə bağrına basmaq, artıq ondan ötrü qazılmış qəbir yerinəcən hər şeyi tamam qəbul eləmək üçün təmasda olmağa can atırdı. Mənim ağlıma gerçəklik yox, onun öz ölümü danışırdı. Yalan deyil ki, körpəlik illərinin saf xoşbəxtliyi bəzən o dünyanın dadını verirdi: mən öz azadlığımla ölümə – çox vaxtında olan ölümə, öz vəziyyətimlə başqa, çoxdan gözlənən ölümə borcluydum.

Bununla belə, öncəduyumlar həmişə o dünyanın adından xəbər verirlər, uşaqlar həmişə ölümün güzgüsüdürlər. Bütün bunlardan başqa öz oğullarını hirsləndirmək babamın çox xoşuna gəlirdi. Onlar ömürləri boyu qorxunc atanın pəncəsi altındaydılar; ayaqlarının ucunda otağına girib onu uşaqcığazın qabağında dizi üstündə görürlər – burda hirsindən necə divara dırmaşmayasan! Atalarla oğulların mübarizəsində çox vaxt uşaqlarla qocalar birgə hərəkət eləyirlər: bu birilər danışırlar, o birilər deyilənləri yazırlar. Təbiət danışır, təcrübə izah eləyir – orta nəsil susa bilər. Əgər uşağınız

yoxdursa, it saxlayın. Ötən il it qəbirstanlığında bir başdaşından o biri başdaşına estafet kimi ötürülən mədhiyyəni oxuyanda babamın kəlamını xatırladım: itlər sevməyi bacarırlar, onlar adamlardan daha həssas, daha vəfalıdırlar; itlər onlara xeyri tanımaqda, yaxşıyla pisi ayırmaqda kömək eləyən mərifətə, nöqsansız həssaslığa malikdirlər. «Polonius, - təskinlik bilməyən ev sahibəsi qışqırırdı. – Sən məndən yaxşısan: sən mənim ölümümə tab gətirməzdin –mən yaşayıram». Amerikalı dostum yanımda idi. O, hiddət içində ayağı ilə bir gips iti itələyib qulağını sındırdı. Onu başa düşürəm: uşaqlarla heyvanları həddən artıq sevənlər, onları bəşəriyyətə ziyan vurmaqla sevirlər.

Beləliklə, mən çox şey vəd eləyən itəm. Mən danışıram. Mən uşaqsayaq boşboğazlıq eləyirəm – sözlərimi yadda saxlayırlar, özümə təkrar eləyirlər, mən həmin nümunələr üzrə yenilərini hazırlayırlar. Mən böyüklərsayaq da boşboğazlıq eləyirəm, sadəlövh görkəmlə «yaşımdan ağıllı» danışmağı bacarıram. Bu deyilənlər – əsl poemalardır; onların resepti sadədir: böyüklərdən bütöv ifadələri fikirləşmədən, düşünmədən necə gəldi götür, onları Allahın məsləhət bildiyi kimi, düz, mənasına varmadan təkrar elə. Bir sözlə, mən peyğəmbərlik eləyirəm, hər kəs də onları öz ağlına görə yozur. Qəlbimin dərinliklərində əsl xeyirxahlıq, gənc şüurumun saxlanclarındasa əsl gerçəklik doğulur. Mən böyüklərə arxalanıb özümdən vəcdə gəlirəm: bəzən sözlərimin, hərəkətlərimin gözəlliyinin nədə olduğu, hətta mənə çatmır, amma o gözəllik böyüklərin nəzərinə çarpır. Heç nəyi dəyişə bilməzsən! Mən onlara özümün əlim çatmayan incə zövq verməyə fədakarcasına hazıram. Mənim əyilib-büzülməyim böyükqəlblilik yönümündə donuna girir: yazıq yaşlılar uşaq olmadıqlarından əziyyət çəkirdilər; təsirlənib altruizm cəhdində uşaqlığa bürünüb yoxluqdan çıxdım, qoy onlara elə gəlsin, güya oğulları var. Anam, nənəm tez-tez elə eyni səhnəni – məni həyata qaytaran sözsüz mərhəmət aktını oynamağa həvəsləndirirdilər. Onlar Şarl Şveytserin qəribliklərinə, onun teatr effektlərinə sevgisinə dəstək verirlər, ona sürprizlər düzəldirlər. Məni bir kreslonun arxasında gizlədirlər, mən nəfəs almamağa çalışıram, qadınlar otaqdan çıxarırlar, yaxud özlərini elə göstərirlər, güya məni unudublar. Yorğun, qaşqabaqlı babam – mən dünyada yaşamasaydım, belə də olardı – içəri girir, mən də

qəfildən gizləndiyim yerdən çıxıb babama öz doğumumun mərhəmətini göstərirəm. O, məni görür, rola girir, işıqlanmış üzüylə əllərini göyə qaldırır: mən varam, artıq bir şey istəmir. Başqa sözlə, özümü bəxş eləyirəm, həmişə, hər yerdə bəxş eləyirəm, hamını bəxş eləyirəm. Qapını açmağa bəndəm – mənə də, babama da elə gəlir, xalqa zühur eləyirəm. Mişar daşlarından ev tikib, şəkər tozundan pirojna düzəldib var gücümlə bağırıram: qışqırığıma həmişə kimsə qaçıb gələcək, ah-uf eləyəcək. Bir xoşbəxt artdı – hamısı da mənim sayəmdə! Yemək, yuxu, havaya uyğun paltardəyişmə - həyatımın mərasimləri çox ciddi nəzərdə tutulmuş əsas əyləncələr, vəzifələr bunlardır. Mən adamların gözləri qabağında kral kimi yeyirəm; əgər iştahla yeyirəmsə, üstümə təbrik yağdırırlar. Hətta nənəm səslənir: «Gör nə ağıllıdır, acıb!».

Yorulmadan öz-özümə təkrar eləyirəm: mən bəxş eləyənəm, elə özüm də bəxşişəm. Atam sağ qalsaydı, öz hüquq və vəzifələrimi dərk eləyərdim. Amma o, öldü, mən də onu yada salmıram: haqqım yoxdur, çünki sevgi ilə mükafatlandırılmışam, vəzifəm yoxdur, çünki sevgidən bəxş eləyirəm. Mənim işim yalnız xoşa gəlməkdi; hər şey göz qabağındadır. Ailəmiz genişürəklilik meydanıdı: babam mənə həyat üçün vəsait verir, mən ona xoşbəxtlik verirəm, anam hər şeyin xətrinə özünü qurban verir. İndi yetkin düşüncələrə görə, yalnız təkcə onun özünü qurban verməsi də mənə saxta görünmür, amma o vaxt biz bunun üstündən sükutla keçməyə meyllidik. Necə olursa-olsun, həyatımız mərasimlər zənciridi, bütün vaxtımız qarşılıqlı hörmətlərin bildirilməsinə gedir. Mən yaşlılara hörmət eləyirəm, bir şərtlə ki, mənə səcdə eləyirlər; ən doğrucul, səmimi qız kimi mehribanam. Mən xoşniyyətliyəm, adamlara etibar eləyirəm; onların hamısı xeyirxahdırlar, ona görə ki, hamıdan razıdırlar. Cəmiyyət mənə xidmət və səlahiyyətlərin ciddi ierarxiyası kimi görünür. Pilləkanın yuxarı pilləsində olan nəyi varsa, hamısını aşağıda olana verir. Şəxsən mən qətiyyən ən yuxarı pilləyə iddia eləmirəm: mənə məlumdur ki, o pillə nizamı qoruyan sərt, xoşniyyət adamlara məxsusdur. Mən onların yaxınlığındakı adi yan atmada yerləşmişəm, həmin tərəfə şəfəq saçıram. Bir sözlə, mən dünyəvi hakimiyətdən uzaqda, nə yuxarıda, nə aşağıda – qıraqda durmağa çalışıram. Sitayiş eləyənin nəvəsi kimi, uşaqlıqdan irsi meyllər aşkara

çıxarıram, məndə Kilsə knyazlarının riyakarlığı var, məni cübbə geyinənlərin kefi çəkir. Balaca qardaşlarımla özümü bərabər aparıram; bu xilas xətrinə yalandır, mən onları xoşbəxt eləmək üçün yalan danışıram, onlarsa qarmağa keçməlidirlər, amma axıracan yox. Dayəyə, poçtalyona, balaca otaq itinə dözümlü, səbirli münasibət göstərirəm. Bizim nizama salınmış dünyamızda kasıblar var. Həm də hər cür heyrətamiz şeylər, siam əkizləri, dəmiryol qəzaları olur. Amma bu uyğunsuzluqda kimsə günahkar deyil. Namuslu kasıblar şübhələnmirlər ki, onların həyatı vəzifəsi bizim səxavətimizə qida verməkdir. Bunlar utancaq kasıbdırlar - onlar divara sıxılırlar. Mən onlara doğru atılıram, əllərinə xırda pul dürtürəm, başlıcasısa məftunedici təbəssüm-bərabərlik təbəssümü bəxş eləyirəm. Onların görkəmi xoşagəlməzdir, toxunmaqdan iyrənirəm, amma özümü məcbur eləyirəm - bu ustalıqdır. Üstəlik də zəruridir ki, məni sevsinlər, mənə sevgiləri onların həyatını bəzəyəcək. Bilirəm ki, onların güzəranı çatışmır, mənə də onlardan ötrü təmtəraq predmeti olmaq xoş gəlir. Bununla belə, nə qədər kasıb olsalar da, babamın payına düşən əzab-əziyyətlərdən xəbərləri yoxdur: uşaq vaxtı o, hava işıqlaşmamış qalxırdı, yarıqaranlıqda geyinirdi, qışda yuyunmaq üçün su dolu bardağın buzunu sındırmaq lazım gəlirdi. Xoşbəxtlikdən zamanə dəyişdi: babam tərəqqiyə inanır, mən də inanıram. Tərəqqi - mənə doğru aparan uzun sərt yoxuşdu.

O, cənnət həyatı idi. Səhərlər sevinc dolu heyrətlə, sevinə-sevinə oyanırdım ki, bəxtim yaman gətirib, dünyanın ən mehriban ailəsində, günəşin altındakı ən yaxşı ölkədə doğulmuşam. Narazılar məni heyrətləndirirlər: onlar nədən narazıydılar? Araqarışdırandırlar, vəssalam. Əsasən, doğma nənəm məndə çox böyük həyacan doğururdu: kədərlə qeyd etməliydim ki, o, məndən kifayət qədər vəcdə gəlmir. Luiza, doğrudan da, mənə barmaqarası baxırdı. O, açıq - aşkar məni saxtakarlıqda günahlandırırdı, buna görə ərini töhmətləndirməyə cəsarət eləmirdi, məni kloun, təlxək, hoqqabaz adlandırırdı, tələb eləyirdi ki, əzilib-büzülməyə son qoyum. Bundan hiddətlənirdim, xüsusilə ona görə ki, burda babamın üzərində də kinayə duyurdum. Nənəmin dili ilə hər şeyi inkar eləmək ruhu danışırdı. Mübahisəyə girişirdim, o, tələb eləyirdi ki, üzr istəyim; dəstək tapmağa əmin olub boyun qaçırırdım. Babam zəiflik

göstərmək imkanından faydalanırdı – o, arvadına qarşı mənim tərəfimi saxlayır, nənəm çaşqınlıq içində yataq otağına girib qapını açarla bağlayırdı. Qorxmuş anam nənəmin kinindən çəkinib pıçıltı ilə utana-utana babamı töhmətləndirirdi, o da çiyinlərini çəkib öz otağına gedirdi; bu zaman anam məni dilə tuturdu ki, nənəmdən üzr istəyim. Mən öz qüdrətimdən zövq alırdım: inadkarı sındıran mələk Mikayıl deyiləm, bəs nəyəm? Qalmaqalı yatırtmaq üçün etinasızcasına nənəmdən üzr istəyirdim. Bununla belə, əgər bu cür inciklikləri nəzərə almasaq, şübhəsiz, Luizaya pərəstiş eləyirdim - axı o, mənim nənəm idi. Məni onu Mami, ailəsinin başçısınısa, Elzas adıyla - Karl çağırmağa öyrətdilər. Karl və Mami – Romea və Cülyettadan, yaxud Filimon və Bavnidadan daha təmiz səslənirdi. Anam müəyyən niyyətlə bu dörd hecanın intim ittifaqı ilə iştirak eləyən şəxslərin tam qarşılıqlı razılığını bildirə-bildirə gündə yüz dəfə təkrar eləyirdi: «Karlimami bizi gözləyirlər», «Karlimami şad olacaqlar», «Karlimami…» Mən yalnız hərdənbir bu qarmağa ilişirdim, amma özümü elə göstərirdim – hər şeydən əvvəl özüm qarşımda – güya axıracan ilişirəm. Sözün parıltısı predmetin lap üstünə düşürdü: Karlimaminin köməyilə ailənin bütövlüyündən ləzzət ala, Luizanı Şarlın əməllərindən uzaq saxlaya bilirdim. Nənəmə – etibarsız, günaha meylli, hər dəqiqə geri çəkilməyə hazır olan məxluqa mələklərin əli, sözün qüdrəti kömək eləyirdi.

Dünyada həqiqi şər adamlar - prussaklar var, onlar Elzas-Lotaringiyanı bizdən qopartdılar, babamın otağındakı buxarının üstündəki qara mərmərdən altlığı olan iri saatdan başqa saatlar ona məhz alman şagirdləri qrupu tərəfindən bağışlanıb: maraqlıdır, onlar o saatları hardan oğurlayıblar? Mənə? Hansının ktablarını alırlar və şəkillər göstərirlər; mən iki damcı su kimi, elzaslı əmilərimə oxşayan bu çəhrayı badamı gonbullara azacıq da olsa, nifrət duymuram. 1871-ci ildə Fransa vətəndaşlığı seçən babam hərdənbir Hunsbax və Pfaffenhofenə, orada qalan qohumlarına baş çəkməyə gedir. Məni də aparırlar. Qatarda əgər alman nəzarətçi bizdən biletlərimizi göstərməyi tələb eləyirsə, kafedə əgər ofisiant bizə xidmət göstərməyə tələsmirsə Şarl Şveytser patriotik hiddətin qabarmasından qıpqırmızı olur. Hər iki qadın onun əllərindən yapışırlar: «Şarl! Ağlını başına yığ! Doğrudanmı, bizi ölkədən çıxarmalarını istəyirsən?»

Məni onun dizlərinə doğru itələyirlər, ona yalvarış dolu nəzərlərlə baxıram, o yumşalır. «Hə, yaxşı, uşağın xətrinə», başımı arıq, kələ-kötür barmaqları ilə sığallaya-sığallaya köksünü ötürür. Bu səhnələr məni işğalçıların əleyhinə yox, babamın əleyhinə qaldırır. Yeri gəlmişkən, Hunsbaxda Şarl hər fürsət düşəndə nişanlısının üstünə atılır: həftə ərzində bir neçə dəfə dəsmalı masanın üstünə tolazlayır, qapını çırpıb yemək otağından çıxır, nişanlısısa heç də alman qızı deyil. Nahardan sonra biz yalvara-yalvara, hönkürə-hökürə Şarlın ayağına yıxılırıq -başdaşına dönmüş üzlə qulaq asır. Burada nənəmlə necə razılaşmayasan: «Elzas Şarla ziyandır! Ora bu qədər tez-tez getməyin xeyri yoxdur». Özüm də mənə azacıq hörmət göstərməyən elzaslılardan vəcdə gəlmirəm, onları bizdən qopartdıqlarına görə, o qədər də kədərlənmirəm. Məsələn, aydın olur ki, mən Pfraffenhofen baqqalı cənab Blümenfeldin yanına həddən artıq tez-tez qaçıram, onu boş-boş şeylərlə narahat eləyirəm. Xalam Karolina bu barədə anama öz «fikrini» söyləyib, anam da mənə çatdırdı. Bu dəfə biz Luiza ilə həmrəyik: o, ərinin qohumlarının fikrinə dözə bilmir. Strasburqda dayandığımız mehmanxananın pəncərəsindən orkestrin aylı taqqıltısını eşidirəm, pəncərəyə uçuram – ordur! Prussiyanın bu uşaqsayağı musiqi altında necə addımladığına vəcdlə baxıb əl çalıram. Babam kresloda qımıldanmadı – o fısıldayır. Anam qulağıma pıçıldayır ki, pəncərədən aralanım. Mən azacıq dodaqlarımı şişirdib tabe oluram. Lənət şeytana, əlbəttə, almanları görməyə gözüm yoxdu, amma lazımi əqidə olmadan. Bununla belə, Şarl da özünə yalnız ən az şovinizm payı rəva görə bilər.

1911-ci ildə biz Medonu tərk eləyib Parisdə, Le Qoff küçəsindəki 1 saylı evdə yerləşdik. İstefaya çıxandan sonra babam ailəsini saxlamaq üçün kəlmələrə fransız dili öyrədilən Yeni dillər İnstitutu yaratmalı oldu. «Birbaşa metodla» öyrədirlər. Şagirdlərin əksəriyyəti almanlardır. Onlar yaxşı pul verirlər. Babam saymadan luidorları (Fransanın pul vahidi – tərc.) pencəyinin cibinə qoyurdu; gecələr yuxusuzluqdan əziyyət çəkən nənəm töycü götürmək üçün qızına dediyi kimi, «açıq-gizli» - gizlicə dəhlizə çıxır. Bir sözlə, düşmən bizə çörək pulu verir. Fransız-alman müharibəsi Elzası bizə qaytarardı, institutunun mövcudluğuna son qoyardı – Şarl sülhün qorunmasının tərəfindədi. Üstəlik

də, dünyada bizə qonaq gələnlər kimi, yaxşı almanlar var: qırmızısifət bığlı romançı qadın – Luiza qısqanc istehzayla onu Karlın Dulsineyası adlandırır – Ann-Marini qapıya sıxışdırıb öpməyə cəhd eləyən dazbaş doktor; Ann-Marinin utancaq şikayətinə babam ildırım kimi çaxır: «Məni ancaq hamı ilə dalaşdırmaq istəyirsiniz!». Çiyinlərini çəkib qərar verir: «Sənin gözlərinə görünüb qızım!», Ann-Mari də özünü daha günahkar hiss eləyir. Bütün bu qonaqlar başa düşürlər ki, mənim keyfiyyətlərimdən vəcdə gəlməlidirlər, itaətlə məni dürtmələyirlər, deyəsən, alman olmalarına baxmayaraq, xeyirxahlıq barədə tutqun təsəvvür onlara yad deyil. İnstitutun təsis edilməsi şərəfinə illik yubiley təntənələrində yüzdən artıq dəvətli, yüngül şərab var, anamla mademuazel Mute dördəlli Baxın əsərlərini çalırlar. Mən mavi muslin* paltarda, ulduzlardan başlıqda, çiyinlərimdə qanadlar qonaqlara səbət dolu naringi daşıyıram. «Əsl mələkdir!» - onlar səslənirlər. Belə çıxır, o qədər də pis adamlar deyillər. Bununla biz böyük əzabkeş Elzasın qısasını almaq planlarından imtina eləmədik: ailə çevrəsində Hunsbaxdan və Pfaffenhofendən olan qohumlarımız kimi, səsimizi qısıb almanları kinayə ilə məhv eləyirik; yüzüncü dəfədir ki, fransız dili inşasında «Verterin məzarı üzərində Şarlottanı dərd tutdu» yazan şagird qızı, yaxud naharda yemiş diliminə uzun-uzadı, inamsızlıqla baxan, sonrasa onu bütöv – çiyidləri, qabığıyla birgə yeyən gənc müəllimi ələ salırıq. Bu səhvlər məni rəhmdil ovqata kökləyir: almanlar alçaq varlıqlardır, amma xoşbəxtliklərindən bizimlə qonşuluqda yaşayırlar, onları maarifəndiririk.

Bığsız adamın öpüşü, o illərdə deyirdilər, duzsuz qida , yaxud mənim 1905-ci ildən 1914-cü ilədək həyatım sayaq, günahsız xeyirxah kimidir. Əgər insan şəxsiyyəti öz-özüylə mübarizədə müəyyənləşirsə, mən canıma – qanımacan qeyri-müəyyənlik idim. Əgər sevgi ilə nifrət mahiyyətcə bir medalın iki üzüdülərsə, mən kimsəni və heç nəyi sevmirdim. Məndə belə fikir vardı: xoşa gəlmək istəyənin nifrətlə işi yoxdur. Sevgiylə də işi yoxdur.

Belə çıxır ki, mən özünəvurğunam? Yox, hətta heç Narsis də deyiləm. Ətrafdakıları məftun eləməyə başım tamam qarışdığından özümü unuduram. Düzünü desəm, şəkər tozundan pirojna düzəltmək, cızmaqaralar çəkmək, təbii ehtiyaclarını

ödəmək o qədər də maraqlı deyil – əməllərim gözlərimdə yalnız heç olmasa, bir yaşlı adam onlardan vəcdə qədər qazanır. Xoşbəxtlikdən alqışlar yetərincədir.

Onlar mənim boşboğazlığıma, yoxsa Baxın fuqasına* qulaq asırlar – böyüklərin dodaqlarında qarınquluların və həmiştirakçıların elə həmin çoxmənalı təbəssümü var. Amma, deyəsən, mən mahiyyətimə görə, mədəni dəyərəm. Mədəniyyət mənim canıma-qanıma hopub, nohur axşamlar günəş hərarətini qaytaran kimi, mən də şüalandırma vasitəsilə onu ailəmə qaytarıram.

* * *

Mən həyatımı kitabların arasında başlamışam, görünür, onların arasında da başa vuracağam. Babamın kabineti kitabla dolu idi; onların tozunu ildə bir dəfə – oktyabrda, şəhərə qayıtmaq ərəfəsində silməyə icazə verilirdi. Hələ oxumağı öyrənməmiş mən bu müqəddəs daşların qarşısında həyacan duyurdum, onlar rəflərdə dik, yarı dik, bəzi yerlərdə bütöv kərpic yığını kimi, bəzi yerlərdə külçə sıraları təki bir-birindən xeyli aralı düzülmüşdür. Hiss eləyirdim ki, ailəmizin rifahı onlardan asılıdır. Onlar bir-birinə iki damcı su kimi oxşayırdılar, mən də bu kiçik müqəddəs yerdə, doğuluşumun şahidi olmuş, ölümümün də şahidi olacaq, mövcudluqları mənə keçmişdəki kimi, elə o cür xoşbəxt həyat vəd eləyən sanballı qədim abidələr arasında böyüyürdüm. Tozları ilə təmasda olmaq üçün gizlicə onlara toxunurdum, amma məhz nəyə görə gərək olduqlarını təsəvvür eləmirdim, hər gün mənası məndən yan keçən mərasimə oğrun-oğrun baxırdım; babam gündəlik məişətində o qədər bacarıqsız idi, əlcəyinin düyməsini anam bağlayırdı, amma bu mənəvi müxəlləfatla mehrab xidmətçisi kimi çevikliklə davranırdı. Onun necə fikirli görkəmlə masa arxasından qalxdığını, bir göz qırpımında üzbəüz divarın yanında olduğunu, qətiyyətlə, düşünmədən rəfdən cildlərin birini götürdüyünü, baş və şəhadət barmağının vərdişkar hərəkəti ilə onu vərəqlədiyini, təzədən kresloda oturduğunu, lazımi səhifəyə baxmaq üçün dəri cildini təzə botinka kimi, azacıq xışıldadıb bir dəfəyə kitabı açdığını yüz dəfələrlə müşahidə eləmişdim. Aradabir ilbiz çanağı kimi açılan, qarşımda öz içini göstərən bu hücrələrə baxmaq üçün

yaxına gəlirdim: solğun, kiflənmiş, azacıq kövrəlmiş, qara damarlarla örtülmüş vərəqlər mürəkkəb hopmuş göbələk qoxusu verirdilər.

Nənəmin otağında kitablar rəfdə yox, masanın üstündə dururdular; Luiza onları bir dəfəyə ikisindən çox olmayaraq, kitabxanadan götürürdü. Bu əhəmiyyətsiz şeylər mənə yeni il şirniyyatlarını xatırladırdı, çünki onların nazik şümal səhifələri bəzəkli kağızdan kəsilmiş kimi görünürdü. İşvəli, ağ, demək olar, təzə kitablar həyata daha yüngül sirlər doğururdu. Hər cümə günü nənəm paltosunu geyinib «Aparıb bunları qaytarım» sözləriylə çıxıb gedirdi. O qayıdıb rübəndli qara şlyapasını başından götürürdü, kitabları sumkasından çıxarırdı, mənsə çaşıb qalırdım: «Yenə həminkilərdir?» Nənəm kitabları diqqətlə açırdı, sonra birini seçib pəncərənin qabağındakı dərin yumşaq kresloda otururdu, eynəyini burnunun üstünə taxırdı, sonralar Cokondanın dodaqlarında gördüyüm incə, şirin təbəssümlə gülümsəyə-gülümsəyə xoşbəxt, yorğun ah çəkib gözlərini yumurdu. Ann-Mari səsini kəsirdi, mənə susmaq işarəsi verirdi, mənsə öz-özlüyümdə ibadət, ölüm, yuxu təsəvvür eləyirdim, müqəddəs sükuta qərq olurdum. Aradabir Luiza qısaca gülüb qızını çağırırdı, barmağını bir sətrin üzərində gəzdirirdi, hər iki qadın da anlayan nəzərlərlə bir-birinə baxırdı. Amma mənə, hər halda, nənəmin həddən artıq zərif kiabları xoş gəlmirdi; həmin kitablar yalançıydılar, heç babam da gizlətmirdi ki, onlar ikinci dərəcəli ilahilər, xüsusi qadın sitayişinin predmetləridir. Bazar günləri işi olmadığından, o, arvadının otağına girir, nə deyəcəyini bilmədən onun kreslosunun yanında dayanırdı. Bütün bu nəzərlər ona yönəlirdi, o da barmaqları ilə şüşəni taqqıldadıb, ağlına heç nə gətirməyib Luizaya sarı dönür, oxuduğu kitabı onun əlindən alırdı. «Şarl!» - o hiddətlənirdi, sonra qaldığım yeri tapa bilməyəcəyəm!» Amma babam qaşlarını qaldırıb artıq mütaliəyə dalırdı, qəfildən bükük barmağını kitaba vurub elan eləyirdi: «Heç nə başa düşmürəm». – «Axı ortasından oxuyanda necə başa düşə bilərsən?» - nənəm etirazını bildirirdi. Məsələ onunla bitirdi ki, babam romanı masanın üstünə tullayır, çiyinini çəkib gedirdi.

Babamla mübahisə eləməli olmurdum: axı o da onların dəstəsindən idi. Bunu bilirdim – o, mənə rəflərin birindəki qəhvəyi üzlü qalın kitabları göstərərdi. «Bütün bu

kitabları, balaca, baban yazıb». Bu yerdə necə fəxr eləməyəydim! Mən orqan ustasının, kilsə dərzisinin peşəsindən də az hörmətli peşəsi olmayan müqəddəs əşyaların hazırlanmasında bacarığı olan ustanın nəvəsiyəm. Mən babamı iş vaxtı görürdüm: «Deutsches Lesebuch» hər il yenidən nəşr olunurdu.Tətillərdə bütün ailə səbrsizliklə korrekturanı gözləyirdi, Şarl bayramsayağılığa dözmürdü, o, vaxtı keçirmək üçün kimsəyə rahatlıq vermirdi. Axır ki, poçtalyon qalın, yumşaq bağlamaları gətirirdi, ipi qayçıyla kəsirdilər, babam vərəqləri çevirirdi, onları yemək otağındakı masanın üstünə düzürdü, qırmızı karandaşla cızlamağa başlayırdı: hər bir səhv zamanı o, dişlərini arasından lənətlər yağdırırdı, amma artıq təkcə qulluqçu süfrə açmağa gələndən başqa qışqırıq salmırdı. Bütün ailə üzvləri məmnun idilər. Mən masanın üstündə durub qan-qırmızı qeydlərlə cızıq-cızıq edilmiş qara sətirlərə vəcdlə baxırdım. Şarl Şveytser mənə izah eləyirdi ki, onun qəvi düşməni var, bu da naşiridi. Babam heç vaxt hesabda güclü olmamışdı: qayğısızlığından bədxərc, inadkarlığından səxavətli babam yalnız ömrünün axırında qocalıq-impotensiyanın və ölüm qarşısında qorxunun nəticəsi olan xəsislik xəstəliyinə tutuldu. Amma o vaxt xəstəlik özünü ancaq qəribə əlamətlərlə göstərirdi: babama poçt göndərişi ilə müəllif qonoraı gələndə, o, əllərini göyə qaldırırdı ki, onu bıçaqsız kəsib-doğrayırlar, ya da nənəmin otağına girib tutqun halda deyirdi: «Naşirim məni qaz kimi yolur». Heyrətli nəzərlərim qabağında insanın insan tərəfindən istismarı bu cür açıldı. Əgər xoşbəxtlikdən məhdud xarakterli bu iyrənclik olmasaydı, aləm çox gözəl olardı: sahibkarlar - hər biri öz imkanlarına görə – öz əməkçilərinin hər birinə öz xidmətinə görə – verirdilər. Axı heç yeri idimi ki, qansoran naşirlər yazıq babamın qanını sora-sora ədaləti murdarlasınlar. Amma fədakarlığına görə mükafat almayan bu təmiz adama hörmətim artırdı: körpə yaşlarımdan pedaqoji fəaliyyətdə müqəddəsliyi, ədəbi fəaliyyətdəsə zahidliyi görmək üçün hazırlanmışdım.

Mən hələ oxumaq bilmirdim, amma o qədər snobizmə* yoluxmuşdum ki, öz kitablarımın olmasını isəyirdim. Babam öz dələduz naşirinin yanına yollandı, orada şair Moris Buşorun «Nağıllar»ını, – babamın dediyi kimi, dünyaya uşaq gözləri ilə baxan adamın uşaqlar üçün işlədiyi folklor sujetlərini əldə elədi. Mən ləngimədən, bütün

formaları ilə kitabların ərazisinə daxil olmaq istəyirdim. İki balaca cildi götürüb qoxulayırdım, əlləşdirirdim, nəzakət qaydalarında nəzərdə tutulmuş xışıltı ilə, «lazımi səhifəni» açırdım. Nahaq yerə: məndə kitablara sahib olmaq hissi yox idi. Onlarla oynamaq – kukla kimi, layla çalmaq, öpmək, çırtmalamaq cəhdim də uğurlu nəticələnmədi. Hönkürüb ağlamaqdan özümü güclə saxlaya-saxlaya axırda onları anamın dizinin üsünə qoydum. O, gözlərini tikişdən qaldırdı: «Sənə nə oxuyum, əzizim? Pərilər barədə?» Mən inamsızlıqla soruşdum: «Pərilər barədə? Bəyəm onlar oradadırlar?». Pərilər barədə nağılı lap çoxdan bilirdim: anam məni səhərlər yuyundura-yuyundura, odekolonla silmək, yaxud əlindən çıxıb ələzyuyanın altına düşmüş sabun parçasını götürmək üçün dəqiqəbaşı yarıda kəsə-kəsə tez-tez danışırdı, mənsə fikri dağınıq halda yaxşı bildiyim nağıla qulas asırdım. Bu zaman yalnız Ann-Marini, səhər oyanışlarının gənc rəfiqəsini görürdüm, yalnız onun səsini, - qulluqçunun çəkingən səsini eşidirdim, onun sözləri axıradək deməməsi, hər sözdə kəkələnməsi, qəfildən cəsarətlənməsi, ahəngdar şırıltıyla su tökə-tökə yenə cəsarətini itirməsi, ara verəndən sonra təzədən cəsarətlənməsi xoşuma gəlirdi. Nağılın özüsə elə bil fon idi, o fon həmin monoloqu möhkəmləndirirdi. An-Mari danışdığı müddətdə biz onunla təklikdə, adamların, allahların və ruhanilərin gözlərindən iraqda, iki meşə maralı idik, yanımızda da başqa marallar – pərilər vardı. Amma mən kiminsə sabun və odekalon qoxusu verən gündəlik həyatımızın bir hissəsini ora daxil eləmək üçün bütöv bir kitab yazdığına inana bilmirdim.

Ann-Mari məni qabağındakı uşaq masasının üstündə oturdurdu, özü söykənir, göz qapaqlarını yumur, mürgüləyirdi. Qəfildən də bu maska gips səsilə danışırdı. Mən özümü itirdim: danışan kimdir, nə barədə və kim danışır? Anam burada yoxdu, nə təbəssümü, nə anlayan baxışları vardır, mən daha ondan ötrü mövcud deyildim. Üstəlik, onun danışığını tanımırdım. Ondakı bu inamsızlıq hardandır? Bu zaman ağlıma gəldi: axı danışan kitabdır. Ondan məni qorxudan sözlər çıxırdı; bunlar formalı qırxayaqdırlar, onlar hecalara, hərflərə xırdalanırdılar, vurğuları uzadırdılar, ikili əvəzliklərlə cingildəyirdilər; pauza və nəfəslərlə kəsilən tamamilə naməlum nəğməli cingiltili sözlər

qətiyyən mənə fikir vermədən öz-özlərinə, öz cəhdləri ilə nüfuz eləirdilər; bəzən onlar mən bir şey anlamağa macal tapmazdan əvvəl yarımçıq qalırdılar, bəzən mənə artıq hər şey aydın idi, amma sözlər mənim xətrimə bircə vergüllərini də qurban vermədən əzəmətlə öz sonlarına doğru axmaqda davam eləyirdilər.

Şübhə yox idi, bu sözlər məndən ötrü nəzərdə tutulmamışdılar. Elə nağılın özü də bəzənmişdi – odunçu, onun arvadı, qızları, pəri, bütün bu adi, bizə oxşayan məxluqlar pyedstalın üzərinədə yığışırdılar: onların cır-cındırı bəlağətli sözlərlə təsvir olunurdu, sözlərsə ricətləri, hərəkətləri, təntənələrdəki hadisələri dəyişdirə-dəyişdirə hər şeyin üzərinə öz möhrünü vururdu. Qəfildən də suallar yağdı: babamın dərs vəsaitlərindən qazanc götürən naşiri öz oxucularının gənc zəkalarına qida vermək fürsətini heç vaxt əldən buraxmırdı. «Sən odunçunun yerində olsaydın, neylərdin? İki bacıdan hansı daha çox xoşuna gəlir? Niyə? Babetta haqlımı cəzalandırılıb?» Deyəsən, bu sualları uşağa verirlər.

Amma həmin sual mənəmi verilirdi – əmin deyildim, cavab verməyə qorxurdum. Axır ki, hər halda, cəsarətimi topladım, amma çəkingən səsim donub qaldı, mənə elə gəldi, mən – artıq mən deyiləm, Ann-Mari də, daha Ann-Mari deyil, bir kor görücüdür: mənə elə gəldi, güya mən bütün anaların oğlu, o da bütün oğulların anası olub. O, oxuyub qutaranda laqeyidcəsinə kitabı əlindən tələsik qapdım, «sağ ol» demədən qoltuğuma vurub apardım.

Get-gedə həmin dəqiqələri sevməyə başladım: nəsə məni mənim özümdən ayırıb çıqqıldayırdı, - Moris Buşor iri mağazalarda satıcıların öz alıcılarına göstərdikləri universal xəbərdarlıqla uşaqlara doğru meyllənirdi, bu, xoşuma gəlirdi. Nağıl - improvizələrdən standart məhsulları üstün tutmağa başladım: sözlərin ciddi ardıcıllığı ilə həvəsə düşdüm – hər yeni oxunuşda onlar dəyişmədən, dəyişməz formada təkrarlanırdılar – mən onları gözləyirdim. Ann-Marinin nağıllarında qəhrəmanların gözü kimi, bəxtəbəxt yaşayırdılar, indi onlar tale qazanmışdılar. Mən ibadətdə iştirak eləyirdim: adların, hadisələrin öz yerinə qayıtmasının şahidiydim.

Anama paxıllığım tutdu, bu rolu əlindən almağı qət elədim. «Çinlinin Çində

məcaraları» adlı kitabı əldə eləyib anbara apardım; orda qatlama çarpayının üstünə dırmaşıb xəyalımda canlandırırdım ki, güya oxuyuram: nəzərlərimi birini də buraxmadan sətirlərin üzərində gəzdirirdim, bütün hecaları ciddi-cəhdlə söyləyə-söyləyə özümə ucadan müəyyən bir nağılı danışırdım. Məni qəfil yaxaladılar, - bəlkə də, özüm elə qurmuşdum ki, yaxalasınlar, - ah-uf başlandı, qərara alındı ki, mənə savad öyrətmək vaxtıdır. Cəzb olmuş bütpərəst kimi səy göstərməyə başladım; səylə özüm-özümə fərdi dərslər verdim: Hektor Malonun əzbərdən bildiyim «Ailəsiz» romanı ilə qatlamanın üstünə çıxıb, yarısını danışa-danışa, yarısını qatlarını açа-açа əvvəldən-axıracan oxudum; son səhifəni çevirəndə oxumağı bacarırdım.

Xoşbəxtlikdən özümü itirdim: indi onlar balaca herbarilərdə qurudulmuş bütün bu səslər – babamın bircə baxışla canlandırdığı, onun eşitdiyi, mənimsə eşitmədiyim, səslər mənimdir! İndi mən də onları eşidirəm, mən də müqəddəs dillə ünsiyyətdə olacağam, hər şeyi biləcəyəm! Mənə kitab rəflərində eşələnməyə icazə verdilər, mən də insan müdrikliyinin qazanılmasına can atırdım! Bu, taleyimi həll elədi. Sonralar yüz dəfələrlə eşitməli oldum ki, antisemitlər yəhudilərə təbiətin dərsləri və lal dili onlara yad olduqlarına görə tənə vururlar; buna cavab verirdim: «Belə olan halda mən yəhudilərin özlərindən daha artıq yəhudiyəm». Öz keçmişimdə alabəzək xatirələr, kənd uşaqlığının sevinc dolu qayğısızlığını nahaq yerə axtarırdım. Mən yerdə eşələnmirdim, yuvaları dağıtmırdım, bitkilər yığmırdım, quşatanla quşlara daş atmırdım. Kitablar məndən ötrü quş yuvaları, ev heyvanları, at tövləsi və çöllərdir. Kitablar - güzgüdə əks olunmuş aləm idi; onlar güzgünün sonsuz cisminə, çoxcəhətliyinə, anlaşılmazlığına malikdilər. Mən cəsarətli addımlar atırdım: stulların, masaların üstümə çıxırdım, kitabların üstünə tökülməsinə, altında qalxıb ölməyimlə risq eləyirdim. Yuxarı rəfdəki kitablar uzun müddət əlim çatan hududlardan qıraqda qalırdı, digərlərini – onları götürməyə macal tapmırdım – əlimdən alırdılar; elləri də vardı, özləri məndən gizlənirdilər: həmin kitabları oxumağa başlayırdım, mənə elə gəlirdi, yerinə qoymuşam, amma həftələrlə tapa bilmirdim. Mənim iyrənc görüşlərim vardı: albomu açıram, rəngli şəkillər görürəm-qarşımda iyrənc həşaratlar qaynaşırlar. Xalçanın üstündə uzanıb Fontenel, Aristofan,

Rable üzrə bəhrəsiz səyahətlərə baş vururam; gəlmələr mənə cismani müqavimət göstərirdilər; onlara hər tərəfdən baxmaq, böyür-başında fırlanmaq, özünü güya gedən kimi göstərmək, onları çaşqın halda yaxalamaq üçün qəfildən qayıtmaq lazım gəlirdi – əksər hallarda heç cür sirlərini vermirdilər. Mən Aaperuzd idim, Magelland idim, Vasko de Qama idim, mən qəribə qəbilələr kəşf eləyirdim: İsgəndəriyyə şeriylə tərcümə olunmuş Terensinin komediyasında «xeatontimorumenos», müqayisəli ədəbiyyatşünaslıq üzrə əsərdə «idiosinkraziya» kimi möcüzəli qəbilələr kəşf elədim. Qəfildən səhifənin axırına yaxın bir yerində bir göz qırpımında bütöv abzasda qarışıqlıq yaradıb «Apokopa», «xiazm», paranqon, minlərlə digər sirli, əlçatmaz qottentotlar peyda olurdular. Bu tabe olmayan, anlaşılmaz sözlərin mənasını yalnız on-on beş ildən sonra öyrənməli oldum, amma o sözlər indi də məndən ötrü öz qeyri-şıffaflıqlarını saxlayıblar: bu, yaddaşımın iltihabıdır.

Kitabxana əsasən fransız və alman klassiklərindən ibarət idi. Orada həm də qrammatika dərslikləri, bir neçə məşhur roman, Mopassanın «Seçilmiş hekayələrin, babama şagirdlərinin yeni il hədiyyələri, rəssamlar – Rubens, Van Deyk, Dürer, Rembrandt barədə monoqrafiyalar vardı. Kasıb aləm idi. Amma Larussun böyük ensiklopedik lüğəti mənə hər şeyi əvəz eləyirdi. Mən yazı masasının arxasındakı sonuncudan əvvəlki rəfdəki cildlərin birini bəxtəbəxt götürürdüm; A-Bu, Bu-Do, Mele-Pre, yaxud Tro-Un (bu heca birləşmələri məndən ötrü insan şüurunun müəyyən sahəsini bildirən xüsusi adlara çevrilib: məsələn, burda flora və faunaları ilə, şəhəri ilə, böyük adamları və tarixi döyüşləri ilə Bu-Do rayonu, yaxud Mele-Pre raoynu vardı). Növbəti cildi çətinliklə babamın masasının üstünə qoyub açırdım, əsl quşların axtarışına başlayırdım, canlı çiçəklərin üstünə qonmuş əsl kəpənəkləri tuturdum. Bu cildlər arasında insanlar və heyvanlar yaşayırdılar, qravüralar onların cismi, mətn qəlbi, təkrarolunmaz mahiyyəti idi; evimin divarları arxasında yalnız prototipə az-çox yaxınlaşan, amma heç vaxt onun kamilliyinə yetişməyən solğun kölgələr dolaşırdılar: zoologiya bağındakı meymunlarda daha az meymunluq, Lüksemburq bağındakı adamlarda daha az insanlıq vardı. Mən şərait üzəndən platonik olduğumdan, bilikdən

predmetə doğru gedirdim, ideya mənə əşyanın özündən daha maddi görünürdü, çünki birinci mənim əlimə verilirdi, əşyanın özü kimi verilirdi. Aləm ilk dəfə mənə çeynənmiş, təsnifləşdirilmiş, başlıqlara ayrılmış, dərk olunmuş, amma bununla belə, təhlükəli kitablar vasitəsilə açıldı, mən kitab tərcübəmin qarmaqarışıqlığını real hadisələrin şəhvani axarı ilə qarışdırırdım. Onunla mübarizəyə üç onillik həsr elədiyim məndəki həmin idealizm bax, oradan peyda olub.

Gündəlik həyatda hər şey əlifba qədər sadə idi: biz səviyyəli adamlarla görüşürdük, onlar öz abırsız mühakimələrində sağlam prinsiplərə, gəzərki müdrikliyə söykənib ucadan, aydın danışırdılar, onlara yalnız artıq çoxdan alışdığım bir qədər daha zərif forma verib yazılı həqiqətlərlə kifayətlənirdilər. Onların hökmləri ilk sözdən özünün açıq-aşkar, ucuz şəksizliyilə məni inandırırdılar. Onlar öz əməllərini əsaslandırıb o qədər darıxdırıcı dəlil – sübuta da əl atırdılar ki, ədalətli olduqlarına şübhə eləməyə yer qalmırdı. Tanışlarımızın ruhu mübarizəsi özlərinin mərhəmətli danışıqlarında məni nəinki utandırırdı, hətta doğru yola çəkirdi: bütün bunlar əvvəlcədən həll edilmiş, həmişə eyni cür olan şişirdilmiş münaqişələrdir. Əgər böyüklər hər hansı bir əməldə günahkar oldularsa, onun yükü o qədər də açıq olmurdu: qızışırdılar, onları haqlı, amma, əlbəttə ki, bir qədər şişirdilmiş qəzəb kor eləyirdi, xoşbəxtlikdən vaxtında özlərini ələ alırdılar. Olmayanların günahı daha ciddi idi, onlar həmişə bağışlamağa hazır idilər: bizim evdə nəhs danışırdılar, bizdə bu və ya digər adamın çatışmazlıqlarını təəssüflə qeyd eləyirdilər. Mən qulaq asırdım, mən ağlayırdım, mən dərdlərinə şərik olurdum; bu söhbətlər məni sakitləşdirdi – gizli deyildi ki, həmin söhbətlər elə buna hesablanırdı: hər şeyin öz dərmanı var: mahiyyətcə hər şey dəyişməzdir, səthi qarmaqarışıqlıq bizi taleyimizin öldürücü adiliyindən qorumamalıdır.

Qonaqlar çıxıb gedirdilər, mən tək qalırdım, bu iyrənc qəbiristanlıqdan can qurtarıb, həyatı, huşsuzluğu kitablarda tapırdım. Onlardan birini açmağa bəndiydim ki, təzədən miqyası, dərinliyi ağlımı üstələyən həmin qeyri-insani, intəhasız fikirlə qarşılaşırdım, o fikir bir ideyadan o birinə elə sürətlə sıçrayırdı ki, mən çaşmış, sarsılmış halda səhifədə yüz dəfə geri çəkilir, ipi itirirdim. Gözlərim qarşısında babamın güman

ki, həqiqətdən uzaq sayacağı hadisələr baş verirdi, amma həmin hadisələr yazılanın şübhə doğurmayan həqiqiliyinə malik idilər. Personajlar qar kimi başıma yağırdılar, onlar bir-birini sevir, dalaşır, bir-birinin boğazını üzürdülər, sağ qalan dərddən vərəmləyirdi, elə özünün o dünyaya göndərdiyi dostunun, yaxud gözəl sevgilisinin ardınca qəbirə gedirdi. Mən neyləməliydim? Bəlkə, böyüklər kimi, məzəmmətləməli bəyənməli, bəraət qazandırmalıydım? Amma bu qəribə adamların, deyəsən, bizim əxlaq qaydalarımız barədə anlayışları yoxdur, niyyətlərisə, hətta əgər belə bir şey xatırladılırdısa, məndən ötrü sirr olaraq qalırdı. Brut öz oğlunu öldürür, Mateo Falkone də. Ola bilsin, bu məqbuldur. Amma bizim tanışlardan bəziləri nəyə görə bu cür tədbirə əl atırdılar. Bir dəfə Medonda atam Emil dayımla dalaşdı, mən də hər ikisinin bağda necə qışqırdıqlarını eşidirdim, amma babam, məncə, oğlunu öldürmək niyyətini bildirmişdi. Maraqlıdır, o, övlad qatillərinə necə münasibət bəsləyir? Özüm mühakimə yürütmürdüm: şəxsən məni, təhlükə hədələmirdi, çünki yetimiydim, bu təntənəli qan tökülməsi məni hətta əyləndirirdi. Amma onlar barədə hekayədə məmunluq duyurdum, bu da məni çaşdırırdı. Bax, məsələn, Horatsi – onun dəbilqəli, əynində siyrilmiş qılınc, yazıq Kamillanın arxasınca qaçan qravürünə tüpürməkdən özümü güclə saxladım. Karl hərdənbir mırıldanırdı: qohumlarından yüz dəfə varlı olsaydın – qardaş – bacıdan yaxınısa yoxdur…

Bu, məni utandırırdı: deməli, qismətimə bacımın olma xoşbəxtliyi düşsəydi, o, məndən ötrü Ann-Maridən yaxın olardı? Bəs Karlimami kim olacaqdı? Belə çıxır, o, mənim sevgilim olardı. Hələ dumanlı olan «sevgili» sözünə tez-tez Kornelin faciələrində rast gəlirdim. Sevgililər öpüşürdülər, bir-birinə eyni yataqda yatmağa and içirdilər (qəribə möcüzədir – bəs niyə mənimlə anam kimi, yanaşı duran yox?). Daha heç nə bilmirdim, amma anlayışın şəffaf qatı altında gözlərimə müəyyən mürgülü hisslər görünürdü. Necə olursa-olsun, bacım olsaydı, qan qarışdıran niyyətlərdən yaxa qurtara bilməzdim. Mənim böyük bacım – anam vardı, istəyirdim kiçik bacım olsun. İndi də – 1963-cü ildə – bütün qohumluq bağlarından məni yalnız bacıyla qardaş qohumluğu təsirləndirir.

Ən böyük yanlışlığım dəfələrlə qadınlar arasında həmin dünyaya gəlməmiş bacımı tapmağa can atmağımdır. Bununla belə, bu sətirləri yazanda içimdə Kamillanın qatilinə qarşı əvvəlki qəzəb, elə coşğun, qarşısıalınmaz qəzəb qaynayır ki, məndəki antimilitarizmin mənbələrindən birinin Horatsi cinayətində olub-olmadığı barədə düşünürəm: hərbçilər öz bacılarını öldürürdülər. Əlimdə ixtiyar olsaydı, ona, o nadana göstərərdim! Onu divara söykəyin! Peysərinə bir düzgün güllə vurun! Səhifəni çeviridim – çap işarələri mənə sübut eləyirdilər ki, haqlı deyiləm. Bacı qatilinə haqq qazandırmaq lazım gəlir. Elə bil, öküz qırmızı parça görən kimi, ayaqlarımı yerə döyə-döyə bir neçə dəqiqə nəfəsim kəsilirdi. Amma dərhal da öz hiddətimi boğmağa tələsirdim. Heç nəyi düzəldə bilməzsən – barışmaq lazım gəlirdi, mən göründüyü kimi, həddən artıq gəncdim, hər şeyi dəyişik anlamışdım; Horatsiyə haqq qazandırmaq zərurətindən güman ki, ağlım kəsmədiyi, yaxud səbirsizlikdən üstündən ördüyüm saysız-hesabsız İskəndəriyyə şeirlərində söz açılmışdı. Belə anlaşılmazlıq xoşuma gəlirdi, baş verənlərin tez-tez məndən yan keçməsi xoşuma gəlirdi: bu, məni adi vəziyyətimdən çıxarırdı. «Madam Bovari»nin son səhifələrini iyirmi dəfə təzədən oxudum, axırda bütöv abzasları əzbərlədim, amma bədbəxt dul kişinin hərəkəti mənə aydın olmadı: o, məktubu tapdı, amma bundan ötrü saqqal buraxmağın nə mənası var? O, qaşqabaqlı halda Rodalfa baxırdı, deyəsən, ona acığı tuturdu – amma nəyə görə? Bir də nəyə görə Rodolfa deyirdi: «Mənim sizə acığım tutur!» Həmdə niyə Rodolf belə hesab eləyirdi ki, o, «gülməlidir, hətta bir qədər də yaramazdır?». Sonra Şarl Bovari ölürdü. Nədən? Xəstəlikdənmi, dərddənmi? Üstəlik, bir halda ki, hər şey bitmişdi, həkim onu niyə yazırdı? Heç cür axıracan öhdəsindən gələ bilmədiyim bu inadkar müraciət xoşuma gəlirdi; özümü itirirdim, hərdən düşünürdüm, həyəcanlı zövq – anlamadan anlamaq – duyurdum: bu, mövcudluğun qatı idi. Ailə çevrəsində babamın haqqında çox həvəslə fikir yürütdüyü insan qəlbi həmişə – amma kitablardan kənarda – içiboş, şəffaf görünürdü. Ziddiyyətli adlar ovqatıma təsir göstərirdi, məndə səbəbini anlamadığım çaşqınlıq, qüssə doğururdu. «Şarbovari» deməyə bəndiydim, gözümə mövcud olmayan bir yerdə hasarın o tayında gəzişən, əynində cır-cındır olan uzunduraz saqqallı kişi

görünürdü – bu, dözülməz idi. Mənim əzablı zövqlərim iki bir-birinə əks olan qorxunun qatışığından qidalanırdı. Bir tərəfdən başımı itirib bu həqiqətdən uzaq aləmə cummağa, bir vaxtla Le Qoff küçəsinə, Karlimami və anamın yanına geri qayıtmağa yol tapmaq üçün ümidsiz halda Horatsi və Şarbovanin yanında dolaşmağa qorxurdum. Digər tərəfdən başa düşürdüm ki, kitab kəlmələrinin sırası böyük oxucular üçün mənim əldə eləyə bilmədiyim məna ilə doludur. Gözlərimlə güman elədiyimdən daha artıq çoxmənalı zəhərli sözləri seçirdim, o sözlər də beynimə həkk olunurdu. Sirli qüvvə mənimlə heç bir bağlılığı olmayan ağılsızların əhvalatını sözlə təsvir eləyib içimdə əzablı kədər, faciəvi həyat duyğusu doğururdu. Bu zəhərdən yoluxub ölməyəcəyəm ki? Feli mənimsəyib, obrazlara bürünüb yalnız məni eyni zamanda təhdid eləyən iki təhlükənin ziddiyyəti sayəsində salamat qaldım. Axşam düşəndə söz cəngəlliklərində itib, hər şaqqıltıdan diksinib, qapının cırıltısının kiminsə fəryadı sayıb, deyəsən, dili insanacan olan ibtidai mövcudluğunda kəşf eləyirdim. Anam otağa girib işığı yandırıb: «Axı gözlərini xarab eləyərsən ki, ağılsız!» səslənəndə çox qorxaq yüngüllüklə, çox ümidsizliklə ailə mövcudluğunun reallığına qayıdırdım. Sevinclə yerimdən atılırdım, qışqırmağa, qaçmağa, əzilib-büzülməyə başlayırdım. Amma, hətta öz uşaqlığıma qayıdıb baş sındırmaqda davam eləyirdim: «Kitablar nədən söz açır? Onları kim yazır? Niyə yazır?» Öz fikirlərimi babama çatdırdım, o götür-qoy eləyib qərara gəldi ki, məni maarifləndirmək vaxtı çatıb; işə elə girişdi ki, həmişəlik üstümə yarlıq vurdu.

Əvvəllər babam dəfələrlə bəzən məni irəli uzatdığı ayaqlarının üstünə qoyur, oxuyurdu: «Kəhər atım ardınca bir yığın alma qoydu», - mən də bu cür abırsızlığa qəhqəhə çəkib gülürdüm. İndi babam daha oxumurdu: o, məni dizlərinin üstündə oturdub gözlərimin içinə baxırdı. «Mən insanam, - o, natiq səsi ilə dillənirdi. – Mən insanam, insani heç bir şey mənə yad deyil». O, həddən artıq şişirdirdi: əgər Platon öz respublikasından şairləri qovurdusa, babam mühəndisləri, tacirləri, hətta zabitləri qovurdu. Onun fikrincə, fabriklər mənzərəyə xələl gətirirlər, sırf elmdə onu yalnız saflıq cəlb eləyirdi. Adətən iyulun ikinci yarısını keçirdiyimiz Qerinyidə dayım Jorj bir dəfə bizi poladtökmə zavoduna baxmağa dəvət elədi; isti idi, bizi kobud, pis geyinmiş

adamlar itələyirdilər; mən dəhşətli gurultudan kar olmuş halda qorxudan, darıxdığımdan ölürdüm; ərintini buraxanda babam nəzakət xətrinə fit çaldı, onun baxışlarısa ölgün qaldı. Amma avqustda Overnidə kəndləri dolaşırdı, bir qədim daş hörgüsünün qarşısında dayanıb, əl ağacının ucu ilə kərpicləri tappıldadıb vəcdlə danışırdı: «Bax, balaca, sənin qarşındakı Qall-Roma divarıdır». Babam, hətta kilsə memarlığını da dəyərləndirirdi, papaçılara bütün nifrətinə baxmayaraq, əgər qotik üslubda tikilmişdisə, kilsənin yanından içəri girməmiş ötüb-keçə bilmirdi; əgər Roma üslubundaydısa hər şey ovqatından asılı olurdu. O, indi demək olar, konsertlərə getmirdi, amma bir vaxtlar çox gedərdi; Bethoveni, onun coşğunluğunu, güclü orkestri sevirdi; Baxı sevirdi, amma o qədər ehtirasla yox. Bəzən royala yaxınlaşırdı, oturmadan qatlanmayan barmaqları ilə bir neçə akkord vururdu; nənəm təmkinli təbəssümlə dillənirdi: «Şarl bəstələyir». Oğulları, xüsusilə Jorj – çox yaxşı çalırdılar; onların Bethovendən zəhlələri gedirdi, kamera musiqisini hər şeydən artıq dəyərləndirirdilər; amma bu zövq ayrılığı babamı narahat eləmirdi, o, mehribancasına deyirdi: «Bütün Şveytserlər – anadangəlmə musiqiçidilər. Mən bir həftəlik olanda böyüklərə elə gəlib guya məni qaşıqların cingiltisi sevindirib, babam deyib ki, yaxşı eşitmə qabiliyyətim var.»

Vitrajlar, kontrforslar, oyma portallar, yazılar, ağac və daş xaçlar, şeirli meditasiyalar və poetik ahənglər – insan ruhunun bütün bu təzahürləri bizi birbaşa ilahi olana aparırdı. Üstəlik, onlara təbiət gözəlliyini əlavə eləmək lazım gəlirdi. Eyni bir ilham İlahinin yaratdıqlarını, insanın əlindən çıxan böyük əsərləri həyata gətirirdi; eyni bir göyqurşağı şəlalələrinin köpüyündə bərq vurur, Floberin sətirləri arasında axır, Rembrandtın işıq-kölgələrində cilvələnirdi – onun adı Ruhdur. Ruh Allaha insanlar barədə danışırdı, insanlara Allahın varlığından şəhadət gətirirdi. Babam gözəllikdə həqiqətin gerçək təcəssümünü, ən nəcib kəşflərin mənbəyini görürdü. Müəyyən istisna hallarda – dağlarda tufan olanda, Viktor Hüqoya ilham gələndə həqiqətin, gözəlliyin və xeyirin birləşib bütövləşdiyi ali nöqtəyə çatmaq mümkün olurdu.

Mən öz dinimi tapdım: kitab mənə dünyada hər şeydən vacib görünməyə başladı. İndən belə, kitab rəflərində məbəd görürdüm. Səcdəgah xidmətçisinin nəvəsi kimi, mən

dünyanın damında, altıncı qatda, müqəddəs ağacın ən yüksək budağında yaşayırdım: onun budağı liftin şaxtası idi. Otaqları dolaşdırdım, eyvana çıxırdım, ötüb-keçənlərə yuxarıdan – aşağı baxırdım, eyvanın barmaqlıqları arxasından Lüsette Moroya, yaşıdım və qonşum – o, qızılı hörükləri ilə gənc qadın yaraşığı ilə mənim özümə oxşayırdı – başımla salam verirdim, sonra öz hücrəmə, yaxud məbədimə qayıdırdım, düzünü desəm, «mən»im, ümumiyyətlə, onu tərk eləmirdi. Anam məni Lüeksemburq bağına aparanda – bu da hər gün baş verirdi, - bu alçaq məkanlar yalnız boş qabığa baxırdılar: qalib «mən»im öz yuvasını qurmurdu. Güman eləyirəm ki, o, indi də oradadı. Hər bir insanın özünün təbii koordinatları var: hündürlük səviyyəsi nə cazibəylə, nə keyfiyyətlərlə müəyyənləşdirilir – hər şeyi uşaqlıq həll eləyir. Mənim hündürlüyüm – Paris evinin damlar görünən altıncı mərtəbəsidir. Dəfələrlə boğulurdum, çökəkliklər məni sıxırdı, mənə elə gəlirdi, Mars planetindəyəm, ayaqlarımı güclə sürüyürəm, məni ağırlıq qüvvəsi incidirdi. Təpəciyin üstünə qalxmağa bəndiydim ki, kef çəkirdim: öz rəmzi altıncı mərtəbəmə qalxırdım, zərif ədəbiyyatın kəskin havasıyla nəfəs alırdım, kainat qat-qat ayaqlarım altında yerləşirdi, hər bir predmet də yazıq-yazıq öz adını istəyirdi – bu adı vermək eyni zamanda həm də onu yaratmaq, ona sahib olmaq demək idi. Bu əsaslı yalnışlığa düşməsəydim, ömrümdə yazıçı olmazdım.

* * *

Bu gün 1963-cü il aprelin 22-dir, yeni evin onuncu mərtəbəsində bu əlyazmaya düzəlişlər eləyirəm; açıq pəncərədən qəbiristanlıq, Paris, Sen-Klunun göy təpələri görünür. Mənə elə gəlirdi, islaholunmazam. Amma hər şey dəyişib. Əgər uşaqlıqda bu yüksək məqam xəstəliyinə tutulsaydım, göyərçin damlarına qürurluluğumun, şöhrətpərəstliyimi, balaca boyuma görə qisas almaq istəyimin bəhrəsi kimi baxmaq olardı. Amma hər şey başqa cürdür: mənim müqəddəs ağaca dırmaşmağıma ehtiyac yox idi – artıq o ağacda oturmuşdum, düşmək istəmirdim. Mən adamların fövqünə ucalmağı ağlıma da gətirmirdim; mən hava məkanında əşyalar aləminin ötəri oxşarlıqları arasında qanad çalmaq istəyirdim. Sonrakı illər nəinki havada uçmağa can atırdım, əksinə, hər

cür vasitələrlə dibə enməyə çalışırdım – qurğuşun ayaqqabı altlıqları lazım gəlirdi. Bəzən qumsal torpaqda aid verməli olduğum dəniz dərinliklərinin sakinlərinə toxunurdum. Amma çox vaxt əbəs səy göstərirdim: dəfolunmaz yüngüllük məni üzdə saxlayırdı. Axırda hündürlükölçənim xarab oldu, indi də mən qardaşımıza lazım olduğu kimi, bəzən aerostaükt, bəzən batisfer, bəzən eyni zamanda bunların hər ikisiyəm.

Babam sözarası mənə yazıçılar barədə danışmalı oldu. O, bunun öhdəsindən məharətlə, qızışmadan, böyük adamların adlarını sadalayıb gəldi. Özümlə tək qalanda Hesioddan Hüqoyacan bütün müqəddəslərin adlarını əzbərlədim: onlar əzabkeşlər, Peyğəmbərlərdir. Şarl Şveytserin dediyinə görə, o, yazıçılara səcdə eləyirdi. Amma düzünü desək, babamı bir qədər utandırırdılar: onların nəzakətsiz mövcudluğu insanın yaratdığını bilavasitə Müqəddəs Ruhun ayağına yazmasına mane olurdu. Elə buna görə də, Şarl qəlbinin dərinliklərində naməlum müəlliflərə ucaltdıqları kilsələrin kölgəsində təvazökarcasına duran sənətkarlara, yaxud xalq mahnılarını çoxüzlü yaradıcısına üstünlük verirdi. O, şəxsiyyəti müəyyən olunmayan Şekspirə yaxşı münasibət bəsləyirdi. Elə həmin səbəbdən Homerə də, eyni zamanda varlığı təkzibolunmaz faktlarla sübut olunmamış müəlliflərdən bəzilərinə də. Amma babam dünyəvi mövcudluğunun izlərini silmək istəməyənlər, yaxud bunu bacarmayanları yalnız o halda bağışlayırdı ki, artıq qəbirə gömülmüş olsunlar. Amma öz müasirlərindən yalnız Anatol Frans və onu əyləndirən Kurtlelini istisna eləyib ağına-bozuna baxmadan hamısına qarşı ittiham irəli sürürdü.

Şarl Şveytser ahıllığının, savadlılığının, yaraşıqlılığının, xeyirxahlığının əvəzi olan ümumi hörmət əlamətini özündən razı halda qəbul eləyirdi. Bu lüteran tamamilə Bibliya ruhunda əbədi Allahın onun evinə xeyir-dua verdiyini təxəyyülündə canlandıra bilirdi. Masa arxasında o, qəfildən quş uçuşundan öz həyatına nəzər salmaq üçün fikrə dalıb deyirdi: «Balalarım, özünə heç bir şeyi irad tuta bilməyən adam xoşbəxtdir». Onun qızğınlığı, əzəməti, onun qürurluluğu, yüksək zövqü öz dinindən, öz əsərindən, öz mühitindən, universitetdən miras aldığı ağıl çəkingənliyini pərdələyirdi. Elə buna görə də, onu gizlicə kitabxanasının kitablarını qəlbinin dərinliklərində abırsızlıq saydığı

qanunlaşdırılmış bütləri, avaralar, dələduzlar cəlb edirdi. Bu, məni aldadırdı. Onun saxta həvəsinə sızan ciddiyətini hakim sərtliyi kimi elədim; babamın ruhani rütbəsi onu yazıçıların fövqünə qoyurdu. «Neçə olursa-olsun, – ruhani mənə təlqin eləyirdi, - istedad borcdan başqa bir şey deyil, ona yalnız böyük əzablarla, dərdə dinməzcə, mətanətlə dözüb nail olmaq olar; axırda səslər eşitməyə, diqtə ilə yazmağa başlayırsan». Beləliklə, birinci rus inqilabıyla birinci dünya müharibəsi arasında, Mallarmönün ölümündən on beş il sonra, Daniel de Fontanın özü üçün Andre Jidin «Əbədi qida»sının kəşf elədiyi dövrdə, XIX əsrin övladı öz nəvəsinə Lui-Filipp zamanında işə yarayan baxışları təlqin eləyirdi. Deyirlər, kəndli savadsızlığı elə bununla izah olunur: atalar çöl işlərinə gedirlər, oğullarınısa qoca valideynlərinin yanında qoyurlar. Mən səksən yaşındakı adamla yolun başlağıcına çıxmışdım. Buna təəssüfmü eləyim? Bilmirəm: cəmiyyətimiz daim hərəkətdədir, bəzən də geri qalıb irəli çıxırsan.

Necə olursa-olsun, mənə sümük atmışdılar, mən də onu elə səylə gəmirirdim ki, sümük lap zərif oldu. Mən aləmə onun arasından baxırdım. Babam əlaltdan məndə yazıçılara – bu yaramaz vasitəçilərə nifrət yaratmağı arzulayırdı. O, əks nəticə qazandı: mən istedadla xidməti qarışdırmağa başladım. Bu gözəl uşaqlar mənə oxşayırdılar: mən körpə olanda, öz əməllərimə səbrlə tab gətirirdim, bilirdim ki, məni mükafatlar, dəfnə çələngi gözləyir – uşaqlıq – elə buna görə uşaqlıqdı. Şarl Şveytser məni başqa uşaqlarla tanış eləyirdi, onlara himayə göstərirdilər, sınağa çəkirdilər, mükafatlandırırdılar, amma onlar ömrü boyu öz körpəkliklərini qoruyub saxlaya bilirdilər. Mən qardaşlardan, bacılardan, yoldaşlardan məhrum olub yazıçılarda ilk dostlarımı tapırdım. Onlar öz romanlarının qəhrəmanı kimi sevirdilər, dəhşətlə əzab çəkirdilər, amma hər şey yaxşı qurtarırdı; mən şəfqətlə, sevinə-sevinə yaddaşımda onların macəralarını çək-çevir eləyirdim – çətinliyə düşəndə necə sevindiklərini, bu zaman necə: «Bəxtim gətirdi! Yaxşı şeir alınacaq!» fikirlərini xəyalımda canlandırırdım.

Mənim nəzərimdə onlar ölmürdülər, ya da hər halda, tamam ölmürdülər – onlar kitabda təcəssüm eləyirdilər. Kornel qırmızı sifət, kələ-kötür gonbul idi, onun dəri arxasından yapışqan qoxusu gəlirdi. Mən onu buradan-ora aparanda dedikləri az başa

düşülən bu yöndəmsiz tip iti küncləriləә dizimi yaralayırdı. Amma onu götürməyə bənddim ki, mənə az tutqun, zərif qravürlərini etiraf kimi uzadırdılar. Flober gödəkboy, kətan geyimli, qoxusuz, çil-çil idi.Viktor Hüqo özünün saysız-hesabsız əsərləri ilə bütün rəflərdə eyni vaxtda məskən salmışdı. Cismlə məsələ beləydi. Ruha gəldikdəsə, onlar yaxınlıqda fırlanırdılar, səhifələr pəncərələr, kiminsə sifəti bayırdan mənə baxa-baxa şüşəyə yapışırdı; özümü elə göstərirdim ki, guya heç nə sezmirəm, mərhum Şatobrianın diqqətli nəzərləri altında sətirləri gözlərimlə yeyə-yeyə oxumaqda davam eləyirdim. Bununla belə, bu həyacan tutmaları uzun müddət çəkmirdi, qalan vaxtlarda oyun yoldaşlarımı sevirdim. Mən onları hər şeydən uzaq tuturdum, V Karlın, Tisianın əlindən saldığı fırcanı götürdüyünü mənə danışanda qətiyyən təəccülənmədim: nolsun ki, krallar elə bundan ötrü yaşayırdılar da! Amma bununla yanaşı, yazıçılara hörmət eləmək ağlıma gəlmirdi: doğrudan da, böyük olduqlarına görə onları tərifləmək lazımdır? Sadəcə öz borclarını yerinə yetirirdilər. Mən qalanlarını yararsız olduqlarına görə mühakimə eləyirdim. Qısaca söyləsəm, hər şeyi eninə-uzununa başa düşüb, istisna qaydaya çevirdim: mənim təsəvvürümdə insan nəsli sadiq heyvanlar sürüsüylə əhatə olunan seçilmişlərin dar dairəsi idi. Amma başlıcası – babam yazıçıları elə yamanlayırdı ki, onları heç cür ciddi qəbul eləyə bilmirdim.

Hüqo öləndən bəri yeni kitablar oxuyurdu; boş vaxtlarında köhnə kitabları təzədən mütaliə eləyirdi. Amma onun göndərməli olduğu kitab tərcümə idi. «Deutsches Lesebuch» müəllifi qəlbinin gizlinlərində bütün dünya ədəbiyyatının əyani vəsait sayırdı. O heç istəmədən yazıçıları öz əhəmiyyətlərinə görə sıraya düzürdü, amma bu nümayişkaranə ierarxiyanın arxasında öz sırf utilitar rəğbətini gizlətmək çətinliklə nəsib olurdu: Mopassan alman tələbələrə fransızcadan tərcümə üçün ən yaxşı mətnlər verirdi; Höte – Qotfrid Kollerin özündən bir baş yüksək idi – fransızcaya tərcümə sahəsində əvəzedilməz idi. Humanist alim olan babam, romanlara nifrət eləyirdi, amma dil müəllimi qismində onları leksik material kimi yüksək qiymətləndirirdi. Axırda o, ümumiyyətlə, yalnız seçilmiş parçaları qəbul eləməyə başladı, bir neçə il sonra mənim yanımda «Madam Bovari»dən Mironnonun öz «Müntəxəbat»ına daxil elədiyi

frraqmentlə təsirləndi, bununla yanaşı, Flober artıq iyirmi il idi, babamın ona diqqət göstərməsini gözləyirdi. Hiss eləyirdim ki, Şarl ölülərdən qazanır, bu da onunla münasibətlərimi bir qədər çətinləşdirirdi. Babam səcdə görüntüsü altında onları istədiyi kimi, fürsət düşəndə guya şagirdlərinin bir dildən başqa dilə çevirmələri üçün hissələrə ayırmağa utanmadan fırladırdı. Qələm qardaşlarımın eyni zamanda əzəmətini və yararsızlığını belə kəşf elədim. Merime bədbəxtliyindən tədris proqramına uyğun gəlirdi – nəticədə ikili həyat yaşayırdı. Dördüncü rəfdə yuva qurmuş günahsız göyərçin «Kalombia» əbəs yerə öz şümal qanadlarını uzadırdı – ona inadla fikir vermirdilər, kimsənin nəzəri bir dəfə də olsun, onun məsumiyyətini korlamadı. Amma aşağı rəfdə elə həmin bakirə qız qəhvəyi cildli balaca iyli-qoxulu, cırıq-cırıq olmuş kitabcığaza sığınmışdı; elə həmin sujet, elə həmin dildir, ancaq bu nəşrdə alman dilində qeydlər və izahlı lüğət verilmişdi. Bütün bunlardan sonra aşkar elədim ki, - Elzas-Lotaringiyanın qəsb olunduğundan bəri tayı-bərabəyi olmayan qalmaqal kitab Berlində kəşf edilib. Babam həmin kitabı həftədə iki dəfə portfelinə qoyurdu, kitab tamam ləkə içindəydi, küllə ütülmüşdü, qırmızı qələmlə cızıq-cızıq edilmişdi, ondan zəhləm gedirdi: bu alçaldılmış Merime idi. Elə səhifələrinə baxanda darıxmaqdan ölürdüm; hecalara ayrılmış kimi görünürdü, elə bil, o sözləri babam şagirdlərinə diqtə eləyirdi. Yox, Almaniyada çap olunmuş, almanlar üçün nəzərdə tutulmuş həmin tanış və tanınmaz işarələr olsa-olsa, fransız sözü altında saxta kəlmələrdir. Üstəlik, burdan casusluq iyi gəlirdi; yəqin onları tərpətməyə bəndiydin ki, qall geyimi altında qaba alman geyimi aşkara çıxsın. Axırda iki «Kalombı»nın – biri əl dəyməmiş, həqiqi, digəri didaktik , saxta – olduğundan şübhələnməyə başladım.

Yazıçı dostlarımın başına gələnlər məndə belə bir fikir oyatdı ki, onlarla bərabərəm. Düzdür, məndə nə onların istedadı, nə xidməti vardı, hələ ağlıma əlimə qələm götürmək də gəlmirdi, amma ruhaninin nəvəsi kimi, anadangəlmə onlardan uzaqdaydım. Taleyim həll olunmuşdu. Yox, məni əzabkeş çələngi deyil – onda həmişə qalmaqallı çaları var – rütbəyə ucalma gözləyir; mən Şarl Şveytser kimi, mədəniyyət gözətçisi olacağam. Üstəlik də, bütün həmin yazıçılardan fərqli olaraq, mən sağ-

salamatam, enerjiylə doluyam; ölüləri doğramağı bacarmadan artıq o yazıçılara öz şıltaqlıqlarımı sırımağı bacarıram – onları əlimə götürürəm, otaqda ora-bura aparıram, parketin üstünə qoyuram, açıb-örtürəm, yoxluqdan qaçırıram, təzədən ora yollayıram; bu balaca adamcığazlar məndən ötrü kuklaları əvəz eləyirlər, onların ölməzlik adlanan miskin, iflic olmuş qalıqları məndə mərhəmət oyadır.

Babam bu özbaşnalığı mükafatlandırırdı: bütün uşaqlarda Allah nuru var, onlar eynilə şairlər kimidirlər, axı şairlər - elə həmin uşaqlardılar. Mən Kurtelinlə sayıqlayırdım, hətta mətbəxdə də ona «Teodora kibrit axtarır»ı oxumaq üçün qulluqçunun arxasınca dabanbasmaraq gəzirdim. Əyləncəmi maraqlı hesab elədilər, çoxlu ciddi-cəhdlə şişirtdilər, ehtirasımı hər tərəfə yaydılar. Bir dəfə babam sanki elə-belə dilləndi: «Kurtelin yəqin yaxşı oğlandı. Bir halda ki, onu bu qədər sevirsən, niyə ona məktub yazmayasan?». Yazdım. Şarl Şveytser qələmimi yönəldirdi, məktubda orfoqrafik səhvləri saxlamağı da məqbul saydı. Bir neçə il əvvəl məktub qəzetdə çap olundu, onu qəzəblə oxudum. Məktuba «Sizin gələcək dostunuz» imzası qoyulmuşdu. Bu da mənə tamamilə təbii gəlirdi: Volter və Kornelə yaxınıydım, nəyə görə canlı yazıçı qəfildən dostluğumuza qarşı çıxmaq barədə fikirləşəydi?. Kurtelin boyun qaçırdı, üzdə hərəkət elədi: əgər nəvəyə cavab versəydi, baba ilə ünsiyyətə girməli olacaqdı. Amma həmin vaxt onun sükutunu sərt mühakimə elədik? Mənə elə gəlir, çox məşğuldur, - Şarl dedi. – Amma necə olursa-olsun, lənətə gəlsin, uşağı cavabsız qoymaq olmaz».

İndi də bu günahcığaz – hörmətsizlik – arxamca gəzir. Məşhur mərhumlarla «sən» deyə danışıram, Bodler, Flober barədə çəkinmədən fikir söyləyirəm, bunu mənə günah sayanda belə cavab vermək istəyirəm: «Burnunuzu başqasının işinə soxmayın. Sizin dahiləriniz bir zamanlar mənə məxsusdular, mən onları öz ağuşumda saxlayırdım, sitayiş-filan eləmədən ehtiraslı məhəbbətlə sevirdim». Onlarla istədiyim kimi hərəkət eləcəyəm!» Amma Karlın humanizmindən, həmin kilsə humanizmindən yalnız hər bir adamda bütöv bir insan olduğunu başa düşdüyüm gün qurtardım. Sağalmaq kədərli şeydir – dilim öz sehirli gözəlliyini itirdi, qələm qəhrəmanları – mənim çoxdankı əyanlarım öz üstünlüklərindən məhrum olub kütləyə qarışdılar: onların ikiqat yasını

saxlayırdım.

İndi yazdıqlarım yalandır. Həqiqətdir. Dəlilər barədə, adamlar barədə bütün yazılanlır kimi, nə yalandı, nə həqiqətdir. Mən faktları yaddaşımın imkan verdiyi qədər lap dəqiqliklə ifadə elədim. Amma öz sayıqlamama özüm nə qədər inanırdım? Bu ən başlıca sualdır, bununla belə, həmin suala necə cavab verəcəyimi bilmirəm. Sonralar əmin oldum ki, öz hisslərimiz barədə hər şeyi bilirik, yalnız o hisslərin dərinliyini, yəni səmimiyyətini bilmirik. Burda, hətta əməllər də, ən azı onların saxta olmadığı sübut edilənəcən – bunu sübut eləməksə həmişə asan olmur – ölçü rolunu oynaya bilməzlər. Özünüz fikirləşin: mən böyüklər arasında təkdim, miniatür böyükdüm, kitabları böyüklər üçün oxuyurdum – artıq bunda saxtalıq var, çünki bütün bunlarla yanaşı, uşaq olaraq qalırdım. Mən tövbə eləmək istəmirəm, yalnız qeyd eləyirəm. Bununla belə, araşdırmalarım, kəşflərim ailə komediyasının ayrılmaz tərkib hissəsi idi, vəcd doğururdular, mən də bunu bilirdim – hə, bilirdim; hər gün möcüzə uşaq babasının daha oxumadığı sehirli kitabların rahatlığını pozur. Bəzi adamlar maddi imkanlarına görə yaşamadıqları kimi, mən də yaşıma görə – tövşüyə-tövşüyə, çalışa-çalışa, zorla, özümü göstərə-göstərə yaşamırdım. Kabinetin qapısını itələməyə bəndiydim ki, hərəkətsiz köhnə-kürüşün bətninə düşürdüm: iri yazı masası, qovluq, çəhrayı suçəkəndə qırmızı, göy mürəkkəb ləkələri, xətkeş, yapışqan qabı, durğun tütün qoxusu, qışdasa qıpqırmızı qızarmış otaq sobası, kömürlərin çatıltısı – bu, Karlın, maddiləşmiş Karlın özü idi. Mənə firavanlıq vermək üçün daha heç bir şey tələb olunmurdu, - çapa-çapa kitabların üstünə cumurdum. Səmimiydimmi? Bu sözü necə başa düşmək olar? İndi, bu qədər illər ötəndən sonra səmimiyyətin bitdiyi, riyakarlığın gözə görünmədiyi hüdudu necə müəyyənləşdirə bilərəm? Döşəmənin üstündə üzü işığa uzanırım, qarşımda açıq kitab, sağ yanımda su qatılmış şərab, sol yanımda boşqabın içində mürəbbəli çörək dilimi olurdu. Hətta təklikdə də komediya oynamaqda davam eləyirdim. Ann-Mari, Karlimami bu səhifələri mən doğulmamışdan xeyli əvvəl vərəqləmişdilər, indi gözlərim qarşısında onların bilik xəzinəsi canlanırdı; axşam məndən soruşacaqlar: «Nə oxudun? Nə başa düşdün?» - mən bunu bilirdim, növbəti uşaq hazırcavablığı doğmağa hazırlaşırdım.

Böyüklərdən mütaliəyə çıxıb getmək – onlarla daha çox ünsiyyətdə olmaq deməkdir; onlar yanımda deyildilər, amma daim baxışları boynumun ardından bədənimə daxil olur, döşəmə səviyyəsində yüz dəfə oxuduqları, mənimsə ilk dəfə oxuduğum sözləri tapıb gözləri bəbəklərimdən çıxırdı. Hamının gözü qarşısına qoyulmuş özümü qıraqdan görürdüm: adamların danışanda özlərini eşitmədikləri kimi, necə oxuduğumu görürdüm. Hələ hərfləri tanımadan özümü guya «Çinlinin macəraları»nı oxuyan kimi göstərdiyim vaxtdan çox dəyişmişəm? Yox, əvvəlki oyun davam eləyirdi. Arxa tərəfimdə qapı açılırdı, «orada neylədiyimi» görmək üçün gəlirdilər; tələxəklik eləməyə başlayırdım – bircə sıçrayışla ayağa qalxıb Müsseni yerinə qoyurdum, barmaqlarımın ucuna qalxıb əlimi Kornelin sanballı cildinə uzadırdım; maraqlarım səylərimlə ölçülürdü, arxa tərəfimdə narahat pıçıltı eşidirdim: «Korneli nə qədər sevirmiş!» Onu sevmirdim: İskəndəriyyə şeirləri məni darıxdırırdı. Xoşbəxtlikdən bu cilddə yalnız ən məşhur faciələr tamamilə çap olunmuşdu, qalanlarının yalnız adı çəkilmiş, qısaca məzmunu yazılmışdı. Məni də elə bu cəlb eləyirdi: «Qrimoaldın məğlub elədiyi Lanqobardların kralı Per-taritin arvadı Rodelinda Yunulf tərəfindən yadelli hökmdarlara ərə getməyə məcbur olunub…». «Rodoqunda»nı, «Teodora»nı, «Agezilay»ı «Sid» və «Sinnlər»dən daha əvvəl oxumuşdum; dilimdə ahəngdar adlar, sinəmdə uca hisslər bir-birinə sıxılmışdılar, mən də qohumluq əlaqələrində dolaşmamaq üçün ciddi fikir verirdim. Evdəsə deyirdilər, «Uşaq bilik acıdır, Larussu acgözlüklə oxuyur». Mübahisə eləmirdim. Əslində, heç də bilik acısı deyildim – sadəcə, aşkara çıxarmışdım ki, lüğətdə pyesslərin, romanların qısa məzmunu var: elə buna görə belə oxuyurdum.

Xoşa gəlməyi sevirdim, intellektual vanna kursları qəbul eləmək istəyirdim. Hər gün müqəddəs sirlərə vaqif olurdum, bəzən yetərincə fikirli halda döşəmədə uzanıb, sadəcə, səhifələri vərəqləyirdim, dost-tanışlarımın əsərləri məndən ötrü üzərində dualar olan fırlanğac budaqlar üçün oynadığı eyni rolu oynayırdı. Amma əsl qorxu və sevincləri də yaşamalı olurdum. Bu zaman riyakarlığı unudurdum, başı lovlu adı həyat olan şıltaq balinanın iradəsinə tabe olurdum. Burada da özünüz fikirləşin! Baxışlarım sözləri

yoxlayırdı, götür-qoy eləməli, mənalarına varmalı olurdum, axırda mədəniyyət komediyası məni mədəniyyətə gətirib çıxardı.

Bununla belə, «axmaqlıq» eləmədən oxuduğum kitablar da vardı, amma mən o kitabları məbəddən kənarda, uşaq otağında, ya da mətbəxdəki masanın altında oxuyurdum. Həmin kitablar barədə kiməsəyə bir söz demirdim, anamdan başqa kimsə də kitablar haqqında danışmırdı.

Ann-Mari saxta vəcdlərimi ciddi saydı. O, öz narahatlığından Mamini xəbərdar eləyib onun şəxsində tam həmfikir qazandı. «Şarl düz eləmir, - Luiza dedi. – Artıq özüm sezmişəm, o, uşağı özü təhrik eləyir. Əgər uşaq beynini qurutsa, böyük dərd olacaq!». Qadınlar bu zaman üzgünlüyü və meninğiti də xatırladır. Amma babama qarşı hücuma keçmək həm təhlükəli, həm faydasızdır, onlar dolayı gedişlərə əl atırdılar. Bir dəfə gəzintimiz zamanı Ann-Mari guya təsadüfən bu gün də Sen-Mişel bulvarıyla Sufflo küçəsindəki kitab dükanının yanında ayaq saxladı; gözlərimə heyrətamiz şəkillər dəydi. O şəkillərin qışqıran rənglərindən sarsılıb tələb elədim ki, mənə alsınlar – istədiyim yerinə yetirildi. Zərbə hədəfə dəydi. İndi hər həftə cümə axşamları ayrıca buraxışlarla çıxan Jan de La İrin «İşıldaquşunu», «Bir buna bax!»ını, «Tətillər»ini, «Üç boyskaut»unu, Arlo Qalolenin «Aeroplanda dünya ətrafına səyahət»ini tələb eləyirdim. Cümə axşamından cümə axşamınacan dostlarım Rable və Vinyidən daha çox And Qartalı, Marsel Dyuno, polad yumruqlu boksçu və pilot Kristian barədə düşünürdüm.

Anam məni öz uşaqlığıma qaytaracaq kitabların axtarışına girişdi; sehirli nağılların aylıq məcmuələri olan «çəhrayı kitabxana»dan başlandı, sonra «Kapitan Qrantın uşaqları»na, «Sonuncu mogikan», «Nikolas Ni-kilbi»yə, «Lavaredin beş susu»na keçdim. Jul Vernin hədsiz qeyri-mükəmməlliyindən Pol d-İvuanın mənasızlıqlarına üstünlük verirdim. Amma müəlliflərdən asılı olmayaraq, Hetselin nəşr elədiyi – mənim kiçik teatrımda onların qızılı hərfli qırmızı cildləri pərdə, kəsiklərindəki qızılı günəş tozusa səhnənin işığı idi – kitablara üstünlük verirdim. Gözəlliklə ilk görüşümə görə, Şatobrianın ahəngdar kəlmələrinə yox, həmin sehirli mücrülərə borcluyam. Onları açıb hər şeyi unuduram. Oxuduğumu demək olardımı? Yox, vəcd

içində ölürdüm, bu özünüməhv də dərhal mizraqlarla silahlanmış yadelliləri, cəngəllikləri, ağ tropik başlıqlı səyyahları həyata səsləyirdi. Mən tamam qarabasmaya qapılırdım, işıq axınını gözəl Aydanın qaraşın yanaqlarına, Fileas Foqqun bakenbardlarına axıdırdım. Öz-özündən azad olmuş möcüzə-uşaq axır ki, möcüzələrə *maneəsiz* dala bilirdi. Döşəmədən əlli santimetr hündürlükdə göstərişsiz - filansız əsl xoşbəxtlik aşkara çıxırdı. Düzdür, əvvəlcə yeni dünya mənə köhnə dünyadan daha nizamlı gəlirdi. Burda talayırdılar, öldürürdülər, qan su yerinə axırdı. Hindular, induslar, qottentotlar gənc gözəli oğurlayırdılar, əzabla öldürmək üçün qoca atasının əl-ayağını kəndirə bağlayırdılar. Bu, şərin təcəssümü idi. Amma onu yalnız xeyir qarşısında dardamadağın eləmək xətrinə göstərirdilər – elə növbəti fəsildəcə hər şey öz yerini tuturdu. Solğunüzlü qəhrəmanlar bir yığın vəhşini qırıb qızının ağuşuna atılan atanı azad eləyirdilər. Yalnız bədxahlar, lap ikinci dərəcəli müsbət qəhrəmanlardan bəziləri ölürdülər, onların ölümü əhvalatın əlavə xərcləri hesabına təsvir olunurdu. Yeri gəlmişkən, ölümün özü də qondarma idi: adamlar əllərini sinələrində çarpazlayıb sol sinələrinin altındakı səliqəli dəyirmi deşiklə yıxılırdılar, əgər söhbət hələ odlu silahın ixtira edilmədiyi zamanlardan gedirdisə, cinayətkarları yalnız «qılıncdan keçirirdilər». Bu dəlisov ifadə çox xoşuma gəlirdi: öz-özlüyümdə dümdüz şüanı – tiyəni təsəvvür eləyirdim; qılınc yağa batan kimi, bədxahın bədəninə batırdı, kürəyindən çıxırdı, öldürülən adam bir damcı qan da axıtmadan yerə yıxılırdı. Bəzən ölüm, hətta, deyəsən, «Rolandın xaç anası»ndakı sərasinin ölümü kimi, gülməli olurdu: o, at belində atlı xaçlının qarşısını kəsməyə cumurdu, cəngavər kafirin başına ölümcül qılınc zərbəsi endirirdi, zərbə sərasini yarı bölürdü – QüstaV Dorenin rəsmi bu anı əks etdirirdi. Çox gülməlidir – bədənin bir-birindən ayrılmış iki parçası artıq yəhərin hər iki tərəfində yarımdairə cızıb başqa-başqa tərəflərə düşməyə başladılar, təəccüblənmiş at şahə qalxdı. Çox-çox illər dalbadal hər dəfə bu qravürü görəndə gözüm yaşaranacan gülürdüm. Nəhayət, axtardığımı – nifrətamiz, amma axır hesabda zərərsiz düşməni tapdım. Çünki onun bütün hiylələri nəinki uğur qazanmırdı, əksinə fitnələrinə, şeytani hiyləsinə baxmayaraq, xeyirin yaranan təntənəsinə xidmət eləyirdi. Doğrudan da, görürdüm ki,

nizamın bərqərar olunması həmişə hər hansı bəhrəli irəliləmələrlə müşayiət olunurdu: qəhrəmanlar mükafat alırdılar, onlara hörmət eləyirdilər, onları şöhrətləndirirdilər, başlarına pul səpirdilər; onların qəhrəmanlığı sayəsində yeni ərazilər fəth eləyir, yaddellilərin əlindən hər hansı bir sənət əsəri alıb müzeylərimizə gətirirdilər; gənc qız onun həyatını xilas eləyən səyyaha vururlurdu, hər şey toyla bitirdi. Həmin jurnal-qəzetlərdən özümün ən müqədəs illuziyamı – nikbinliyimi almışdım.

Bu kitabların mütaliəsi uzun müddət gizli saxlanılırdı. Ann-Mari heç mənə xəbərdarlıq eləməli də olmadı: onların bütün yararsızlığını dərk eləyib kitablar barədə babama bir söz demədim. Yaramazlarla ünsiyyət olub, avaralıq eləyib, tətillərimi fahişəxanalarda keçirib əsl «mən»imin məbəddə olduğunu unutmurdum. Niyə günahlarım barədə kişinin başını niyə xarab eləyim? Amma Karl axır ki məni cinayət yerində yaxaladı. O, qadınların üstünə düşdü, onlarsa babam nəfəsini dərəndə yaranan ani fasilədən istifadə eləyib hər şeyi üstümə yıxdılar: mən jurnallar, macəra romanları gördüm, onları istəməyə, tələb eləməyə başladım, - bundan boyun qaçırmaq olardımı? Bu hazırcavab yalan babamı dalana dirədi. Özüm öz istəyimə görə, abırsızcasına bəzənib-düzənmiş qızlarla Kolombaya xəyanət eləyirdim. Mən qorxunc uşağam, gənc rəmmal, zərif ədəbiyyatın İosası hər cür iyrəncliyə qarşı qarşısıalınmaz cəhd istəmirdim. Söz onlarındı: ya mən peyğəmbər deyiləm, ya da zövqlərimi anlamağa çalışmadan onlarla hesablaşmaq lazım idi. Ata Şarl Şveytser məni oxuduqlarımı tonqala atardı, baba Şarl Şveytser sarsıntılı mərhəmət pozasında durardı. Mənə də elə bu lazımıydı rahatca ikili həyatımla yaşamaqda davam eləyirdim. Sonralar da belə sürdü: indi də «qara seriya»nı Vitkenşteydən daha həvəslə oxuyurdum.

Mən öz hava adamda birinci idim, müsabiqədən kənardım; məni adi şəraitə qoymağa bəndiydilər ki, sonunculardan birinə çevrilirdim.

* * *

Babam məni Monten liseyinə verməyi qərara aldı. Bir dəfə səhər Direktorun yanına aparıb xüsusiyyətlərimi təsvir elədi; mənim bir çatışmazlığım var – öz yaşıma

görə həddən artıq inkişaf eləmişəm. Direktor hər şeylə razılaşdı. Məni səkkizinci sinfə qoydular, mən də gözləyirdim ki, öz yaşıdlarımla oxuyacağam. Amma belə olmadı, elə ilk inşadan sonra babamı təcili lisey rəhbərliyinin yanına çağırdılar. O, qəzəbdən özündən çıxmış halda qayıtdı, portfelindən əcaib-qəraib hərflərlə dolu nəhs kağız vərəqini çıxrıb üstümə atdı, - bu, mənim təqdim elədiyim yazı idi. Babama orfoqrafiyamı göstəriblər – «Tirrikdə kök bitir» - başa salmağa çalışıblar ki, mənim yerim onuncu hazırlıq sinfindədi. «Tirrik» sözünü görəndə anamı qarşısıalınmaz gülmək tutdu, həmin gülüş babamın sərt nəzərləri altında boğazında qaldı. Şarl əvvəlcə məndən naşükürlükdə şübhələndi, həyatında ilk dəfə söyüş söydü, amma sonra dedi ki, məni yetərincə qiymətləndirməyiblər; elə sonrakı gün Direktorla həmişəlik dalaşıb liseydən çıxardı.

Nə baş verdiyini heç anlamadan, uğursuzluğum da məni qəti kədərləndirmədi – vundekindəm, amma savadlı yazmağı bacarmıram, böyük bədbəxtlikmiş! Bir də ki, öz tənhalığıma qayıtmaq istəyirdim, öz xəstəliyimi sevirdim. Hətta ağlıma özüm olmaq fürsətini əldən buraxdığım barədə fikir də gəlmirdi. Mənə fərdi müəllim – parisli Cənab Lyeveni tutdular. O, evimizə demək olar, hər gün gəlirdi. Babam mənə yazı masası – rənglənməmiş taxtadan pupitrli oturacaq aldı. Mən oturacaqda əyləşirdim, cənab Lyevensə otaqda gəzişə-gəzişə diqtə eləyirdi. O, Vensan Oriola oxşayırdı, babam iddia eləyirdi, guya masondur. «Mən ona əl verəndə, - uşaqbazın ilişdiyi abırlı adamın qorxuqarışıq nifrəti ilə deyirdi, - o, baş barmağıyla ovcumun içində mason işarəsi çəkirdi». Cənab Lyevendən zəhləm gedirdi, çünki mənə heyrətlənmək onun ağlına gəlmirdi; şübhələnirəm ki, məni əsaslı olaraq, ağılda geri qalmış uşaq hesab eləyirdi. O bilmirəm nəyə görə, yox oldu. Ola bilsin, kiməsə mənim barəmdə öz fikrimi söyləmişdi.

Bir müddət Arkaşonda yaşadıq, orda məni ibtidai məktəbə verdilər. Bu, babamın demokratiya prinsiplərinə töhfə idi. Amma eyni zamanda istəyirdi ki, nəvəsini plebsdən* uzaqda saxlasınlar. O, məni müəllimə bu cür ifadələrlə təqdim elədi: «Əziz həmkar, sizə ən qiyamət sərvətimi etibar eləyirəm».

Cənab Barronun saqqalı və pensnesi vardı, o, bir şüşə muskat* içmək üçün bağ

evimizə gəldi, babamı əmin elədi ki, ali məktəb nümayəndəsinin ona göstərdiyi etibara görə məmnundur. Barro məni düz kafedranın yanında ayrıca bir partada oturtdu; bu barədə «xalq oğulları»nın – bərabərhüquqlu vətəndaşlarımın – fikri necədir, bunu bilmirəm, güman eləyirəm ki, heç veclərinə də deyildi. Mən onların əməllərindən yorulurdum, uşaqlar ora-bura qaynaşanda cənab Barronun yanında darıxa-darıxa durmağı yaxşı hal sayırdım.

Müəllimimə hörmət eləmək üçün iki səbəbim vardı: o, mənim yaxşılığımı istəyirdi və ağzı pis iylənirdi. Yaşlı adamlar qırışlı, iştahsız eybəcərlər olmalıydılar; onlar məni öpəndə yüngül ürəkbulanmasını dəf eləmək xoşuma gəlirdi, bu, xeyirxahlığın baha başa gəldiyini sübuta yetirirdi. Əlbəttə, adi, bayağı sevinclərdən: qaçmaqdan, tullanmaqdan, pirojnaları dadmaqdan, anamın ətiri, zərif üzündən öpməkdən də xəbərim vardı, amma əzablardan çıxmış, özünə qalib gələn sevincləri daha çox qiymətləndirirdim, o sevincləri yetkin kişilərin arasında dadırdım. Məndə doğurduğu adi iyrənmə hissi onların nüfuzunun ayrılmaz hissəsini təşkil eləyirdi. Mən iyrənmə hissini hörmət hissi ilə qarışdırırdım. Mən snob* idim. Cənab Barro əyiləndə onun nəfəsi məni incə işgəncəyə məruz qoyurdu, amma ciddi cəhdlə burnumla onun keyfiyyətlərinin pis qoxusunu ciyərlərimə çəkirdim.

Günlərin bir günü məktəbin divarında təzəcə yazılmış yazı gördüm: «Barro atacığaz - zibildir». Ürəyim az qala ağzımdan çıxacaqdı, çaşmış halda yerimdə donub qaldım. «Zibil» - güman ki, lüğət tullantılarının arasında qaynaşan həmin «yaramaz sözlər»dən biridir, yaxşı tərbiyə görmüş uşağın gözünə sataşmalıdır; o qısa və qaba söz ən sadə orqanizmlərin qorxuducu adiliyinə malik idi. Onu təkcə oxumağın göylərə xoş gəlmirdi! O sözü, hətta pıçıltı ilə söyləməyi də özümə qadağan elədim. İstəyirdim ki, divara yapışmış həmin mətbəx böcəyi sıçrayıb ağzıma düşsün, boğazımda qara xışıltıya çevrilsin. Necə deyim, bəlkə, özümü guya heç nə görməmiş kimi göstərsəm, sürünüb öz deşiyinə girəcək. Amma gözümü ondan çəkib məndə daha bərki qorxu doğuran nəzərlərimlə abırsız «Barro atacığaz» müraciətinə ilişirdim, - «zibil» sözünün mənasını axırda ancaq təxmini başa düşürdüm, amma evimizdə hansı növ adamların –

boğbanların, poçtalyonların, qulluqçunun atasının, bir sözlə, yaşı ötmüş kasıbların – «filankəs atacığaz» adlandırıldıqlarını qəti bilirdim. Deyəsən, kimsə öz-özlüyündə cənab Barronu, müəllimi, babamın həmkarını çox kasıb görkəmdə təsəvvür eləyirdi. Bu xəstə, cinayətkar fikir, hardasa, kiminsə beynində dolaşırdı. Amma kimin beynində axı? Bəlkə, mənim? Bəlkə, qorxunc yazını oxumağa bəndsən ki, sehirbazlığın iştirakçısı olursan? Mənə elə gəlirdi, hansısa bədxah ağılsız tərbiyəliliyimi, hörmətkarlığımı, səyimi, səhər: «Salam, cənab müəllim» sözlərimlə furajkamı çıxarmağa hazır olmağımı ələ salır, eyni zamanda da həmin ağılsız mən özüməm, yaramaz sözlər, fikirlər mənim ürəyimdə qaynaşır. Niyə, məsələn, var gücümlə bağırmayım: «Bu qoca murdar donuz kimi iy verir». Pıçıldadım: «Barro atacığaz-iy verir» - hər şey gözlərimin qabağında yayıldı, göz yaşı içində qalıb canımı qurtardım. O biri səhər təzədən cənab Barroya, onun selluloid yaxalığına, kəpənək qalstukuna adət elədiyim hörməti göstərdim. Amma o, dəftərimin üzərinə əyiləndə nəfəsimi udub üzümü çevirirdim.

Növbəti ilin payızından anam məni Pumon qız məktəbinə verməyi qərara aldı. Biz taxta pilləkənlə qalxıb ikinci mərtəbədəki sinif otağına keçirdik; uşaqlar dinməzcə yarımdairə halında otururdular; otağın o başında, lap divarın dibində, elə bil, saatdakı təki, dərsin gedişini izləyən analar əyləşirdilər. Bizə dərs deyən bədbəxt qızların başlıca vəzifəsi vunderkindlər dəstəsi arasında tərifləri, yaxşı qiymətləri düzgün paylamaqdır. Onlardan biri öz təəssüfünü bildirməyə, yaxud kiminsə uğurlu cavabına həddən artıq tərifləməyə bənd idi ki, Puponun qızları şagirdərini, müəllimsə öz yerini itirirdi. Biz, gənc akademiklər, otuz nəfərdik, heç vaxt heç olmasa, bircə kəlmə söz də danışa bilmirdik. Dərslər başa çatandan sonra hər bir ana yırtıcı heyvan kimi, öz balasının üstünə atılırdı, vidalaşmadan arxasınca aparırdı. Birinci semestrin axırına yaxın anam məni məktəbdən çıxardı – orda boş yerə oxuyurduq, üstəlik də anamdan ötrü mənim üçün təriflər eşitmək növbəsi çatanda qonşularının ona zillənmiş tutun baxışlarına dözmək çətin idi. Pupon məktəbində qəpik-quruş maaşla gündə səkkiz saat dərs deyən pensneli gənc sarışın qız, medemuazel Mari-Luiza rəisindən gizlicə mənə fərdi dərslər verməyə razı oldu. O, dərindən ah çəkməklə qəlbini yüngülləşdirmək üçün arabir diqtəni

kəsməli olurdu; mənə şikayətləndi ki, ölümcül yorulub, tək-tənhadır, lap ilk rast gələn adama ərə getmək üçün dünyada hər şeydən keçməyə hazırdı. Nəticədə o da yoxa çıxdı, guya səbəbi mənə heç nə öyrətməsidir, amma elə başlıca səbəb başqa şeydədi - babam onu uğursuz sayırdı. Bu mömin təskinlikdə əzabdan imtina eləmirdi, amma onları öz evinə dəvət eləməməyə çalışırdı. O, vaxtında əl-ayağa düşdü: Mari-Luiza qəlbimdə şübhə toxumu səpirdi. Bilirdim ki, hər bir adamın maaşı onun keyfiyyətlərinə mütənasibdir, Mari-Luiza barədəsə deyirdilər ki, ləyaqətli qızdır, - bəs niyə ona qəpi-quruş verirdilər? İnsan öz vəzifəsini yerinə yetirəndə, qürurla, özünəhörmətlə doludur, o, xoşbəxtdir ki, işləyir; amma bir halda ki, gündə səkkiz saat işləməyə qadirdi, hansı əsasla həyatından şikayət eləyir? Onun şikayətlərini babama danışanda qəhqəhə çəkib güldü – kiminsə tamah salması üçün o, hədən artıq çirkindir. Mən gülmədim: deməli, anadangəlmə lənətlənmiş adamlar olurlar? Belə çıxır, mənə yalan danışırmışlar – gözəl dünyamızda qorxunc qanunsuzluqlar qanuniləşdirilib. Amma müəllimə ilə haq-hesabı kəsən kimi, narahatlığım sovuşdu. Şarl Şveytser məndən ötrü daha abırlı müəllimlər axtarırdı. O qədər abırlı ki, yaddaşımdan tamam siliniblər. Mən on yaşınacan qoca ilə iki qadının yanında tək-tənha qaldım.

* * *

Mənim «mən»im, mənim xasiyyətim, mənim adım-hər şey böyüklərin əlində idi; özümü onların gözləri ilə görməyə alışmışdım, mən uşaqdım, uşaqsa onların öz ümidsizliklərindən yaratdıqları bütdür. Böyüklərin təsiri olmayan üzərimdə işıq şüaları ilə axan baxışlarını hiss eləyirdim; həmin baxış altında, qaçır, əylənirdim, o baxış məni nümunəvi nəvə obrazından çıxmağa qoymurdu, mənim oyunlarımı, mənim dünyamı müəyyənləşdirirdi. Zərif şüşə qabda, qəlbimdə fikirlər dolaşırdılar. Kim istəsə, onların axarını izləyə bilərdi, - bir gizli künc də yox idi. Amma addan, formadan və cismdən məhrum olan bu məsum şəffaflıqda məndə hər şeyi zəhərləyən şəffaf həqiqət qarışmışdı: mən yalançıyam. Oynadığını dərk eləmədən komediya oynamaq olarmı? Mənim şəxsiyyətimin ibarət olduğu sevinc dolu şəffaflıq öz-özünü ifşa eləyirdi, varlığa ziyan

vurmaqla ifşa eləyirdi, mən onu tamam dərk eləyə bilmirdim, amma duymaya da bilmirdim. Öz keyfiyyətlərimin təsdiqini axtara-axtara böyüklərin üstünə cumurdum, yəni yenə yalana batırdım. Mən xoşa gəlməyə məhkum olduğumdan, öz gözəlliklərimi açıq-aşkar nümayiş etdirirdim, amma o gözəlliklər göz önündə solurdu. Mən xoşbəxt təsadüflər yaxalamaq üçün öz qondarma sadəlöhvlüyümü, öz heç nəyə yaramayan dəyərliliyimi hər yerdə arxamca sürüyürdüm; bir dəqiqə də keçəcək – onu yaxalayıram, pozada dururam, o da məni qaçdığım adətlərdə boşluğa qaytarır. Budur, babam ayaqlarını şala bürüyüb mürgüləyir, bığının kolcuqları altından dodaqlarının çəhrayı çılpaqlığı görünür, - bu, dözülməzdir. Xoşbəxtlikdən, babamın eynəyi sürüşüb döşəməyə düşür, cəld onun arxasınca atılıram. Babam oyanır, məni sinəsinə sıxır, biz şah nömrəmizi, sevgi səhnəmizi oynayırıq. Budu, mətbəxə girirəm, kömək eləmək istəyirəm – salatı yuyacağam; səslər, şən gülüş eşidilir: «Yox, mənim sevincim, elə yox! Əlini bərk-bərk sıx, bax, indi düzdür! Mari, ona kömək eləyin! Ağıllı bala, baxın, necə bacarıqla eləyir!» Mən butafor uşağam, əlimdə salat üçün butafor səbət var. Mən hər bir hərəkətimin necə hərəkətə çevrildiyini hiss eləyirdim. Komediya məni real aləmdən, həqiqi adamlardan daldalayırdı, yalnız rollar və rekvizit görürdüm. Böyükləri öz saxtalığımla aldadıb, qayğılarını ciddi qəbul eləyə bilərdim? Mən məqsədlərini anlamağa mane olan tərifəlayiq yaltaqlıqla onların niyyətlərinə qarşı gedirdim. İnsan nəslinin istəyini, ümidini, sevincini bölüşmədən özümü soyuqqanlıqla onu sehirləmək naminə talayırdım. O, mənim tamaşa zalımdır, işıqları yanan səhnə məni hər dəfə kədərə çevrilən vüqarlı tənhalığa məhkum eləyib ondan ayırırdı.

Hər şeydən kədərlisi o idi ki, böyüklərin də riyakarlığından şübhələnirdim. Onlar mənə şirin sözlərlə müraciət eləyirdilər, öz aralarındasa tamam başqa dillə danışırdılar. Üstəlik də, onlar susqun, amma müqəddəs adətlərini pozmalı olurdular: ən sehirləyici hərəkətləri eləyirdim, həmin hərəkətlərə tamamilə əminiydim, qəfildən mənə həqiqi səslə cavab verirdilər: «Get oyna, körpə, söhbət eləməyimizə mane olma». Bəzənsə məndə belə bir hiss yaranırdı ki, özgə oyununda piyadayam. Anamla Lüksemburq bağında gəzirik, qəfildən bütün ailəylə arası sərin olan Emil dayım peyda olur. O, altdan-

altdan bacısına baxıb soyuq-soyuq deyir: «Mən bura səndən ötrü gəlməmişəm, balacanı görmək istəyirdim». O deyir, mən ailədə yeganə saf adam, onu bir dəfə olsun, pis niyyətlə təhqir eləməyən, yalan şaiyələr əsasında mühakimə eləməyən yeganə adamam. Mən yolsuzun qəlbində alovlandırdığım, gücümdən və sevgimdən utana-utana gülümsəyirdim. Qardaşla bacısa bu vaxt artıq qarışılıqlı incikliklərini sadalaya-sadalaya öz söhbətlərinə girişiblər; Emil indi Şarlı nahaqdan yamanlayır, Ann-Mari bir qədər geri çəkilib atasını müdafiə eləyir, söhbət Luizaya keçir, mənsə yanlarındaca dururam, kimsənin mənlik işi yoxdur.

Yaşıma görə bunu anlamağa qabil olsaydım, əyani nümunəsi köhnə ifratçıların hərəkəti olan mühafizəkarların yazılı əxlaq kodeksini canıma çəkərdim: həqiqətlə uydurma eyni bir şeydir; əgər ehtiras duymaq istəyirsənsə, özünü elə göstər, guya, onu duyursan; insan-ritual üçün yaradılmış varlıqdır. Mənə təlqin eləyirdilər ki, biz elə komediya oynamaq üçün yaşayırıq. Həmin komediyada oynamağa hazırdım, amma bir şərtlə ki, mənə baş rol versinlər. Bununla belə, məni cəsarətləndirən nurlanma dəqiqələrində sezirdim ki, rolum şişirdilib: mətn uzundur, çoxlu çıxışlar var, ancaq hadisənin yayı olduğum bir səhnə də yoxdur, bir sözlə, yalnız böyüklərə replikalar verirəm. Şarl mənə ölümün qılığına girmək üçün nəvaziş göstərirdi, Luiza əməllərimdə öz pis ovqatına, Ann-Marisə öz itaətkarlığına bəraət tapırdı. Bununla belə, mən olmasaydım, valideynləri onsuz da Ann-Marini himayəyə götürəcəkdi, Ann-Mari itaətkarlığına görə onsuz da Luizanın oyuncağına çevirəcəkdi.

Mən olmasaydım, Mami onsuz da hamıya acıqlanacaqdı, Şarlsa Mon-Serven zirvələri, meteorlar, yaxud özgə uşaqları ilə vəcdə gələcəkdi. Mən onların davasının-barışığının təsadüfi bəhanəsiydim, əsl səbəblərsə başqa şeydə idi, o səbəbləri Makonda, Qunsbaxda, Tivyedə, köhnə üzülmüş qəlbdə, keçmişdə, mən dünyaya gəlməmişdən xeyli qabaq baş verənlərdə axtarmaq lazım idi. Mən böyüklərdən ötrü ailə ahənginin, köhnə ailə ziddiyyətlərinin əksi idim, onlar mənim Allahın bəxş elədiyi uşaqlığımdan öz «mən»lərini aşkara çıxarmaq üçün sui-istifadə eləyirdilər. Mən özümsə narahatlıq içində yaşayırdım: onların bütün ritualları məni dünyada heç bir qeyri-məqsədəuyğun şeyi

olmadığına, xırdadan-böyüyədək hər şeyin aləmdə müəyyən yer tutduğuna inandırmaq üçün həyata keçirildiyindən, öz mövcudluğumun mənası məndən yan keçirdi, özümü damdandüşdü hiss eləyirdim, bu nizamlı dünyada əsaslandırılmamış varlığımdan utanırdım.

Atam olsaydı, məni sabit fikirlərin yükü ilə təmin eləyərdi. Mənim «mən»imdə yerləşib öz istəklərini mənbəyimə, öz savadsızlığını erudisiyama, öz sınıqlığını qüruruma, öz qəribəliklərini qanunlarıma yönəldərdi. O hörmətli kirayənişin mənə özünəhörmət tələqin eləyərdi, özünə hörmətsə haqqımın və həyatımın əsası olardı. Atam gələcəyimi müəyyənləşdirərdi: anadangəlmə mühəndis olduğumdan, qayğı-filan bilməzdim. Amma əgər Jan-Batist Sartra mənim təyinatımın sirri məlum olsaydı, o sirri özüylə qəbrə aparardı; anam yalnız onun dediyi bircə sözü xatırlayırdı. «Mənim oğlum dənizçi olmayacaq». Daha dəqiq məlumat olmadığından, mən də daxil, dünyada heç kəs nəyə görə göyü axtardığımı bilmirdi. Atam miras qoysaydı, uşaqlıq illərim başqa cür keçərdi, yazmazdım, çünki başqa adam olardım. Torpaq sahələrinin, digər daşınmaz əmlakın gənc varisi onlarda öz şəxsi «mən»inin dayanıqlı əksini görür. Öz malikanəsinə qədəm basıb, öz eyvanının rombşəkilli şüşələrinə toxunub öz-özünü aydınlaşdırır, onların sarsızmazlığında öz ruhunun ölməz mövcudluğunu görür. Bir neçə gün əvvəl yeddi yaşlı oğlancığazın, restoran sahibi oğlunun kassir qadına necə qışqırdığını eşitdim: «Atam olmayanda burda ağa mənəm!» Bax, bu, şəxsiyyətdir! Onun yaşında mən heç bir şeyin ağası deyildim, bir qəpiyim də yox idi. Şıltaqlıq eləməli olduğum nadir məqamlarda anam mənə pıçıldayırdı: «Özünə gəl - evimizdə deyilik!» biz heç vaxt – Le Qof küçəsində yaşayanda, nə də sonralar, anam ikinci dəfə ərə gedəndə – evimizdə olmamışdıq. Mən bundan əziyyət çəkmirdim, ona görə ki, məndən heç bir şeyi əsirgəməmişdilər, amma mücərrəd olaraq qalırdım. Dünyəvi nemətlərin sahibi onlarda öz mövcudluğunun əksini görür, onlara məndə olmayanları göstərirdilər. Məndə nə sanbal, nə varislik vardı, ata işinin davamçısı deyilsə, mən polad istehsalı üçün gərəkli deyildim – qısası, ruhum yox idi.

Bununla belə, öz cismimlə bağrıbadaş yaşasaydıq, bu, böyük dərd olmazdı.

Amma onunla qəribə cütlük təşkil eləyirdik. Kasıblıq içində çırpınan uşaq özünə bu cür suallar verilir. Məhrumiyyət və xəstəlik fasiləsiz onun cismini sınağa çəkir, bəraəti olmayan həyat şəraiti mövcudluğuna bəraət qazandırır, aclıq və həmişəlik ölüm təhlükəsi – onun mövcudluq haqqı bax, budur: o, ölməmək üçün yaşayır. Mənsə öz təyinatıma inanacaq qədər varlı, öz istəyimi gündəlik tələbat kimi qəbul eləyəcək qədər kasıb deyildim. Masa arxasnda öz yeyici vəzifələrimi yerinə yetirirdim, Allah da mənə bəzən – aradabir – iyrənmədən yeməkdən, yəni imtahandan ibarət olan qismət bəxş eləyirdi. Mən düşünmədən nəfəs ala-ala, qidanı həzm eləyə-eləyə, tər tökə-tökə inersiya üzrə yaşayırdım, çünki yaşamağa başlamışdım. Mənim yeyib-doymuş yoldaşım - bədənim – məni nə ibtidai cəhdləri ilə, nə qızğın tələbləri ilə incidirdi; o, özünü böyüklərin çox şəfqətlə yanaşdıqları yüngül rahatsızlıqlar vasitəsiylə bildirirdi. Həmin vaxtlar özünə hörmət eləyən hər bir ailədə ən azı bir çəlimsiz uşaq olmalı idi. Mən əsl tapıntı idim, çünki doğulanda az qala Allah rəhmətinə getmişdim. Məndən nəzərlərini çəkmirdilər, nəbzimi yoxlayırdılar, hərarətimi ölçürdülər, dilimi göstərməyə məcbur eləyirdilər.

«Sənə elə gəlmirmi, o, bu gün bir az xəstədir?» - «Bu, işıqdandır». - «Hə, düzdür, arıqlayıb!» - «Ata, onu dünən çəkmişik axı!» Mən bu sayıq nəzərlər altında özümü cansız əşya, otaq bitkisi saymağa başlamışdım. Həmişə bu, məni yatağa uzatmaqla başa çatırdı. İstidən boğula-boğula, adyalın altında tərləyə-tərləyə artıq mənə nəyin – öz bədənimin, yoxsa xəstəliyimin – əziyyət verdiyini ayırd eləyə bilmirdim. Cənab Simonno, babamın həmkarı cümə axşamı günləri bizə nahar eləməyə gəlirdi. Mənim bu qız yanaqlı, iri bığlı, rənglənmiş kəkilli əlliyaşlı kişiyə çox paxıllığım tuturdu. Ann-Mari söhbətə qarışmaq üçün ondan Baxı sevib-sevmədiyini, dəniz qırağında yaşamağı xoşlayıb-xoşlamadığını, doğma şəhərini yaxşı niyyətlə xatırlayıb-xatırlamadığını soruşanda daxili nəzərlərini öz zövqlərinin qranit kütləsinə zilləyib fikirlərə qərq olurdu. Layiqli cavab tapıb həmin cavabını başını bulaya-bulaya soyuqqanlı halda anama çatdırırdı. Xoşbəxt adam! – fikirləşirdim. Ola bilsin, hər səhər bayram əhval-ruhiyyəsilə oyanır, bu uca nöqtədən öz qəlbinin bütün zirvələrinə, yamaclarına, dərələrinə nəzər

salıb, şirin-şirin bu sözləri deyir: «Həqiqətən də bu, mənəm, başdan-ayağa cənab Simonnoyam». Əlbəttə, məndən soruşanda özüm də nəyin xoşuma gəlib-gəlmədiyini, hətta səbəbini aydınlaşdırılmağı, deyə bilirdim. Amma özümlə tək qalanda öz zövqlərimlə bağlı təsəvvürlərimi itirirdim, sadəcə qeyd eləyə bilmirdim, onları tutmalı, itələməli, onlara həyat verməli olurdum. Hətta mal ətinə, yoxsa buzov ətinə üstünlük verdiyimə əmin deyildim. İçimdə sarsılmaz qaya kimi qərəzli fikirlər yığınıyla örtülmüş landşaft yaransaydı, çox şeylərdən keçərdim. Xanım Pikar dəbdə olan sözləri işə salıb babam barədə: «Şarl heyrətamiz varlıqdır», yaxud «Hər varlıq - müəmmadır» deyəndə hiss eləyirdim ki, məhkumam. Lüksemburq bağının daşları, cənab Simonno, çinar ağacları, Karlimami – bütün bunlar «varlıqdır». Mənsə varlıq deyildim, məndə nə mətanət, nə dərinlik, nə keçilməzlik vardı. Mən heç bir şey, yararsız şəffaflıq idim. Cənab Simonnonun dünyada daha çox lazım olan heykəl, sal qaya olduğunu öyrəndiyim gündən həsədim bütün hüdudları aşdı.

Yeni dillər institutunda bayram idi. Anam Şopeni çalırdı, yığışanlar qaz fənərlərinin titrək işığında əl çalırdılar. Babamın tələbi ilə hamı fransız dilində – ağır, xırıltılı, köhnədəbli bəlağətli, oratoriya kimi, təntənəli dildə danışırdı. Mən ayağım döşəməyə dəymədən əldən-ələ keçirdim. Alman romançı qadın məni öz ağuşunda boğduğu elə həmin dəqiqədə babam öz əzəməti yüksəkliyindən düz qəlbimə dəyən hökm verir. «Amma burda kimsə çatışmır. Mən cənab Simonno barədə danışıram». Romançı qadının ağuşundan canımı qurtarıb küncə qısıldım, ətrafdakılar məndən ötrü yox oldular. Qəfildən çoxsəsli dairənin ortasında dirək gördüm – bu, şəxsən burada olmayan cənab Simonnonun özü idi. Möcüzəli yoxluq onu dəyişdirmişdi. İnstitut axşamına çoxları gəlməmişdi – şagirdlərdən bəziləri xəstə idi, başqaları müxtəlif bəhanələrlə dəvətdən boyun qaçırırdılar, amma bütün bunların hamısı heç bir rol oynamayan təsadüfi faktlar idi. Tək bircə cənab Simonno çatışmırdı. Onun adını çəkməyə bəndiydilər – boşluq ağzınacan dolmuş zala sancıldı. Mən heyrətə gəldim: sən demə, insanın öz yeri olarmış. Ona məxsus olan yeri. Yeri gəlmişkən, əgər cənab Simonno qəfildən aralanmış yerdən çıxsaydı, əgər hətta qadınlar onun əlini öpmək üçün

cumsaydılar, bu, məni ayıldardı. Cismani mövcudluq həmişə adamı ruhdan salır. Nöqsansız, mənfi böyüklükdə saflığa çatan Simonno brilyantın sonsuz təmizliyinə malik idi. Məhz buna görə də mənim qismətimə həmin dəqiqə yerin müəyyən məntəqəsində, müəyyən adamların arasında olmaq, burda olduğumu anlamaq düşmüşdü, istəyirdim ki, yer kürəsinin bütün başqa məntəqələrindəki bütün adamlar yoxluğumu su kimi, çörək kimi, hava kimi hiss etsinlər.

Bu söylənməmiş istək dilimdən də çıxdı. Şarl Şveytser hər bir hadisədə qəlbindəki, sağlığında anlamadığım, yalnız indi anlamağa başladığım dərdi boğmaq üçün zərurət tapırdı. Göy qübbəsi onun bütün həmkarlarının çiyinlərində dururdu. Həmin atlantlar arasında filoloqlar, linqvistlər, cənab Lion-Kan, «Pedaqoji jurnal»ın baş redaktoru vardı. Həmin adamların lazımlılığını tam aydınlaşdıraq deyə, babam onlar barədə nəsihətamiz tərzdə danışırdı. «Lion-Kan – öz işinin ustası idi. Onun yeri akademiyadadır», yaxud «Şurer qocalır, ümidvaram ki, onlar onun istefasına qəbul eləyəcək qədər axmaq deyillər; fakültə əvəzolunmaz itkiyə məruz qalar». Bu gün-sabah Avropanı yasa batırıb bu dünyadan köçəcək əvəzolunmaz qocalarla əhatə olunmaq həm də vəhşilikdir, ağlagəlməz bir şeyin baş verməsi üçün nələrdən keçməzdim, qəlbimdə də hökm səslənirdi: «Balaca Sartr öz işinin ustası idi. Əgər o olmasa, Fransa ağır itkiyə məruz qalar».

Burjua uşağı üçün anlar bitib – tükənməzdir – fəaliyyətsizlikdə ötüb-keçirlər. Mən dərhal, əvvəlcədən, həmişəlik atlant olmaq istəyirdim, atlant olmaq üçün zəhmət çəkmək lazım gəldiyini ağlıma da gətirmirdim. Məncə, hüququmu təsdiq eləyəcək hökm, göstəriş gərəkdir. Amma qanunvericiləri hardan alasan? Böyüklərin nüfuzu tələxəkliklə sarsılmışdı. Həmin hakimlərdən imtina elədim, başqalarısa yox idi.

Mən çaşqın körpə, niyyətsiz, məqsədsiz varlıq, Allahdan işığı, pənahı olmadan bir yalandan o biri yalana doğru uça-uça ailə komediyasında sığınacaq tapırdım. Öz yararsız cismimdən, onun ölgün səmimiyyətindən xilas olurdum. Buraxılmış canavar balası hər hansı maneəyə rast gəlib dayanmağa bənd idi ki, balaca çaşqın tələxək küt heyrətə düşürdü. Rəfiqələri anama dedilər, mən qüssəliyəm, nəyisə arzulayıram. Anam gülə-gülə

məni sinəsinə sıxdı: «Təzə xəbərə bax! Axı mənim balam, həmişə sənsən, həmişə oxuyursan. Nəyə görə qüssələnmisən? İstədiyin hər şey var». O, haqlı idi: ərköyün uşaq qüssələnmir. Kral kimi darıxır. İt kimi darıxır.

Mən küçüyəm, əsnəyirəm, yanaqlarımdan göz yaşı axır, yaşın necə axdığını hiss eləyirəm. Mən ağacam, külək budaqlarımı xışıldadır, onları yüngülcə tərpədir. Mən milçəyəm, şüşənin üzəri ilə gəzirəm, sürüşürəm, təzədən yuxarı dırmaşıram. Hərdənbir nəvaziş kimi, vaxtın hərəkətini duyuram, bəzən-daha çox zamanın yerində necə dayandığımı hiss eləyirəm. Titrək dəqiqələr məni gömüb üstümə uzun müddət can çəkişirlər, o dəqiqələr solub-saralıblar, bununla belə, hələ sağdılar, onları süpürüb atırlar, əvəzinə başqaları, daha təzə-tərləri, amma elə o cür bəhrəsizləri gəlir; bu qüssə xoşbəxtlik adlanır. Anam mənə deyir, dünyada ən xoşbəxt uşağam, ona necə inanmaya bilərəm; axı bu həqiqətdir! Öz tənhalığım barədə heç vaxt fikirləşmirəm – birincisi, bunun necə adlandığını bilmirəm, ikincisi, onu hiss eləmirəm, həmişə adamların arasındayam. Amma bu, həyatımın toxumasıdır, fikirlərimin əsasıdır, sevinclərimin axarıdır.

* * *

Beş yaşım olanda ölümü tanıdım. O, eyvanda gəzişə-gəzişə, üzünü şüşəyə söykəyə-söykəyə məni izləyirdi – onu görürdüm, amma səsimi çıxarmağa cəsarət eləmirdim. Bir dəfə ona Volter bulvarında rast gəldik, başdan-ayağa qara geyinmiş ucaboy ağlıkəm qarı idi; yanıma çatanda donquldandı: «Bax, indicə səni cibimə qoyacağam». Başqa səfər o, boşluq forması aldı. Hadisə Arkaşonda baş verdi. Karlimami Ann-Mari ilə xanım Düpon və onun Qabriel adlı bəstəkar oğluna baş çəkməyə gəlmişdi. Məni bağda qoydular. Qabrielin xəstə olduğu, tezliklə öləcəyi barədə söhbətlərdən qorxub evin ətrafında dolaşa-dolaşa həvəssiz halda at-at oynayırdım, qəfildən qara çuxur gördüm – bu, zirzəmi idi, kimsə ağzını almışdı. Məndə açıq-aşkar qaçılmazlıq öncəduyumunun hardan yarandığını bilmirəm, dala atıldım, var gücümlə bağıra-bağıra qaçıb getdim. Həmin vaxt hər gecə yatağımda ölümlə görüşü gözləyirdim.

Bu, bütöv bir mərasim idi: sol böyrüm üstündə, üzüm çarpayıların arasındakı keçidə doğru uzanmalı, təpədən-dırnağa əsə-əsə onunla görüşə hazırlaşmalıydım, ölüm - hörüklü çox adi skelt də gəlirdi. Bundan sonra sağ böyrüm üstə çevrilmək hüququm var idi, o uzaqlaşırdı, mən də rahatca yata bilərdim. Gündüzlər onu ən gözlənilməz üzlərdə tanıyırdım: fransızca «Meşə hökmdarı»nı oxumağa bənd idim ki, qulaqlarımı tıxayırdım; «Əyyaş və arvadı» təmsilini oxuyub yarım il Lafonterin kitabını açmırdım. O, iyrənc məxluqsa Merimenin cildində gizlənib üzərimdə peyda olurdu, boğazımdan yapışmaq üçün «İll Venerası»nı oxumağımı gözləyirdi.

Amma məni nə dəfnlər, nə məzarlar qorxudurdu. Düz həmin vaxt nənəm Sartr xəstələnib öldü. Anamla onu hələ canı üstündə olanda haqladıq. Məni o uzun kədərli ömrün söndüyü yerdən aralamağı lazım bildilər. Ailənin dostları öz himayələrinə aldılar, sığınacaq verdilər, bu cür hadisələrə uyğun nəsihətamiz, çox darıxdırıcı oyunlarla təmin elədilər. Var gücümlə nümunəvi kədər göstərib oynayır, oxuyurdum, amma heç bir şey hiss eləmirdim. Cənazənin arxasınca qəbiristanlığa gedəndə də heç nə duymurdum. Ölüm öz yoxluğu ilə bərq vururdu – vəfat eləmək ölmək deyildi, hətta bu qarının qəbir üstə daşa çevrilməsi də xoşuma gəlirdi. Bunda dəyişmək, varlığa özünəməxsusluq vardı, eynilə, elə bil, mənim qəfildən təntənəli surətdə cənab Simonnoya çevrilməyim idi. Buna görə mən həmişə İtaliya qəbiristanlıqlarını sevmişəm, indi də sevirəm: insanın qəribə obrazı kimi, qəbirüstü daş, onun üzərindəsə mərhumun bu dünyadakı görkəmini xatırladan şəkli ilə medalyon. Yeddi yaşım olanda kəmfürsət ölümlə qəbirlərin arasından başqa hər yerdə rastlaşırdım. Onu necə təsəvvür eləyirdim? Canlı, təhlükəli məxluq kimi. Məxluq ağılsızdır, təhlükənisə belə qavrayırdım: əsnək gizlicə məni hər yerdə, gündüz işığında, ən parlaq gün altında tuta, alıb apara bilərdi. Ailənin qorxunc əməli vardı, ağlını itirən adamlara məlum olurdu; ölmək – dəlilik həddinə çatmaq, onda çürümək idi. Mən daim qorxu içində yaşayırdım, bu, lap həqiqi əsəb xəstəliyi idi. Onu belə izah eləyirəm: ailənin ərköyünü, ilahinin bəxşişi olsam da, öz gərəksizliyimi daha artıq hiss eləyirdim ki, evdə usanıb-yorulmadan mənə uydurulmuş zərurət sırıyırdılar. Başa düşürəm, artığam, deyəsən, yox olmaq lazımdır. Mən daim ölüm gözləyən vərəm

xəstəsi idim. Başqa sözlə, məhkum olunmuşdum, hökmü hər dəqiqə yerinə yetirə bilərdilər. Mənsə var gücümlə mövcudluğuma dəyər verdiyimə görə yox, məhz qətiyyən dəyər vermədiyimə görə müqavimət göstərirdim – həyat nə qədər mənasızdırsa, ölüm barədə fikir də o qədər dözülməzdi.

Allah məni fəlakətdən xilas eləyə bilərdi. Mən özümü Yaradanın əli ilə çəkilmiş şedevr kimi duya bilərdim. Ümumdünya konsertində mənə onun öz niyyətini və gərəkliliyimi təsdiq eləməyi məsləhət bilənəcən səbrlə gözləyirdim.

Mən dini öncədən duyurdum, ona bel bağlayırdım, onda şəfa tapa bilərdim. Əgər məni dindar olmağa qoysaydılar, onu özüm uydurardım. Amma qoymadılar.

Katolik əqidəsi ilə tərbiyə olunub dərk elədim ki, Qadir Allah məni öz istəyincə yaradıb; bu, bütün ümidlərimi üstələdi. Amma vaxt ötürdü, mənə verdikləri mücərrəd Allahda ruhumun istədiyini tanıya bilmirdim: mənə yaradan lazım idi, amma ali himayədar eləyirdilər. Bu bir Allahın iki üzü idi, amma bundan xəbərim yox idi. Əsib-coşmadan riyakarların səcdəgahına xidmət eləyirdim, rəsmi doktrina öz əqidəmi axtarmaq həvəsimi əlimdən aldı.

Bəxtim gətirdi! Sadəlövhlük və ölgünlüklə kübrələnmiş ruhumda əqidə tumları gözəl cücərtilər verərdi; haqqında danışdığım anlaşılmazlıq baş verməsəydi, rahib olardım. Amma yüksək məqamlı Volter burjuaziyası mühitində doğulan, yüzillik ərzində cəmiyyətin bütün təbəqələrini bürüyən xristianlıqdan uzaqlaşma prosesi ailəmdən yan ötmədi. Əgər ümumi əqidə zəifləməsi baş verməsəydi, əyalət katolik xanımı Luiza Giyemen sınıb lüterana ərə getməzdi. Təbii ki, ailəmizdə hamı nəzakət xətrinə dindar idi.

Kombanın nazirliyindən yeddi-səkkiz il sonra nümayişkaranə qeyri-dindanrlıq hələ də abırsızlıq, cilovlanmayan ehtirasdır. Ateist – «bir söz atmaması» üçün qorxudan qonaq çağırılmayan qəribə adam, çinli öz həyatını bütün mümkün qadağalara zəhərləyən, kilsədə könüllü ibadət eləmək, öz qızlarını nişanlamaq, yaxud istəyincə ağlamaq imkanından məhrum eləyən, doktrinasının ədalətliliyini əxlaqların saflığıyla sübuta yetirmək öhdəliyini öz üzərinə götürən, öz xoşbəxtliyi rahatlığı əleyhinə çox

qızğıncasına çıxan, ölümqabağı təskinlikdən boyun qaçıran fanatikdir; Allaha vurğun elə düşgündür ki, hara baxırsa, orda onun varlığını görür, onun adını çəkməmiş ağzından bir kəlmə çıxarmır, o, dini əqidəsi olan cənabdı. Dindarlarda belə şeylər yoxdur – mövcud olduğu iki min il ərzində xristian həqiqətləri aşkara çıxmağa macal tapdılar, həmin hərəkətlər hamının malına çevrildilər, onlar keşişin gözlərində, kilsənin yarıqaranlığında bərq vurmalı, qəlblərə nur salmalı idilər, amma kimsənin onlara görə məsuliyyəti öz üzərinə götürməyə ehtiyacı yox idi – o həqiqətlər hamının sərvəti idi, yaxşı cəmiyyətlərdə Allaha, onun barəsində danışmamaq üçün inanırdılar. Din nə qədər dözüm göstərirdi! Nə qədər rahatdır! Xristianın ibadətə getməməyə, uşaqlarını kilsə qaydasıyla nişanlanmamağa ixtiyarı vardı, Sen-Sülpisin bazar mələikələrini ələ sala, «Lolnqrin»dən toy marşına göz yaşı tökə bilərdi. Ondan nə günahsız ömür sürmək, nə cəsarətlə ölmək, nə də yandırılmaq tələb olunurdu. Bizim çevrədə, bizim ailədə əqidə yalnız və yalnız fransız azadlığının gurultulu titulu idi. Başqaları kimi, sərbəstliyimi təmin eləmək üçün məni də xaç suyuna saldılar; xaç suyuna salmadan boyun qaçırsaydılar doğmalar ruhumu zorladıqlarını hesab eləyərdilər. Mən kağız üzərində katolik idim, azaddım, hamı kimi idim. «Böyüyür – doğmalarım deyirdilər, - istədiyi kimi hərəkət eləyir». O vaxt əqidəni qazanmaq itirməkdən daha çətin sayılırdı.

Şarl Şveyster Böyük Tamaşaçıya ehtiyac duymamaq üçün həddən artıq böyük tələxək idi, amma Allahı nadir hallarda – yalnız həyatının xüsusilə kəskin dəqiqələrində yadına salırdı. O, ölüm yatağında tapacağına inanıb Allahı özünün gündəlik varlığından kənarda saxlayırdı. Ailə çərçivəsində itirilmiş Fransa əyalətlərinə və öz antipapa qardaşlarının həyatsevər coşğunluğuna sədaqətini qoruyub, katolikliyi ələ salmaq fürsətini buraxmırdı. Masa arxasında Lüter ruhunda zarafatlar eləyirdi. Lurduya hamıdan çox çatırdı: Bernadette «təmiz alt paltarında arvad» görürdü, iflici tasın içinə salırdılar, çıxarandasa «onun hər iki gözü görürdü». Babam başdan-başa bitlərlə örtülmüş müqəddəs Labranın, dili ilə xəstələrin nəcisini yalayan müqəddəs Mariya Alakokun həyatını danışırdı. Onun diş ağartması işimə yarayırdı; anadangəlmə dünya nemətlərinə malik olmadığımdan, onlardan uzaq olmağa daha artıq meylli idim, yüngül

məhrumiyyətlərimi qismət saymaq məndən ötrü çətin deyildi. Mistisizm – həyatda öz yerini tapa bilməyənlər üçün fövqəldəst uşaqlar üçün yaradılıb. Şarl dini başqa rəngdə təqdim eləsəydi, məni əqidə yoluna itələyərdi, müqəddəsliyin qurbanı olardım. Amma babam ömrü boyu mənə dinə qarşı nifrət tələqin eləyirdi. Dini Şarlın gözləri ilə görürdüm, bu hiddətli mübtələlıq da məni öz vəcdlərinin zövqsüzlüyü ilə itələyirdi, cismə sadist nifrətlə qorxudurdu: müqəddəslərin hərəkətlərində smokinqini soyunmadan çimmək üçün dənizə girən ingilisin hərəkətindəki təki daha məna yox idi. Nənəm babamın lətifələrini eşidib özünü çaşmış kimi göstərirdi, ərini «kafir», «quqenotcığaz» deyə yamanlayırdı, barmaqlarına vururdu, amma şəfqətli təbəssümü məni tamam ayıldırdı.

Luiza heç bir şeyə inanmırdı, yalnız bədbinlik onu ateist olmağa qoymurdu. Anam mübahisəyə girməkdən boyun qaçırırdı, onun «öz xüsusi Allahı» vardı, ondan heç nə tələb eləmirdi – təki ona bir azca təskinlik versin.

Bütün bu didişmələr, düzdür, daha yumşaldılmış tərzdə beynimdə davam eləyirdi: mənim ikinci «mən»im, «qara paltarlı oxşarım» həvəssiz halda əqidə ehkamlarına qarşı çıxırdı. Eyni vaxtda həm katolik, həm protestant idim, məndə tənqid ruhu tabeçilik ruhu ilə birləşirdi. Amma əksini desəm, bütün bunlar içimdə ölümcül bezginlik doğururdu; mən əqidəsizliyə Kilsə ilə mübarizə üzündən yox, mübarizəyə nənəmin və babamın etinasızlığı sayəsində gəlmişdim. Bununla belə, əvvəlcə inanırdım: yatmazdan əvvəl gecə köynəyində, çarpayının üstündə dizlərimi qatlayıb, əllərimi çarpazlayıb dua oxuyurdum, amma gündən-günə Allah barədə daha az düşünürdüm. Cümə axşamı günləri anam məni abbat Dibildonun məktəbinə aparırdı – orada başqa tanımadığım uşaqlarla birgə müqəddəs tarix kursu keçirdim. Babamın səyləri əbəs getmədi: mən katolik ruhanilərə qəribə heyvanlara baxan kimi baxırdım. Onlar əbəs yerə əqidəmin ruhani atalarıydılar, əbaları, evlənməmələri üzündən mənə keşişlərdən daha qəribə görünürdülər. Şarl Şveyster şəxsən tanıdığım abbat Dibildoya hörmət eləyirdi, - «Abırlı adamdır!» - amma babamın antiklerikalizmi özünü elə aşkar göstərirdi ki, məktəbin həyətinə düşmən düşərgəsinə girən təki girirdim. Şəxsən mən Allah xidmətçilərinə nifrət

bəsləyirdim; onlar mənimlə söhbət eləyəndə müqəddəsliklə ütülənmiş üzlərində – anamla dostluq eləyən, musiqi çalan xanım Pikar da digər ahıl qadınlarda qiymətləndirməyə adət elədiyim hər şey – mehriban ifadə, şəfqətli səmimiyyət, laqeydlik peyda olurdu; içimdə babamın nifrəti dil açırdı. Məni dostu abbatın himayəsinə etibar eləmək ilk dəfə onun ağlına gəldi, amma cümə axşamı günləri axşam evə gətirdikləri balaca katolikə narahatlıqla nəzər salırdı, papizmin məni yoldan çıxarıb-çıxarmadığını gözlərimdən oxumaq istəyirdi, nəvəsini həvəslə yoxlayırdı. Bu cür ikimənalı vəziyyət cəmi yarım il sürdü. Günlərin bir günü müəllimimə Allahın şövqü haqqında yazımı verdim; yazı doğmalarımı vəcdə gətirmişdi, anam da öz əli ilə üzünü köçürmüşdü. Amma məni yalnız gümüş medala layiq gördülər. Ümidsizliklə saxtakarlıq yoluna təhrik olundum. Əvvəlcə xəstəliyimə görə, sonra tətil üzündən abbat Dibildonun məşğələlərinə getməyə ara verdim, şəhərə qayıdandasa onun məktəbinə getməkdən ümumiyyətlə, imtina elədim. Bundan sonra hələ uzun illər İlahi ilə rəsmi münasibətlər saxlayırdım – artıq evlərlə rastlaşırdım. Yalnız bir dəfə məndə elə bir hiss yarandı ki, O var. Kibritlə oynayanda balaca xalçanı yandırdım. Bax, onda da öz cinayətimin izlərini itirməyə çalışdım. Qadir Allah qəfildən məni gördü – baxışlarını kəllə qutumun içində və əllərimdə hiss elədim; qorxulu görkəmlə vanna otağında ora-bura qaçırdım – az qala canlı hədəf idim. Məni çaşqınlın xilas elədi: onun həyasız abırsızlığından hiddətləndim, babam kimi «Lənət şeytana, lənətə gələsən, lap lənətə gələsən!» donquldana-donquldana Allaha asi olmağa başladım. Həmin vaxtdan Allah bir dəfə də mənə nəzər salmadı.

Baş tutmayan işimin tarixçəsini danışdım: Allaha ehtiyacım vardı, onu mənə verdilər, mən də elə onu axtardığımı anlamadan qəbul elədim. O, qəlbimdə kök atmayıb bir müddət orda gəzdi, sonra bezdi. İndi, məndən onun barəsində soruşanda keçmiş gözələ rast gələn köhnə arvadbaz kimi, mehribancasına gülürəm: «Əlli il qabaq bizi bir-birimizdən uzaq salan bu anlaşılmazlıq, səhvlər, mənasız təsadüflər olmasaydı, aramızda sevgi macərası olardı».

Amma sevgi macərası alınmadı. Bununla yanaşı, işlərim get-gedə daha da pisləşirdi. Babamı uzun birçəklərim əsəbləşdirirdi. «Bu oğlandır, - o, Ann-Mariyə

deyirdi, - sənsə onu qız eləyirsən. İstəmirəm ki, nəvəm islanmış toyuq kimi böyüsün». Ann-Mari təslim olmurdu: məncə, o, doğrudan da, qız olmağımı istəyirdi. Ondan ötrü həmin qızda öz kədərli uşaqlığını dirildib xoşbəxt eləməsi necə səadət olardı. Amma göy onun dualarını eşitmirdi, o da başqa çıxış yolu tapdı: mənim cinsim mələklərinki kimi, aydın bilinmirdi, amma onda qadınlıq özünü göstərirdi. Özü mehriban olan anam məni nazlanmağa öyrəşdirdi, tənhalıq coşqun əməllərə nifrət yaradıb tərbiyəmi axıra çatdırdı. Bir dəfə – onda yeddi yaşım vardı – babamın səbri daşdı. O gəzməyə getdiyimizi söyləyib əlimdən yapışdı. Amma tini burulmamış məni bərbərxanaya itələyib dilləndi: «İndi anana sürpriz eləyəcəyik». Sürprizləri sevirdim. Belə şeylər bizdə az olmurdu. Zarafatyana, təsirli hiylələr, gözlənilməz hədiyyələr, pıçıldaşma, sonra qucaqlaşıb sirləri teatrsayağı faş eləmə – gündəlik güzəranımız belə idi. Kor bağırsaqdan əməliyyat edilməli olanda anam həyəcandan qurtarmaq üçün bunu Karldan gizlətdi. Ögüst dayım bizə pul verdi, gizlicə Arkaşondan çıxıb getdik, Kurbevuanın klinikasında gizləndik. Əməliyyatdan iki gün sonra Ögüst babamın yanına getdi: «Sənə yaxşı xəbər vermək üçün gəlmişəm». Onun şəfqət dolu təntənəli səsi Karlı yanıltdı. «Evlənirsən!» - «Yox» - dayım gülə-gülə cavab verdi, - amma hər şey gözəl qurtardı» - «Hə, hər şey?» və i.a. Bir sözlə, bizdə teatr effektləri həmişə hazır yemək idi, mən də birçəklərimin qəfildən gözləmədiyim halda parıltısını itirib boğazımın ətrafına bağladıqları ağ dəsmalın üstünə necə sürüşdüyünə və döşəməyə töküldüyünə laqeydliklə baxırdım. Evə təntənə içində, daz qırxılmış halda qayıtdım.

Səslər eşidildi, amma ardınca öpüşlər gəlmədi, anam da öz dərdini ağlamaq üçün uşaq otağına qapandı: onun qızını dəyişib oğlan eləmişdilər. Amma əsas dərd başqa şeydədir – başımda saç olduğu müddətdə anam mənim açıq-aşkar eybəcərliyimi öz-özündən gizlədə bilirdi. Bununla yanaşı sol gözüm artıq zülmətə büründü. İndi o, həqiqətin üzünə baxmalı olurdu. Elə babam özü də çaşmışdı: ona gözlərinin işığını etibar eləmişdilər, o isə evə qurbağa gətirmişdi – bu, qocanın qəlbini nurlandıran vəcdlərin əsasını sarsıdırdı. Nənəm onu istehzayla süzürdü. «Karl özü də şad deyil – burnunu saxlayıb gəzir», - o, qısaca dilləndi.

Ann-Mari qəlbən xeyirxah olduğundan, dərdinin səbəbini məndən gizlətdi. Mən o səbəbi – qəddar şəkildə – yalnız on iki yaşında öyrəndim. Bununla belə, özümü narahat hiss eləyirdim. Tez-tez evdəki dostlarımın mərhəmətli, qayğılı baxışlarını duyurdum. Gündən-günə camaatın xoşuna gəlmək mənə daha da çətin olurdu – var gücümü sərf eləməli olurdum, effektlərə əl atırdım, aldadırdım. Qocalmaqda olan aktrisanın əzabları mənə aydın oldu: başa düşdüm ki, başqaları da uğur qazana bilərlər. Yaddaşımda daha sonralar baş verən, amma çox xarakterik olan iki xatirə qalıb.

* * *

Doqquz yaşım var, yağış yağır, Nuartabl otelində on uşağıq – bir yuvada on canavar balası. Babam bizi bir şeylə məşğul eləmək üçün on iştirakçısı olan balaca patriotik pyes yazıb tamaşaya qoymağa razı oldu. Dəstəmizdən ən böyüyü Bernara Ştruthof atanın, xeyirxah qəlbli deyingənin rolu düşdü. Mən gənc elzaslını oynayıram: atam Fransa vətəndaşlığı seçib, mən onun yanına getmək üçün gizlicə sərhədi keçirəm. Məni ağlıma hesablanmış atmacalarla təmin elədilər, - sağ əlimi uzadır, başımı aşağı əyir, riyakar sifətimi qoltuğumun altına soxub pıçıldayırdım: «Əlvida, əlvida, sevimli Elzasım!». Məşqlərdə mənə dedilər, heyrətamizəm – bu, məni təəccübləndirmirdi. İlk tamaşa bağda oldu. Otelin divarı və hər iki tərəfindəki gərməşov kollar səhnənin hüdudları idi. Valideynlər həsir kreslolarda otururdular. Uşaqlar necə gəldi şənlənirdilər – hamı, məndən başqa. Pyesin uğurunun tamamilə mənim əlimdə olduğuna inandığımdan ümumi işin naminə xoşa gəlmək üçün dəridən-qabıqdan çıxırdım. Belə hesab eləyirdim ki, hamı ancaq mənə baxır, həddən artıq səy göstərirdim – alqışlar daha az əzilib-büzülən Bernara qismət oldu. Bu, mənə çatdımı? Tamaşadan sonra Bernar tamaşıçılara baş çəkir, ianə toplayırdı. Gizlicə arxadan ona yaxınlaşdım, saqqalından dartdım, saqqal əlimdə qaldı. Bu, hamının gülməsinə hesablanmış başçının dəcəlliyi idi. Özümü qalib hesab eləyirdim, qənimətimi əlimdə yelləyə-yelləyə, gah bu, gah o biri ayağım üstündə atılıb-düşürdüm. Kimsə gülmədi. Anam əlimdən yapışıb tələsik qırağa çəkdi. «Sənə nə oldu? – tənə ilə soruşdu. – Çox gözəl saqqaldır. Hamı təəssüfləndi!». Bu zaman nənəm son xəbərlərlə özünü yetirdi: Bernarın anası paxıllıq barədə nəsə deyib.

«Görürsən, irəli çıxanda məsələ necə olur». Mən onlardan qaçıb otağa qapandım. Güzgünün qabağında dayanıb uzun müddət üz-gözümü əydim.

Xanım Pikar bu fikirdə idi ki, uşaqlara hər şeyi oxumaq olar. «Yaxşı yazılmış kitab ziyan vura bilməz». Nə vaxtsa onun yanında «Madam Bovari»ni oxumağa icazə istədim, anam da həddən artıq incə səslə cavab verdi: «Əzizim, əgər bu cür kitabları indi oxusan, böyüyəndə neyləyəcəksən?» - «Onları yaşayacağam». Bu sözün payına ən səmimi, daha uzunmüddətli uğur düşdü. Hər dəfə bizə qonaq gələndə xanım Pikar ona eyham vururdu, məmnun qalmış anamsa tənə ilə səslənirdi: «Susun görək, Blanş, onu, doğrudan da, korlayırsınız!». Mən bu solğun kök qadını, ən minnətdar tamaşıçımı sevir, həm də nifrət eləyirdim. Onun gəldiyini xəbər verən kimi, mənə ilham gəlirdi.

1915-ci ilin noyabrında o, mənə dəri cildli, qızılı kəsiyi olan qeyd dəftərçəsi bağışladı. Babam evdə yox idi, biz də onun kabinetində oturmuşduq; qadınlar öz aralarında 1914-cü ildə olduğundan bir qədər ciddi söhbət eləyirdilər, çünki müharibə gedirdi; pəncərələrə çirkli-sarımtıl duman söykənmişdi, havadan köhnə tütün qoxusu gəlirdi. Kitabçanı açıb əvvəlcə çaşdım. Elə bilirdim, bu, roman, ya da nağıldır, amma alabəzək vərəqlərdə iyirmi dəfə təkrarlanan eyni bir sual sırası tapdım. «Onu doldur, – xanım Pikar dedi, - ver, dostların da doldursunlar. Vaxt keçdikcə xatırlamaqdan xoşun gələcək». Başa düşdüm ki, mənə özümü göstərmək imkanı verilir, ləngimədən işə başlamaq qərarına gəldim. Babamın yazı masasının arxasında oturdum, kitabçası onun bu qovluğunun üstünə qoydum, qabın içindən qələmi götürüb qırmızı mürəkkəbli qaba batırdım, yazmağa başladım, bu vaxt qadınlar sözlü-sözlü baxışırdılar. Bir göz qırpımında «yaşımdan ağıllı» cavablar arxasınca düşüb öz ruhumdan yüksəklərə qalxdım. Bədbəxtlikdən suallar kömək eləmirdi. Məndən nəyi xoşlayıb-xoşlamadığımı, hansı rəngi daha çox sevdiyimi, hansı ətirə üstünlük verdiyimi soruşurdular. Şişirtmədən öz zövqlərimi yazırdım, qəfildən özümü göstərməyə fürsət yarandı. «Ən müqəddəs arzunuz hansıdır?» Tərəddüd eləmədən cavab verdim: «Əsgər olub öldürülənlərin intiqamını almaq. Bundan sonra davam eləmək üçün həddən artıq coşub kreslodan yerə atıldım, əsərimi böyüklərə apardım. Baxışlar intizarla doldu, xanım Pikar eynəyini taxdı,

anam onun çiyninə doğru əyildi, hər ikisinin dodağına qabaqcadan təbəssüm qondu. Hər ikisi başlarını eyni vaxtda qaldırdı – anam qızardı, xanım Pikar kitabçanı mənə uzatdı: «bilirsənmi, dostum, bu, yalnız səmimi cavab verəndə maraqlıdır». Yerə girməyə hazır idim. Uğursuzluğum göz qabağındaydı: mənə vundernind rolu nəzərdə tutulmuşdur, mənsə gənc qəhrəman rolu oynayırdım. Bədbəxtliyimdən qadınların heç birinin cəbhədə yaxın adamı yox idi, hər bir qəhrəmanlıq onların kamil təbiətlərində təəsürat oyatmırdı. Qaçıb getdim, üz-gözümü əymək üçün güzgüyə doğru atıldım. İndi başa düşürəm ki, bu hərəkət məndən ötrü nəfəslik idi – əzələ mühasirəsi ilə əzabverici utancaqlığını iflic eləməyə çalışırdım. Üstəlik, üz-göz əymələr rusvayçılığımı ən yüksək həddə çatdırırdı, beləliklə də, məni ondan qurtarırdı; ağlamaqdan qaçmaq üçün özünüalçaltmaya baş vururdum, özümü necə olursa-olsun, xoşa gəlmək, ondan sui-istifadə eləmək imkanından məhrum eləyirdim. Güzgü məndən ötrü çox qiymətli kömək göstərirdi, ona özümü eybəcər olduğuma inandırmağı tapşırırdım. Əgər bu, güzgüyə nəsib olurdusa, kəskin utanc öz yerini mərhəmətə verirdi. Amma başlıcası uğursuzluq nəticəsində öz yaltaqlığımı üzə çıxarıb, ona doğru bütün yolları kəsməyə, adamlardan imtina eləməyim və onların məndən əl çəkməsi üçün özümü eybəcərləşdirməyə çalışırdım. Mən xeyir komediyasına qarşı şər komediyasını qoyurdum. İoas öz üzərinə Kvazimodo rolunu götürürdü. Sifətimi dəyişib, qırışdırıb tanınmayacaq qədər əyir, keçmiş təbəssümlərin izini silirdim.

Dərman xəstəlikdən daha zərərli olurdu. Şöhrətdən, şərəfsizlikdən qaçıb öz əsl «mən»imin tənhalığında sığınacaq tapırdım, amma mənim «mən»im yox idi, qəlbimin dərinliklərində çaşqın simasızlıq tapırdım. Gözlərimə akvariumun şüşəsinə toxunan mantiyasını özünün yumşaq qatlarına yığan və zülmətdə əriyib-itən meduza görünürdü. Gecə düşdü, bənövşəyi buludlar son təcəssümümü bürüyüb güzgüdə üzdülər. Mən alibidən məhrum olub öz-özümə sıxılmışdım. Zülmətdə qeyri-müəyyən çaşqınlıq, şaqqıltı, nəbz döyünməsi – bütün varlıqlardan ən qorxuncu, eyni zamanda qorxmadığım canımdan-qanımdan olan yeganə məxluq duyurdum. Qaçıb canımı qurtardım, təzədən köhnə təlxək roluma qayıtdım. Amma əbəs yerə – güzgü mənə çoxdan məlum həqiqəti

təsdiq elədi: eybəcərliyim saxta deyil. Bu kəşfimdən heç özümə gələ bilmədim.

* * *

Hamının sevdiyi, heç kəsə lazım olmayan mən, müşkül maraq dairəsində qalırdım: yeddi yaşımda özümdən başqa bel bağlayacağım bir kəs yox idi, özümsə hələ mövcud deyildim – doğulan yüzillik kədərin göründüyü insansız güzgü sarayı vardı. Mən özümdə öz böyük tələbatımı ödəmək üçün doğulmuşdum. Müəyyən dəqiqəyəcən otaq itinin şöhrətpərəstliyinə malik idim. Qürur dalanına qovulub qürurlu oldum. Bir halda ki, kimsənin mənə ciddi ehtiyacı yoxdur, bütün dünyaya gərəkli olmağı qərara aldım. Bundan gözəl nə ola bilər? Bundan sarsaq nə ola bilər? Düzünü desəm, sadəcə, çıxış yolum yox idi. Dovşansayağı səfərə çıxıb skamyada mürgüləyirdim, nəzarətçi məni itələyirdi: «Biletinizi göstərin!» Boynuma almalı oldum ki, biletim yoxdur. Bileti almaq üçün pulum da yoxdu. Əvvəlcə öz günahımı boynuma alırdım-sənədlərimi unudub evdə qoymuşam; vağzalda, artıq yadımda deyil, necəsə nəzarətçini aldatdım, - bir sözlə, vaqona qanunsuz yolla girdim. Nəzarətçinin hüququna qarşı çıxmağı ağlıma da gətirmirdim, ucadan onun vəzifəsinə hörmət elədiyimə and içirdim, əvvəlcədən hökmünə tabe olurdum. İndi, alçalmağın son pilləsində yeganə çıxış yolum – vəziyyəti öz xeyrimə dəyişməyim qalırdı; buna görə də nəzarətçiyə dedim, Fransanın, bəlkə də, bütün bəşəriyyətin maraqlarına toxunan böyük əhəmiyyətə malik gizli səbəblər Dijonda olmağımı tələb eləyir. Əgər məsələyə bu yeni nöqteyi-nəzərdən baxsaq, onda deyəsən, bütün qatarda məndən artıq gediş hüququna malik sərnişin yoxdur. Məlumdur ki, söhbət ümumi qanunvericiliyə zidd olan ali hüquqdan gedir, amma nəzarətçi məni qatardan düşürüb ciddi ağırlaşmalar doğurur, bunun da məsuliyyəti onun üzərinə düşür. Ona öyüd verirdim, qatarda qayda yaratmaq xətrinə bütövlükdə kainatın nizamını pozmağı fikirləşmək ağıllı işdimi? Qürurum – binəsiblərin vəkili belə fikir yürüdür. Ciddiyyət hüququna yalnız biletli sərnişinlər malikdilər. Amma məsələni udub-udmadığımı heç cür anlaya bilmədim. Nəzarətçi susurdu. Təzədən izah eləməyə başladım. Hiss eləyirdim, nə qədər ki, hüdüləyib tökürəm, məni qatardan düşürməyəcəklər. Bizi Dijona aparan qatarda beləcə – birimiz ağzını açmadan, o birimiz yummadan – yolumuza davam

eləyirdik. Qatar, nəzarətçi və qanunu pozan – bütün hamısı mən idim. Mənim dördüncü, yeganə bir məqsədim – bütün bunların hamısını, heç olmasa, bir dəqiqəliyə unutmağı güdən quruluşçu rolum da var idi. Ailə komediyası işimə yarayırdı: məni, əlbəttə ki, zarafatla ilahi bəxşiş sayırdılar, mən də bunu anlayırdım. Hissiyatla boğazacan doymuş, göz yaşı axıdan və kiflənmiş halda xeyir verəcək bir bəxşiş olmağa çalışırdım. Ancaq kimə? Öz xidmətimi Fransaya, bütün dünyaya təklif eləyirdim. Adamlar vecimə deyildi, amma tamamilə onlarsız keçinmək mümkün olmadığından, qərara gəldim: qoy onların vəcd dolu göz yaşları məndən ötrü kainatın bəndəni məmnuniyyətlə qəbul elədiyinin əlaməti olsun. Fikirləşməyin ki, yekəxanalıqda günah işlədirdim, sadəcə, yetim, atasız böyüyürdüm. Kimsənin oğlu deyildim, özüm-özümə başçı idim – qürur hüdudu, binəsiblik hüdudu idim. Məni xeyirə can atmağım həyata səsləyirdi. Səbəb əlaqəsini asanlıqla görmək olar: ana nəvazişi ilə nazlandırılmış, məni törədən sərt Moiseyin yoxluğu ilə simasızlaşdırılmış, babamın sitayişiylə ərköyünləşdirilmiş mən əgər, heç olmasa, bir dəqiqəliyə ailə komediyasına inanırdımsa, hər şeydən əvvəl mazoxizmə məhkum tamamilə aşkar hədəf idim. Amma o, yalnız qəlbimin səthi ilə sürüşüb keçirdi, toxunulmamış dərinliklər öz mövcudluğuna bəraət tapmağı arzulayırdı. Adi sxemləri görməyə gözüm yox idi, selikli vəcdlərlə, heyranlıqla, öz nazlandırılmış, ərköyünləşdirilmiş cismimdən iyrənirdim, özümü-özümə qarşı qoymaqda tapırdım. Genişürəklilik xəsislik və rasizm kimi daxili yaralarımızı sağaldan dərmandır, amma axırda orqanizmin zəhərlənməsinə gətirib çıxarır. Gərəksizlikdən – yaradılanın taleyindən qaçmaq üçün özüm-özümə ən çıxılmaz burjua tənhalığı – yaradıcı taleyi hazırlayırdım. Amma bu qəfil sıçrayışı əsl qiyamla qarışdırmayın: cəlladlara qarşı qiyam eləyirlər, mən xeyirxah adamlarla əhatə olunmuşdum.

Uzun müddət onlarla əlbir oldum. Bununla belə, özləri məni ilahinin bəxşişi sayırdılar, mən verdikləri silahdan yalnız öz məqsədlərim üçün istifadə eləyirdim.

Bütün olub-keçənlər təxəyyülümdə baş verirdi; uydurulmuş uşaq kimi özümü uydurmalarla qoruyurdum. İndi altı yaşdan doqquz yaşacan necə yaşadığımı yadıma salanda əqli məşqlərimin daimiliyinə təəccüblənirəm – dekorlar dəyişirdi, proqram

dəyişilməz qalırdı. Yersiz səhnəyə tullanıb pərdənin arxasına qaçırdım, indi artıq lap vaxtında, məhz ailəmin səssiz-səmirsiz barəmdə danışdığı anda təzədən işığa qaçırdım.

***

İlk povestlərim «Göy quş»un, «Çəkməli pişik»in, Moris Buşorun nağıllarının adi təkrar idi. O povestlər kəllə çanağımın dərinliklərində öz-özünə nəql olunurdu. Amma az-çox cəsarətlənib onlara düzəlişlər eləməyə, özümə rol ayırmağa başladım. Nağıllar xüsusiyyətlərini dəyişməyə başladılar: mən pəriləri sevmirdim, onlar həyatda boşluğu usandırırdılar; sehrbazlıq qəhrəmanlığı sıxışdırıb çıxarırdı. Mən qəhrəmana çevrilirdim. Öz möcüzələrimdən əl çəkdim: indi söhbət əsir eləməkdən yox, özümü təsdiqləməkdən gedirdi. Ailəmdən imtina elədim: Karlimami ilə Ann-Mami uydurmalarımdan qovuldular. Hərəkətlərdən, duruşlardan boğaza doyub xəyallarımda əsl addımlar atırdım. Təxəyyülümdə qorxu və ölüm aləmi – «Sisəy», «Bir buna bax!», Pol d”””İvua aləmi yaradırdım; haqqında anlayışım olmayan ehtiyac və zəhməti təhlükə ilə əvəz eləyirdim. Amma qurulmuş dünya nizamına şübhə eləmək ağlıma da gəlmirdi. Ən gözəl dünyalardan birində yaşadığıma əmin halda öz vəzifəmi onu pis niyyətlərdən xilas eləməkdə görürdüm. Xəfiyyə və cəllad kimi hər axşam bütöv bir quldur dəstəsini məhv eləyirdim. Nə cəza ekspedisiyaları, nə fasiləsiz müharibələr xoşuma gəlirdi; qəzəb içində, kef üçün öldürmürdüm – günahsız qızları ölümdən xilas eləyirdim. O incə məxluqlar mənə gərək idi, onlar yanıma can atırdılar. Əlbəttə, köməyimə bel bağlaya bilməzdilər, çünki məni tanımırdılar. Ancaq qızları elə qorxunc təhlükələrə məruz qoyurdum ki, onları həmin təhlükələrdən yalnız bir nəfər – özüm çıxara bilərdim. Yeniçərilər əyri qılınclarını yellədəndə səhralara inilti yayılırdı, qayalar qumlara pıçıldayırdı: «Burda kimsə çatışmır! Sartr barədə danışırıq». Elə həmin saniyədəcə pərdənin arxasından çıxırdım, başları sağa-sola darayırdım, dünyaya qan axını içində doğulurdum. Ey polad xoşbəxtliyi! Mən özümü öz yerimdə hiss eləyirdim.

Amma ölmək üçün doğulurdum: xilas olunmuş qız öz atasının, markrafın ağuşuna

atılırdı, mənsə uzaqlaşırdım – ya təzədən artıq adama çevrilməli, ya da yeni qatillər axtarmalı olurdum. Tapırdım. Mövcud qayda-qanunun mübarizi kimi öz varlığımın bəraətini daimi ixtişaşlarda görürdüm. Şəri boğub onunla birgə ölür, o diriləndə dirilirdim – mən qanunpərəst – anarxist idim.

Qanlı əməllərim özünü gündəlik həyatda qətiyyən büruzə vermirdi. Yaltaq, sözəbaxan kimi qalırdım – xeyirxahları unutmaq o qədər də asan deyil. Amma hər axşam gündüz təlxəkliyimin axırını güclə gözləyib, uşaq otağına qaçır, duamı hüdüləyib adyalın altına dürtülürdüm – dəlisov igidliyimi əldə eləməyə tələsirdim. Qaranlıqda kişiləşirdim, böyük adam, güşənişin – atasız, anasız, soysuz, tayfasız, demək olar, adsız – olurdum.

Budur, od tutmuş damla qucağımda huşunu itirmiş qadın gedirəm; aşağıdan camaat qışqırır; şübhə yoxdur – bir dəqiqə sonra ev uçacaq. Həmin anda müqəddəs sözlər söyləyirdim: «Ardı var». «Orda nə mızıldanırsan?» - anam soruşurdu. Yayğın cavab verirdim: «Sonra nə olacağımı gözləyirəm». Doğrudanda, təhlükələrin ortasında, ən vəcdli həyəcan içində yuxuya gedirdim. Sonrakı axşam müəyyən olunmuş saatda təzədən öz damıma, yanğın alovları içinə, labüd ölümü qarşılamağa gedirdim. Qəfildən gözümə dünən görmədiyim su axıdan boru sataşırdı. İlahi, xilas olduq! Amma qiymətli yükümü buraxmadan borudan necə yapışım? Xoşbəxtlikdən, gənc qadının huşu özünə qayıdırdı, onu belimə götürürdüm, o, qollarını boynuma dolayırdı. Yox! Düşünüb-daşınıb onu təzədən özündən aparırdım, xilasında özünün rolu nə qədər az olsaydı, mənim xidmətlərimi o qədər artırırdı. Xoşbəxt təsadüf üzündən qəfildən ayaqlarımın altında kəndir peyda olurdu, yazıq qurbanı xilaskarına bərk-bərk bağlayırdım, qalanı bir dəqiqəyə həll olunurdu. Şəhərin ataları – mer, polis rəisi, brandmeyster – məni qucaqlayıb öpürdülər, medalla təltif eləyirdilər, özümə inamımı itirirdim, bundan sonra nə ilə məşğul olacağımı bilmirdim: bu adlı-sanlı vətəndaşların ağuşu həddən artıq babamın ağuşuna oxşayırdı. Hər şeyin üstündən xətt çəkib əvvəldən başlayırdım: gecə gənc qız köməyə çağırır, dava-dalaşın ortasına atılıram… *Ardı var*. Öz həyatımla təsadüfün dünyaya gətirdiyi heyvan balasını ilahinin elçisinə çevirəcək böyük anın

xətrinə risq eləyirdim, amma duyurdum ki, qələbəmi görə bilməyəcəyəm, onu sabahacan təxirə salmaq imkanına sevinirdim.

Ruhani rütbəsinə məhkum balaca məktəblinin başkəsən xəyallarına qatılması qəribə deyildimi? Doğrudanmı, öz həmvətənlərini vəba, yaxud yatalaqdan xilas eləyən qəhrəman həkim olmağı heç vaxt arzulamamışdım? And içirəm: heç vaxt. Bununla belə, nə qana həris, nə davakar idim, doğulan əsrin epik ahəngə köklənməsi mənim günahım deyil. Darmadağın olunmuş Fransa igidlərinin qüruruna şəfa verən xəyali qəhrəmanlarla qaynayırdım. Mən doğulmamışdan səkkiz il qabaq Rostanın Sirano de Berjerakı «döyüş şeypurunun çabrışı ilə sükutu dağıtdı». Bir qədər sonra qürurlu, əzabkeş Qartal balası peyda olub Faşodu* unutmağa məcbur elədi. 1912-ci ildə bu qəhrəman personajlar barədə anlayışım yox idi, amma usanmadan onların təqlidi ilə təmasda olurdum: özünün əfsanəvi qüvvəsi, gülməli cəsarəti, əsl fransız ağıl tərzi ilə 1870-ci ildə bizim batmağımıza günahkar olduğundan şübhələnmədən Sirano cinayətkarlarını – Artur Düpeni sevirdim. Milli təcavüzkarlıq və qisasçılıq ruhu uşaqları intiqamçılara çevirmişdi. Mən hamı kimi intiqamçı oldum: çaşqın diş qıcaması və istehza ilə – məğlubların dözülməz çatışmazlıqları ilə – bağırsaqlarını yerə tökməzdən qabaq düşmənlərimi ələ salırdım. Amma müharibələr məni darıxdırırdı: babama qonaq gələn mehriban almanları xoşlayırdım, yalnız şəxsi həyatdakı ədalətsizlikdən narahat olurdum. Nifrətdən məhrum qəlbimdə kollektiv əsintilər dəyişikliyə məruz qalırdılar – öz fərdi qəhrəmanlarıma onları yedizdirirdim. Amma necə olursa-olsun, üzərimdə damğa vardı – məğlubiyyətin nəvəsi idim, buna görə də belə axmaqcasına səhv eləmişdim, dəmir əsrimizdə həyatı epopeyasayaq qəbul eləmişdim. Mən əqidəli materialist kimi son günüməcən öz epik idealizmimlə duymadığım təhqirin, xəbərim olmayan utancın, bizə çoxdan qaytarılmış iki əyalət itkisinin günahını yuyacağam.

* * *

Ötən yüzilliyin burjuası teatra ilk gedişini ömrü boyu unutmurdu, onların müasiri olan yazıçılar həmin məqamı bütün təfərrüatlarınacan əbədiləşdirməyi özlərinə borc sayırdılar. Budur, pərdə qalxır, uşaqlara elə gəlir, saraya düşüblər. Qızıl, cah-cəlal,

işıqlar, ənlik-kirşan, səs-küy, dekorlar hər şeyi, – hətta cinayəti ilahiləşdirir. Səhnə qarşımızda öz babalarının o dünyaya göndərdikləri arisokratiyanı canlandırır. Fasilələrdə tamaşa zalının bölmələri uşaqlara ictimai ierarxiyanı əyani əyani şəkildə nümayiş etdirir – lojalarda onlara açıq çiyinlər, canlı zadəganlar göstərirlər. Uşaqlar, evə sarsılmış, ovqatları təlx olmuş, əl altından sosial təntənəyə, Jul Favrlar, Jul Ferrilər, Jul Qrevilər olmağa hazır halda qayıdırlar. Amma qoy yaşıdlarımdan kimsə kinematoqrafla ilk tanışlıq gününü desin. Biz yeni əsrin, öz axmaq hərəkətləri ilə bütün əvvəlki əsrləri ötüb keçməli ənənəsi olmayan və bu vəhşilik əsrini əvvəlcədən xəbər verən yeni sənətin, sadə xalq sənətinin əsrinə necə qədəm qoyduğumuzu hiss etmədik. «Həyatın dibində» yaranıb başbilənlər tərəfindən yarmarka əyləncələri qisminə aid edilmiş həmin sənət sanballı vətəndaşları heyrətə salıb özünü sadə aparırdı; kinematoqraf qadınlar və uşaqlar üçün əyləncə idi. Anam da onu sevirdi, amma bu barədə heç vaxt söz açmırdı – bol olan çörək barədə kim danışar? Biz kinematoqrafın mövcudluğunu yalnız lap gec gündəlik tələbatımız olanda dərk elədik.

Yağışlı havada Ann-Mari məndən hara getmək istədiyimi soruşurdu; biz uzun müddət sirklə Şatl Teatrı, Elektrik pavilyonu və Panoptikum arasında tərəddüd eləyirdik; axırda uydurma etinasızlıqla kinoya getməyi qərara alırdıq. Amma giriş qapısını açmağa bənd idim ki, Şarl kabinetinin astanasında görünürdü: «Hara gedirsiniz, uşaqlar?» - «Sinematoqrafa», - anam cavab verirdi. Babam qaş-qabağını sallayırdı, anam tələsik əlavə eləyirdi: «Sinematoqraf «Panteon»da, evimizin iki addımlığındadır, yalnız Sufarlo küçəsini adlamaq lazımdır». Babam çiyinlərini çəkib bizi buraxırdı. Növbəti cümə axşamı günü o, cənab Simannoya deyirdi: «Siz ağıllı adamsınız, Simanno, buna nə deyirsiniz, hə – qızın nəvəmi kinoya aparır». Cənab Simanno da barışdırıcı tərzdə deyirdi: «Mən özüm orda heç vaxt olmamışam, amma arvadım hərdənbir gedir».

Biz, adətən, seans başlanandan sonra gəlirdik. İlişə-ilişə əlhavasına biletyoxlayanın ardınca gedirdik. Mən özümü sui-qəsdçi kimi hiss eləyirdim: başımız üstündən zala bəyaz şüalar dəsti sancılırdı, o şüalarda toz, tənbəki tüstüsü oynaşırdı; piano nərildəyirdi, divarlarda bənövşəyi kölgələr işıqlanırdı, lak və dezinfikasiya

qoxusundan boğazım tutulurdu. Adamlarla dolu olan bu zülmətin qoxusu, bəhrəsi duyğularımda bir-birinə qarışırdı: mən bənövşəyi lampaları sorurdum, ağzımda onların turştəhər dadını duyurdum. Dizlərimi başqalarının kirəyinə toxundurub, cırıldayan kətilin üstünə dırmaşırdım, anam altıma qatlanmış adyal qoyurdu ki, görə bilim, yalnız bu zaman ekrana axan təbaşir kimi ağ ləkəyə yağış şırnağı ilə doğranmış görünüb-yox olan mənzərələrə nəzər salırdım, yağış, hətta ən günəşli olanda, hətta otaqlarda dayanmadan yağırdı; bəzən odlu asteroid qəfildən bir baronessanın qonaq otağından uçub keçirdi, bu zaman onun üzündə azacıq da olsa, təəccüb əlaməti görünmürdü. Həmin yağış, divarı tərpədən həmin arasıkəsilməz qarmaqarışıqlıq xoşuma gəlirdi. Müşaiyətçi «Finqal mağarası»nın ilk akkordlarını vururdu, hamı da bilirdi ki, indicə cinayətkar özünü yetirəcək – baronessa qorxudan özünü itirmişdi. Amma onun gözəl qaraşın sifəti əvəzində qəfildən tünd yazı görünürdü: «Birinci hissənin sonu».

Ani ayılma. İşıq. Hardayam? Məktəbdə? Olduğum yerdə? Heç bir bəzək-düzək yoxdur – alt tərəfdən yayları görünən qatlama stulların sırası; sarı rəngə boyanmış divarlar; siqaret kötükləri ilə dolu döşəmə. Zal boğuq səs-küylə dolurdu, tamaşaçılar yenə danışmağa başlayırdılar, biletyoxlayan qadın ucadan sorma konfet təklif eləyirdi, anam mənə konfet alırdı, onları ağzıma soxurdum, çəhrayı lampalar dilimin üstündə əriyirdi. Adamlar gözlərini ovxalayırdılar, hər biri qonşusunu təzəcə görürdü. Əsgərlər, yaxın küçələrdən dayələr; bir irisümüklü qoca əsəbləşir, sadə fabrik işçiləri həddən artıq ucadan gülürlər. Bütün bu adamlar bizim tərəfdən deyillər; xoşbəxtlikdən, bəzi yerlərdə bir-birindən xeyli aralıda bu başlar dəstəsi üzərində dəbdəbəli şlyapalar təskinlik verə-verə tərpənirdilər.

Rəhmətlik atama, babama – birinci bölümün lojalarının daimi müştərilərinə – teatrın sosial ierarxiyası müəyyən təntənəyə zövq peyvənd eləmişdi: adamların çox yığışdıqları yerlərdə onlar arasında ritual maneələri yaratmaq lazımdır, yoxsa bir-birilərinin boğazını üzərlər. Kinematoqrafsa tamam zidd bir şey eləyirdi: adama elə gəlirdi, bu heyrətamiz dərəcədə alabəzək kütləni bayram ovqatı yox, kasıblıq birləşdirir. Nəzakət yox olmuşdu, nəhayət, adamların əsl bağlılıqları, əlaqələri üzə çıxmışdı. Mən

təntənəyə nifrət eləyirdim, kütləni sevirdim. Ömrümdə çox kütlələr görməli olmuşam, amma bu çılpaqlığı, bu hamının hamı ilə qeydsiz-şərtsiz ünsiyyətini, bu açıq-aşkar yuxunu, bu tutqun insan olmaq təhlükəsi şüurunu sonralar yalnız bir dəfə – 1940-cı ildə hərbi əsirlər üçün XII D düşərgəsində gördüm.

Anam get-gedə cəsarətlənib Böyük Bulvarların kinoteatrlarına: «Sinerama»ya, «Foli-Dramatik»ə, «Vodevil»ə, o vaxt «İppodrom» adlanan «Qomon-Palas»a aparmağa başladı. Mən, «Ziqomar»a və «Fantomas»a, «Masist»in macəralarına, «Nyu-Yorkun sirləri»nə baxdım. Qızıl suyuna çəkilmə kefimi korlayırdı – teatrlar sırasından cəzalandırılıb illüzionlar sırasına keçirilimş «Vodevil» əvvəlki cah-cəlalından ayrılmaq istəmirdi. Qızılı qotazlı qırmızı pərdə lap son dəqiqəyəcən ekranı tamaşaçılardan gizləyirdi; seansın başlanmasını üç zərbə ilə xəbər verirdilər, orkestr üvertüra çalırdı, pərdə qalxır, işıqlar sönürdü. Məni ancaq personajları tamaşaçılardan uzaqlaşdıran yersiz təntənə, bütün bu naftalin qoxusu verən dəbdəbə özümdən çıxarırdı.

Çilçıraqların parıltısı, tavanların bər-bəzəyi ilə sıxılan yarus və qalerkaların müştəriləri olan atalarımız teatrın onlara məxsus olduğuna inana bilməzdilər və inanmaq istəmirdilər – onlar teatrda qonaq idi. Məhəlləmizin narahat kinoteatrlarının müqayisəsi bu yeni sənətin hamı kimi mənə də məxsus olması fikrimi alışdırdı. Əqli inkişafımıza görə həmyaşıd idik: yeddi yaşım vardı, oxumaq da bilirdim, onun on iki yaşı vardı, o da danışmaq bacarmırdı. Belə bir fikir mövcud idi ki, o, yalnız ilk addımlarını atır, böyük gələcəyi var; belə hesab eləyirdim, birlikdə böyüyəcəyik. Ümumi uşaqlığımızı unutmurdum: məni sorma konfetə qonaq eləyəndə, qadın yanımda dırnaqlarına lak sürtəndə, bir əyalət mehmanxanasında ayaq yolu dezinfeksiya qoxusu verəndə, gecə vaqonda tavandakı bənövşəyi gecə lampasına baxanda çoxdan yoxa çıxmış kinozalların rəngini, qoxusunu görmə, iybilmə, dadbilmə qabiliyyətimlə duyuram; dörd il qabaq Finqal mağaraları səmtində tufana düşüb küləyin uğultusunda piano səsləri eşitdim.

İbadətə marağım yox idi, sehrbazlığı sevirdim; kinomatoqraf qaranlıq şəxsiyyət idi, ona iyrənc maraq duyurdum, ondakı mövcud qeyri-mükəmməlliyi sevirdim. Bu parıltıda hər şey və heç nə, mənasızlığa bərabər hər şey vardı; divarların döyüntüsündə iştirak

eləyirdim, bərk cisimlər öz çəkisini, hətta öz bədənimdə əzab verən şeyi itirirdi, bu sonsuz bərkiməyə qabiliyyətim də körpə idealizmimin izzəti-nəfsini oxşayırdı; nəticədə uçbucaqların fırlanmasının gətirdikləri, mənə sifətlərin ekrandan keçməsini xatırladırdı – hətta planimetriyada* da kinonu sevirdim. Ağ və qara rənglər məndən ötrü əsas rənglər oldular, onlar bütün qalan rəngləri özlərində ehtiva eləyirdilər, amma həmin rəngləri yalnız başı çıxan adamlara bildirirdilər. Görünməzi görmək imkanı məni əsir eləyirdi. Ancaq hər şeydən artıq qəhrəmanlarımın sağalmaz lallığını sevirdim. Bununla belə, yox, onlar lal deyildilər, çünki öz hisslərini ifadə eləməyi bacarırdılar. Biz musiqi vasitəsilə ünsiyyət saxlayırdıq, bu, onların iç həyatının əks-sədası idi. Təhqir olunmuş məsumiyyət musiqini ovxarlayırdı, qurbanın dərdinə danışacağından, izah eləyəcəyindən daha çox nüfuz eləyirdim. Replikaları oxuyurdum, amma ümidi və ümidsizliyi eşidirdim, sözlərdə ifadə olunmayan vüqarlı əzabları qulaqlarımla dinləyirdim. Mən iştirakçı idim: ekranda gənc dul qadın ağlayır, o, *mən deyiləm*, bununla belə, qəlbimiz eynidir – Şopenin matəm marşı səslənir, budur, gözlərim onun göz yaşları ilə dolur. Öncəgörməni bacarmadan özümü peyğəmbər sayırdım: satqın hələ satmayıb, məncə, artıq onun cinayətilə doluyam, qəsrdə zahirən hər şey sakitdir, amma qorxunc akkordlar qatilin olmasından xəbər verir. O kovboylara, muşketyorlara, polislərə yaman paxıllığım tuturdu – onların gələcəyi burda, bu çoxmənalı musiqidə idi, həmin musiqi baş verənləri ifadə eləyirdi. Susmayan musiqi onların həyatına qarışır, qəhrəmanları qələbəyə, yaxud ölümə aparırdı, eyni zamanda da öz sonuna can atırdı. Onları, o qəhrəmanları, doğrudan da, gözləyirdilər axı: təhlükənin hədələdiyi qız gözləyirdi, hərbi başçı gözləyirdi, meşədə pusquda durmuş satqın gözləyirdi, alov dillərinin fitillə barıt dolu çəlləyə doğru necə yaxınlaşdırdığına kədərlə baxan əli-qolu bağlı dostu gözləyirdi. Alovun şığıması, bakirə qızın zorakı adamla cəsarətli mübarizəsi, qəhrəmanın çöllə at çapması, bütün bu obrazların çarpaz görünüb yox olması, bütün bu ötüşmə, hardansa aşağı tərəfdən coşğun «Uçurma at çapmalar» melodiyası – «Faustun muhakiməsi»nin fortepiano üçün işlənmiş orkeçtr parçası – bütün bunlar bir şeydə – taledə birləşirdi. Qəhrəman atın belindən sıçrayıb düşürdü, fitili söndürürdü, satqın onun üzərinə atılırdı, təkbətək bıcaq döyüşü

başlanırdı; amma, hətta bu təkbətək döyüşün təsadüfiliyinin özü də mütləq musiqi mövzusunun inkişafına tabe olurdu – bu, arxasında ümumdünya nizamının açıqca duyulduğu saxta təsadüflər idi. Bıcağın son zərbəsinin son akkordla üst-üstə düşməsi çox gözəl idi! Göyün yeddinci qatında idim, yaşamaq istədiyim aləmi tapmışdım, mütləqə yaxınlaşırdım. İşıq yananda necə təəssüflənirdim! O qəhrəmanlara sevgi ilə alışıb-yanırdım, onlarsa Aləmi özləriylə aparıb yox olurdular; onların qələbələrini varlığımın hər bir hüceyrəsi ilə duyurdum, bununla belə, qələbə mənim yox, onların idi – bayırda öz narahatlığımı təzədən əldə edirdim.

* * *

Musiqidə yaşamaq sözündən imtina elədim. Bu imkan əlimə hər axşam saat beş radələrində düşürdü. Həmin vaxt babamın institutda dərsi vardı, nənəm otağında qrafinya Jitin romanını oxuyurdu, anam ikindi yeməyimi yedirdib, naharla bağlı göstərişlər, qulluqçuya son öyüdlər verib royal arxasında oturur, Şopenin balladalarını, Şumanın sonatasını, Frankın simfonik variasiyalarını, bəzənsə mənim xahişimlə «Finqal mağarası»nı çalırdı. Mən sivişib babamın kabinetinə girirdim. Qaş qaralırdı, royalın üstündə iki şam yanırdı. Yarıqaranlıq işimə yarayırdı, babamın xətkeş ilə – qılıncım idi – kağızkəsən bıcağı ilə – xəncərim idi – silahlanıb bir göz qırpımında muşketyorun səthi təsvirinə çevrilirdim. Bəzən ilham dərhal gəlmirdi; vaxt udmaq üçün mən, məşhur duelçi, qərara gəlirdim ki, bir vacib səbəb naməlumluğumu saxlamağa məcbur eləyir. Cavab vermədən zərbələr almalı,bütün cəsarətimi toplayıb özümü qorxaq kimi göstərməli olurdum. Ayaqlarımı sürüyə-sürüyə, başımı aşağı salıb altdan-altdan baxa-baxa otaqda sülənirdim; hərdənbir diksinir, beləliklə, şillə, yaxud təpik yediyimi göstərib diksinirdim – xətrimə dəyənin adını yadımda saxlayırdım. Nəhayət, musiqinin ata bəs eləyəcək dozası mənə təsir göstərməyə başlayırdı. Royal şaman nağarası kimi mənə öz ritmini sırıyırdı. Qəfil fantaziya ruhumu qovub cismimə dolur, mənə sirli keçmiş, başgicəlləndirici, həddən artıq qorxunc gələcək bəxş eləyirdi; həvəsli idim, qəlbimə girmiş şeytan məni əncir ağacı kimi silkələyirdi. Atlan!

Mən həm at, həm atlı idim, həm mahmızlayırdım, həm mahmızları hiss eləyirdim,

çöllərlə, dağlarla, babamın kabinetində qapıdan pəncərəyəcən çapırdım. «Həddən artıq səs-küy salırsan, qonşular şikayət eləyəcəklər», – Ann Mari çalğısına ara vermədən deyirdi. Mən cavab vermirdim, çünki lal idim. Budur, hersoq qarşımdadır, atdan sıçrayıb düşürəm; dodaqlarımı səssizcə tərpədib onu başa salıram ki, o yaramazdı. Hersoq öz əsgərlərini üzərimə göndərir, amma qılıncım məni qala kimi qoruyur! Hərdənbir növbəti sinəni deşirəm, dərhal da yüz səksən dərəcə dönüb doğranmış muzdlu əsgərə çevrilir, yıxılıb xalçanın üstündə ölürəm. Sonra asta-asta meyitin içindən çıxıb qalxıram, öz gəzərgi cəngavər roluma qayıdıram. Bütün rolları eyni vaxtda oynayırdım: cəngavərəm, hersoqa şillə vururam – geri dönürəm, hersoqam, üzümə şillə dəyir. Amma cani rolunda uzun müddət qalmağı sevmirdim, qəhrəman baş rola, öz-özümə qayıtmağa tələsirdim. Məğlubiyyət bilmədən hamısının öhdəsindən gəlirdim. Amma eynilə gecə macəralarımdakı kimi arxasınca aparacaq narahatlıq qarşısında qorxudan təntənəmi tamam təxirə salırdım.

Gənc qrafiniyanı doğma qardaşı kralın təcavüzlərindən qoruyuram. Qan su yerinə axır! Amma budur, anam notları dəyişdi: alleqro adajio ilə əvəz olundu, mən tələm-tələsik qan tökməyə son qoyub himayəmdəkinə gülümsəyirəm. O, məni sevir, musiqi bundan xəbər verir. Göründüyü kimi, mən də onu sevirəm: sinəmdə vurğun, darıxan ürək peyda olur. Sevəndə neyləyirlər? Onun əlindən yapışıb çəmənlikdə gəzirəm, amma bu, açıq-aşkar çox azdır. Tələsik yaramaz muzdluların köməyinə qaçmaq lazım gəlir, onlar məni çətin vəziyyətdən qurtarırlar – üstümüzə atılırlar, bir nəfərə qarşı yüz nəfərdilər: doxsan başkəsəni öldürürəm, qalan on nəfər qrafinyanı oğurlayır.

Həyatımın ən tutqun dövrünə qədəm qoymaq vaxtıdır – məni sevən qadın əsirlikdədir, bütün kral polisi dabanbasaraq məni izləyir, mən qanundankənaram, mən qaçqınam, mən binəsibəm, ləkəsiz vicdanımdan, qılıncımdan başqa heç bir şeyim qalmayıb. Bədbəxt görkəmlə Şopenin ehtiras dolu kədərini canıma çəkib, kabineti o baş-bu başa ölçürəm. Hərdənbir bədbəxt hər şeyin yaxşı qurtaracağına əmin olmaq üçün iki-üç il irəli qaçıb həyatımı vərəqləyirəm – titullarımı, malikanəmi, demək olar, mənim qədər məsum nişanlımı özümə qaytaracaqlar, kral da məndən üzr istəyəcək. Amma

dərhal da bir təkanla iki-üç il geri sıçrayıb yenə heçliyə yuvarlanıram. Bu dəqiqələri sevirdim. Uydurma gerçəkliklə qovuşurdu: ədalət axtarışında gəzən bədbəxt sərgərdan adi, öz-özüylə əlləşən uşaqla əkiz tayı idi – o yaşamaq haqqı axtara-axtara babasının kabinetində sülənirdi. Talelərimizi bütövləşdirmək üçün roldan çıxmadan bu oxşarlıqdan istifadə eləyirdim; son qələbəyə əmin halda öz əməllərimdə ona ən qısa yol görürdüm, mövcud narahatlıq arasından gələcək şöhrəti əvvəlcədən duyurdum, elə onun xətrinə də fəlakətlərdən keçib getməyə dəyərdi. Şumanın sonatası məndəki bu inamı lap möhkəmləndirirdi: mən cəsarətlənmiş Allah bəndəsi idim, mən də elə dünyanın yaradılışından onu xilas eləyən Allahın özü idim. Ümidsiz cəsarətə yuvarlanmaq çox gözəldir, bu bütün dünyaya əsib-coşmağa haqq verir. Həddən artıq asan uğurdan boğazacan doyub, xəyalpərəstliyin gözəlliyini, acığın tünd şirinliyini duyurdum. Boğazacan doymuş, istəkdən məhrum ən incə qayğıların predmeti kimi xəyali əzablara baş vururdum; rifahın səkkiz ili məndə əzabkeşliyə həvəs yaratmışdı. Mənə həddən artıq meylli olan gündəlik hakimlərim üçün dinləmədən mühakimə eləməyə hazır olan sərt tribunalı əvəz eləyirdim; bəraət hökmünü, hörməti, zəfər çələngini elə onun əlindən almaq istəyirdim. Qrizeldanın əhvalatını iyirmi dəfə oxumuşdum; amma özüm əzab çəkməyi sevmirdim, ilk istəklərimsə qəddarlığı ilə fərqlənirdi. Saysız-hesabsız şahzadələrin müdafiəçisinin balaca qonşu qızı evdə necə qovduğunu xəyalımda canlandırırdım. Qrizeldanın heç də tərifəlayiq olmayan əhvalatında məni zərərçəkənin sadizmi, axırda cəllad ərini onun qabağında baş əyməyə məcbur eləyən sarsılmaz xeyirxahlıq cəlb eləyirdi. Müqəddəs arzum da bax, elə bundan ibarət idi: hakimləri diz üstə çökdürmək, mənə hörmət göstərməyə məcbur eləmək, bununla da onları qərəzliliyə görə cəzalandırmaq. Amma gündən-günə bəraət hökmünü verməyi təxirə salırdım. Sabahkı qələbənin qəhrəmanı olan mən, zəfər həsrətində haldan düşür, həmişə ondan yayınırdım.

Mənə elə gəlir, bu həqiqi və uydurma ikili xəyalda ümidsizliyim ifadə olunurdu: bir-birinin üstünə qalanmış qəhrəmanlıqlarım təsadüflər zənciri idi. Qəfil fantaziyanın son akkordları bitəndə ataları olmayan yetimlərin. yetimləri olmayan sərgərdan

cəngavərlərin ötən illərinə qayıdırdım. Qəhrəman, yaxud məktəbli kimi eyni bir igidliklərin, eyni bir diqtələrin qapalı dairəsində qalırdım, öz zindanımın – təkrarımın divarlarına çırpılırdm. Amma gələcək, hər halda mövcud idi axı – bunu məndən ötrü kinematoqraf kəşf eləmişdi. Mən öz həyati, təyinatıma malik olmaq istəyirdim. Axırda Qrizeldanın inadkar məsuliyyətsizliyi məni bezdirdi; təntənəmin tarixi məqamını nə qədər qeyri-müəyyən müddətə təxirə salsam da, onu həqiqi gələcəyə çevirə bilmirdim, o, bu günün möhləti olaraq qalırdı.

Məhz bu vaxt – ya 1912, ya 1913-cü il – Jül Vernin «Mişel Stroqov» romanını oxudum. Sevincdən ağlayırdım – bax, tale belə olar! Zabit Stroqov öz igidliyini göstərmək üçün quldurların istəyini gözləməli olmurdu. İlahi əmr onu

naməlumluqdan dartıb çıxarmışdı, bütün həyatı həmin əmrə tabelik idi, o, zəfər məqamında ölürdü, çünki şöhrət onun ölümü idi; kitabın sonuncu səhifəsi çevrilirdi, canlı Mişelin arxasınca qızıl oymalı balaca sərdabənin qapısı örtülürdü. Heç şübhə qalmırdı, – onun mövcudluğu ilk dəqiqədən əsaslandırılmışdı. Heç bir təsadüf yox idi, – düzdür, o, məkanda yerini dəyişirdi, amma dövlət əhəmiyyətinin başa düşülməsi, qəhrəmanın igidliyi, düşmənlərin ayıqlığı, həmin yerin təbii şəraiti, ünsiyyət vasitələri, onlarla digər amillər – hamısı əvvəlcədən məlum olan – istənilən anda onun yerləşdiyi yeri xəritədə müəyyənləşdirməyə imkan verirdi. Təkrara bircə eyham da yox idi – hər şey dəyişirdi. Mişelin özü də həmişə dəyişməli olurdu, taleyi ona yol göstərirdi, səmt ulduzu var idi. Üç aydan sonra romanı elə həmin vəchlə oxudum: Mişelin özünü sevmirdim, məndən ötrü o, həddən artıq gözəl əxlaqlı idi, amma taleyinə həsəd aparırdım. Məni onun içində gizlənmiş xristian vəcdə gətirirdi, – məni xristian olmağa qoymadılar. Rusiya hökmdarı Allah Ata idi. Xüsusi əmrlə yoxluqdan çıxarılmış Mişelin üzərinə hər bir Allah bəndəsi kimi məsuliyyətli, təkrarolunmaz missiya qoyulmuşdu. O, cazibələri silib-süpürüb, maneələri adlayıb, əzabkeşliyi və ilahidən bəxş olunmuş yardımı dadıb dərdimizin möhnətindən keçdi! O, işi qalib sonluğacan çatdırıb öz Yaradanını şöhrətləndirirdi, ölməzliyə qədəm qoydu. Həmin kitab məndən ötrü tiryək oldu, – belə çıxır, dünyada seçilmişlər var? İlahi zərurət onlara yol açır. Müqəddəslik

məni iyrəndirirdi – Mişel Stroqovda məni ona görə cəlb eləyirdi ki, özünü qəhrəmanlıq kimi göstərirdi.

Bununla belə, əvvəlki pantomimlərimi oynayırdım, missiya ideyası isə havadan cismə bürüyə bilmədiyim, amma ayrıla da bilmədiyim cisimsiz kabus kimi asılmışdı. Söz yox ki, xidmətə hazır olan əlaltılarım, Fransa kralları öz növbələrində məndən xidmət tələb eləmək üçün yalnız işarəmi gözləyirdilər. Amma tələsmirdim. Əgər həyatını təbəəlik hissləri üzündən risqə qoyursansa, genişürəkliliyin nə dəxli var? Polad yumruqlu bokscu Marsel Dyüno vəzifələrinə daxil olmayan qəhrəmanlıqlar göstərib hər həftə məni vəcdə gətirirdi. Kor olmuş, gözəl yaralarla örtülmüş Mişel Stroqov isə yalnız öz borcunu yerinə yetirirdi. Mən onun igidliyindən vəcdə gəlirdim, barışmasınısa mühakimə eləyirdim: həmin qəhrəmandan yüksəkdə yalnız səma vardı, niyə hökmdarın qarşısında baş əyirdi. Hökmdar Mişelin ayaqları altındakı torpağı öpməli idi. Amma öz üzərində kiminsə üstünlüyünü etiraf eləmədən yaşamaq mandatını kimdən almalısan? Bu ziddiyyət məni dalana dirədi. Bəzən maneənin böyründən ötüb-keçməyə çalışırdım – mənə, adsız-sansız uşağa təhlükəli missiyanın şayiələri gəlib çatırdı. Etibar eləməsi üçün yalvara-yalvara kralın ayaqlarına qapanırdım. O, boyun qaçırırdı – həddən artıq gəncəm, vəzifə həddən artıq çətindi. Bu zaman ayağa qalxıb onun bütün sərkərdələrini duelə çağırır, bir-birinin ardınca məğlub eləyirdim. Kral təslim olurdu: «Nə olar, bir halda ki, bunu istəyirsən, başla!» Amma bicliyim məni sakitləşdirmirdi, başa düşürdüm ki, özüm-özümü sırıyıram. Üstəlik, taxt-tac bəxş olunmuş qanmazlar məni iyrəndirirdilər – mən sankylolt*, hökmdar qatiliydim, babam məni XVI Lüdövik, yaxud Badenqe* olsun, ümumiyyətlə, bütün müstəbidlərə qarşı kökləmişdi. Başlıcası da hər səhər «Le Maten»də Mişel Zevakonun romanından parçanı gözümə təpirdim. Hüqonun bu zirək yamsılayıcısı plaş və qılınc romanının respublika variantını ixtira eləmişdi. Onun qəhrəmanları xalqı təmsil eləyirdilər, onlar imperiyaları yaradırıb-dağıdırdılar, XIV əsrdən Fransa inqilabını əvvəlcədən söyləyirdilər, xeyirxahlıqları üzündən kiçik yaşlı, ağlıkəm kralları nazirlərindən qoruyurdular, cinayətkar hökmdarların ağız-burnunu əzişdirirdilər. Fikirlərimin hakimi həmin qəhrəmanlardan ən böyüyü Pardalian idi. Bəzən dəfələrlə onu

yamsılayıb çəlimsiz qıçlarımı yekəxana aralı qoyub xoruzlanırdım, III Henrixə və XIII Lüdövikə şillə vururdum. Bundan sonra onların əmrlərinə necə boyun əyə bilərdim? Qısası, öz-özümdən nə bu torpaq üstündə mövcudluğuma haqq qazandıracaq mandatı çıxara, nə başqa bir kəsin onu mənə vermək hüququnu tanıya bildim. Təzədən atımı yəhərlədim, həvəssiz-həvəssiz döyüşlərdə tər tökdüm; fikri dağınıq qatil, tənbəl əzabkeş kimi hökmdarımın, Allahımın, yaxud ən adi atamın olmaması üzündən Qrizelda olaraq qalırdım.

Eynilə saxta həyata oxşayan, ikili həyat sürürdüm: adamlar arasında təlxək – məşhur Şarl Şveytserin məlum nəvəsi idi; öz-özümlə təklikdə xəyali acıqlara cumurdum. Xəstəhal şöhrəti xəstəhal naməlumluğa bərabər tuturdum. Bir roldan digər rola keçmək məndən ötrü asandır. Düşməni məhv elədiyim məqamda qəsrdə açar burulurdu, anamın barmaqları iflic olmuş kimi, dillərin üzərində donub qalırdı, xətkeşi şkafa qoyub babamın boynundan asılırdım. Kreslonu ona yaxın çəkirdim, xəzli çəkələkləri verirdim, bütün şagirdlərini adbaad soruşub gün ərzində institutda nə baş verdiyi barədə sorğu-suala tuturdum. Öz uydurmalarıma nə qədər uysam da, başımı itirəcəyimdən qorxmağa əsas yox idi. Məni başqa bir şey təhdid eləyirdi: gerçək «mən»im həmişəlik yalanlar növbələşməsi olaraq qala bilərdi. Amma başqa gerçəklik də var idi: Lüksemburq bağının meydançalarında uşaqlar oynayırdılar, onlara yaxın gedirdim, uşaqlar məni görmədən iki addımlığımda qaçışırdılar; oynayanlara dilənçi gözləri ilə baxırdım – onlarda nə qədər qüvvə, çeviklik var idi, onlar nə qədər gözəl idilər. Canımdan-qanımdan olan o qəhrəmanların yanında «yaşımdan ağıllı» olmağım, universal biliklərimi, atletik əzələlərimi, təcrübəli duelçi şöhrətimi itirirdim. Ağaca söykənib gözləyirdim. Uşaqların dəstəbaşılarının ilk həyasız: «Pardalian, bura gəl, əsir olacaqsan» çağırışı üzrə özümün bütün üstünlüklərimdən imtina eləyirdim. Məni, hətta əlaltı rolu da xoşbəxt eləyirdi, xərəkdəki yaralı, hətta meyit rolunu da oynamağa vəcdlə razı olardım. Amma bunu təklif eləmirdilər: mən əsl hakimlərimlə – yaşıdlarım, bərabərlərimlə rastlaşdım, onların etinasızlığa da mənə ittiham hökmü verdi. Uşaqların nəzərlərində kim olduğumu – təbiətin möcüzəsi, meduza yox, sadəcə, kimsəyə maraqlı olmayan çəlimsiz – görüb

özümə gələ bilmədim. Anam çaşqınlığına gizlədə bilmədi: bu ucaboy gözəl mənim sısqa olmağımla asanca barışmışdı. Bunu tamamilə təbii sayırdı: Şveytserlər iridilər, Sartrlar xırdadılar. Mən atama oxşamamışam, burda xüsusi bir şey yoxdur. Səkkiz yaşımda yığcam, istifadəyə əlverişli qalmağım, hətta xoşuna gəlirdi – onun nəzərində cib ölçülü olmağım uzadılmış körpəliyə oxşayırdı. Amma kimsənin məni oynamağa çağırmadığını görüb sevgi ona dedi ki, cırtdan olduğumu ağlıma gətirə bilərəm – bununla belə, hər halda, cırtdan deyiləm – və əzab çəkəcəyəm. Məni ümidsizlikdən xilas eləmək istəyib qondarma qəzəblə deyirdi: «Axmaqlardan nə gözləyirsən? De ki, onlarla oynamaq istəyirsən». Başımı buladım: ən təhqiramiz tapşırıqları yerinə yetirərdim, amma qürurum onlara ağız açmağıma mane olurdu. Anam təklif elədi: «İstəyirsən anaları ilə danışım?». Anaları bağlardakı kreslolarda oturub toxuyurdular. Amma yalvardım ki, bunu eləməsin; o, əlimdən yapışdı, daimi dilənçilər, həmişəlik atılmışlar kimi ağacdan-ağaca, uşaqların dəstəsindən-dəstəsinə getdik. Qaş qaralanda təzədən öz yuvamı, ruhların cövlan elədiyi dağ zirvələrini, öz arzularımı tapırdım; uğursuzluğa görə özümü bir düjün uşaq peyğəmbərlikləri, yüzlərcə muzdlu ölümlə mükafatlandırırdım. Bununla belə, məndə nəsə alınmırdı.

Məni babam xilas elədi; özüm də istəmədən bütün həyatımı alt-üst eləyən yeni yalan yoluna itlədi.

Yazmaq

Şarl Şveytser heç vaxt özünü yazıçı hesab eləmirdi, amma indi, ömrünün yetmişinci ilində də fransız dilinə heyran olmaqdan yorulmurdu. Çətinliklə öyrəndiyi bu dil ondan ötrü heç vaxt doğma dil olmadı; babam onunla oynayırdı, məzələnirdi, hər sözü canına çəkirdi, amansız danışığı da bircə hecaya rəhm eləmirdi. Boş vaxtlarında babamın qələmi söz salxımları hörürdü. O, ailə və məktəb həyatının hadisələrini ötəri əsərlərlə: yeni il təbrikləri ilə, ad günü və toy təbrikləri ilə, Böyük Karlın ildönümlərinə dair qafiyəli nitqlərlə, tapmacalara, deyişmələrə, xoşagələn abırsızlıqlarla qeyd eləməyi sevirdi; elmi konqresslərdə alman və fransız bəndləri improvizə eləyirdi.

Yayın başlanğıcında, babamın dərsləri bitməmişdən xeyli əvvəl biz – hər iki qadın və mən – Arkaşona gedirdik. O, bizə həftədə üç dəfə – Lyuzaya iki səhifə, Anı-Mariyə sözardı, mənə şeirlə bütöv bir məktub yazırdı. Öz xöşbəxtliyimi bütöv dəyərləndirmək üçün tələffüz qaydalarını öyrədir, onları mənə izah eləyirdi. Kimsə cavab şeirləri üzərində necə fısıldadığımı gördü, mənə təzyiq göstərdilər, yazıb bitirməyə məcbur elədilər, yardım etdilər. Məktubu yola salıb hər iki qadın gözləri yaşaranacan alan adamın necə quruyub qalacağını təsəvvür eləyib güldülər. Cavab poçtu mənə şeirlə yazılmış tərif məktubu gətirdi. Bu, vərdişə çevrildi, babayla nəvə arasında daha bir bağ yarandı, hindular, yaxud Monmatr qadın dəllalları kimi öz aramızda qadınların başa düşmədikləri dildə danışırdıq. Mənə qafiyələr sözlüyü bağışladılar, şair olurdum, kresloya məhkum olmuş, bir neçə ildən sonra ölən sarışın saçlı qız Veyeyə gözəlləmələr həsr eləyirdim. Qız – mələk qəlbi – onları vecinə almırdı, amma geniş kütlənin coşqusu onun etinasızlığının əvəzində məni mükafatlandırırdı. Həmin şeirlərdən bəziləri qalıb. «Minu druedən başqa bütün uşaqlar dahidilər», - Jan Kokto 1955-ci ildə belə deyib. 1912-ci ildə məndən başqa hamısı dahi idi. Mən meymunluq eləyirdim, mərasimləri yerinə yetirirdim, özümü böyük kimi aparırdım, Şarl Şveytserin nəvəsi idim. Lafontenin təmsillərini oxuyub narazı qaldım: müəllif özünü həddən artıq sərbəst aparırdı; təmsilləri İskəndəriyyə şeirləri ilə təzədən yazmaq qərarına gəldim. Gücüm çatan iş deyildi, üstəlik də sezdim ki, məni ələ salırlar; bununla da poetik təcrübələrim başa çatdı. Amma təkan verilmişdi – «Sisəy»də oxuduğum maraqlı macəraları çətinlik çəkmədən işləyib şeirdən nəsrə keçdim. Vaxtında da keçdim – arzularımın əbəsliyini gördüm. Fantaziyamın qaçışı gerçəklik arxasınca yüyürmüşdü. Anam gözlərini notdan qaldırmadan «Neyləyirsən, Pulu?» soruşanda bəzən sükut andını pozub «Kino» cavabı verirdim. Əslində obrazları beynimdən çıxarmaq, onları qıraqda, gündəlik mebellərin, gündəlik divarların arasında *təcəssüm etdirmək,* onlara parlaqlıqlarını, ekranla axıb gedən obrazların görüntüsünü qaytarmaq istəyirdim. Əbəs yerə, artıq görmüşdüm ki, özümə ikili yalanla təskinlik verirəm: qəhrəmanı oynayan aktyorun rolunu oynayıram.

Yazmağa başlayırdım, dərhal da qələmi qırağa qoyurdum, xoşbəxtliyim aşıb-

daşırdı. Yalan, yalan olaraq qalırdı, amma artıq deyirdim ki, sözləri şeylərin mahiyyəti sayırdım. Orada-burada yanıb-sönən işıqların parıltıları arasından az-çox solğun maddiliyin keçib gəldiyi cızmaqaralarımdan çox məni heç nə həyəcanlandırmırdı: xəyalımda canlandırılan həyata keçirdi. Ad tələsi ilə tutulmuş şirlər, ikinci imperiyanın sərkərdələri, beduinlər yeməkxanaya soxulur, orda işarələrlə cana gəlib əbədi əsir qalırdılar; inanırdım ki, polad qələmilə cızılmış sözlərimdə uydurma gerçəkliyə çevrilir. Dəftər, bənövşəyi mürəkkəb şüşəsi istəyirdim, dəftərin cildində yazırdım: «Romanlar üçün dəftər». Birincisini bitirib ona «Kəpənəyin xətrinə» adı qoydum. Bir alim öz qızı və atletik bədən quruluşu səyyahla nadir kəpənəklər axtara-axtara Amazonkanın yuxarı axarlarına qalxır. Fabula, personajlar, macəra əlamətləri, hətta sərlövhə – hamısı «Sisəy»in növbəti buraxılışındakı şəkilli hekayədən götürülmüşdü. Qəsdən plagiatlığım məni tamam-kamal şübhələrdən azad eləyirdi: heç nə uydurmuram – deyəsən, hər şey sırf həqiqətdir. Çap olunmağa iddiam yox idi, biclik ondan ibarətdi ki, əvvəlcədən çap olunmuşdum, obrazın tapşırığı olmadan bir sətir də yazmırdım. Özümü surətçıxaran hesab eləyirdimmi? Yox özümü orijinal yazıçı sayırdım: mən düzəldirdim, təzələyirdim; məsələn, personajların adlarını dəyişmək qayğısına qalırdım. Bu asan irəliləyişlər sayəsində artıq təxəyyülü yaddaşdan ayıra bilmirdim. Yeni, eyni zamanda da artıq bir dəfə yazılmış ifadələr beynimdə, adətən, ilhamın ayağına yazdıqları sürətli qarşısıalınmazlıqla təzədən düzülürdülər. Onları ifadə eləyirdim, gözəgörəti zahiri cismanilik qazanırdılar. Əgər qəbul olunduğu kimi, ilhamın təsiri altında olan yazıçını varlığının lap dərinliklərindən kimsə başqa bir kəs hərəkətə gətirirsə, onda mən ilhamı yeddi-səkkiz yaş arasında dadmışam.

Heç vaxt tamamilə «avtomatik yazma» yalanına boyun əyməmişəm. Amma bu oyun xoşuma gəlirdi; ailədə yeganə uşaq kimi onda tək oynaya bilirdim. Bəzən əlim dayanırdı, şübhəni ifadə eləyirdim: alnımı qırışdırıb, gözlərimi boşluğa dikib özümü yazıçı sayırdım. Plagiatı, yeri gəlmişkən, snobizm üzündən sevirdim, sonra göründüyü kimi, onu qəsdən son hüdudacan çatdırırdım.

Bussenar və Jül Vern heç vaxt oxucunu maarifləndirmək fürsətini əldən

buraxmırlar: onlar ən gərgin məqamda hekayətə ara verirlər, zəhərli bitkiləri, yadelli sığınacaqlarını təsvir eləməyə başlayırlar. Oxuyanda həmin bilik verən ekskursiyaların üzərindən keçirdim; yaradanda romanlarımı onlarla ağzınacan doldururdum. Müasirlərimə özümün bilmədiyim hər şeyi – Fici adası sakinlərinin xasiyyətləri, Afrika florası, səhranın iqlimi necədir – çatdırmağa çalışırdım. Taleyin hökmü ilə ayrı salınmış, sonra özlərinin də xəbəri olmadan bir gəmiyə düşmüş eyni gəmi qəzasnın qurbanları – kəpənək yığanla qızı eyni xilas kəmərindən yapışırlar, başlarını qaldırırlar, eyni vaxtda qışqırırlar: «Dezi!», «Ata!» Təəssüf ki, yxınlıqda təzə ət axtarar-axtara balina vurnuxur, o yaxınlaşır, quyruğu dalğalar arasından ağarır. Bədbəxtlər – onlar ölümdən qurtara biləcəklərmi? Mən böyük Larussun «A-B» cildi arxasınca yollanırdım, onu çətinliklə masanın üstünə qaldırıb uyğun gələn səhifəni açırdım, qırmızı xəttdən başlayıb sözbəsöz köçürürdüm: «Balinalar tropik Atlantikada yayılıblar. Bu iri dəniz balıqları böyük acgözlükləri ilə fərqlənirlər, uzunluqları on üç metrə, çəkiləri səkkiz tona çatır…» Tələsmədən məqaləni köçürürdüm; özümü Bussenar kimi əsrarəngiz darıxdırıcı, abırlı sayırdım, hələ qəhrəmanları xilas eləmək üçün vasitə tapmayıb incə vəcddən əriyirdim.

Hər şey məşğuliyyətimin növbəti komediyaya çevrilməsinə doğru gedirdi. Anam həvəsləndirməyə xəsislik eləyirdi. O, gənc yaradıcını məktəb masası arxasında yaxalamaq üçün qonaqları yemək otağına gətirirdi; özümü elə göstərirdim, guya, başım işə qarışıb, vəcdə gəlmiş tamaşaçıları görmürəm. Onlar «Ah, nə yaxşıdır! Ah, nə gözəldir!» pıçıldaya-pıçıldaya pəncələri üstündə içəri girirdilər. Emil dayım mənə istifadə eləmədiyim kiçik yazı makinası bağışladı, xanım Pikar dövri-aləm səyahətçilərimin marşrutlarını səhvsiz müəyyən eləməyim üçün yarımkürələr xəritəsi aldı. Ann-Mari ikinci romanım «Banan alverçisi»nin üzünü ağ kağıza köçürüb tanışlarına oxumağa veirirdi. Hətta Mami məni həvəsləndirirdi. «O ən azı özünü yaxşı apırır, - deyirdi, - səs salmır». Xoşbəxtlikdən rütbə verilməsi babamın narazılığı üzündən təxirə salınırdı.

Karl heç vaxt «oxuma» adlandırdığı şeylə bağlı həvəsimə tərəfdar çıxmırdı. Anam yazmağa başladığımı ona xəbər verəndə güman elədiyim kimi, ailəmizin abırlı

müşahidələri, heyrətamiz sadəlövhlükləri ilə dolu bir xronikasını nəzərdə tutub əvvəlcə vəcdə gəldi. Dəftərimi götürüb vərəqlədi, sevdiyim bulvar yazıçılarını yamsılayıb «mənasız şeylərlə» məşğul olduğumdan ovqatı təlx halda üz-gözünü qırışdırıb yemək otağından çıxdı. Bundan sonra yaradıcılığıma marağını itirdi. Anam kefi pozulmuş halda bir neçə dəfə, guya, təsadüfən onu «Banan alverçisi»ni oxumağa məcbur eləməyə çalışdı. O, babamın çəkələklərini geyinib kresloda oturduğu məqamı gözləyirdi; babam sərt baxışlarını bir nöqtəyə zilləyib, əllərini dizlərinin üstünə qoyub dinməzcə dincələndə əlyazmamı götürür, fikirli-fikirli vərəqləyirdi, sonra, guya, qeyri-iradi ucadan gülməyə başlayırdı. Nəhayət, qəfil gülüşünü boğmağa güc tapmayıb dəftəri babama uzadırdı: «Oxusana, ata! Çox maraqlıdır». Babam dəftəri kənara itələyirdi, əgər ona baxırdısa, bunu yalnız acıqla orfoqrafiya səhvlərini göstərmək üçün eləyirdi. Axırda anam lap çəkingən oldu: məni tərifləməyə cəsarət eləməyib, xətrinə dəyməkdən qorxub haqqında yerli-dibli söhbət eləməmək üçün əsərlərimi oxumaqdan əl çəkdi.

Sükutla qarşıladıqları, güclə dözdükləri ədəbi fəaliyyətim yarıgizli oldu; bununla belə, inadla dərslər arasındakı tənəffüslərdə, cümə axşamları, bazar günləri, tətillərdə, yaxud xoşbəxtlikdən xəstələnirdimsə, yataqda yazıb-yaradırdım. Ləzzətli sağalma günlərini, elə bil, əl işi kimi həmişə əlimin altında olan qırmızı kəsikli, qara cildli dəftərimi xatırlayıram. Get-gedə daha az «kino qayırmağa» başladım, məndən ötrü romanlar hər şeyi əvəz elədi. Qısası, öz kefim üçün yazırdım.

* * *

Romanlarımdakı çəkişmələr mürəkkəbləşirdi, onlara müxtəlif xarakterli epizodlar daxil eləyirdim, oxuduğum yaxşı-pis nə vardısa, saf-çürük eləmədən bu qarışığın içinə tökürdüm. Bundan hekayət ziyan çəkirdi, amma xeyri də var idi: əlaqələr uydurmağa məcbur olub artıq təkcə köçürmə ilə keçinə bilmirdim. Üstəlik də, ikiləşməyə başladım. Ötən il «kino qayırıb» öz-özümü oynayırdım, başılovlu xəyalımda canlandırılanın içinə atılırdım, dəfələrlə mənə elə gəlmişdi ki, onun içində tamamilə ərimişəm. İndi yazıçı, eyni zamanda qəhrəman idim, qəhrəmana özümün epik arzularımı verirdim. Bununla belə, biz iki nəfər idik: onun adı başqaydı, barəsində üçüncü şəxs kimi danışırdım. Hər

hərəkətdə onunla qovuşmaq əvəzinə cismini sözlərlə yaradırdım, elə bil, onu qıraqdan görürdüm. Gözlənilməz «kənarlaşma» məni dəhşətə gətirə bilərdi – o, məni əsir eləyirdi; onun tamam mən olmadığı bir vaxtda, mənim o ola biləcəyimdən zövq alırdım. O, mənim şıltaqlıqlarıma tabe olan kukla idi, onu sınaqlara məruz qoya, sinəsini nizə ilə deşə, sonra anam mənə qulluq eləyən kimi, qulluq eləyə, anam məni sağaldan kimi onu sağalda bilərdim. Sevdiyim yazıçıların olub-qalan abırları onları əsl zirvələrin ətəyində saxlayırdı – hətta Zevakonun qəhrəmanları eyni vaxtda yalnız iki düşmənlə çarpışırdılar. Mən macəra romanını inqilabiləşdirməyə cəhd göstərib bu cür həqiqətəoxşarlığı bir qırağa atırdım, təhlükəni, düşmənlərin gücünü on qat artırırdım; «Kəpənək xətrinə» romanındakı gənc səyyah gələcək qayınatasını və nişanlısını xilas eləyəndə üç gün-üç gecə balinalarla döyüşürdü; axırda dəniz qıpqırmızı olurdu. Yaralanmış qəhrəman apaçilərin mühasirə elədikləri rançodan* qaçırdı, öz bağırsaqlarını əlləri ilə tutub səhradan keçirdi – generalla söhbət eləməzdən qabaq qarnını tikməyə icazə vermirdi. Tezliklə Gesafon Berlihingen adlı elə həmin qəhrəman bütöv bir ordunu qaçmağa məcbur eləyirdi. Bir nəfər hamıya qarşı – mənim devizim belə idi. Bu tutqun, nəhəng fantaziyaların mənbəyini mühitimin burjua-puritan fərdiyyətində axtarın.

Qəhrəmanım – müstəbidliyə qarşı mübarizə aparırdı; demurq idim – özüm müstəbid olurdum, hakimiyyətin bütün ləzəttini dadırdım. Mülayim idim – qəddar oldum. Mənə Dezinin gözünü çıxarmaqda nə mane olacaq? Qorxudan ölə-ölə özümə cavab verirdim: heç nə. Gözləri də milçəyin qanadlarını qoparan kimi, çıxarırdım. Ürəyim bərkdən döyünürdü, yazırdım: «Dezi əllərini gözlərinə çəkdi – o, kor olmuşdu», – sonra aləmin mütləq nizamında əhəmiyyətsiz irəliləyişə görə heyrətamiz günah duyur, əlimdə qələm donub qalırdım. Mən əsl sadist deyildim, iyrənc sevincim dərhal da çaşqınlığa çevrilirdi, bütün dekretlərimi ləğv eləyirdim, oxumasınlar deyə, üstlərindən xətt çəkib qaralayırdım. Gənc qız eynilə gözləri görən vaxtdakı kimi, dünya işığına təzədən sahib olurdu. Amma özbaşınalığım barədə xatirələr mənə hələ uzun müddət əzab verirdi – özümə ciddi həyacan təlqin eləyirdi.

Kağız üzərində mövcud olan aləm də məni narahat eləyirdi. Bəzən uşaq yaşı üçün

artıq günahsız qan tökülməsindən cana doyub özümə azadlıq verir, qorxu içində dəhşətli kainatı görürdüm. Onun qorxuncluğu mənim qüdrətimin əks tərəfi idi. Özümə deyirdim: hər şey baş verə bilər! Bu, o deməkdi ki, mən hər şeyi xəyalımda canlandıra bilərəm. Hər an səhifəni cırmağa hazır halda əsə-əsə fövqəltəbii qəddarlıqlardan söz açırdım. Anam hərdənbir çiyinlərim üstündən dəftərimə baxıb zəfərlə, həyəcanla səslənirdi: «Təxəyyülə bax!» Dodaqlarını dişləyib nəsə deməyə can atırdı, amma söz tapmır, qəfildən qaçıb gedirdi; bu zaman qorxudan başımı tamam itirirdim. Amma təxəyyülün bura dəxli yox idi, mən bütün bu vəhşilikləri kəşf eləmirdim, elə başqaları kimi yaddaşımdan götürürdüm.

Həmin vaxtlar Qərb boğulub məhv olurdu; bunu «həyat şirinliyi» adlandırırdılar. Aşkar düşməni olmadığından, burjuaziya özünü öz gölgəsi ilə qorxudub təskinlik tapırdı; əvəzində ibtidai həyəcanlar alıb darıxmaqdan can qurtarırdı. Spiritizm barədə, ruhların maddiləşdirilməsi barədə danışırdılar; bizimlə üzbəüzdə Le Qoff küçəsindəki 2 saylı evdə cadugərliklə məşğul olurdular. Bu, beşinci mərtəbədə baş verirdi. «Sehrbazın yanında», – nənəm deyirdi. Bəzən o, bizi çağırırdı, girdə masanın üzərindəki əlləri görməyə macal tapırdıq, amma kimsə pəncərəyə yaxınlaşıb pərdələri çəkirdi. Lyuza iddia eləyirdi ki, sehrbaz hər gün analarının gətirdikləri mənim yaşımdakı uşaqları qəbul eləyir. «Əlini onların başına necə qoyduğunu görürəm», – o, mədumat verirdi. Babam çiyinlərini çəkirdi, bütün bunları mühakimə eləsə də, ələ salmağa cəsarəti çatmırdı. Anam qorxurdu, bu dəfə nənəmdə maraq bədbinliyinə üstün gəlirdi. Onların fikri üst-üstə düşürdü: «Əsas odur, bu barədə fikirləşməyəsən, yoxsa çox çəkməz, dəli olarsan». Ağlagəlməz əhvalatlar dəbdə idi: xeyirxah niyyətli qəzetlər həftədə iki-üç dəfə inamlarını itirmiş, amma özlərinin incə gözəlliklərindən təəssüflənən oxucularını həmin əhvalatlarla təchiz eləyirdilər. Hekayəçi soyuqqanlı obyektivliklə müəyyən qəribə fakt barədə məlumat verirdi, pozitivizmə qarşı gedirdi: əhvalat nə qədər ağlasığmaz olsa da, yəqin, müəyyən bir ağıllı izahı var. Məqalənin müəllifi axtarıb tapırdı, vicdanla nağıl eləyirdi. Amma dərhal da həmin izahın nə qədər sadəlövh, qeyri-inandırıcı olduğunu bildirmək üçün bütün məharətini işə salırdı. Vəssalam. Hekayət sual işarəsi ilə yarımçıq

qalırdı. Bu, bəs eləyirdi. Yad şeylər həyatımıza adsız, eyni zamanda qorxunc təhlükə kimi daxil olurdu.

«Le Maten»i açıb dəhşətdən buza dönürdüm. Bir əhvalat məni xüsusilə sarsıtdı. Adı indiyənəcən yadımdadır: «Yarpaqda külək». Yay axşamı kənd evinin ikinci mərtəbəsində xəstə yataqda çırpınır; açıq pəncərədən çinar ağacı budaqlarını otağa uzadır. Birinci mərtəbədə bir neçə nəfər var, onlar toranlığın bağı necə bürüdüyünə baxa-baxa söhbət eləyirlər. Qəfildən kimsə diqqəti çinara cəlb eləyir: «Bu nədir? Küləkdir?» Hamı çaşqınlıq içində artırmaya çıxır: meh yoxdur, yarpaqlarsa tərpənir. Qəfildən də qışqırtı eşidilir! Xəstənin əri pilləkənlə qaçır, görür cavan arvadı çarpayının üstündə dik dayanıb barmağı ilə ağacı göstərir, sonra ölü kimi yerə yıxılır; çinar əvvəlki təki hərəkətsizdir. Qadın nə görüb? Dəlixanadan dəli qaçıb, ağaca dırmaşıb qorxunc sifətini göstərən odumu? Bu, odur, şübhəsiz, odur, çünki başqa ağlabatan izah yoxdur. Bununla belə… Niyə dəlinin ora çıxıb-düşdüyünü kimsə görmədi? Niyə itlər hürmədilər? Niyə altı saatdan sonra onu malikanədən yüz kilometr uzaqda tapdılar? Cavab yoxdur. Hekayəçi etinasızcasına qırmızı hərflərlə nəticə çıxarır: «Əgər kənd sakinlərinə inansaq, çinarın budaqlarını ölüm tərpədirdi. Qəzeti bir kənara atdım, ayaqlarımı yerə döyüb qışqırdım: «Yox! Yox!» Ürəyim sinəmdən çıxırdı.

Bir dəfə Limoj qatarında Aşettin almanaxını vərəqləyə-vərəqləyə az qala huşumu itirmişdim; gözlərimə dəyən qravüradan tüklərim biz-biz oldu, – ay işığına bürünmüş sahil, kələ-kötür qısqac sudan çıxıb sərxoşdan yapışır, onu nohurun dərinliyinə aparır. Şəkil acgözlüklə gözümə təpdiyim mətnə illüstrasiya idi: mətn, təxminən, bu sözlərlə bitirdi: «Bu, sərxoşun qarabasmasıdımı? Yoxsa cəhənnəmin qapısı açılıb?» Mən sudan, xərçənglərdən, ağaclardan qorxmağa başladım. Xüsusilə də kitablardan; öz hekayələrini dözülməz dəhşətlərlə dolduran cəlladları lənətləyirdim. Bununla belə, onları yamsılayırdım.

Şübhəsiz, münasib şərait, məsələn, toranlıq lazım idi. Zülmət mətbəxi doldururdu, masamı pəncərənin qabağına çəkirdim, içimdə qorxu baş qaldırırdı. Mütləq xeyirxah, etiraf olunmamış, bəraət almamış qəhrəmanlarımın itaətində onların yararsızlığını hiss

eləyirdim. Bu zaman nə baş verirdi: dəhşətdən qanım donurdu, ətürpədən, gözəgörünməz bir şey üstümə gəlirdi; mən bunu görmək üçün təsvir eləməliydim. Növbəti macəranı bitirib qəhrəmanlarımı dünyanın o başına, adətən, okeanın dibinə, yerin altına köçürürdüm, onları yeni təhlükələrə məruz qoymağa tələsirdim: qəvvaslar, yaxud həvəskar geoloqlar olan qəhrəmanlarım Məxluqun izinə rast gəlirdilər, izləyirdilər, qəfildən onunla qarşılaşırdılar. Həmin məqamda qələmin altında doğulan məxluq – alov gözlü sprut, onikitonluq qırxayaq, nəhəng danışan əqrəb – mən özüm, uşağın qəlbində yaşayan dəhşət idi, o həyatımın darıxdırıcılığı, ölüm qorxusu, mənasızlığım, pozğunluğum idi. Amma özümü tanımırdım: təzəcə yaratdığım iyrənc varlıq mənim üstümə, cəsur speleoloqlarımın üstünə atılırdı, onların həyatına görə əsirdim, qəlbim od tutub yanırdı, əlim öz-özümə hərəkət eləyirdi, sanki, yazmırdım, oxuyurdum. Çox vaxt hər şey bununla başa çatırdı: adamları vəhşi heyvanlara qurban vermirdim, amma xilas da eləmirdim – üz-üzə gəlmişdilər, bəsim idi, qalxıb mətbəxə, ya da kabinetə gedirdim. Səhər bir-iki səhifə buraxıb qəhrəmanlarımı yeni sınaqlara məruz qoyurdum. Qəribə «romanlar», sonu olmayan başlanğıc, yaxud əgər lazımdısa, eyni bir hekayətin müxtəlif sərlövhələr altında sonsuz davamı, qəhrəmanlıq əhvalatlarla qorxulu nağılların, fantastik macəralarla sözlük məqalələrinin qarışığı idi; onları saxlamamışam, bəzən buna təəssüflənirəm; heç olmasa, bir neçə dəftəri saxlasaydım, uşaqlığım mənə tamam ayan olardı.

* * *

Özümü dərk eləməyə başlayırdım. Demək olar, heç nə idim: ən çoxu – məzmunsuz fəallıq idim, amma bu da çatışmırdı. Komediyadan yayınırdım: hələ çalışmırdım, amma artıq oynamırdım, gopçu öz yalanlarını hazırlayıb öz həqiqətini əldə eləyirdi. Yazdıqlarım məni yaradırdı: onlaracan yalnız güzgülərin oyunu idim; ilk romanımı yazıb başa düşdüm ki, güzgülü saraya uşaq girib. Yazanda mövcud olurdum, böyüklərdən yayınırdım; amma yalnız yazmaq üçün yaşayırdım, əgər «mən» deyirdimsə, bu, yazmağım demək idi. Necə olursa-olsun, sevinci duydum – göz qabağında olan uşaq kimi, özümə xüsusi görüşlər təyin eləyirdim.

Uzun müddət davam eləyə bilməzdi, bu, həddən artıq gözəl olardı: gizlində səmimiyyətimi saxlayardım – məni Allah işığına çıxarardılar. Burjua uşağından peşə barədə ilk sözlərin gözləndiyi yaşa çatdım; onsuz da çoxdan xəbər vermişdilər ki, dayım uşaqları – Gerinyi Şveytserləri ataları kimi mühəndis olacaqlar. Bir dəqiqə də vaxt itirmək olmazdı. Xanım Pikar alnıma həkk olunmuş əlaməti birinci aşkara çıxarmaq istədi. «Bu oğlan yazacaq!» – o, inamla dilləndi. İncimiş Lyuza xəsisliklə gülümsədi. Blanş Pikar ona tərəf dönüb ciddi tərzdə təkrar elədi: «O yazacaq! O yazmaq üçün yaranıb»! Şarlın bunu istəmədiyini anam bilirdi; gərginlikdən qorxub yaxından mənə baxdı: «Əminsiniz, Blanş? Əminsiniz?» Amma mən axşam gecə köynəyində çarpayının üstü ilə çapanda bərk-bərk qucaqlayıb gülə-gülə dedi: «Mənim balam yazacaq!» Ehtiyatla, partlamasından qorxa-qorxa babamı xəbərdar elədilər. O, yalnız başını buladı, amma növbəti cümə axşamı günü cənab Simonnonu belə ahıl vaxtında yeni istedadın yaranmasında həyəcansız iştirak eləyə bilməyəcəyinə inandırmağa çalışdığını eşitdim. O, hələlik kağız qaralamağıma maraq göstərmirdi, amma alman şagirdləri bizə nahara gələndə əlini başıma qoyur, daha bir fransız ifadəsini özünün birbaşa öyrətmək üsuluna uyğun olaraq, hər hecanı aydın tələffüz eləyə-eləyə xəbər vermək fürsətini buraxmırdı: «Onun ədəbi zövqü inkişaf eləyib».

Özü buna, qətiyyən, inanmırdı. Bunun nə xeyri vardı? Pis şey baş vermişdi, mənə qəti etiraz eləmək risqli olardı: inad göstərə bilərdim. Karl əlverişli təsadüfdən istifadə eləyib ona həvəsimi əlimdən almaq üçün peşəmi hamıya söylədi. Babam heç də qəddar deyildi, amma o qocalırdı; öz həyacanları onu yorurdu, şüurunun dərinliklərində, nadir hallarda baş çəkdiyi bu buz səhrasında, yəqin, bizim – mənim, bütün ailəmizin, özünün, əslində, kim olduğumuz yaxşı məlum idi. Bir dəfə babamın ayaqları altında uzanıb həmişə, daş kimi bizi basıb əzən əzablı sükutda oxuyanda ağlına, hətta burda olduğumu unutmağa məcbur eləyən bir fikir gəldi; o, tənə ilə anama baxdı: «Bəs əgər ağlına qələmlə çörəkpulu qazanmaq gəlsə?» Babam Verleni dəyərləndirirdi, hətta onun seçilmiş şeirlər toplusunu almışdı. Amma iddia eləyirdi ki, şairi 1894-cü ildə Sen-Jak küçəsindəki meyxanada «donuz kimi sərxoş» görüb; bu görüş ondakı bir luidora göydən ayı

qoparmağa söz verən, amma axırda yüz suya öz çılpaq dallarını göstərən peşəkar yazıçılara, məzhəkə təlxəklərinə nifrəti möhkəmləndirirdi. Anamın üzündə qorxu ifadə olundu, amma dillənmədi; Karlın məni başqa cür görmək istədiyini bilirdi. Alman dili kafedrası litseylərinin əksəriyyətini fransız vətəndaşlığı seçmiş elzaslılar tuturdular – bu, bir növ onların patriotizminin əvəzi idi; onlar aralıq vəziyyətindən – iki xalq, iki dil arasındakı – qeyri-sistemli təhsildən, onun çatışmazlıqlarından əziyyət çəkirdilər. Elzaslılar həm də həmkarlarının öz müəllim çevrələrinə buraxmayıb onlara düşməncəsinə yanaşdıqlarından şikayətlənirdilər. Mən də intiqamçı olacağam, mən də babama, onların hamısına görə qisas alacağam; mən elzaslının nəvəsi kimi eyni zamanda Fransalı fransız idim; Karl məni insan biliyi xəzinəsi ilə tanış eləyəcək, mən ana yola çıxacağam; mənim simamda Elzas əzabkeşi müsabiqədən keçib Pedaqoji instituta qəbul olunacaq, bu aləmin böyüyü – ədəbiyyat müəllimi olacaq. Bir dəfə axşam Karl dedi, mənimlə kişi kimi söhbət eləmək istəyir. Qadınlar çıxdılar, o, məni dizlərinin üstündə oturdub ciddi söhbət elədi. Mən yazacağam – bu, artıq qət olunub; onu yetərincə tanıyıram, istəyimin əksinə gedəcəyindən qorxum yoxdur. Amma ayıq olmaq, həqiqətin üzünə dik baxmaq lazımdı: ədəbiyyat dolandırmır. Bilmirəmmi ki, məşhur yazıçılar acından ölürdülər? Bilmirəmmi ki, onların bəziləri bir tikə çörəyə satılıblar? Əgər sərbəstliyimi saxlamaq istəyirəmsə, ikinci peşə seçməliyəm? Müəllimlik fəaliyyəti boş vaxt qoyur; professorlar elə ədəbiyyatçıların gördükləri işlərlə məşğul olurlar; mən bir peşəni başqa peşəylə birləşdirəcəyəm, əsərlərini şagirdlərə açıb böyük yazıçılarla təmasda olacağam, eyni mənbədən ilham alacağam. Öz əyalətsayağı guşənişinliyimdə poemalar yazıb, Horatsini sərbəst şeirə çevirib məşğul olacağam, yerli mətbuatda qısa ədəbi qeydlər, «Pedaqoji jurnal»dasa yunan dilinin tədrisi, yaxud yeniyetmələrin psixologiyası barədə parlaq esselər çap etdirəcəyəm. Ölümümdən sonra masamın siyirmələrində istedadla, hisslə yazılan çap olunmamış əsərlərimi – dəniz barədə meditasiyalarımı, birpərdəli pyesimi, Orilyak abidələri barədə qeydlərimi tapacaqlar; balaca kitab alınacaq, həmin kitabı da keçmiş şagirdlərim qayğı ilə çap etdirəcəklər.

Müəyyən müddətdən bəri keyfiyyətlərimlə bağlı babamın həyəcanına soyuq

münasibət bəsləyirdim: sevgidən titrəyən səslə məni « ilahinin bəxşişi» adlandıranda hələ özümü elə göstərirdim ki, guya qulaq asıram, amma artıq onu eşitməyi yadırğamışdım. Bu gün, o qəsdən götür-qoy edib yalan danışdığı məqamda qulağımı niyə sallayıb durmuşdum? Vermək istədiyi çox iyrənc dərsi eşitməyə məni nə məcbur eləyirdi. Məsələ bunda idi ki, səs başqa cür səslənirdi: səs quru, soyuq idi – o səsi ölənin, mənə həyat verənin səsinə oxşadırdım. Şarl ikiüzlüdür. O, baba rolunu oynayan vaxt onda özüm kimi tələxək görürdüm, hörmət bəsləmirdim. Amma cənab Simonno, yaxud oğulları ilə danışanda, süfrə arxasında qadınlarının qulluğundan istifadə eləyəndə, dinməzcə barmağı ilə duzqabını, yaxud çörək qabını göstərəndə hökmü məni tam əsir eləyirdi. İllah da barmağı: babam, hətta onu açmağa ehtiyac duymurdu, yarıqatlanmış barmaq havada qeyri-müəyyən əyri cızırdı, iki qulluqçusu əmrin mənasını anlamalı olurdular; bəzən özündən çıxarılmış nənəm səhv eləyirdi, qrafin əvəzinə kompot qabını uzadırdı; nənəmə acığım tuturdu, o şəhanə istəklər qarşısında baş əyirdim, onları göstərmək yerinə yetirməkdən vacibdir. Əgər Şarl mənə ağuşunu açıb «Bu da yeni Hüqo! Bu da gələcək Şekspir!» – səslənsəydi, indi çertyojçu, yaxud ədəbiyyat müəllimi olardım. Amma yox: mən patriarxla ilk dəfə üz-üzə gəlirdim, o, ciddi idi, o, hörmət doğururdu, o, məni sevdiyi barədə fikirləşməyi də unutmuşdu. O, xalqa – mənə – qanun elan eləyən Moiseydi. Peşəmi yalnız onunla bağlı çətinlikləri qeyd eləmək üçün xatırlatdı: qət elədim ki, məsələ həll olunub. Əvvəlcədən vərəqlər üzərinə göz yaşı axıdacağımı, başımı divara döyəcəyimi, söyləsəydi, bu, burjua izzəti-nəfsimi qorxudardı. O, inamsız həyatın bütün bu rahatlıqlarının mənim sahəm olmadığını başa salıb məni öz peşəmdə təsdiq elədi; Orilyak, yaxud pedaqogika barədə fikir yürütmək üçün nə qızdırmalı hərarətə, nə – təəssüf! – ağılsızlıqlara ehtiyac var. XX yüzilliyin ölməz hönkürtüləri başqa sinədən çıxarılacaq. Barışdım: ədəbiyyatda ailəvi xeyirxahlarımla, nəzakətlə, meyllə parlayacaqdım. Yazıçı peşəsi qarşımda o qədər yorucu, ciddi, o qədər yararsız, o qədər maraq mahiyyətindən məhrum yaşlı adam peşəsi kimi durdu ki, məndə qətiyyən şübhə qalmadı: qismətimə ancaq bu yazılıb. Fikirləşdim: «Ancaq və ancaq» – dərhal da «Mən istedadlıyam». Bütün havalı adamlar sayaq, göydən

yerə düşməyi həqiqətin kəşfi kimi qəbul elədim.

Karl məni əlcək təki astar üzünə çevirdi: hesab eləyirdi ki, öz arzularımı möhkəmləndirmək üçün yazıram, amma ona inansaq, belə çıxırdı, elə qələmimi məşq etdirmək üçün arzulayıram, – istedadım biclik dalınca qaçırdı, məni qorxudur, narahat eləyirdi, hamısı da hər gün yazı masasının arxasında oturmağa həvəs duymağım xətrində idi; o, mənə yazmaq üçün yaşıma uyğun gələn mövzular verirdi, təcrübəmin, yetkinliyimin öz böyük diqtəsinə başlayacağını gözləyirdi. Xəyal qalalarım yıxıldı. «Yadında saxla, – babam deyirdi, – gözün olmağı azdır, ondan istifadə eləmək lazımdır. Bilmirsənmi, Mopassan balaca olanda Flober necə hərəkət eləyib. Onu ağacla üzbəüz oturdub, təsvirə iki saat vaxt verib». Mən də görməyi öyrənməyə başladım. Orilyakın abidələrini vəsf eləməyi peşəyə çevirib başqa cür abidələrə kədərlə baxırdım: qovluq, piano, yeməkxana saatları – haradan biləsən, bəlkə, onların taleyinə mənim əsərlərimlə ölməzlik qazanmaq yazılıb. Müşahidə eləyirdim ki, o maraqsız, zəhlətökən oyun idi: məxmər kreslo qarşısında dayanıb onu öyrənməyə başlayırdım. Bu barədə nə deyə bilərsən? Hə, yaşıl xovlu parça ilə örtülüb, iki qoltuqaltısı, dörd ayağı var. Hələlik vəssalam, amma ona bir də qayıdacağam, növbəti dəfə onu daha yaxşı nəzərdən keçirə biləcəyəm, axırda kreslonu beş barmağım təki tanıyacağam: sonralar onu təsvir eləyəcəyəm, oxucular deyəcəklər: «Müşahidəçiliyə bir bax! Nə qədər dəqiqdir, nə qədər oxşayır! Hər şey həyatdakı kimidir!» Həqiqi qələmim həqiqi şeyləri həqiqi sözlərlə təsvir eləyəcək, onda şeytanın özü də mənə həqiqi olmağa maneçilik törətməyəcək. Qısası, birdəfəlik nəzarətçi məndən bilet istəyəndə nə cavab verəcəyimi biləcəyəm. Nə deyim, öz xoşbəxtliyimi qiymətləndirirdim. Bədbəxtlik bir onda idi ki, o, məni sevindirmirdi. Məni ştata daxil elədilər, gələcəyimi cızıb xeyirxahlıq göstərdilər, inandırırdım ki, ona heyranam, amma günahkar əməllər məni ondan çiyrəndirirdi. Bu yazıçılıq vəzifəsinə can atırdımmı? Böyük adamlarla tez-tez ünsiyyətdə olmağım məni inandırmışdı ki, yazıçı olub gec-tez məşhurlaşırsan; amma payıma düşən şöhrəti, qismətimə miras qoymaq yazılmış bir neçə kitabcığazı müqayisə eləyəndə müəyyən saxtalıq düyürdüm: doğrudanmı, inana bilərdim ki, bu qədər əhəmiyyətsiz əsərlər

nəvələrimə, nəticələrimə gedib çatacaq, özümü əvvəlcədən darıxdıran əhvalatlar onların ürəyini döyünməyə vadar eləyəcək? Bəzən məni «üslubumun» babamın Stendalda qəbul eləmədiyi, Renandasa qəbul elədiyi sirli xüsusiyyətinin xilas eləyəcəyi fikrindən təskinlik tapmırdım; amma məzmundan xali olan bu söz rahatlıq gətirmirdi.

Başlıcası, öz-özümdən imtina eləməli oldum. İki ay qabaq dalaşqan pəhləvandım – hər şey bitdi! Məndən tələb eləyirdilər ki, Kornellə Pardalian arasında seçim aparım. Pardaliandan – əsl sevgimdən yaxamı qırağa çəkdim; rahatca Kornelə üstünlük verdim. Əsl qəhrəmanların Lüksemburq bağında necə qaçıb dalaşdıqlarını gördüm; onların gözəlliyindən sarsılıb başa düşdüm ki, aşağı irqə mənsubam. Bu barədə ucadan söyləmək, qılıncı qınına qoymaq, sıravi adam olmaq, böyük yazıçılarla – qarşılarında çəkinmədiyim əfəllərlə – dostluğu bərpa eləmək lazım idi, onlar uşaqlıqda adama yovuşmaz idilər, elə buna görə bir-birimizə oxşayırdıq; onlar cılız böyüyürdülər, xəstəlikdən əzab çəkirdilər, mən də onlara oxşayacağam; Volteri bir zadəganın əmriylə yaraladılar, ola bilsin, məni də tanımadığım bir kapitan, şəhər bağının keçmiş cüvəllağısı yortacaq.

Taleyə boyun əydiyimdən istedadlı olduğuma inanırdım – Şarl Şveytserin kabinetində, köhnəlmiş, cırıq-cırıq olmuş, qeydlərlə doldurulmuş kitabların arasında istedadım əməlli-başlı dəyərsizləşmişdi. Beləcə, əvvəllər zadəgan ailələrində taleyinə anadangəlmə ruhani vəzifəsi yazılmış bir çox kiçik oğullar tabora komandanlıq eləmək üçün ruhunu şeytana satardı. Hələ uzun müddət şöhrətin tutqun dəbdəbəsini bir mənzərə şəklində təsəvvür eləyirdim: ağ örtüklü uzun masa, qrafin dolu şirə, köpüklənən şərab şüşələri, əlimdə qədəh tuturam, başıma yığışmış fraklı adamlar – ən azı on beş nəfərdir – sağlığıma tost deyirlər, arxada bu məqsədlə kirayə edilmiş zalın tozlu, bomboş nəhəngliyi sezilir. Gördüyünüz kimi, təkcə ahıl çağlarımda hər il Yeni dillər İnstitutunda təşkil olunacaq təntənədən başqa həyatdan yaxşı bir şey gözləmirdim.

Taleyim – Le Qoff küçəsindəki 1 saylı evdə, altıncı mərtəbədə, Hötenin və Şillerin altında, Molyerin, Rasinin, Lafontenin üstündə, Henrix Heynenin, Viktor Huqonun yanında, min dəfələrlə təkrar olunan söhbətlərdə belə formalaşırdı: Karlla kabinetdən

qadınları qovurduq, bir-birimizi möhkəm qucaqlayırdıq, yarımsəslə bu söhbətləri – karların dialoqunu – aparırdıq, hər bir söz də yaddaşımda həkk olunurdu. Şarl məni dahi olmadığıma inandırıb ardıcıl, dəqiq zərbələr endirirdi. Mən, doğrudan da, dahi deyildim, bunu da bilirdim; dahilik heç də mənim yemim deyildi – uzaq, əlçatmaz qəhrəmanlıq ehtirasımın, zəif qəlbimin yeganə hədəfi idi. Ondan qəti surətdə imtina eləməyə mənə zərərlilik və şəxsi faydasızlıq hissim mane olmurdu. Daha özümə gələcək qəhrəmanlıqlar barədə arzularla təskinlik vermirdim, amma qəlbimin dərinliklərində qorxmuşdum: nəsə bir anlaşılmazlıq baş verirdi – ya lazımi uşağı götürməmişdilər, ya da peşəmlə bağlı səhv eləmişdilər. Karlın ziddinə getməmək üçün tam çaşqınlıq içində ikinci yazıçı yükünü ciddi – cəhdlə dartmağa razılaşırdım. Elə indi də ovqatım təlx olan məqamlarda məni bir fikir narahat eləyir: bu qədər gecə-gündüzü boşa vermədim ki, dəstə-dəstə kağızları korlamadım ki, yeganə, mənasız babamın xoşuna gəlmək ümidi ilə bazara kimsəyə lazım olmayan bir yığın kitab çıxarmadım ki? Əlli ildən artıq müddət keçəndən sonra qocalıb əldən düşmüş rəhmətliyin iradəsini yerinə yetirmək üçün mühakimə eləmək fürsətini əldən verməyəcəyi bir işə girişdiyimi görsəm, onda nə gülməli olardı.

Doğrudan da, mən eynən Prustun sevgidən müalicə olunub: «Heç də zövqümcə olmayan qadınların ucbatından həyatımı bu qədər korlamağa dəyərdimi!» deyə köks ötürən Svanı kimiyəm. Bəzən gizlicə sadəlövh oluram – bunu adi gigiyena tələb eləyir. Sadəlövh həqiqətin özəyindən vurur, amma o, yalnız məlum hüdudacan haqlıdır. Razıyam, ədəbi istedadım yoxdur, bunu mənə dəfələrlə xatırladıblar. Canfəşanlığımı gözümə soxublar. Hə, mən birinci şagirdəm, kitablarımdan zəhmət tərinin qoxusu gəlir, mübahisə eləmirəm, aristokratlarımızın burunlarını dik tutmağa səbəb var. Mən çox vaxt özümün ziddimə, deməli, hamının da ziddinə*, elə yüksək əqli gərginliklə yazmışam ki, illər keçdikcə o, yüksək qan təzyiqinə çevrilib. Mənim qaydalarım dərimin altına işləyib, bir gün yazmıram – yaralarım göynəyir, həddən artıq asanlıqla yazıram – yenə göynəyir. Həmin qaba tələbat bu gün məni öz inadkarlığı ilə dalana dirəyir, primitivliyi ilə dənizin Lonq-aylend çimərliyində sahilə çıxardığı iri xərçəngləri xatırladır. Tələbatım həmin

xərçənglər kimi ötən dövrün qalığıdı. Mən uzun müddət Laseped küçəsinin sərgərdanlarına həsəd aparırdım: yayda və axşamlar onları küçəyə qovurdular; yurdsuzlar oturacaqları at kimi minib baxmaq missiyasından yüngülləşmədən günahsız nəzərlərlə baxırdılar.

Amma bu da dolaşıqlıqdır: əgər qələmlərini tualet suyuna batıran qocacığazları, pinəçi kimi yazan ədəbazları nəzərə almasaq, ədəbiyyatda heç bir birinci şagirdlər mövcud deyil. Sözün təbiəti belədir: öz dilində danışırsan, başqa dildə yazırsan. Burdan nəticə çıxarıram ki, hamımız katorqalıyıq, hamımız damğalıyıq. Üstəlik də oxucu anladı: mən uşaqlığıma, ondan törənən hər şeyə nifrət eləyirəm. Əgər o mənim öz səsim olmasaydı, əgər səkkiz-on yaş arasında xəstəhal göstərişə itaətlə qulaq asıb bunun həyat işim olduğunu öz qüruruma qəbul etdirməsəydim, bəyəm babamın səsinə, qəfildən məni coşdurub masaya doğru qovan mexaniki yazıya tabe olardımmı.

Çox gözəl bilirəm ki, mən kitab düzəltmək üçün yalnız və yalnız maşınam.

Şatobrian

Az qala mübarizəsiz təslim olacaqdım. Karlın tamamilə təkzib eləməyi təhlükəli sayıb candərdi razılaşdırdığı ədəbi istedadımda, əslində, yalnız müəyyən bir təsadüfilik görürdüm, o başqa bir təsadüf – mənim özüm üçün qanuni bəraət ola bilməzdi. Anamın gözəl səsi var idi, ona görə də oxuyurdu. Amma bununla belə, biletsiz sərnişin olaraq qalırdı. Mənim ədəbi damarım var – buna görə də yazacağam, ömrümün axırınadək həmin damarı işlədəcəyəm. Yaxşı. Amma onda sənət – ən azı məndən ötrü – öz müqəddəs hökmünü itirir; onsuz da yalnız bir qədər yaxşı geyinmiş avara olaraq qalacağam. Mənim özümü gərəkli hiss eləməyim üçün kimsə barəmdə söz deməlidir. Bir müddət evdəkilər məni bu xoşagələn yanlışlıq içində saxlayırdılar; inandırırdılar ki, ilahinin bəxşiyəm, həsrətliklə tapılmışam, babamla anama həyatdan əzizəm; indi daha buna inanmırdım, amma məndə bir hiss qalmışdı ki, sən yalnız dünyaya, xüsusi olaraq, kiminsə ümidlərini doğrultmaq üçün gələndə artıq deyilsən. Mən həmin vaxt elə qürurlu, tənha idim ki, ya özümü bütün bəşəriyyətə gərəkli duymaq, ya da ölmək istəyirdim.

Yazmağın daşını atdım; xanım Pikarın bəyannamələri öz-özümlə söhbətlərimə elə

bir əhəmiyyət verirdi ki, təzədən əlimə qələm almağa cəsarət eləmədim. Romanı davam etdirmək, heç olmasa, Saxaranın düz ortasında yemək-içməksiz, tropik başlıqsız tərk elədiyim gənc cütlüyə yardım göstərmək istəyəndə gücsüzlüyün kədərli əzablarını daddım. Oturan kimi beynim dumanla dolurdu, üz-gözümü əyişdirir, dırnaqlarımı gəmiridim – məsuliyyətimi itirmişdim. Qalxırdım, evdə vurnuxurdum, mənzili yandırmaq istəyirdim, təəssüf, heç vaxt yanğın törətmədim: ənənəyə, təbiətimə, vərdişimə görə itaətkar olduğumdan, sonralar da yalnız öz itaətkarlığımı son həddə çatdırdığıma görə qiyam elədim.

Mənə qara müşəmbə cildli, qırmızı kəsikli «ev işləri üçün dəftər» aldılar – zahirən lap «romanlar üçün dəftər»in eyni idi; onlara baxmağa bənd idim ki, məktəb tapşırıqlarımla şəxsi vəzifələrim bir-birinə qarışırdı, artıq yazıçını şagirddən, şagirdi gələcək müəllimdən fərqləndirə bilmirdim; yazmaqla qrammatikanı tədris eləmək tamam eyni idi; bir neçə ay onu əlimə götürmürdüm. Babam kabinetində necə mısmırığımı salladığıma baxıb bığaltı güldü: o, açıq-aşkar siyasətinin ilk bəhrə verdiyini hesab eləyirdi.

O siyasət süquta uğradı, çünki məni qəhrəmanlıq eposu cəlb elədi. İndi, qılıncımı sındıranda, məni isə zadəgan hüquqlarından məhrum eləyəndə tez-tez gecələr eyni bir kədərli yuxu görürdüm: mən Lüksemburq bağında, hovuzun yanında, senatla üzbəüzdəyəm; bir il əvvəl ölən Veveyə oxşayan sarışın saçlı qızı naməlum təhlükədən xilas eləməliyəm. Sakit, sadəlövh körpə qız ciddi nəzərlərlə mənə baxır; əksər vaxtlar əlində serso* var. Mənsə qorxuram: qızı gözəgörünməz düşmənə verməyə qorxuram. Həm də onu çox sevirəm! Çox ümidsiz sevgi ilə sevirəm! Onu bu gün də sevirəm, o qızı axtarmışam, itirmişəm, tapmışam, öz ağuşumda saxlamışam, təzədən itirmişəm – bu, epopeyadır. Səkkiz yaşında, barışdığım həmin məqamda içimdə hər şey qiyam elədi; həmin balaca mərhumu xilas eləmək üçün həyatımın altını üstünə çevirən sadə, ağlagəlməz əməliyyat apardım: qəhrəmanın müqəddəs səlahiyyətini yazıçıya verdim.

Bir kəşfdən, daha düzünü desəm, xatirədən başladı – ondan hələ iki il qabaq müəyyən xəbər çatmışdı – böyük yazıçılar gəzərgi cəngavərlərə oxşayırlar: həm onlar,

həm o birilər coşğun minnətdarlıq izhar eləyirlər. Pardalian məsələsində sübut göz qabağında idi – minnətdar yetimlərin göz yaşları onun əlinin arxa tərəfini naxışlamışdı. Amma böyük Larussa, qəzetlərdə oxuduğum nekroloqlara inansaq, yazıçılar qəhrəmanlarla çəkişə bilərdilər: yazıçı yetirincə uzun yaşamağa bənd idi, mütləq yad adamdan *təşəkkür* dolu məktub alırdı; həmin andan axın tükənmirdi, minnətdarlıqlar dəstə-dəstə masasının üstünə qalanırdı, mənzilində üst-üstə yığılırdı; əcnəbilər yazıçının əlini sıxmaq üçün dənizlər keçib gəlirdilər; həmvətənləri onun ölümündən sonra abidəyə ianə toplayırdılar; doğma şəhərində, bəzən, hətta yaşadığı ölkənin paytaxtında onun adına küçə qoyurdular. Öz-özlüyündə bu minnətdarlıq ifadələri məni maraqlandırmırdı – bizim ailə məzhəkəçiliyimizə həddən artıq oxşayırdı. Bununla belə, bir qravüra məni sarsıtdı: məşhur romançı Dikkens bir neçə saatdan sonra Nyu-Yorka gəlməlidir, artıq uzaqlarda gəmi görünür, sahildə intizar içində camaat bir-birini itələyir, minlərlə şapka salamlamaq üçün havaya qaldırılıb, elə basabasdı, uşaqların nəfəsi kəsilir, amma kütlə təkdir, kütlə yiyəsizdir, yetimdir, atılıb, hamısı da ona görədir ki, onun gözlədiyi adam yoxdu. Pıçıldadım: «Amma burda kimsə çatışmır, mən Dikkens barədə danışıram!» – gözlərimdən də yaş axdı. Bununla belə, zahiri effektlərə fikir vermirdim, onların səbəbini dərk eləməyə çalışırdım: özümə dedim, bir halda ki, ədəbiyyatçıları bu cür qızğınlıqla qarşılayırlar, deməli, onlar eşidilməmiş təhlükələrə məruz qalırlar, bəşəriyyətə çox dəyərli xidmət göstərirlər. Həyatımda yalnız bir dəfə belə coşğunluq partlayışında iştirak eləməli olmuşam: şlyapalar havaya atılırdı, kişilərlə qadınlar «Yaşasın!», «Ura!» qışqırırdılar, iyulun 14-ü idi, Əlcəzair atıcıları keçib gedirdilər. Bu xatirə məni qəti əmin elədi: fiziki gücsüzlüyə, ədabazlığa, zərifliyə baxmayaraq, qələm qardaşları bir növ əsgərdilər, partizanlar kimi həyatlarını gizli çarpışmalarda risqə qoyurdular – alqışlarsa onların istedadından daha çox döyüşdəki igidliklərinə aiddir. Deməli, bu doğrudur, öz-özümə dedim: onlar *lazımdılar*! Onları Parisdə, Nyu-Yorkda, Moskvada gözləyirlər, kimi qorxu içində, kimi səbirsizlik içində gözləyir, yazmağa başlayacaqları, üzə çıxarıb çap etdirəcəkləri kitablardan xeyli əvvəl gözləyirlər.

Bəs onda... mən necə olacağam? Mən – missiyası yazmaq olan? Hə, məni də

gözləyirlər. Korneli Pardaliana çevirdim, o, əyri ayaqla, ensiz sinə ilə qaldı, üzünün ifadəsini saxladı, amma onu xəsislikdən, acgözlükdən xilas elədim; qəsdən ədəbi ustalıqla genişürəkliliyi səhv saldım. İndisə özümün Kornel olmağım, öz üzərimə insan nəslinin müdafiəsini götürməyim çətin deyildi. Əyləncəli gələcək mənə öz yeni yalanımı hazırlayırdı; hələ ki, əlim gətirirdi. Dünyaya çağırılmamış gəlib təzədən doğulmaq üçün bütün gücümü sərf elədim; məni artıq dediyim kimi, həyata təhqir olunmuş məsuliyyətin min dəfələrlə yalvarışı səsləmişdi. Əvvəlcə bu, qəsdən olmuşdu: xəstəhal cəngavər olan mən, xəstəhal qəhrəmanlıqlar eləyirdim, axırda saxtalığından ürəyim bulanmağa başladı. Budur, təzədən arzulamaq haqqı qazandım, amma bu dəfə arzularım gerçəkləşdi. Bununla belə, peşə mövcuddur, heç bir şübhə yox idi, zəmanəti ən ali kahin vermişdi. Uydurulmuş uşaq olan mən, qəhrəmanlığı əsl kitablar olacaq həqiqi cəngavərə çevrilirdim. Mənim üzərimə vəzifə qoyulub! Mənim əsərlərimi – onları, birincisi, bütün cəhdlərimə baxmayaraq, 1935-ci ildən tez yaranmayacaq – gözləyirlər. 1930-cu ilə yaxın səbirsizlik göstərəcək, öz aralarında deyəcəklər: amma o, gözləməyə məcbur eləyir! Artıq iyirmi beş ildir ki, müftəxoru yedizdiririk! Nədir, onu oxumadan ölüb gedəcəyik? Onlara 1913-cü ildəki səsimlə cavab verirdim: «Əl çəkin, imkan verin işləyim!». Amma mən nəzakətli idim: görürdüm ki, onlar – Allah bilir, nəyə görə – köməyimə ehtiyac duyurlar, bu ehtiyac da məni yaradırdı, onu yalnız mən ödəyə bilərdim. Özümdə bu ümumi intizarı öz dirilik mənbəyimi, varlığımın mənasını duymağa çalışa-çalışa qulaq asırdım. Bəzən mənə elə gəlirdi, bir dəqiqədən sonra hədəfə çatacağam, amma dərhal da öz cəhdlərimin əbəsliyini anlayırdım. Xeyri yox idi: bu aldadıcı parıltılara baş qoşmağım da yetərdi. Gümrahlaşıb ətrafıma göz gəzdirirdim: bəlkə, artıq hardasa mənə ehtiyac var? Amma yox, çox tezdir. Hələ özünü dərk eləməmiş gözəl arzu hədəfi kimi sevinc içində bir müddət *naməlumluğumu* saxlamağa sevinclə razı olurdum. Bəzən nənəm məni kitabxanaya aparırdı, əbəs yerə aclıqları söndürəcək müəlliflər axtara-axtara rəfdən-rəfə sürüşən ucaboy fikirli qadınlara baxıb əylənirdim; onlar həmin müəllifi tapa da bilməzdilər, axı o müəllif mən – ayaqlarına dolaşan oğlandım, qadınlarsa, hətta üzümə də baxmırdılar.

Bu, mənə əməlli-başlı təskinlik verir, təsirləndiyimdən ağlayırdım; qısa həyatım ərzində özümə xeyli rollar, meyllər uydurmuşdum, amma hamısı tüstü kimi dağılırdı. İndi içimdə quyu qazmışdılar, qazan kəs qayaya rast gəlmişdi. Mən babam Şarl Şveytser kimi, anadangəlmə, ömürlük yazıçı idım. Amma bəzən bu həvəsin arasından narahatlıq da sızırdı. Mən nəzərimdə zəmanəti Karl olan adi təsadüfi istedad olduğumu güman eləmirdim, onu müəyyən bir mandata çevirməyi bacarmışdım, amma kimsə məni mükafatlandırmırdı, kimsə məndən bir şey tələb eləmirdi, səlahiyyəti özümə özümün verdiyimi unuda bilmirdim. Mən ilkin yaradılışın bir parçası idim, nəhayət, özüm – başqalarının nəzərində olmaq istədiyim başqa birinə çevrilmək üçün təbiətdən ayrıldığım elə həmin məqamda da taleyimin üzünə baxıb tanıdım: o, yalnız özümün bir kənar qüvvə dərəcəsinə qaldırdığım şəxsi azadlığım idi. Qısası, nə özümü tamam aldada, nə də tamam inandıra bilirdim. Tərəddüd eləyirdim.

Şübhələr köhnə problemləri diriltdilər: Mişel Stroqovun sədaqəti ilə Pardalianın genişürəkliliyini necə birləşdirməli? Mən cəngavər olanda kralın əmrlərinə boyun əymirdim; kiminsə hökmü ilə yazıçı olmağa razılıq verməli idimmi? Bununla belə, şübhələr mənə çox əzab vermədilər; bir-biri ilə mübarizə aparan iki başlanğıcın hökmü altında idim, amma onların fərqli sözlərinə gözəl uyğunlaşırdım. Mənə, hətta eyni zamanda ilahinin bəxşişi, öz əsərlərimin məhsulu olmağım da əl verirdi. Yaxşı məqamlarda hər şey məndən başlanırdı, özüm özümü adamlara gözlədikləri kitabları vermək üçün heçlikdən çıxarmışdım; sözəbaxan uşaq idim, ömrümün axırınadək itaətkar olacaqdım, amma yalnız özümə boyun əyəcəkdim. Məyusluq məqamlarında, azadlığımın yararsızlığından ürəyim bulananda, qismətimə söykənib özümə təskinlik verirdim. İnsan nəslini səsləyirdim, öz həyatıma görə məsuliyyəti onun üzərinə qoyurdum; özümdə yalnız kollektiv tələbatın məhsulunu görürdüm. Çox vaxt tamamilə ilham verən azadlıqdan da, bəraət verən zərurətdən də imtina eləməməyi bacarırdım, bununla da ruhi aləmimi qoruyurdum.

Pardalianla Stroqov gözəl yola gedirdilər, təhlükə başqa şeydə gözlənirdi: məni əməlli-başlı ehtiyatlandıran xoşagəlməz əyani üzləşdirmənin qeyri-ixtiyari şahidi oldum.

Buna görə bütün məsuliyyəti heç vaxt saxtakarlıq gözləmədiyim Zevako daşıyır: o, məni utandırmaq, yoxsa xəbərdarlıq eləmək istəyirdi? Belədir, ya belə deyil, amma günlərin bir günü Madriddəki müsafirxanada özümü unudub bir şüşə şərabla layiq olduğu istirahətin dadını çıxaran bədbəxt Pardaliana baxanda diqqətimi başqa bir müştəri cəlb elədi – bu, şəxsən Servantesin özü idi. Qəhrəmanlar görüşürlər, bir-birinə qarşılıqlı hörmətlərini bildirirlər, birgə xeyiri qorumağa yollanırlar. Daha pisi, Servantes sevincdən özünü itirib yeni dostuna etiraf eləyir ki, roman yazmaq istəyir – indiyəcən baş qəhrəman ona əməlli-başlı aydın deyildi, amma indi Allaha şükür, Pardalian peyda oldu, o model rolunu oynayacaq. Qəzəblənib az qala kitabı tulladım: bu, nə nəzakətsizlikdir! Mən yazıçı-cəngavərdim, məni iki çapdılar, hər yarım müstəqil adam oldu, rastlaşıb mübahisəyə girişdilər: Pardalian axmaq deyildi, amma «Don Kixot»u yazmayıb; Servantes yaxşı döyüşürdü, amma təkbaşına iyirmi peytarı* qaçmağa məcbur eləyəcəyinə qəti bel bağlamaq olmazdı. Dostluq yalnız hər ikisinin məhdudluğunu qabardırdı. Birincisi, fikirləşirdi: «Yazıçılığı yoxdur, amma igidliyinə söz ola bilməz». İkincisisə: «Lənət şeytana, bu oğlan qılınc oynadan üçün pis düşünmür». Sonra da qəhrəmanımın Kədərli obraz Cəngavəri üçün model rolunu oynaması ürəyimcə deyildi. «Kino» dövründə mənə uyğunlaşdırılmış «Don Kixot» bağışladılar, heç əlli səhifə də oxumadım: qəhrəmancasına igidliklərim bütün dünyanı ələ salırdı! İndi də Zevako özü... Kimə inanasan axı? Düzünü desəm, fahişə idim, əsgər qızı idim – qəlbim, yaramaz qəlbim avantüraçını ziyalıdan üstün tuturdu; cəmi-cümlətanı Servantes olmaqdan utanırdım. Satqınlığa yolumu kəsmək üçün terror təşkil elədim, beynimdən, dilimdən «qəhrəmanlıq» sözünü, onun törəmələrini qovdum, gəzərgi cəngavərləri uzaqlara qovdum, özümü yazıçılar, onları hədələyən təhlükələr, pis adamları deşən iti qələmlər barədə düşünməyə məcbur elədim. Hələlik «Pardalian»ı, «Faust»u, «Səfillər»i, «Əsrlərin əfsanəsi»ni oxuyurdum, Jan Valjan, Eviradnus üzərində göz yaşı tökürdüm, amma kitabı örtüb onların adlarını yaddaşımdan silirdim, adım yazılan alayları adbaad səsləyirdim: Silvio Pelliko – ömürlük həbs cəzasına məhkum olunub, Andre Şenye-gilyotində edam edilib, Etyen Dole – diri-diri yandırılıb, Bayron – Yunanıstan uğrunda həlak olub. Soyuq

həvəslə öz peşəmi əvvəlki arzularla zənginləşdirib əritməyə başladım: heç bir şeydən çəkinmirdim, ideyaların astarını üzünə çeviriridim, sözlərin mənasını təhrif eləyirdim, pis görüşlərdən, mümkün müqayisələrdən qorxub dünyadan təcrid olunurdum. Qəlbimin tətilsayağı rahatlığına daimi ümumi səfərbərlik gəldi – mən hərbi diktatura qurdum.

Amma şübhələrdən yaxamı qurtara bilmirdim, yalnız həmin şübhələr başqa forma almışdılar. Mən öz istedadımı itiləyirəm – çox gözəl. Amma hansı məqsədlə? Mən adamlara lazımam – nəyə görə? Bədbəxtliyim bu idi ki, öz rolum və qismətim barədə düşünürdüm. Soruşurdum: «Axı söhbət nədən gedir?» – başa düşdüm ki, hər şey dağılır. Söhbət heç nədən getmirdi. İstəyən hər kəs qəhrəman ola bilməz. İgidliklə istedad azdır, hələ qanadlı kərtənkələlər, əjdahalar da lazımdır. Onları heç yerdə tapmırdım. Volterlə Russo öz vaxtlarında əməlli-başlı döyüşmüşdülər, amma o vaxtlar hələ müstəbidlər yaranmamışdı. Hüqo Hernsey ilə nifrət bəsləməyi babamın öyrətdiyi Badenqeni mismarlamışdı. Amma artıq qırx il əvvəl ölmüş imperatora nifrətin barədə qışqırmaq böyük xidmətdimi? Şarl müasir tarix barədə susurdu: dreyfusçu olsa da, heç vaxt Dreyfus barədə mənə bir söz söyləməmişdi. Amma təəssüf! Zolyanın rolunu necə həvəslə oynayırdım: məhkəmə binasından çıxıram, vəhşiləşmiş kütlə üstümə atılır, faytonun pillələrində geri çevrilirəm, ən canfəşanlıq eləyənlərə qəzəblə baxıram, amma yox, onları geri çəkilməyə məcburiyyətində qoyan qəzəbli sözlər tapıram. Üstəlik, şübhəsiz ki, İngiltərəyə qaçmaqdan imtina eləyirəm. Mən etiraf olunmamışam, hamı tərəfindən tərk edilmişəm – yenidən Qrizeldaya çevrilmək, məni Panteon gözlədiyinə bir dəqiqə də olsa, şübhə eləmədən tək-tənha Parisdə dolaşmaq çox gözəldir.

Nənəm hər gün «Le Maten», səhv eləmirəmsə, «Ekselsior» alırdı; mən cinayətkar aləmin varlığından xəbər tutdum, – bütün namuslu adamlar kimi həmin aləmdən iyrənirdim. Amma insan görkəmli vəhşilərin mənə bir faydası yox idi, qorxmaz cənab Lepinin özü onların öhdəsindən gəlirdi. Bəzən fəhlələr donquldanırdılar, var-dövlət dağılırdı, amma bundan qəti xəbərim yox idi, indiyəcən babamın bu barədə nə fikirləşdiyini bilmirəm. O, seçici borcunu dəqiq yerinə yetirirdi, kabinədən gəncləşmiş, bir qədər qızarmış halda çıxırdı, bizim qadınlar: «Hə, de görək kimə səs verirsən?» –

deyə cırnadanda ciddi tərzdə sözlərini kəsirdi: «Bu, kişi işidir!» Amma respublikanın yeni prezidenti seçiləndən sonra səmimiyyət məqamlarında bizə eşitdirirdi ki, Pamın namizədliyini müdafiə eləmir. «Tütün alverçisidir!» – qəzəblə səslənirdi. Xırda burjua ziyalısı olan Şarl istəyirdi ki, Fransanın birinci məmuru onun tayı, xırda burjua ziyalısı Puankare olsun. Anam indi məni inandırır ki, o, ifratçılara səs verirdi, bunu çox gözəl bilirdi. Təəccüblənmirəm: o, məmurlar partiyasını seçmişdi; üstəlik də, ifratçılar artıq aradan çıxırdılar, Şarl rahat yata bilərdi – tərəqqi partiyasına səs verib qayda-qanun partiyasını müdafiə edirdi. Qısası, babama inansaq, Fransa siyasətinin işi heç də pis deyildi.

Bu, məni cəsarətləndirdi – bəşəriyyəti dəhşətli təhlükələrdən qorumaq üçün silahlanmağa başladım, amma hamı məni inandırırdı ki, bəşəriyyət sakitcə inkişaf eləyir, təkmilləşir. Babam nəvəsini burjua demokratiyasına hörmət ruhunda tərbiyə eləyirdi; onun xətrinə qələmimi həvəslə işə salardım, amma Falyerin prezidentliyində kəndlilər seçki hüququndan istifadə eləyirdilər, artıq nə lazım idi? Əgər bəxtinə respublikada yaşamaq düşübsə, respublikaçı neyləməlidir? O, haray salır, yaxud yunan dilini tədris, boş vaxtlarındasa Orilyakın abidəsini təsvir eləyir. Çıxış nöqtəsinə qayıtdım, hiss elədim ki, yazıçını işsizliyə məhkum eləyən münaqişəsiz dünyada boğuluram.

Yenə də məni Şarl xilas elədi. Şübhəsiz ki, özündən ixtiyarsız. Humanizm ideyaları ilə tanış eləməmişdən iki il əvvəl dəliliyimi qidalandırmaqdan qorxub daha dilinə gətirmədiyi bəzi mülahizələr söylədi. Amma ideyalar beynimdə həkk olundu. İndi həmin ideyalar təzədən səssizcə içimdə dolaşırdılar, əsasən xilas eləyib get-gedə yazıçı-cəngavəri yazıçı-əzabkeşə çevirirdilər. Mən atasının iradəsinə sadiq uğursuz keşişin, mədəniyyətə hopdurub öz ilahi başlanğıcımı qoruyub saxladığı barədə danışırdım. Bu birlikdən də Müqəddəs Ruh, sonsuz substansiyanın atributu, ədəbiyyat və incəsənətin, qədim və yeni dillərin, eyni zamanda birbaşa tədris metodunun, ilahi tərəfindən Şveytserlər ailəsinə göndərilən, bazar günləri orqanların və orkestrlərin üzərində qanad çalan, iş günlərisə yuva kimi babamın qulağına üstünə qonan ağ göyərçinin hamisi yaranırdı. Şarlın bir yerə yığışmış çoxdankı sözləri beynimdə nitqə çevrilirdi: aləm şərin

hökmü altındadı, xilas bir şeydə – öz-özündən, bu dünyanın sevincindən imtina eləmək, fəlakətin bütün dərinliyini dərk eləyib əlçatmaz ideyaları nəzərdən keçirməyə dalmaqdadır. Bu, təhlükəli, uzunmüddətli məşq tələb eləyən çətin işdir, buna görə də xüsusi korpusa həvalə olunub. Kult xidmətçiləri bəşəriyyəti hamiliyə götürürlər, öz əməllərini onun xilasına yönəldirlər – iri və xırda yırtıcılar öz miskin mövcudluqlarını rahatca inkişaf etdirə, bir-birilə didişə, yaxud küt-küt əsə bilərlər, çünki yazıçılarla rəssamlar onların əvəzində gözəllik, xeyirxahlıq barədə düşüncələrə dalırlar. Bəşəriyyəti heyvani vəziyyətdən çıxarmaq üçün, birincisi, mühafizə altında olan yerlərdə ölmüş pult xidmətçilərinin yadigarlarını – tabloları, kitabları, heykəlləri qorumaq lazımdı; ikincisi, heç olmasa, işi davam etdirməyə, növbəti yadigarlar yaratmağa qabil bir canlı xidmətçi saxlamaq lazımdır.

Yaramaz çəkişmə idi; o qədər də başa düşmədən, onu udur, iyirmi yaşında hələ də ona inanmaqda davam eləyirdim. Uzun müddət elə bilirdim, sənət metafizik hadisədir, hər bir əsərdən kainatın taleyi asılıdır. Mən bu hiddətli dini işığa çıxardım, öz tutqun peşəmi qızıla tutmaq üçün ona inam bəslədim, mənə, elə babama heç bir dəxli olmayan incikliklərlə, qəzəblə doldum; Floberin, Qonkurların, Totyenin zəhəri məni zəhərlədi, onların insana mücərrəd nifrəti üstümə sıçradıldı. Həmin zəhər öz rolum barəsində təssəvvürümü dəyişdi. Mən sözlərin sehrbazlığına yoluxdum, ədəbiyyatı ibadətlə qarışdırırdım, onu insanın qurbanverməsinə çevirdim. Qardaşlarım, qərara gəldim, qələmimin onların xilasına xidmət eləməsini istəyirlər. Əgər müqəddəslərin daimi müdaxiləsi olmasaydı, onların miskin varlığından çoxdan bir iz qalmamışdı. Əgər səhərlər sağ-salamat oyanıramsa, əgər pəncərəyə yaxınlaşıb küçə ilə kişilərin və qadınların sağ-salamat necə getdiklərini görürəmsə, onda buna görə hava qaralandan, səhər açılanacan ölməz səhifənin üzərində bizim hamımız üçün bir sutkalıq möhlət ödənci ilə əlləşən bir zəhmətkeş guşənişinə minnətdar olmaq lazımdı. O, hava qaralanda öz işinə təzədən başlayacaq, bu gün, sabah da, üzülüb ölənəcən də beləcə davam edəcək; onda növbəni mən təhvil alacağam, mən də özümü qurban verməklə, öz yaradıcılığımla insan nəslini uçurumun kənarında saxlayacağam. Sezilmədən döyüşçü yerini ruhaniyə

verirdi – faciəli Parsifal olan mən, özümü şaqqalanmaq üçün təklif eləyirdim. Şantekleri kəşf elədiyim gün qəlbimdə hər şey iri yumaq kimi yumalandı – bu ilan yumağını açmaq üçün otuz il səbr elədim. İşgəncə verilmiş, al-qana boyanmış, əzişdirilmiş, Şantekler özündə quş damını qorumağa güc tapır, o oxuyur, quzğun qaçıb gedir, bayaq müğənnini zəhərləyəndə qəzəbli kütlə onu vəsf eləyir. Ona buxur ətri verir; quzğun yox oldu – şair təzədən çarpışır, gözəllik onu ilhamlandırır, gücünü birə on qat artırır, o, rəqibinin üzərinə həmlə eləyir, düşməni məğlubiyyətə uğradır. Mən ağlayırdım: Qrizelda, Kornel, Pardalian – onların hamısını birində qazandım, mən Şantekler olacağam. Hər şey aydın oldu: yazmaq – ilham boyunbağısını daha bir mirvari ilə bəzəmək nəsillərə ibrətamiz həyat barədə xatirə qoymaq, xalqı özündən, onun düşmənindən qorumaq, təntənəli ibadətlə adamlar üçün ilahinin xeyir-duasını almaq deməkdir. Ağlıma da gəlmirdi ki, səni oxumaq üçün yazmaq lazımdır.

Qonşular, yaxud Allah üçün yazırlar. Mən qonşularımı xilas eləmək məqsədilə Allahı seçdim, mən oxucular yox, borclular arzulayırdım. Yekəxanalıq daxildən genişürəkliliyimi itiləyirdi. Artıq yetimlərin müdafiəçisi olduğum vaxtda hər şeydən əvvəl döyüş meydanından uzaqlaşdırıb onlardan canımı qurtardım. Yazıçı olub vərdişimi dəyişmədim: bəşəriyyəti xilas eləmək üçün onun gözlərini bağlayırdım, yalnız sonra balaca, qara, sürətli reytarların – sözlərin qarşısında peyda olurdum; yeni yetimim sarığını açmağa cəsarət göstərəndə qaçıb aradan çıxırdım; qəhrəmancasına igidliklə xilas olunmuş tək-tük adamlar milli kitabxananın rəflərində mənim adımla bərq vuran təptəzə cildi dərhal görməyəcəklər.

Xahiş eləyirəm, yüngülləşdirici halları nəzərə alasınız. O hallar üçdür. Hər şeydən əvvəl həmin uydurmaların arasından öz yaşamaq haqqıma şübhəm açıq-aydın özünü göstərir. Sənətkarın ixtiyarına verilmiş pasportsuz bəşəriyyətdə rifahdan cana doymuş, öz yuvasında darıxan uşağı tanımaq çətin deyil; mən muqəddəs, qaragüruhu qurtaran iyrənc mifi qəbul elədim, çünki axır hesabda qaragüruh mən özüm idm; sakitcə, yezuitlərin dedikləri kimi, bundan da artıq öz xilasımı təmin eləmək üçün özümü kütlənin patentli xilaskarı elan elədim.

Sonrası da doqquz yaşım vardı. Yoldaşlardan məhrum, yeganə oğul olan mən, xəyalıma da gətirə bilməzdim ki, təcridim əbədi deyil. Qeyd eləmək lazımdır ki, heç etiraf olunmamış ədəbiyyatçı idim. Yenə yazmağa başladım. Yeni romanlarım bundan yaxşısı olmadığından, iki damcı su kimi əvvəlkilərə oxşayırdı, amma onları kimsə oxumurdu. Hətta özüm də oxumurdum. Məndən ötrü maraqlı deyildi. Qələmim o qədər sürətlə hərəkət eləyirdi ki, çox vaxt biləyim ağrıyırdı; doldurduğum dəftərləri döşəməyə atırdım, sonra onları unudurdum, dəftərlər də itirdi; buna görə də heç bir şeyi axıra çatdırmırdım: əgər əvvəli itirilibsə, əhvalatın axırını danışmağa dəyərmi. Üstəlik də əgər Karl həmin səhifələrə baxmağı qəbul eləsəydi, məndən ötrü *oxucu* yox, ali hakim olardı, mən onun hökmündən qorxurdum. Yazmaq – mənim adsız-sansız əməyim – ona görə hər şeydən təcrid olunmuşdum ki, özümü özünüməqsəd kimi dərk eləyirdim: mən yazmaq üçün yazırdım. Buna təəssüflənmirəm. Yazdıqlarımı bir kəs oxusaydı, xoşa gəlməyə çalışardım, təzədən vundernind olardım. Qeyri-leqal vəziyyətdə öz əslliyimi saxlayırdım.

Və sonuncusu: kult xidmətçisinin idealizmi uşağın realizminə söykənirdi. Artıq demişdim: sözdə dünyanı kəşf eləyib uzun müddət sözü dünya kimi qəbul eləyirdim. Mövcud olmaq-hardasa sözün sonsuz cədvəllərində təsdiqlənmiş ada sahib olmaq demək idi; yazmaq – onların üzərində yeni varlıqlar, yaxud – mənim ən inadkar illüziyalarımdan biri belə idi – şeyləri söz tələləri ilə diri tutmaq idi: əgər sözdən bacarıqla istifadə eləsəm, hədəf işarələrdə ilişəcək, onu tutacağam. Bax, Lüksemburq bağında diqqətimi gözəl çinar ağacı cəlb eləyir; müşahidə aparmağa cəhd göstərmirəm, əksinə, sadəlövhcəsinə ilhamı gözləyirəm; bir an sonra sadə sifət, bəzənsə bütöv cümlə də gəlir – elə bu da onun əsl yarpaqlarıdır; mən kainatı həyəcanlandırıcı yaşıllıqla zənginləşdirdim. Heç vaxt öz tapıntılarımı kağız üzərinə köçürmürdüm – belə hesab eləyirdim ki, yaddaşımda yığışıb qalırlar. Əslində, onları unudurdum. Amma o tapıntılar mənim gələcək rolunun qaranquşları idilər – mən ad verməliyəm. Əsrlərlə Orilyakda yayğın ağ ləkələr dəqiq cizgilər gözləyirdilər, məna gözləyirdilər: mən onları əsl abidələrə çevirəcəyəm. Terrorçu kimi ancaq mahiyyətə təcavüz eləyirdim: onu fellə

yaratmalıyam. Natiq kimi yalnız sözləri sevirdim: «Səma» sözünün mavi gözləri altında söz məbədləri ucaltmalıyam. Mən əsrlər üçün tikəcəyəm. Kitabı əlimə götürüb istənilən qədər açıb-örtə bilərdim, kitab bundan dəyişmirdi. Dayanıqlı substansiya – *mətnlə* – rastlaşıb yararsız gücsüz baxışım heç nəyə toxunmadan, heç nəyi sürtmədən səthlə sürüşürdü. Mənsə içiboş, ətalətliyəm – olsa-olsa, kor olan, mayakın işığı ilə qımışan ağcaqanadam; kabinetdən çıxırdım, işığı söndürürdüm – zülmətdə görünməyən kitab hələlik özü üçün işıq saçırdı. Mən öz əsərlərimə həmin hər şeyə nüfuz eləyən şüaların hərarətini bəxş eləyəcəyəm, sonra da onlar kitabxanaların xarabalıqları arasında adamlardan çox yaşayacaqlar.

Naməlum olmaq xoşuma gəlirdi, ləzzətli ömrünü uzatmaq, naməlumluğu öz xidmətimə çevirmək istədim. Zindanlarda sarğı kağızlarının üzərində yazan məşhur məhbuslara həsəd aparırdım. Onlar müasirlərin xətrinə özlərini qurban verirdilər, amma adamlarla ünsiyyətdən məhrum idilər. Düzdür, əxlaq tərəqqisi mənim istedadıma həbsxanada çiçəklənmək üçün heç bir ümid yeri qoymurdu, amma ümidimi itirmirdim: cəhdlərimin adiliyindən sarsılmış kabus onları gerçəkləndirmək üçün bütün gücünü sərf eləyəcək. Hələ ki heyranlıq içində olan məhbusdum.

Babamın barmağına doladığı anam məni gözləyən sevincləri canlı təsvir eləmək fürsətini əldən vermirdi; o, daha böyük cazibə üçün həyatımı onun özündə çatışmayan hər şeylə – rahatlıq, boş vaxt, qəlb sakitliyi – təchiz eləməyə çalışırdı. Mən gənc müəllim, subay oğlan kimi gözəl qoca qadının evində ətir, təzə camaşır qoxusu verən rahat otaq kirayələyirəm; litsey lap burnumun ucundadır; axşamlar ev sahibəsi ilə söhbət eləmək üçün dəhlizdə ləngiyirəm, o, məni çox sevir; yeri gəlmişkən, məni hamı sevir, çünki nəzakətli, tərbiyəliyəm. Bütün hekayətdə ancaq bir söz – «sənin otağın» sözünü eşidirdim. Litseyi, polkovnikin dul arvadını, əyalətin qoxusunu – hər şeyi qulaqardına vururdum, yalnız masanın üzərindəki işıq dairəsini görürdüm, pərdələr çəkilib, qaranlıqda itib-batan otağın ortasında qara müşəmbə cildi olan dəftərin üzərinə əyilmişəm. Anam on il irəli qaçıb hekayəsini davam etdirir: baş müfəttiş mənə hamilik eləyir, mən Orilyakın yüksək cəmiyyətinə qəbul olunmuşam, gənc arvadım mənə ən incə

bağlılıq göstərir, ondan ötrü gözəl sağlam uşaqlar – iki oğlan, bir qız – bəxş eləyirəm; arvadıma miras qalır, mən şəhərin kənarında torpaq sahəsi alıram, ev tikirik, hər bazar günü bütün ailəliklə işlərin gedişinə baxmağa gedirik. Mən qulaq asmırdım: bütün bu on il ərzində balaca, atam kimi bığlı olan mən, sözlük yığınları ilə dolu masanın arxasında otururam; bığlarım ağarır, əlim ara vermədən yazır, dəftərlər bir-birinin ardınca parketin üstünə düşür. Bəşəriyyət yatır; gecədir; arvadım, uşaqlarım yatırlar, hətta ola bilsin, ölüblər; mənzil sahibi yatır; yuxu məni hamının yaddaşından silib. Tənhalıq bax belə olar: iki milyard adam uzanıb yatıb, mən də yeganə gözətçi kimi, onların üzərində ucalıram. Mənə Müqəddəs Ruh baxır. O, bayaq göyə qayıtmaq, adamları tərk eləmək üçün qərar qəbul eləyib; özünü minbərə çıxarmaq vaxtı çatıb. Ona öz qəlbimin yaralarını açıram, kağızı isladan göz yaşlarımı göstərirəm, çiynimin üzərindən əyilib oxuyur, qəzəbi yatır. Onu nə sakitləşdirdi – əzabların dərinliyi, yaxud əsərlərin kamilliyi? Gizlicə «Əzab», fikirləşə-fikirləşə özümə «Əsər» cavabı verirdim. Əlbəttə, Müqəddəs Ruh yalnız əsl bədii əsərləri qiymətləndirirdi, amma mən Müsseni oxumuşdum, bilirdim ki, «ümidsizlik sözü bütün başqa sözlərdən daha gözəldir», mən də saxta ümidsizliklə cəlb eləməyi qərara aldım. «Dahilik» sözü mənə həmişə şübhəli görünürdü, indi məni, sadəcə, iyrəndirirdi. Əgər istedadlıyamsa, qüssə, sınaq, aradan qaldırılmış cazibələr nəyə gərəkdir, nəhayət, xidmətim nədədir? Həyatın bütün hallarına görə mənə bir bədən, bir də baş verməsi ilə güclə barışırdım; yox, özümü mənə ayrılmış ləvazimatla qandallaya bilmərəm. Mən missiyanı o şərtlə üstümə götürməyə hazır idım ki, qəlbimdə heç bir şey taleyimi əvvəlcədən müəyyənləşdirməsin, o heç bir şeylə şərtləndirilməsin, havasız məkanda qanad çalsın. Mən gizlicə Müqəddəs Ruhla cəngi-cidala çıxırdım. «Yazacaqsan», – o, mənə deyirdi. Mən əllərimi ovuşdururdum: «İlahi, nəyə görə bu mənim bəxtimə düşüb?» – «Heç nəyə görə». – «Bəs onda niyə mən?» – «Ona görə» – «Heç olmasa, yazmaq qabiliyyətim varmı?» – «Qətiyyən. Nədir, hesab eləyirsən ki, böyük əsərlər yazmaq qabiliyyəti olanların qələmindən çıxır?» – «İlahi, amma əgər belə yararsızamsa, kitabı necə yaradacağam?» – «Səylə». – «Deməli, onu kim istəsə, yaza bilər?» – «Kim istəsə, amma mən səni seçdim». Bu cür qarışıqlıq mənə əl verirdi,

özünüməhvlə məşğul olmağa, eyni zamanda özünü gələcək şedevrlərin müəllifi saymağa imkan yaradırdı. Mən seçilmiş, nəzərə alınmış, amma istedadsız idim; nəyə nail olacağamsa, sonsuz dözümümün, bədbəxtliyimin məhsulu olacaq; özümdə hər hansı fərdiyyəti təkzib eləyirdim; xarakter cizgiləri bağlayır; yalnız bir şeyə – məni əzablardan keçirib şöhrətə aparan şahanə xidmətə sədaqətli idim. Əzablar? Hələ onları tapmaq lazım idi; bu, yeganə, amma deyəsən, həlledilməz problem idi, çünki kasıblığa ümid eləmək lazım gəlmirdi: adsız-sansızmı qalacağam, şöhrətəmi çatacağam, onsuz da qarşımda maaşlı maarif vəzifəsi almaq durur, ac qalmayacağam. Özümə xüsusi həvəs göstərmədən qəddar sevgi dərdləri vəd verirdim: hisslərlə zəncirlənmiş ahçəkənləri xoşlamırdım; məni Sirano, qadınların qarşısında kütləşən bu saxta Pardalian heyrətə salırdı. Əsl Pardalianın arxasınca pərəstişkarlar sırası uzanırdı, «amma igid, namuslu, hətta bir qədər sərt Pardalian onları sezmirdi; düzdür, qəlbi sevgilisi Violettanın ölümü ilə əbədi sarsılmışdı. Dul qalmaq – sağalmaz yaradır; qadına görə – «səbəb səndə, təkcə səndədir» – amma onun günahı üzündən yox, bu, qalanların cazibəsindən imtina eləməyə imkan verir. Fikirləşmək lazımdır. Amma, hətta tutaq ki, gənc orilyaklı arvadım qəzada öləcək, belə bir dərd hələ seçilmişliyə haqq vermir, o qəza təsadüfi, adidir. İnadkarlığım, hər halda, çıxış yolu tapdı.

Axı qismətlərinə rüsvayçılıq, zəhərlənmə düşən, təqib olunan, adsız-sansız yazıçılar vardır, son nəfəslərinəcən yalın qalırdılar, şöhrət ancaq onların meyitini bəzəyirdi, bax, bu, mənə əl verirdi. Orilyak və abidələri barədə ciddi-cəhdlə yazacağam. Nifrətə qabil olmadığımdan, ümumi həmrəyliklə insanlara xidmətə can atacağam. Amma elə ilk əsərim qalmaqal yaradacaq, cəmiyyət üçün təhlükəli elan olacağam; Overn qəzetləri mənə təhqirlər yağdıracaq, alverçilər dükanlarının qapısını örtəcəklər, qəzəblənmiş kütlə evimin pəncərələrinə daş atacaq; mən linçləmədən canımı qurtarmaq üçün qaçmağa məcbur olacağam. Sarsılmış halda uzun aylar ruh düşkünlüyü içində keçirəcəyəm, elə hey təkrar eləyəcəyəm: «Amma, doğrudan da, anlaşılmazlıqdır axı. Axı təbiətimə görə xeyirxah adamam!» Bu, doğrudan da, anlaşılmazlıq olacaq. Amma Müqəddəs Ruh o anlaşılmazlığın dağılmasına imkan verməyəcək. Mən sağalacağam. Bir dəfə yenə

təzədən masanın arxasında oturub dənizlər, bağlar barədə yazacağam. Əsər naşirini tapmayacaq. Təqib olunan, gizlənmək məcburiyyətində qalan, bəlkə də, haqqında hökm çıxarılmış mən, başqa kitablar, çoxlu kitablar yaradacağam, Horatsinin poetik tərcüməsini eləyəcəyəm, pedaqogika barədə öz ciddi, həm də yüksək dərəcədə ağıllı mülahizələrimi söyləyəcəyəm. Neyləyə bilərsən, çamadanda çap olunmamış dəftərlər yığılmağa başlayacaq.

Bu tarixçənin iki sonu vardı; ovqatımdan asılı olaraq, bu və ya digərini seçirdim. Tutqun günlərdə özümü ümumi nifrətlə əhatə olunmuş, artıq şöhrət öz tütəyini dodaqlarına yaxınlaşdıran həmin məqamda ümidsizliyə qapılmış halda, dəmir çarpayımda ölən görürdüm. Bəzən özümə bir qədər xoşbəxtlik bəxş eləyirdim. Əlli yaşında təzə qələmi sınaqdan keçirib öz adımı əlyazmanın üstünə yazıram. Bir müddətdən sonra əlyazma itir, kimsə onu – çardaqda, arxda, yeni köçdüyüm evin anbarçasında tapır, oxuyur, heyrətlənmiş halda Mişel Zevakonun məşhur naşiri Artyom Fayyarın yanına aparır. Zəfər – on min nüsxə iki gündə satılıb qurtarıb. Ümumi tövbə. Reportyorlar dəstəsi axtarışa başlayır, amma mənim izim-tozum qalmayıb. Mən, dustaqsa hələ uzun müddət ictimai fikrin bu dəyişikliyindən xəbər tutmayacağam. Nəhayət, bir dəfə yağışdan gizlənib kafeyə girirəm, qəzeti götürürəm, – və nə görürəm? «Jan-Pol Sartr, sirli yazıçı, Orilyak nəğməkarı, dəniz şairi». Üçüncü səhifədə iri şriftlərlə altı sütun. Sevinirəm. Yox, şirin məyusluq içindəyəm. Hər halda, evə qayıdıram, ev sahibəsinin köməyilə dəftərlərlə dolu çamadanı kəndirlə bağlayıb öz ünvanımı yazmadan Artyom Fayyara göndərirəm. Beynimdə əsiredici kombinasiyaları saf-çürük eləyə-eləyə hekayətimə son qoyuram: əgər çamadanı yaşadığım şəhərdən yola salsam, jurnalistlər bir göz qırpımında sığınacağımı taparlar. Yaxşısı budur, çamadanı Parisə aparıb nəşriyyata kuryerlə göndərim; qataracan hələ uşaqlığım keçən yerlərə – Le Qoff küçəsinə, Sufflo küçəsinə, Lüksemburq bağına baş çəkməyə macal taparam. «Balzar»a getmək istəyirəm: yadıma salaram ki, babam həmin vaxt artıq rəhmətə getmiş – məni 1913-cü ildə ora aparmışdı, divanda yanaşı oturmuşduq, hamı bizə sui-qəsdçi görkəmlə baxırdı, babam pivə – özünə bir parç, mənə bir stəkan – sifariş verdi, hiss elədim ki,

məni sevirlər. Bax, indi də əlli yaşlı kədərli mən, pivəxanın qapısını açıb pivə istəyirəm. Qonşu masanın arxasında gənc gözəl qadınlar qızğın söhbət eləyirlər, mənim adımı çəkirlər. «Ah, – biri deyir, – qoy qoca, eybəcər olsun, bunun əhəmiyyəti yoxdur, ona ərə getmək üçün ömrümün otuz ilini verərdim!» Mən ona vüqarla, qüssəylə gülümsünürəm, o, təəccüblü təbəssümlə cavab verir, qalxıb yoxa çıxıram.

Bu epizodları, oxuculara söyləməyəcəyim digər çoxlu epizodları uzun müddət cilalayırdım. Həmin epizodlarda gələcəyə ötürülmüş uşaqlığımı, ailədəki vəziyyətimi, ömrümün altıncı ilində məni məşğul eləyən uydurmalarımı, naməlumluğumdan yapışan cəngavərlərin inadkarlığını görmək çətin deyil. Doqquz yaşımda incikliyimdən zövq alıb hələ də inadkarcasına dünyaya açıq eləyirdim; inadkarlıq üzündən mən, sarsılmaz əzabkeş, deyəsən, Müqəddəs Ruhun özünü də hövsələdən çıxaran anlaşılmazlığı dağılmağa qoymurdum. Niyə gözəl pərəstişkarıma öz adımı demədim? «Ah, – özümə deyirdim, – həddən artıq gecdir» – «Amma bu, onun qarşısını kəsməyəcək axı?» – «Hə, bununla belə, həddən artıq kasıbam». – «Həddən artıq kasıbsan? Bəs qonorarlar?» Bu etirazı da süpürüb atırdım: Fayyara yazırdım ki, mənə çatmalı olan pulu kasıblara paylasın. Amma əhvalatın sonsuzluğa ehtiyacı vardı. Nə olar, öz sığınacağımda hamı tərəfindən tərk edilmiş, amma qəlbi rahat halda ölüb gedirdim – öz missiyamı yerinə yetirmişdim.

Bu min dəfələrlə təkrar olunan əhvalatda məni bir şey heyrətləndirir: öz adımı qəzetdə görməyə bəndəm ki, yay sınır, mənim də axırım çatır: məyusluqla məşhurluqdan zövq alıram, amma daha yazmıram. Hər iki sonluğun mahiyyəti eynidi – şöhrət üçün doğulmaqdan ötrü öləndə də, öldürmək üçün şöhrət gələndə də – yazmaq yanğısı özündə həyatdan imtinanı gizlədir.

Həmin vaxt məni harda oxuduğumu xatırlamadığım hekayə həyəcanlandırmışdı. Hadisə ötən yüzillikdə baş verir. Sibir yarımstansiyasında bir yazıçı qatarı gözləyə-gözləyə gəzişir. Üfüqdə nə daxmalar, ətrafda nə ins-cins var. Yazıçı qəzəbli halda iri, yorğun başını aşağı salır. O, zəif görür, subaydır, kobuddur, həmişə əsəbidir; darıxır, prostat şişi, borcları barədə düşünür. Qəfildən də dəmiryolu boyunca uzanan yolda

kareta görünür; gənc qrafinya karetadan atılıb heç vaxt görmədiyi, guya, fotoşəkildən tanıdığı səyyaha doğru qaçır, qarşısında təzim eləyir, sağ əlini tutub öpür. Əhvalat bununla qurtarırdı, bilmirəm, müəllif nə demək istəyirdi. Amma məni, doqquz yaşlı oğlanı deyingən yazıçının çöldə də oxucusunun tapıldığı, bu qədər gözəl qadının unutduğu şöhrətini ona xatırlatmaq üçün gəlməsi vəcdə gətirirdi – elə bu da əsl doğuluşdur. Daha dərindən baxsaq – ölümdür. Bunu duyurdum, istəyirdim ki, belə olsun: canlı sadə adam kübar qadından bu cür pərəstiş əlamətini qəbul eləyə bilməzdi. Deyəsən, qrafinya deyirdi: «Əgər sizə yaxınlaşmışam, toxunmuşamsa, deməli, öz dərəcəmin yüksəkliyini qorumaq ehtiyacı aradan qalxıb; hərəkətim barədə nə düşünəcəyinizin məndən ötrü əhəmiyyəti yoxdur, siz mənim üçün, yaradıcılığınızın rəmzisiniz». Bir səyyah Sankt-Peterburqdan min verstlərlə uzaqda, ömrünün əlli beşinci ilində əlinin öpülməsindən sarsılmış halda, əsərlərinin kataloqundan bərq vuran hərflərdən başqa heç bir şey qoymayıb parlaq alov saçırdı, şöhrət odunda alışıb-yanırdı. Mən qrafinyanın necə karetasına əyləşib gözdən itdiyini, tənhalığın təzədən çölü bürüdüyünü görürdüm; qatar gecikmənin əvəzini çıxmaq üçün toranlıq içində dayanmadan keçib-gedirdi, qorxudan kürəyimdə gizilti duyurdum, «Yarpaqlarda külək»i xatırlayıb fikirləşirdim: «Qrafinya – ölümdür». O, yanıma gələcək, bir dəfə kimsəsiz yolda öpüşü ilə barmaqlarıma toxunacaq.

Ölüm məni vəsvəsə kimi təqib eləyirdi, çünki həyatı sevmirdim. Mənə ölümü təlqin eləyən qorxu bununla izah olunur. Onu ölümlə eyniləşdirib ölümdən mənzilbaşı düzəltdim. Ölmək istəyirdim; bəzən dondurducu dəhşət səbirsizliyimi buxovlayırdı, amma bu, uzun çəkmirdi. Bizim həyat planlarımızda niyyətlə hiylə ayrılmaz halda çulğaşıb; indi başa düşürəm: öz mövcudluq faktımın gunahını yumaq üçün ağılsız yazma ideyasında – ideya öz-özlüyündə yalan və saxta da olsa – gerçək bir şey vardı; bunun sübutu kimi indi, əlli il keçəndən sonra da yazmaqda davam eləyirəm. Amma başlanğıclara qalxıb onda fənd, qorxaqlıqdan hücum, necə gəldi intihar görürəm; düzdür, mən epopeyadan, əzabkeşliyin özündən artıq arzulayırdım. Uzun müddət qorxurdum ki, ömrümü başladığım kimi bitirərəm, təsadüfi ölüm yalnız təsadüfi doğuluşun əks-sədası

olar. Peşə hər şeyi dəyişdi: qılınc yaraları sağalır, yazılanlar qalır; anladım ki, zərif söz sənətində bəxş eləyən öz bəxşişinə, yəni aydın görünən hədəfə çevrilə bilər. Təsadüf məni insan elədi, genişürəklilik kitaba döndərəcək; bürünc yazılarla öz söyləmələrimi, öz şüurumu tökə, həyatın əbəsliyini yazıların silinməzliyilə, cismi üslubla, zamanın tənbəl axarını əbədiyyətlə əvəz eləyə, Müqəddəs Ruhun qarşısında dil reaksiyaları nəticəsində düşən yığıntı kimi dura, insan nəslinin əlçəkməz ideyası ola, nəhayət, özüm yox, *başqası,* ayrı cürü, bütün başqaları yox, ayrıları, hər şey yox, ayrısı ola bilərəm.

Özümə aşınmaya məruz qalmamış cism yaradıb onu tələbatçıya təklif eləyəcəyəm. Mən cismi tökmək üçün yazacağam. Məzarımın yüksəkliyindən doğulmuş qaçılmaz şər, dəyişməni hazırlayan sırf müvəqqəti təcəssüm kimi görünürdü: dirilmək üçün yazmaq lazım idi, yazmaq üçün beyin, gözlər, əllər gərəkdir; əsər başa çatacaq, həmin üzvlər də öz-özlərinə dağılışacaqlar – 1955-ci ildə qabıq çatlayacaq, ondan iyirmi beş in folio* kəpənək çıxacaq, bütün səhifələri ilə titrəyə-titrəyə Milli kitabxananın rəfinə qonacaqlar. Həmin kəpənəklər həm də mənim «mən»im olacaqlar; iyirmi beş cild, on səkkiz min mətn səhifəsi, üç yüz qravür, o cümlədən. müəllifin portreti. Sümüklərim müşəmbə ilə kartondur, perqament cismim yapışqanla göbələk qoxusu verir, altmış kilo kağızda lap rahatca yerləşmişəm. Mən dirilirəm, mən nəhayət, danışan, düşünən, oxuyan, guruldayan, özünü materiyanın həyasız keçilməzliyilə təsdiqləyən əməlli-başlı adam oluram. Məni götürürlər, məni açırlar, məni masanın üstünə qoyurlar, məni ovucları ilə, bəzən elə qanırırlar ki, şaqqıltı qopur. Bütün bunların hamısına dözürəm, qəfildən də partlayıram, göz qamaşdırıram, aralıdan göstərişlər verirəm; məkan və zaman mənim qarşımda gücsüzdür, mən pisləri yandırıb külə döndərirəm, mən yaxşıları himayəm altına alıram. Məni nəzərə almamaq olmaz, mənim üstümdən sükuta keçmək olmaz, mən böyük, yığcam, qorxunc səcdəgaham. Mənim şüurum darmadağın olub – bu, daha yaxşıdır. O. başqa şüurlara daxil olub. *Məni* oxuyurlar, nəzərlər *mənə* dikilib, *məndən* sitat gətirirlər, *mən* hamının dilində-ağzında dolaşıram, *mən*—ümumi təkrarolunmaz diləm; *mən* milyonların baxışlarındakı diqqətlə işıq saçıram; *məni* sevə biləcək adamlar üçün hey yerdə mövcud deyiləm, nəhayət, *mən* varam! Mən hər yerdəyəm***; mən***

bəşəriyyətdə havayı yaşayıram, *mənim* xeyirxah əməllərim arasıkəsilmədən *məni* yoxluqdan yaratmağa məcbur eləyib onun cisminə girir.

Əməlim baş tutdu: ölümü şöhrət səhrasında dəfn elədim; indən belə eyni olduqlarını ağlıma gətirmədən, birincini yadıma salmayıb yalnız sonuncu barədə düşünürdüm. İndi, bu sətirləri yazanda bilirəm ki, möhlətim başa çatıb, bir neçə ilim qalıb. Buna görə də yaxınlaşan qocalığı, canımı qurtara bilməyəcəyim zəifliyi, mənə doğma olan adamların ölümünü sevinib-eləmədən öz-özlüyündə aydın təsəvvür eləyirəm; öz ölümümü heç vaxt xəyalıma gətirə bilmirəm. Bəzən yaxın adamlarıma – bəziləri məndən on beş, iyirmi, otuz il cavandılar – onlardan sonra yaşamağın məndən ötrü nə qədər acı olacağını eşitdirirəm; onlar məni ələ salırlar, mən də onlara qoşulub gülürəm, amma əllərindən heç nə gəlmir, heç nəyi dəyişə bilməzlər: doqquz yaşında mənim necə deyərlər, təbiətimizə xas olan hər hansı əsintini duymaq qabiliyyətim vardı. On ildən sonra Pedaqoji institutda ən yaxşı dostlarım həmin qorxudan gecəyarısı dəhşət içində, yaxud hədsiz qəzəb içində dik atılırdılar; mən daş kimi yatırdım. Ağır xəstəlikdən sonra onlardan biri bizi inandırırdı ki, son nəfəs də daxil olmaqla cançəkişməsinin bütün əzablarını daddı. Ən dəlisi Nizandır: o, bəzən özünü aşkar meyit görürdü; qalxırdı, gözlərində qurdlar oynaşırdı, baxmadan girdə kənarlı şlyapasını baxmadan qapıb yox olurdu; iki gündən sonra onu tanımadığımız adamların arasında kefli tapırdıq. Bəzən həmin bəndələr kitablardan ayrılıb yuxusuz gecələrin təcrübəsini, yoxluğun öncəduyumunu bölüşürdülər – onlar bir-birini yarımsözdən başa düşürdülər. Qulaq asırdım, onları sevirdim, çox istəyirdim ki, həmin adamlar kimi olum, amma nə qədər çalışırdım ki, mənə ancaq dəfn mərasimlərində danışılan bayağılıqlar gəlib çatırdı: indi yaşayırsan – indi öləcəksən, kim yaşayacaq, kim öləcək; ölümünə bir saat qalmış hələ yaşayırsan. Şübhə eləmirdim ki, onların sözlərində məndən yan keçən bir məna var; mən tör-töküntü idim, həsəd apara-apara susurdum. Axırda əvvəlcədən inciyib soruşurdular: «Yaxşı, bəs sən? Bu, səni təsirləndirmir?» Mən aciz, alçalmış halda əllərimi yana açırdım. Onlar əsəbi-əsəbi gülürdülər, mənimlə bölüşə bilmədikləri aşkarlıq baxışlarını tuturdu.

«Sən də heç vaxt ağlına gətirməmişdin ki, bəzi adamlar yatıb yuxuda ölürlər? Dişlərini təmizləyəndə ağlına gəlmirmi; hə, budur, axırıncı dəfə təmizləyirəm, vaxtım yetişdi? Heç vaxt hiss eləməmisənmi ki, tələsmək, tələsmək, tələsmək lazımdı, vaxt yoxdur? Nədi, özünü ölməz sayırsan?» Yarıqəsdən, yarı adətim üzrə cavab verirdim: «Faktdır, mən özümü ölməz sayıram». Tamamilə yalandır – cəmi-cümlətanı təsadüfi ölümdən sığorta olunmuşdum; Müqəddəs Ruh mənə uzun müddətli sifariş verdi, o sifarişi yerinə yetirməyə vaxt da verməlidi. Fəxri mərhumluq üçün nəzərdə tutulmuş mən, öz ölümümlə qəzalardan, beyinə qan sızmasından, peritonitdən sığorta edilmişdim; onunla görüş tarixi barədə şərtləşmişdik, həddən artıq tez gəlib tapa bilməzdim; dostlarım heç vaxt ölüm barədə düşünməməyimi nə qədər istəsələr, irad göstərə bilərdilər – bilmirlər ki, bir dəqiqə də olsun, ölümlə yaşamağa ara vermirəm.

Bu gün onların haqlı olduqlarını boynuma alıram, həmin adamlar həyəcan da daxil olmaqla insan mövcudluğunun şərtlərini tamam qəbul eləyiblər; mən ruhi rahatlığa üstünlük verdim; mahiyyətcə özümü. doğrudan da, ölməz sayırdım; əvvəlcədən özümü öldürürdüm, çünki yalnız ölənlər ölməzlikdən zövq ala bilərlər. Nizanla Mayo bilirdilər ki, vəhşicəsinə hücumun qurbanı ola bilərlər, onlar sağ-salamat olanda aləmdən təcrid ediləcəklər. Mənsə özünüaldatmayla məşğul olurdum: ölümü vəhşi xarakterindən məhrum eləmək üçün onda öz məqsədimi, həyatdasa yeganə ölmək üsulunu görməyi qərara aldım. Ümidlərimin, arzularımın məndən ötrü kitablarımı doldurmaq üçün ciddi ölçülüb-biçildiyini bilə-bilə, qəlbimin son cəhdinin əsərlərimin son cildinin son abzasında yazıldığına, ölümün artıq ölmüş adamın olacağına əmin halda asta-asta axıra yaxınlaşırdım. Nizan iyirmi beş yaşında qadınlara, maşınlara, dünyanın rifahına ümidsizlik acgözlüyü ilə baxırdı; o hər şeyi görməyə, hər şeyi dərhal əldə eləməyə tələsirdi. Mən də baxırdım, amma acgözlükdən çox diqqətlə baxırdım – həyat məqsədim həzz yox, tarazlıq yaratmaq idi. Mən deyəsən, həddən artıq rahat yerləşmişdim: həddən artıq dinc uşağın cəsarətsizliyindən, qorxaqlığından açıq, sərbəst, yaşam öncəgörməsi ilə təmin olunmamış risqdən boyun qaçırırdım, özümü inandırırdım ki, hər şey əvvəlcədən müəyyənləşdirilib, üstəlik də hər şey artıq keçmişdə qalıb.

Bu dələduz əməliyyat şübhəsiz, özümü sevmək cazibəsindən xilas eləyirdi. Məhvolma təhlükəsi dostlarımdan hər birini indidə gizlənmək məcburiyyətində qoyurdu, hər biri öz bəndə ömürlərinin təkrarsızlığı düşüncəsinə qapılıb özündə təsirli, qiymətli, yeganə varlıq görürdüm; hər biri özünün xoşuna gəlirdi; mənsə ölü idim, özümün xoşuma gəlmirdim; özümü adi, üstəlik böyük Korneldən cansıxıcı sayırdım, mənim subyektiv fərdiyyətim öz nəzərimdə yalnız məni obyektə çevirəcək anın hazırladığı qədər maraqlı idi. Bu, o deməkdimi ki, mən daha ciddi idim. Qətiyyən yox, – sadəcə, daha bic idim; özümə sevgini nəsillərə tapşırırdım; günlərin bir günü hələ dünyaya gəlməmiş kişilərin və qadınların qəlbini bilmirəm nəyləsə riqqətə gətirəcəyəm, onlara xoşbəxtlik verəcəyəm. Mən daha çevik, daha hiyləgərdim: əlaltından özümü darıxdıran, ölüm silahı rolunacan alçaldılmış həyatı xilas eləyirdim; mən ona nəsillərin gözü ilə baxırdım, həyat da mənə hamı üçün yaşadığım təsirli, gözəl əhvalat kimi görünürdü – mənim sayəmdə artıq o həyatı kimsə təzədən yaşamalı olmayacaqdı. Oxumaqla kifayətlənmək olar. Həqiqətən də buna mübtəla olmuşdum: böyük mərhumun keçmişini öz gələcəyim seçib əks ardıcıllıqla yaşamağa çalışırdım. Doqquz – on yaş arasında tamamilə öləri oldum.

Gunah təkcə məndə deyildi: babam məni retrospektivlik illüziyasında tərbiyə eləyirdi. Bununla belə, o da günahkar deyildi, heç də ilğım-mədəniyyətin qeyri-iradi bəhrəsi kimi ona acığım tutmayıb. Şahidlərin ölümündən sonra böyük insanın ölümü həmişə öz qəfilliyini itirir, zaman onu xarakter cizgisinə çevirir. Çoxdankı mərhum öz təbiətinə görə ölüdür, o, dəfn olunandan çox, xaç suyuna çəkilən zamandan ölüdü, onun həyatı bizə məxsusdur, bu tərəfindən, o tərəfindən ortasından içinə daxil oluruq, istəyirik – qaldırırıq, istəyirik – çayaşağı axıdırıq: xronologiya partladılıb, bərpa eləmək mümkün deyil; personaj daha heç bir şeylə risq eləmir, ondan hər şey qazdan su axan kimi tökülür. Mövcudluq inkişaf görüntüsünü saxlayır, amma ölünü diriltməyə cəhd eləyin – görəcəksiniz ki, onların həyatının bütün hadisələri sizdən ötrü eynivaxtlıdır. Özünüzü onun ehtiraslarını, səhvlərini, ziddiyyətlərini bölüşən kimi göstərib, nəticədə sınmış müqavimətini, ötəri acığını, yaxud ehtiyatını bərpa eləyə-eləyə əbəs yerə dünyadan

köçənin yerinə qoymağa çalışırsınız, onsuz da mərhumun hərəkətini əvvəlcədən görmək mümkün olmayan hərəkətlər, malik olmadığı məlumatlar nəticəsində qiymətləndirəcəksiniz, onsuz da onun özü üçün hiss olunmadan keçsə də sonralar dönüş yaradacaq hadisələrə xüsusi əhəmiyyət verəcəksiniz. Bu da sizin üçün ilğım – gələcək keçmişdən daha gerçəkdir. Təəccüblənmək lazım deyil: ömür yaşanıb, əvvəl barədə də axıra görə mühakimə yürüdürlər. Mərhum yolun yarısında, varlıqla onun dəyərləri arasında, kobud faktla onun təzədən bərpası arasında qalacaq, həyat çevrəsi qapanacaq, tarixin mahiyyəti də həmin çevrənin hər bir nöqtəsində yekunlaşdırılacaq. Arrasın salonlarında soyuq, ədalı vəkil qoltuğunda öz başını saxlayır – bu ki rəhmətlik Robespyerdir; başdan xalını bulamadan qan axır; onu qonaqlardan heç biri görmür, bizsə ancaq bunu görürük; başın səbətə diyirlənməsi üçün beş il vaxt lazım olacaq, kəsilmiş, sınmış cəhənginə baxmayaraq, gözəlləmələr söyləyən başsa bizim qarşımızdadır. Əgər həmin optik yalan müəyyənləşdirilibsə, daha mane olmağa ara verir: biz lazımi düzəliş apara bilərik. Amma həmin dövrdə mədəniyyət xidmətçiləri onları öz idealizmləri ilə qidalandırıb gizlədirdilər. Böyük ideya həyata gəlməyi qərara alanda özünü böyük adamın xəbərçisi olduğu qadınının bətnində nəzərdən keçirir; qadın ondan ötrü ailə, mühit seçir, yaxınlarının anlayışını, məhdudluğunu dəqiq ölçüb-biçir, təhsilini reqlamentləşdirir, yayğın xarakterini xətbəxət çəkir, onu zəruri sınaqlara məruz qoyur, bu qədər mövcud qayğıların predmeti onu yükdən azad eləyənəcən səylərini möhkəm əllə yönəldir. Bu, bəyan olunmurdu, amma hər şey səbəb və nəticələrin qovşağında başqa, əks ardıcıllığın gizləndiyi fikrinə gətirib çıxarırdı.

Mən öz taleyimi tamam sığortalamaq üçün bu ilğımdan vəcdlə istifadə elədim. Zamanı götürdüm, baş-ayaq elədim – hər şey də öz yerini tutdu. Bunun başlanğıcı solmuş qızılı cildi olan, kip səhifələri yanıq qoxusu verən tünd cildli kitaba qoyuldu, kitab «Məşhur adamların övladları» adlanırdı; yazısından məlum olurdu ki, dayım Jorj onu 1885-ci ildə hesabdakı uğurlarına görə ikinci mukafat kimi alıb. Birinci dəfə kitab əlimə ekzotik səfərlərim dövründə keçdi, vərəqlədim, hirslənib tulladım: o gənc seçilmişlər heç də vunderkind deyildilər; onların mənimlə aydın xeyirxahlıqlarından

başqa ümumi heç bir şeyləri yox idi – bundan ötrü onlar barədə söz açmağa dəyməz. Axırda kitabcığaz itdi – gözdən uzaq yerlə onu cəzalandırdım. Bir il keçəndən sonra həmin kitabı tapmaq üçün rəfləri alt-üst elədim; dəyişmişdi, vunderkinq uşaqlıq görkəmində böyük adam olmuşdu. Qəribə işdir. – kitab da dəyişmişdi. Sözlər eyni idilər, amma onları özümə aid eləyirdim. Duyurdum ki, bu kitab məni məhvə aparır, o, məni iyrəndirir, qorxudurdu. Hər gün hələ onu açmayıb üzü pəncərəyə sarı otururdum – təhlükə baş verəndə gözlərimi əsl günəş işığı ilə yumuaram. «Fantomas»ın, yaxud Andre Jidin pis təsiri barədə təəssüf hissi keçirənlər indi məndən ötrü çox gülməlidilər, onlar doğrudanmı bilmirlər ki, uşaqlar öz zəhərlərini özləri tapırlar? Mən onu narkomanın sevincsiz inadkarlığı ilə udurdum. Amma o, zahirən tamamilə zərərsizdir. O, gənc oxucularımı həvəsləndirirdi: sözəbaxan ol, valideynlərinə hörmət elə – hər şeyə yetərsən, hətta Rembrand, yaxud Motsart olarsan; qısa novellalarda Jan, Jan-Jak, yaxud Jan-Batist adlanan sadə, amma hissiyatlı, tərbiyəli oğlanların adi məşğuliyyətləri barədə danışılırdı – hamısı mənim kimi öz doğmalarının sevinci idi. Amma mənim zəhərim görün nədə idi: əlaltından, Rasinin, Russonun, yaxud Molyerin adlarını xatırlatmadan müəllif bütün ustalığını işə salır, eyham vururdu ki, onlar böyük adamlar olacaqlar, sözarası ən məşhur əsərlərini, yaxud əməllərini elə-belə xatırladırdı, hekayəti elə quraşdırırdı ki, ən mənasız təsadüf gələcək hadisələrin işığında qavranılırdı; gündəlik vurnuxmaya qəfildən gözəl dəyişikliyin – gələcəyin gərgin sükutu soxulurdu. Santi adlı biri Papanı görməyi həddən artıq istəyirdi; Müqəddəs Ata meydandan keçən gün oğlan ora aparılmasına nail oldu. Oğlan rəngi qaçmış, gözləri bərəlmiş halda dayanmışdı. Nəhayət, kimsə ondan soruşdu: «Ümidvaram ki, razısan Rafaello?» Heç olmasa, Müqəddəs Atanı görə bildinmi?» Amma o, biganə görkəmlə cavab verdi: «Hansı müqəddəs Atanı? Ancaq rənglər gördüm!» Hərbçi olmağı arzulayan Migel bir dəfə cəngavər romanından ləzzət ala-ala ağacın altında oturubmuş, qəfildən, dəmirin ildırımsayağı xırçıltısından diksinir: bu qonşuluqda yaşayan qoca ağlıkəm, kasıb zadəganmış, köhnə yatağında hayqırıb dəyirmanı pas atmış nizəsi ilə nişan alıbmış. Süfrə arxasında Migel baş verənlər barədə elə gözəl danışırdı, bədbəxti elə maraqla

yamsılayırdı ki, hamı gülməkdən uğunurdu; amma sonra öz otağında romanı yerə atıb tapdaladı, uzun müddət uzun-uzadı ağladı.

Həmin uşaqlar yanılırdılar, onlar hesab eləyirdilər ki, ağıllarına gələn kimi hərəkət eləyirlər, əslindəsə onların ən xırda sözləri real məqsəd daşıyırdı–həmin sözlər uşaqları gözləyən taledən xəbər verirdi. Onların arxasında müəlliflə mən bir-birimizə təsirlənmiş halda gülümsəyirdik; mən həmin xəstəhal ortababların həyat təfərrüatını Allah tərəfindən düşünülmüş kimi – sondan başlayıb oxuyurdum. Əvvəlcə sevinirdim – mənim qardaşlarım idilər, onların şöhrəti mənə qismət olmuşdu. Qəfildən də hər şey qarışırdı; mən o tərəfə, *kitabın içinə* düşdüm: Jan-Polun uşaqlığı Jan-Jakın, yaxud, Jan-Batistin uşaqlığına oxşayırdı; o nə eləsəydi, hər şey çoxmənalı xəbərdarlıq idi. Amma bu dəfə müəllif mənim nəvə qohumum tərəfindən göz vururdu. Hətta təsəvvürümə gətirə bilmədiyim həmin gələcək uşaqlar məni ölümdən doğumacan gözdən keçirirdilər, arasıkəsilmədən özümə anlaşılmaz bayraqlarını yönləndirirdim. Hər bir hərəkətimi şərtləndirən ölümün soyuq nəfəsi ilə təmasda diksirindim; öz-özümə mülkiyyət hüququndan məhrum halda kitabdan çıxmağa, təzədən oxucu olmağa çalışırdım, başımı qaldırırdım, kömək üçün gündüz işığına müraciət eləyirdim, amma bu da əlamətdir, qəfil narahatlıq, həyəcan, gözlərin, boynun hərəkəti–bütün bunları 2013-cü ildə mənə hər iki açarı – yaradıcılıq və ölüm – olanlar necə mənalandıracaqlar? Kitabdan ayrıla bilmirdim, onu çoxdan oxumuşdum, amma personajlardan biri olaraq qalırdım. Mən özümü izləyirdim: bir saat bundan əvvəl anamla söhbət eləyirdim – əvvəlcədən nə dedim? Ayrı-ayrı sözləri yadıma salırdım, o sözləri ucadan söyləyirdim, heç bir xeyri olmurdu. Kəlmələr sürüşürdülər, onlardan heç bir şey çıxara bilmirdim; öz sözlərim qulaqlarımda yad sözlər kimi səslənirdi, beynimin içində fikirlərmi oğurlayıb quldurluq eləyirdi, təlxəksayağı mələkciyəz –XXX əsrin sarışın oğlanı öz pəncərəsinin ağzında oturub məni kitabdan müşahidə eləyirdi. Sevgidən titrəyib onun baxışının məni öz minilliyimdə necə haqladığını, daşa ilişdiyini duyurdum. Ona uyğunlaşırdım, kütləyə ikimənalı sözlər verirdim. Ann-Mari içəri girirdi, mən masanın arxasında nəsə yazırdım, o, deyirdi: «Bura nə yaman qaranlıqdır! Gözlərini xarab eləyərsən, əzizim!» Başdansovdu cavab

vermək üçün bundan istifadə eləyirdim: «Mən zülmətdə də yaza bilərdim» O, məni axmaqcığaz adlandırıb gülür, işığı yandırırdı. Qaçılmaz bir şey baş verirdi– heç birimiz bilmirdik ki, üç mininci il məni gözləyən azar barədə xəbər tutub. Doğrudan da, ömrümün axırında Bethovenin karlığından da ağır olan korluqdan əzab çəkə-çəkə əlhavasına son əsərim üzərində işləyəcəyəm–əlyazmanı kağızlarımın arasında tapan adamlar məyus halda deyəcəklər: «Amma bunu oxumaq mümkün deyil!» Hətta kimsə onu zibilliyə atmağı təklif eləyəcək. Axırda Orilyak bələdiyyə kitabxanası yalnız müəllifə hörmət əlaməti olaraq, əlyazmanı saxlamağa götürəcək; unudulmuş əlyazma yüz il yatıb qalacaq. Sonra bir dəfə mənə sevgi üzündən gənc istedadlar onun oxumağa çalışacaqlar, şübhəsiz ki, yaratdıqlarının ən yaxşısı olan əsəri bərpa eləmək üçün onlara bütöv bir ömür yetməyəcək. Anam artıq otaqdan çıxıb; mən təkcə özüm üçün, başlıcasısa tamam mexaniki olaraq təkrar elədim «Zülmətdə!» Quru şappıltı eşidildi– uzaq nəticəm olan qohumum kitabı örtdü; o, əmisi tərəfdən ulu babasının həyatını arzulayır, yanaqlarından yaş axır. «Bu da baş verdi, Jan-Pol zülmətdə yazırdı», – o, köksünü ötürürdü. Mən doğulacaq, iki damcı su kimi mənə oxşayacaq uşaqlar qarşısında dururdum. Onların başım üzərində ağlayacaqları fikrini ağlıma gətirəndə göz yaşı axıdırdım. Öz ölümümü həmin uşaqların gözləri ilə görürdüm: bu ölüm artıq arxada qalmışdı, mənim «mən»imi aramışdı, mənim öz nekroloquma çevrilmişdi.

Bütün bunları oxuyub dostlarımdan biri mənə narahatlıqla baxdı: «Sən demə, fikirləşdiyimdən daha ciddi xəstəsinizmiş». Xəstəyəm? Düzü, bilmirəm. Sayıqlamam açıq-aşkar işlənib hazırlanmışdı. Məncə, burda hər şeydən vacibi səmimiyyət məsələsidir. Doqquz yaşında hələ onun səviyyəsinəcən böyüməmişdim, sonra hər şeyi arxada qoydum.

Əvvəlcə vaxtında dayanmağı bacaran sapsağlam, balaca təlxək idim. Amma gücümə heyfim gəlmirdi, hətta yalanda da birinci şagird olaraq qalırdım; indi öz təlxəkliyimi ruhi gimnastika öz qeyri-səmimiliyimi hardasa yaxından olan, həmişə məndən yan keçən mütləq səmimiyyətə karikatura kimi qiymətləndirirəm. Peşəni seçmədim, onu mənə sırıdılar. Əslində, heç nə olmamışdı; qoca qadın tərəfindən atılmış

müəyyən sözlər, Şarlın makiavellizmi*. Amma bu məni inandırmaq üçün bəs elədi. Qəlbimdə yuva salmış böyüklər barmaqları ilə mənim ulduzumu göstərirdilər; ulduzu görmürdüm, amma barmağı görürdüm, guya, mənə inananlara inanırdım. Böyük mərhumların – birini ölüm hələ gözləyirdi–Napeleonun, Femistoklun, Filipp-Avqustun, Jan-Pol Sartrın mövcudluqlarını onlardan öyrəndim. Bunlara şübhə eləmək – böyüklərə şübhə eləmək deməkdir. Jan-Polla yaxından tanış olmaqdan boyun qaçırmazdım. Bunun xətrinə, nəhayət, mənə məmnunluq gətirəcək özünüaçma əzabları içində qovrulurdum– soyuq qadın bu cür, bütün bədəni ilə əzilib-büzülür, orqazma çalışır, sonra onu titrəyişlə əvəz eləməyə çalışır. Bu nədi axı – simulyasiyadır, yoxsa izafi canfəşanlıqdır? Necə olursa-olsun, heç nəyə nail olmadım; elə bilirdim, indicə özümü də açacaq işıqlanma gələcək, amma o yan keçirdi, mən öz təmrinlərimdən yorğunluq hisslərini çıxarırdım, onlar yalnız əsəb sistemimi korlayırdılar. Səlahiyyətlərinmi heç nə təsdiqləyə, yaxud ləğv eləyə bilməzdi, çünki həmin səlahiyyətlər böyüklərin nüfuzu, onların təriksiz xeyirxahlığı üzərində ucalırdı. Toxunulmaz, surğuclanmış mandat içimdə gizlənmişdi, amma mənə o qədər az məxsus idi ki, bir anlıq da olsun ona şübhə eləyə bilməzdim, ondan boyun qaçırmaq, yaxud qəbul eləmək mənim ixtiyarımda deyildi.

İnam nə qədər dərin olsa da, heç vaxt tam olmur. Onu fasiləsiz saxlamaq, yaxud ən azı dağılmağa imkan verməmək lazımdır. Mənim taleyim əvvəlcədən həll olunmuşdu, mən məşhurdum, Per-Laşezdə, bəlkə də, hətta Panteonda qəbrim vardı, Parisdə prospektim vardı, əyalətdə, xaricdə bulvarlarım, meydanlarım vardı; amma nikbinliyin özəyini gözəgörünmədən, səs çıxarmadan şübhə cilalayırdı: mən özümün buna qabil olmadığımdan şübhələnirdim. Müqəddəs Anna hospitalında bir xəstə ucadan qışqırırdı: «Mən prinsəm! Böyük hersoqu həbs eləmək əmri verirəm!» Onun yatağına yaxınlaşıb qulağına pıçıldayırdılar: «Burnunu sil!» Burnunu silirdi; ondan soruşurdular: «Hansı peşənin sahibisən?» – sakitcə cavab verirdi: «Pinəçiyəm,» – sonra təzədən bağırmağa başlayırdı. Məncə, hamımız həmin adama oxşayırıq, hər halda, mən doqquz yaşında ona oxşayırdım: prins və pinəçi idim.

İki ildən sonra ilk baxışda sağaldım; prins yox oldu, pinəçi heç nəyə inanmırdı,

hətta yazmırdı; zibilliyə atılmış, itirilmiş, yandırılmış roman dəftərləri yerini qrammatik yoxlama, imla, hesab dəftərlərinə vermişdilər. Əgər bir kəs yellər oynaşan beynimə girməyə müvəffəq olurdusa, orda böyük adamların bir neçəsinin büstünü, alaçiy öyrənilmiş vurma cədvəlini, üçqat qaydalarını, inzibati mərkəzləri ilə, amma prefenturalarsız otuz iki departamenti, qızılgül adlanan bir gülü, tarixi və ədəbi abidələri, divarda həkk olunmuş bir neçə hərəkət qaydasını, aradabir ölgün küləklər şəhərini duman pərdəsinə bürümüş sadist təxəyyül oyununu tapardı. Heç bir yetim-filan yox idi. Mələklərin izi-tozu da tapılmazdı. «Qəhrəman», «əzabkeş», «müqəddəs» sözləri eşidilmirdi, gözə dəymirdi. Eks-Pardalian hər il kafi sağlamlıq vəziyyəti barədə arayış alırdı: orta əqli və yüksək əxlaqi inkişafa malik uşaq idi, dəqiq elmlərə qabiliyyəti zəifdir, təxəyyülü inkişaf eləyib, amma həddindən artıq deyil, hissiyyatlıdır; sınmağa – yeri gəlmişkən, get-gedə az müşahidə olunan – baxmayaraq, tamam normaldır. Əslində, tamam dəli olmuşdum. İki hadisə nəticəsində ağlımın olub-qalanını itirdim, amma onlardan biri ictimai, digəri şəxsi xarakterli idi.

Birincisi tamam gözlənilməz idi – 1914-cü ilin iyulunda hələ bir neçə pis adam var idi, amma avqustun 2-də xeyirxah hakimiyyəti ələ keçirib taxt-tacı yiyələndi – bütün fransızlar yaxşı oldular. Babamın düşmənləri ona ağuşlarını açdılar, naşirlər könüllü getdilər, xırda adamlar peygəmbərlik eləyirdilər, dostlarımız gəlib öz dalandarlarının, su xətti işçilərinin sadə, müdrik sözlərini təkrar eləyirdilər, açıq-aşkar şübhəli tipdən – nənəmdən başqa hamı öz heyranlığın bildirdi. Vəcdə gəlmişdim: Fransa məndən ötrü komediya oynayırdı, mən ondan ötrü komediya təsəvvür eləyirdim. Amma həyatımın nizamını çox az pozduğundan, müharibə tezliklə məni darıxdırdı, güman ki, onu heç xatırlamazdım, amma məni kitabdan məhrum elədiyini sezib müharibəyə nifrət bəsləməyə başladım. Sevimli nəşrlərim köşklərdən yoxa çıxdılar; Arnu Qalopen, Jo Val, Jan de la Yr öz sevimli qəhrəmanlarından, biplanda, yaxud hidrotəyyarədə dövrü-aləm səyahəti eləyən, ikilikdə, yaxud üçlükdə yüzlərlə adama qarşı döyüşən yeniyetmələrdən, qardaşlarımdan ayrıldılar. Müharibədən öncəki dövrün müstəmləkəçi romanları öz yerini hissələrinin sevimlisi yunqalara, yetimlərə, gənc elzaslıqlarla verdi. Yeni gəlmələri

görməyə gözüm yox idi. Balaca macəra axtaranların simasında vunderkindləri görürdüm, axı onlar yadelliləri cəngəlliklərdə öldürürdülər, yadellilərsə, – hər halda, onlar da böyükdülər; özüm vunderkind idim, onların simasında özümü tanıyırdım. Bəs bütün həmin o alay oğulları neyləyirdilər? Hadisələr onlardan asılı olmayaraq inkişaf eləyirdi. Fərdi qəhrəmanlıq sarsıdılmışdı; o, vəhşilərə qarşı mübarizədə silahın üstünlüyünə bel bağlayırdı, bəs alman toplarının qarşısına nə çıxarasan? Başqa ordu lazımdır. Vunderkind başını sığallayan, himayə eləyən igid əsgərlərin arasında uşaqlığa – mən də onunla birgə –yuvarlanırdı. Müəllif hərdənbir yazığı gəldiyindən mənə məlumatı aparmağı tapşırırdı, almanlar məni əsir alırdılar, mətanətlə dözürdüm, sonra qaçırdım, öz mövqelərimizə gəlib çatırdım, tapşırığın yerinə yetirilməsi barədə məruzə eləyirdim. Məni, əlbəttə, təbliğ eləyirdilər, amma bunda həqiqi həvəs yox idi, generalın atacayağı baxışlarında da dulların və yetimlərin kor vəcdini görmürdüm. Təşəbbüsü əldən vermişdim, döyüş udulmuşdu, müharibə mənsiz qələbəylə başa çatacaq; böyüklər təzədən qəhrəmanlıq monopoliyasını ələ keçirdilər. Bəzən öldürülənin silahını götürməli, bir neçə atəş açmalı olurdum, amma bir dəfə də olsun, Arnu Qalopen və Jan de la Qep mənə süngü döyüşünə girməyə imkan vermədilər. Əlaltı qəhrəman kimi çağırış yaşımın yetişməyini gözləyirdim. Amma yox, o, mən deyildim, alay oğlu, elzaslı yetim idi. Aramızda sədd çəkib, kitabı örtürdüm. Yazmaq – uzunmüddətli naşükür zəhmətdir, bilirdim ki, qarşımda belə bir iş durur, başdan-ayağa dözümlə doluydum. Amma mütaliə – bayramdır; istəyirdim ki, gözqamaşdıran şöhrət mənə dərhal verilsin. Bəs hansı gələcək təklif eləyirdilər? Əsgər olmaq? Kefdir ki! Ayrıca bir piyadadan uşaqdan asılı olandan artıq bir şey asılı deyildi. O, döyüşə başqaları ilə birgə gedirdi, döyüşü alay udurdu. Kommunal qələbələrin iştirakçısı olmaq mənə sərf eləmirdi. Arnu Qalopen döyüşçünü fərqləndirmək istəyəndə onu yaralı kapitana yardım göstərməyə göndərməkdən ağıllı bir şey fikirləşə bilmirdi. Bu kor-koranə sədaqət məni əsəbiləşdirirdi – kölə ağasını xilas eləyirdi. Sonra da bu təsadüfü qəhrəmanlıq idi: müharibə vaxtı igidin payı hamıya verilir: bu şərəf başqasına qismət olsaydı, öhdəsindən daha yaxşı gələrdim. Çaşqınlıq içində idim. Müharibədən öncəki qəhrəmanlıqda məni

hər şeydən artıq fərdiliklə təmənnasızlıq heyran eləyirdi, solğun gündəlik xeyirxahları unudurdum, insanı öz istəyimə uyğun səxavətlə kəsib-doğrayırdım. «Hidrotəyyarədə dövri-aləm səyahəti», «Parisli oğlanın macəraları», «Üç boyskaut» – bu müqəddəs mətnlər məni ölüm və dirilmə yolu ilə aparırdılar. İndi budur, o kitabların müəllifləri mənə xəyanət elədilər: onlar qəhrəmanlığı hamının malına çevirdilər; rəşadət və fədakarlıq gündəlik əməllər oldular; daha pisi – adi borc səviyyəsinə endirildilər. Buna uyğun dekorlar da dəyişdilər – ekvatorun təkrarsız günəşinin, fərdi işığının yerinə Arqonun kollektiv dumanı gəldi.

Bir neçə aylıq fasilədən sonra öz zövqümcə roman yazmaq, həmin cənablara dərs vermək üçün təzədən əlimə qələm götürməyi qərara aldım. 1914-cü ilin oktyabrıydı, hələ Arkaşondan getməmişdik. Anam mənə dəftərlər aldı. Hamısı tamam eyni cür idi: yasəməni cildində zamanın əlaməti olan başlıqlı Janna d Ark vardı. Məsumiyyət nişanı altında əsgər Perrenin tarixçəsini yazmağa başladım; o, kayzeri oğurlayırdı, əl-qolunu bağlayıb səngərlərimizə gətirirdi, sonra bütün alayın qarşısında onu təkbətək döyüşə çağırır, məğlub eləyirdi, bıçağı boğazına dayayıb rüsvayçı sülh bağlamağa, Elzas-Lotaringiyanı bizə qaytarmağa məcbur eləyirdi. Bir həftədən sonra hekayət məni əməlli-başlı darıxdırdı. Duel ideyası cəngavərlik romanlarından götürülmüşdü; nəcib ailənin törəməsi Stort-Bekker təqib olunurdu, quldur dəstəsinə qoşulurdu; dəstənin başçısı bədheybət tərəfindən təhqir olunub, onu bir yumruq zərbəsi ilə öldürdü, özü dəstə başçısı olur, öz qoşunu ilə quldur gəmisində bacarıqla xilas olurdu. Hadisə dəyişməz, ciddi qanun üzrə inkişaf eləyirdi – nəzərdə tutulurdu ki, xeyirin müdafiəçisi alqışlar altında döyüşsün deyə şər tərəfdarı məğlubedilməz kimi şöhrət qazansın, onu saya almayanlar hər gözlənilməz qələbəsindən qorxu içində donub qalsınlar. Amma mən təcrübəsizliyimdən bütün qaydaları pozdum, tamamilə əks nəticə əldə elədim: kifayət qədər gonbul kişi olan kayzer, hər halda, peşəkar döyüşçü deyildi, hər bir kəs əvvəlcədən bilirdi ki, gözəl pəhləvan Perronun ona qalib gəlməsi asandır. Elə tamaşaçılar da düşmən əhval-ruhiyyəsində idilər, əsgərlərmiz kayzerə nifrətlərini gizlətmirdilər; mən işin dönüşündən heyrətlənmişdim – cinayətkar, amma hamı tərəfindən tərk olunmuş, təhqir

edilmiş, alçaldılmış II Vilhelm mənim nəzərimdə qəhrəmanlarının şahanə tənhalığını eybəcər hala salırdı.

Amma daha pis şeylər də vardı. İndiyəcən Luizanın ifadə elədiyi kimi, «uydurmalarımı» heç bir şey təsdiq, heç bir şey təkzib eləmirdi: Afrika böyük, uzaqdır, əhalisi azdır, ora ilə əlaqə yox idi, səyyahlarımın orda olmadıqlarını, mən döyüş barədə danışdığım elə bu məqamda onların piqmeylərə atəş açdıqlarını kimsə sübut eləyə bilməzdi. Mən özümü, əlbəttə, həmin adamların tarixçisi saymırdım, amma bədii nəsrin inandırıcılığı barədə bitib-tükənməyən söhbətləri doyunca eşidib öz uydurmalarımın doğruluğuna inandırırdım; bu, necə baş verirdi, hələ özüm də anlamırdım, amma oxucularıma hər şey ovuc içi kimi aydın olacaq. Nəhs oktyabr məni yalanla gerçəyin toqquşmasının aciz şahidinə çevirdi. Qələmimlə yaradılmış kayzer məğlub edilmişdi, atəşin kəsilməsi barədə əmr verirdi; *məntiq tələb eləyirdi* ki, bu payız bizə sülh gətirsin; amma qəzetlərlə yaşlılar, elə bil, qəsdən səhərdən-axşamacan iddia eləyirdilər ki, müharibə uzanır, bu, uzun çəkəcək. Özümü aldadılmış hiss eləyirdim, goplarına kimsənin inanmayacağı yalançı idim, – qısası, uydurma ilə üz-üzə gəlmişdim. İlk dəfə yazdıqlarımı təzədən oxudum. Utandığımdan qıpqırmızı qızardım. Doğrudanmı, bu uşaq uydurmaları mənə xoş gəlirdi? Az qala ədəbiyyatdan imtina eləyəcəkdim. Axırda dəftərləri çimərliyə aparıb qumda basdırdım. Çaşğınlığım ötüb keçdi; təzədən özümə inandım, şübhə yoxdur ki, qabiliyyətliyəm, amma incə söz sənətinin öz sirləri var, günlərin bir günü həmin sirlər mənə açılacaq. Hələ yaşım üzərimə ehtiyatlı olmaq vəzifəsi qoyurdu. Daha yazmırdım.

Parisə qayıtdıq. Arnu Qalopenlə Jan de la İrdən həmişəlik ayrıldım; mənim yox, onların haqlı olduqlarını o opportunistlərə bağışlaya bilməzdim. Müharibədən, ortabablıq epopeyasından birdəfəlik incidim; inciklik içində müasirliyi təkzib eləyib keçmişdə gizləndim. Bundan bir neçə ay əvvəl, 1913-cü ilin oktyabrında Hiku Karterə, Buffalo Billə, texaslı Cekə, Sittinq Bulla rast gəldim. Müharibənin başlaması ilə həmin nəşrlər yoxa çıxdılar; babam hesab eləyirdi ki, onların naşiri almandır. Xoşbəxtlikdən sahildəki bukinistlərdə çıxmağa macal tapmış demək olar, bütün buraxılışları əldə

eləmək mümkün idi. Anamı Sena sahilinə çəkdim, d'Orsedo vağzalından Austerlits vağzalınacan bütün yığınları eşələdik, bəzən evə on beş kitab gətirirdik; az sonra məndə əlliyə yaxın buraxılış toplandı. O kitabları eyni sayda dəstlərlə yığır, sirli adlarını – «Hava şarında cinayət», «İblislə saziş», «Baron Mutuşiminin kölələri», «Dazaarın bazar günü» – ucadan oxuya-oxuya saymaqdan yorulmurdum. Xəzan yarpaqlarının – *bunlar elə* xəzan yarpaqları, keçmişin qalıqları idi, çünki müharibə hər şeyə son qoymuşdu – qəribə qoxusunu verən saralmış, ləkələnmiş, əprimiş səhifələr xoşuma gəlirdi; anlayırdım ki, uzun saçlı adamın son macəralarından xəbər tuta bilməyəcəyəm, xəfiyyələr şahının son axtarışlarının nəylə nəticələndiyini heç vaxt öyrənə bilməyəcəyəm; həmin tənha qəhrəmanlar mənim kimi dünyəvi münaqişənin qurbanlarıydılar, buna görə də onları daha çox sevirdim. Cilddəki rəngli qravürləri görməyə bənd idim ki, sevincimdən sərxoş olurdum. Buffalo Bill hunduları təqib eləyə-eləyə, yaxud onlardan qaça-qaça at belində əyalətlərdə şığıyırdı. Bill Karterin kitabına çəkilmiş illüstrasiyalar daha çox xoşuma gəlirdi. İlk baxışda həmin illüstrasiyalar bir-birinə oxşayırdılar: ya böyük xəfiyyə düşmənlərini dapmadağın eləyir, ya düşmənləri onu əzişdirirlər. Amma o davalar Manhettenin küçələrində, qonur hasarlara, yaxud qurumuş qan rəngli amanabənd kubformalı tikililərə söykənən düzənliklərdə baş verirdi. Heyrətlənmiş halda öz-özümdə arxasında onu udmaqla hədələyən səhranın ucsuz-bucaqsız boşluğu görünən nuritan, qanlı şəhəri təsəvvür eləyirdim. Burda cinayətlə xeyirxah əməl bərabər surətdə qanundankənar idilər; bərabər surətdə azad, müstəqil olan qatillə qanun müdafiəçisi gecə bıçaq zərbələri ilə münasibətlərini ayırd eləyirdilər. Bu şəhərdə ekvatorda olduğu kimi, günəş yandırırdı, qəhrəmanlıq arasıkəsilməz improvizə olurdu – Nyu-Yorka sevgim burdan qaynaqlanır.

Müharibəni də, öz səlahiyətlərimi də unutdum. Əgər məndən «Böyüyəndə nəylə məşğul olacaqsan?» soruşurdularsa, nəzakətlə, ciddi halda cavab verirdim ki, yazacağam, amma şöhrət barədə arzuların, ruhi gimnastikanın başını buraxmışdım. Ola bilsin, məhz bunun sayəsində müharibənin ilk illəri uşaqlığımın ən xoşbəxt illəri idi. Anamla yaşıddıq, ayrılmırdıq. O, məni özünün tərəf-müqabili, balaca kişisi adlandırırdı,

mən ona hər şeyi danışırdım. Bundan da artıq danışırdım: uzaqlara qovulmuş ədəbiyyat boşboğazlığa çevrilmişdi, bayıra çıxmağa can atırdı, dil boğaza qoymurdum, gördüklərimin, Ann-Marinin məndən də yaxşı gördüklərinin – evləri, ağacları, adamları – hamısını təsvir eləyirdim; fikirlərimi onunla bölüşmək xətrinə hər cür mümkün hissləri öz adıma çıxardım, güc transformatoruna çevrilirdim, aləm sözə çevrilmək üçün məndən istifadə eləyirdi. Beynimdəki müəyyən bir pıçıltıdan başlayırdı – kimsə deyirdi: «Mən gedirəm, mən otururam, mən su içirəm, mən şəkərli badam yeyirəm». Bu bitib-tükənməz şərhləri ucadan təkrar eləyirdim: «Mən gedirəm, ana, mən su içirəm, mən otururam». Elə bil, iki səsim vardı, onlardan biri, demək olar, mənə məxsus olmayanı, mənim iradəmdən asılı olmayanı öz nitqini başqasına diqtə eləyir; qərara gəldim ki, ikiləşirəm. Bu cür qəribə hal yayacan sürürdü, məni yorurdu, əsəbiləşdirirdi. Axırda qorxu hissi keçirməyə başladım. Anama: «Beynimin içində nəsə danışır» – dedim, o, xoşbəxtlikdən narahatlıq hissi keçirmədi.

Bu nə sevincimə, nə anlaşmamıza xələl gətirdi. Bizim öz miflərimiz, sözcüklərimiz, sevimli zarafatlarımız yarandı. Demək olar, bütöv bir il ərzində ən azı on sözdən birini istehzalı itaətkarlıqla bitirdim: «Amma bunun əhəmiyyəti yoxdur». Deyirdim: «İri ağ iti görürsən, o ağ deyil, bozdur, amma bunun əhəmiyyəti yoxdur». Bir-birimizi başımıza gələn ən mənasız hadisələr barədə etik üslubda xəbərdar eləmək tərzi yaratdıq. Özümüz barədə cəm halın üçüncü şəxsində danışırdıq. Avtobus gözləyirdik, o dayanmadan ötüb keçirdi; bu zaman birimiz bəyan eləyirdik: «Onların ilahi tərəfindən göndərilmiş lənətlərindən yer titrədi», – sonra qəhqəhə ilə gülməyə başlayırdıq. Adamların arasında özümüzü əlbir hiss eləmək üçün bir-birimizə göz vurmağımız bəs eləyirdi. Mağazada, yaxud şirniyyat dükanında satıcı bizə gülməli görünürdü, çıxanda anam deyirdi: «Sənə baxmırdım, qorxurdum ki, onun üzünə pıqqıldayam». Öz qüdrətimlə fəxr eləyirdim – çox uşaqlar bir baxışla analarını pıqqıldamağa məcbur eləyə bilməzlər. Hər ikimiz cəsarətsiz idik, birgə də qorxurduq; bir dəfə sahildə Buffalo Billin hələ saymadığım on iki buraxılışını tapdım; anam kitabların pulunu ödəməyə hazırlaşırdı, bu zaman şlyapalı, kök, solğun rəngli, kömür kimi qara gözlü, rənglənmiş bığlı bir kişi gəldi. Həmin dövrün

gözəllərinin ağlını başından çıxaran təbəssümlə gözlərini anama dikdi, amma mənə müraciət eləyib tələsik donquldandı: «Səni ərköyünləşdirirlər, körpə, ərköyünləşdirirlər». Əvvəlcə yalnız özümü təhqir olunmuş saydım, yad adamların mənimlə belə tez «sən»ə keçmələrinə öyrəşməmişdim; amma düşgün nəzərlərini sezdim, dərhal da Ann-Mari ilə mən eyni varlıq – qorxub kənara atılmış qız – olduq. Kişi özünü itirib uzaqlaşdı; minlərlə üzü unutmuşam, amma donuzun iç piyi kimi ağ olan həmin sifəti indiyəcən unutmamışam; cismani həyat barədə anlayışım yox idi, o cənabın bizdən nə istədiyini də təsəvvürümə gətirə bilmirdim, amma istəyin aşkarlığı elədi ki, deyəsən, bunu başa düşdüm, elə bil, qarşımda bütün örtüklər götürüldü. Kişinin istəyini Ann-Mari vasitəsilə duydum; onun vasitəsilə erkəyi duymağı, ondan qorxmağı, ona nifrət eləməyi öyrəndim. Bu hadisə əlaqələrimizi möhkəmləndirdi; qoruduğuma əmin halda anamın əlindən yapışıb sərt görkəmlə addımlayırdım. Bu, həmin illər barədə xatirə deyilmi: indi də həddən artıq ciddi uşağın öz anası ilə necə təkəbbürlə, mehribanlıqla söhbət elədiyini görməkdən ləzzət alıram; kitablardan aralıda, onlara qarşı yönəlmiş halda yaranan bu təsirli ürkək dəstəyi xoşuma gəlir. Uşaqlıq ruhunu saçan həmin cütlərdən gözlərimi çəkə bilmirəm, sonra yadıma düşür ki, kişiyəm, üzümü çevirirəm.

İkinci hadisə 1915-ci ilin oktyabrına aiddir; on yaş üç aylıq idim, daha məni ev dustağı eləmək olmazdı. Şarl Şveytser öz incikliklərini unutdu, məni IV Henrix litseyinin hazırlıq kursuna ekstern olaraq yazdırdı.

Elə ilk inşa sinifdəki axırıncı yerimi müəyyənləşdirdi. Gənc feodal olan mən təhsili şəxsi asılılıq forması kimi qavrayırdım – mademuazel Mari – Luiza biliyi mənə sevgisi üzündən verirdi, mən öz xeyirxahlığım, müəlliməyə sevgim üzündən qəbul eləyirdim. Kürsüdən hamıya ünvanlanmış mühazirələr, qanunun demokratik soyuqluğu məni heyrətə salırdı. Daimi müqayisələr xeyrimə deyildi – uydurma üstünlük dağılıb gedirdi, həmişə məndən daha yaxşı və daha tez cavab verən tapılırdı. Özümə şübhə eləmək üçün sevgi ilə həddən artıq ərköyünləşdirilmişdim, səmimi-qəlbdən yoldaşlarıma heyran qalır, onlara həsəd aparmırdım – mənim də növbəm çatar. Əlli yaşında. Qısası, qətiyyən əziyyət çəkmədən aşağı enirdim; soyuq görkəmlə iyrənc yazılar verirdim. Babam artıq

qaşlarını çatırdı, anam cənab Olivye ilə, sinif rəhbərimlə görüşməyə tələsirdi. O, bizi özünün subay yaşadığı mənzilində qəbul elədi; anamın səsində cingiltili notlar səslənirdi; onun kreslosunun yanında dayanıb tozlu şüşələr arxasından Günəşə baxa-baxa susurdum. Ann – Mari sübut eləməyə çalışırdı ki, mənim dəyərim məktəb dəftərlərindən daha artıqdır; özüm oxumaq öyrənmişəm, romanlar yazmışam; dəlil-sübutlarını tükədib boynuna aldı ki, on ayında daha yaxşı qaynamışam, daha yaxşı bişmişəm, sobada daha artıq qaldığımdan, daha artıq qızarmışam. Mənim keyfiyyətlərimdən çox anamın gözəlliklərinə qarşı daha hissiyatlı olan cənab Olivye diqqətlə qulaq asırdı. O, ucaboy, iri sümüklü, dazbaş, iri kəlləli, çuxura batmış gözləri, mumsayağı sifətli, qartal burnunun altında bir neçə sarımtıl tüklü kişi idi. Mənə fərdi dərs deməkdən imtina elədi, amma «göz olmağa» söz verdi. Mən artıq bir şey də istəmirdim; dərslərdə onun baxışlarını üzümdə hiss eləyirdim; o, yalnız məndən ötrü danışırdı – buna əmin idim; inandım ki, məni sevir, onu sevirdim, bir neçə mehriban söz də məsələni bitirdi – zəhmət çəkmədən kifayət qədər yaxşı şagird oldum. Babam rüblük qiymətlərimə baxa-baxa donquldanırdı, amma artıq məni litseydən götürmək barədə düşünmürdü. Beşinci sinifdə müəllimi dəyişdilər, xüsusi marağımı itirdim, amma artıq demokratiyaya uyğunlaşmağa macal tapmışdım.

* * *

Məktəb məşğələlərinə görə yazmağa vaxtım yox idi, elə həvəsim də ölmüşdü – yeni tanışlıqlarım meydana çıxmışdı. Axır ki, yoldaşlarım vardı! Məni, şəhər bağlarının tullantısını burda ilk gündən, çox təbii tərzdə qəbul elədilər, göz açmağa macal tapmadım. Düzünü desəm, yeni dostlarım mənə gənc qəlbimi sındırmış Pardalianlardan daha çox oxşayırdılar – onlar dəymədüşərlər, ana uşaqları, çalışqan şagirdlər idilər. Əhəmiyyəti yoxdur, mən zəfər çalmışdım. Mən ikili həyat yaşayırdım. Evdə özümü kişi kimi göstərməyə davam eləyirdim. Amma uşaqlar tək olanda qızsayağılığa dözmürlər, onlar əsl kişidilər. Mən kişilər arasında kişi kimi hər gün litseydən üç Malakenlərlə – Jan, Rene və Andre ilə – Pol və Norber Meyralarla, Brenlə, Maks Berko ilə, Trequarla çıxırdım, qışqıra-qışqıra Panteon meydanına töklüşürdük, bu, səmimi xoşbəxtlik

dəqiqələri idi, mən özümdən ailə məzhəkəçiliyini yuyub atırdım; heç də özümü göstərməyə çalışmadan həvəslə yoldaşlarımın gülüşünə səs verirdim, əmrlərə, zarafatlara səs verirdim, susurdum, qulaq asırdım, yanımda olanların əməllərini təkrar eləyirdim, ehtirasla bir şeyə – fərqlənməyə can atırdım. Çevik, möhkəm, şən halda özümün poladdan töküldüyümü, nəhayət, mövcudluq günahımın bağışlandığını hiss eləyirdim. «Böyük adamlar» oteli ilə Jan-Jak Russonun heykəli arasında tor qoyurduq, mən əvəzedilməz idim; indi cənab Simonnoya həsəd aparmağa əsasım yox idi: əgər mən burda olmasaydım, Meyr Qrequarı aldadıb kimə ötürmə verərdi? Mənə özümün gərəkliliyimi işıqlandıran bu yetkinlik şimşəklərinin yanında şöhrət barədə arzularım nə qədər əhəmiyyətsiz, tutqun görünərdi. Bədbəxtlikdən o şimşəklər parlamamış sönüb gedirdilər. Analarımızın fikrincə, oyunlar bizi «həddən artıq coşdururdular», ayrı-ayrı şəxslərdən bütöv bir dəstə yaranırdı, həmin dəstənin içində hər birimiz özünü itirirdi; heç vaxt ata-analarımızı uzun müddətə yaddan çıxarmağa nail olmurduq – onların gözə görünmədən iştirakı tezliklə bizi heyvanlar aləmi koloniyalarının qrup halında tənhalığına qaytarırdı. Cəhdlərdən, məqsədlərdən, ierarxiyadan mərhum cəmiyyətimizdə gah tamamilə bütövləşirdik, gah da, sadəcə, yanaşı mövcud olurduq. Birlikdə əsl həyatla yaşayırdıq, amma bir-birimizə yalnız borc verildiyimiz, əslindəsə, xüsusi heyrətləndirici miflərini yaradan, özünüaldatma ilə qidalanan, mənə öz özbaşınalığını sırıyan qüdrətli, primitiv, xüsusi, qapalı kollektivə aid olduğumuz hissindən yaxa qurtara bilmirdik. Əzizlənmiş, xeyirxah niyyətli, hissiyatlı, ağıllı, qayda-qanuna hörmət, zorakılığa, ədalətsizliyə nifrətlə tərbiyə olunmuş, dünyanın bizdən ötrü yaradıldığı, hər birimizin ata-anasının müvafiq olaraq, dünyada ən yaxşı ata-ana olduqlarına susqun əminliklə görüşüb ayrılan bizlər, hətta oyunda da nəzakətli qalmaq üçün kimsəni incitməməyin qayğısına qalırdıq. Bir-birini ələ salmaq, cırnatmaq sərt şəkildə mühakimə olunurdu; özündən çıxanı dəstə ilə araya alırdıq, sakitləşdirirdik, üzr istəməyə məcbur eləyirdik. Jan Malakenin, yaxud Norber Meyrin dili ilə onu öz anası töhmətləyirdi. Yeri gəlmişkən, həmin qadınlar bir-biriylə görüşürdülər, bir-birinə Aman vermirdilər. Onlar bizim danışıqlarımızı, qiymətlərimizi, hər birimizin hamı barədə tənqidi qeydlərini dönə-dönə

söyləyirdilər; biz oğullar heç vaxt onların fikirlərini təkrar eləmirdik. Anam xanım Malakenin yanından təhqir olunmuş halda qayıtdı, o, dübbədüz belə demişdi: «Andre Pulunu sınqın sayır». Bu, mənə toxunmadı, analar belə deyirlər; Andredən incimədim, hətta bu əhvalat barədə ona bir söz də demədim. Qısası, biz hər şeyə və hamıya, varlıqlara və yoxsullara, əsgərlərə və mülklərə, gənclərə və qocalara, adamlara və vəhşi heyvanlara şikayət eləyirdik; yalnız yarıpansionlarda, internatlarda olanlara nifrət bəsləyirdik: yəqin, ailələri onlardan imtina eləyiblərsə, günahları çox böyükdür; ola bilsin, pis ata-anaları vardı, amma bu, heç nəyi dəyişmirdi – uşaqların layiq olduqları ataları var. Əbəs yerə axşamlar, saat dörddən sonra, azad eksternlər litseydən çıxandan sonra ora quldur məskəninə oxşamırdı.

Ehtiyatlılıq dostluğa soyuqluq gətirir. Biz tətillərdə o qədər də təəssüflənmədən ayrılırdıq. Axı Berkonu sevirdim. Dul qadının oğlu olan yaraşıqlı, zərif, sakit oğlanı qardaşım sayırdım. Onun Janna d'Ark tərzində daranmış uzun qara saçlarına sevə-sevə baxırdım. Amma başlıcası, hər ikimiz fəxr eləyirdik ki, dünyada hər şeyi oxumuşuq. Məktəb həyətinin bir tərəfinə çəkilib ədəbiyyat barədə söhbət eləyirdik, yəni yüzüncü dəfə eyni ləzzətlə əlimizdən keçən əsərləri sadalayırdıq. Bir dəfə o, mənə ehtiyatlı nəzər saldı, boynuna aldı ki, yazmağa hazırlaşır. Ritorika sinfində təzədən görüşməli olduq, o hələ də gözəl idi, amma vərəm xəstəliyinə tutulmuşdu: Berko on səkkiz yaşında vəfat elədi.

Hamımız, hətta müdrik Berko da Bernara, cücəyə oxşayan büzüşmüş gonbul oğlana heyranlıq duyurduq. Onun keyfiyyətləri barədə şaiyələr analarımıza da çatdı; onlar bir qədər təəssüflənib Benarı bizə nümunə göstərməkdən yorulmurdular, amma oğlandan üz döndərməyimizə nail ola bilmədilər. Özünüz fikirləşin, ona uymağımızın səbəbi nə idi: o, yarıpansionda qalırdı, amma buna görə Bernarı daha çox sevirdik, onu fəxri eksternliyə seçmişdik. Axşamlar ev lampasının işığında oradakıları adamyeyənlərə çevirmək üçün internatda qalan həmin missioner barədə düşünürdük. Ədalət xətrinə demək lazımdır ki, onu internatda da sevirdilər. İndi bu cür yekdilliyin sirrini anlamaq məndən ötrü asan deyil. Benar mülayim, gülərüz, hissiyatlı idi; həm də bütün fənlərdə

birinci idi. Üstəlik də anası onun uğrunda canını qurban verirdi. Analarımız o dərzi ilə dostluq eləmirdilər, amma tez-tez ana sevgisinin böyüklüyünü qiymətləndirməyimiz üçün tez-tez ona istinad eləyirdilər: bizsə yalnız Benar barədə düşünürdük: o, anasının yeganə təskinliyi, bədbəxt qadının pəncərəsindən düşən yeganə işığı idi, biz oğul sevgisinin əzəmətini duyurduq, qısası, həmin nəcib kasıblar hamıda mərhəmət doğururdu. Amma bu kifayət eləməzdi, başlıcası, Benar yalnız həyatının yarısını yaşayırdı; onu heç vaxt iri yun şalsız görməmişdim; bizə mehribancasına gülümsünürdü, amma az danışırdı, yadımdadır, ona bizim oyunlarda iştirakı qadağan eləmişdilər. Mən Benara xüsusilə ona görə hörmətlə yanaşırdım ki, çəlimsizliyi aramızda maneə rolunu oynayırdı; onu şüşə örtük altında yerləşdirmişdilər: bizə başını tərpədir, gülümsünürdü, amma şəffaf maneə yaxınlaşmağımıza mane olurdu; ona uzaqdan yalmanırdıq. Çünki hələ sağlığında rəmzin simasızlığını qazanmışdı. Uşaqlığa konformizm xasdır: biz Benara öz kamilliyində fərdiliyinin tamamilə itirilməsinə görə minnətdar idik. Onunla söhbətlərimizdə sözlərinin mənasızlığından ləzzət alırdıq; hiddətləndiyini, yaxud, qəhqəhə çəkib güldüyünü görməmişdik; dərslərdə heç vaxt əlini qaldırmırdı, amma ondan soruşanda ağzından sırf həqiqət çıxırdı, həqiqəti danışmalı olduğu kimi, inamla, ehtirassız danışırdı. Vunderkindlər dəstəmiz heyrətə gəlirdi ki, o, ən yaxşı şagird olsa da, hər cür vunderkindçilikdən uzaq idi. Həmin vaxt hamımız bu və ya digər dərəcədə yetimləmişdik: atalarımız ya ölmüşdülər, ya döyüşürdülər, evdə qalanlarsa, kişi üstünlüklərini itirib oğullarının gözünə görünməməyə üstünlük verirdilər, buna görə də analar hökmranlıq eləyirdilər. Benar bizdən ötrü matriarxatın mənfi təzahürlərinin güzgüsü idi.

Qışın sonunda o öldü. Uşaqlarla əsgərlər ölüm barədə düşünmürlər, amma qırxımız da onun tabutu üstündə göz yaşı tökdük. Analarımız əl-ayağa düşmüşdülər: qəbrin üstü gül-çiçəklə örtülmüşdü; onlar öz məqsədlərinə çatdılar – biz dostumuzun yoxluğunu dərs ilinin ortasında əla uğurlara görə verilən fövqəlmükafat kimi qəbul elədik. Üstəlik də Benarda həyat o qədər az idı ki, ölüm də həqiqi görünmədi – o, müəyyən ruhi və müqəddəs görkəmdə bizim aramızda qalırdı. Mənəvi səviyyəmiz xeyli yüksəldi – əziz

mərhumumuz aramızda idi, səsimizi qısıb Bernarın barəsində bədbin sevinclə söhbət eləyirdik. Ola bilsin, onun kimi, bu dünyadan vaxtsız gedəcəyik; xəyalımızda analarımızın göz yaşlarını canlandırırdıq, nə qədər dəyərli olduğumuzu duyurduq. Amma həmin ölüm məni düşüncələrə dalmağa məcbur eləmədimi? Tutqun şəkildə xatırlayıram ki, məni qorxunc aşkarlıq sarsıtdı: o dərzi, o dul qadın hər şeyi itirdi axı. Doğrudanmı, bu fikir zamanı dəhşətin nəfəsi mənə toxundu? Şərin mövcudluğu, Allahın yoxluğu, dünyamızın yaşayış üçün yaramaması mənə aydın olmadımı? Məncə, oldu, yoxsa niyə təkzib elədiyim, unutduğum, itirdiyim bütün uşaqlığımdan yaddaşımda Bernarın obrazını xəstəhal aydınlıqla tutub saxlamışam?

Bir neçə həftədən sonra beşinci «A» sinfində ağlagəlməz əhvalat baş verdi: latın dərsi vaxtı qapı açıldı, Benar dalandarın müşaiyətilə içəri girib müəllimiz cənab Dürrü ilə salamlaşıb oturdu. Hamımız onun dəmir sağanaqlı eynəyini, şərfini, azacıq dik burnunu, bürüşmüş cücə görkəmini tanıdıq, qərara gəldim ki, onu bizə İlahi qaytarıb. Cənab Dürrü deyəsən, bizdən az heyrətlənmişdi, izahatını kəsdi, havanı sinəsinə çəkib soruşdu. «Adınız, soyadınız. Necə daxil olmusunuz, valideynlərinizin məşğuliyyəti?» Bernar cavab verdi ki, yarıpansionddır, mühəndis oğludur, adı Pol-İv Nizandı. Mən hamıdan artıq heyrətləndim; tənəffüsdə birinci ona yaxınlaşıb söhbətə girişdim, o, mənə cavab verdi, yaxınlaşdıq. Düzdür, bir təfərrüat üzündən – Nizanın gözü çaş idi – məndə belə bir öncəduyum yarandı ki, Nizanla yox, onun şeytani oxşarı ilə rastlaşmışam. Amma artıq ehtiyat tədbirləri görməyin vaxtı keçmişdi: onun simasında xeyirin təcəssümünü sevmişdim, sonralar Nizanı özünə görə sevməyə başladım. Tələyə düşdüm, xeyirxahlığa meyllilik qəlbimdə şeytana sevgi oyatdı. Açığını deyim, yalançı Benar o qədər də pis oğlan deyildi, yaşayırdı, vəssalam; öz oxşarının bütün keyfiyyətlərini azacıq dəyişilmiş şəkildə saxlayırdı: Bernarın təmkini onda gizliliyə çevrilmişdi; zahirə çıxmağa yol tapmayan ehtiraslardan dəliyə dönüb heç vaxt qışqırmırdı, rəngi ağarırdı, hiddətindən dili topuq vururdu; bizim cəsarətsizlik hesab elədiyimiz şey, sadəcə, sarsıntı idi; onun dili ilə özünü həqiqət yox, bizi qeyri-adiliyilə təəccübləndirən yüngül, abırsız obyektivlik ifadə eləyirdi; Nizan şübhəsiz, valideynlərini sevirdi, amma uşaqların

arasında yeganə adam idi ki, onlar barədə istehza ilə danışırdı. Dərslərdə Benardan az uğur qazanmırdı; bununla belə, çox oxuyurdu, yazmaq da istəyirdi. Qısası, o. mükəmməl fərd idi, məndən ötrüsə heç bir şey Bernarın simasındakı fərdiyyətdən daha təəccüblü ola bilməzdi. Bu oxşarlıq məni təqib eləyirdi. Xeyirxah adamın zahiri əlamətlərini götürdüyünə, onu tərifləməli, yaxud bütün bunların yalnız zahiri əlamətlər olduğuna görə, acıqlanmalı olub-olmadığımı anlamadan fasiləsiz kor-koranə etibardan səbəbsiz etibarsızlığa keçirdim. Yalnız çox-çox sonralar, uzun ayrılıqdan sonra əsl dost olduq.

* * *

Bu hadisələr və görüşlər öz içimdə eşələnməyimə iki il fasilə yaratdı, amma onun səbəblərini aradan qaldırmadı. Əslində, qəlbimin dərinliyində hər şey hələ də əvvəlki kimi qalırdı: böyüklərin mənə etibar elədikləri, surğuclu möhürlərlə təsdiqlənmiş səlahiyyətləri yadıma salmırdım, amma səlahiyyətlər də qüvvədən düşmürdülər. Onlar məni əsir eləmişdilər. Doqquz yaşımda, hətta həddən artıq coşduğum dəqiqələrdə də özümə göz qoyurdum. On yaşımda özümü gözdən itirdim. Brenlə qaçırdım, Berkoyla, Nizanla söhbətləşirdim; bununla belə, öz-özümə məxsus olan xəstəhal missiyyam çəkisizləşdi, öz içimdə itib-batdı; daha onu sezmirdim, amma məni o, formalaşdırırdı, hər şey onun cazibə qüvvəsinə tabe olurdu, o, başımın üzərində göy qübbəsi yaradıb bütün ağacları, divarları əyirdi. Əvvəllər özümü prins sayırdım. İndi prins olmuşdum. Dəliliyim bundan ibarət idi. «Xarakterin formalaşması nevrozudur», - dostlarımdan biri, psixoanalitik dedi. O haqlıdı: 1914-cü ilin yayı ilə 1916-cı ilin payızı arasında səlahiyyətlərim xasiyyətə çevrildi; vurnuxma sümüklərimə keçmək üçün beynimi tərk elədi.

Yeni heç bir şey baş vermədi, bütün uydurmalarım, öncəgörmələrim tamamilə toxunulmaz qaldı. Təkcə bir fərq vardı: bu barədə fikirləşmədən, dinməzcə, kor-koranə hər şeyi *gerçəkləşdirirdim.* Əvvəllər həyatımı öz-özlüyümdə tablolarla təsəvvür eləyirdim – ölüm həyata gəlməyimi doğururdu, həyata gəlməyim məni ölümün qarşısına çıxarırdı. Elə bütün bunların hamısını görmədiyim məqamda özüm həmin qarşılıqlı

əlaqəyə çevrildim, ürəyimin hər döyüntüsündə doğulub ölə-ölə iki ətraf arasında çəkilmiş simə döndüm. Gələcək ölməzlik konkret gələcəyimə çevrildi – o hər bir, ən qayğısız hərəkətlərimə belə nüfuz eləyirdi. Bir şey məni nə qədər dərindən bürüyürdüsə, o daha hər şeyi udan yayınma, tamlıqda boşluq, gerçəklikdə ötəri irreallıq olurdu. O, uzaqdan konfetin ağzımdakı dadını, qəlbimdə sevinci-kədəri öldürürdü; amma əvəzində elə o da hər bir ən xırda anı xilas eləyirdi, çünki anlar zəncirində sonuncu olub məni ölməzliyə bir addım da yaxınlaşdırırdı. O, mənə səbir verirdi: artıq iyirmi il qabağa atılmaq, iyirmi başqa ili vərəqləmək istəmirdim, artıq qarşıdakı zəfərin uzaq günləri barədə düşünmürdüm, gözləyirdim. Hər dəqiqə arxasınca sonrakını çəkib gətirdiyinə görə ən yaxşı dəqiqəni gözləyirdim. Mən məqsədyönlülüyün dinc rahatlığında yaşayırdım – öz-özümü qabaqlayırdım, hər şey məni bürüyürdü, heç nə tutub saxlamırdı. Çox rahatlanmışdım! Əvvəl günlərim bir-birini o qədər xatırladırdılar ki, bəzən mənə elə gəlirdi, eyni bir şeyi sonsuz təkrarlamağa məhkum olunmuşam. Günlərim o qədər də dəyişməmişdilər, xoşagəlməz solub-tökülmək vərdişlərini saxlamışdılar. Amma mən həmin günlərin içində başqa cür olmuşdum; indi donuq uşaqlığımı zaman hərəkətə gətirmirdi, amma mən – komanda üzrə atılmış ox – zamanı deşir, düz hədəfə uçurdum. 1948-ci ildə Utrextdə professor Van Lene mənə projektıv testlərini nümayiş etdirirdi. Bir cədvəl diqqətimi çəkdi, onun üzərində çapan at, yeriyən adam, uçan qartal, suda atılıb-düşən balıq təsvir olunmuşdu – sınağa məruz qalan onda daha artıq sürət duyğusu yaradan şəkli göstərməli idi. Mən: «Balıq» dedim. Sonra məni belə qəti deməyə məcbur eləyən şəklə maraqla baxdım: elə bil, balıq gölün səthindən ayrılırdı, bir an da keçəcək – o həmin parlaq səth üzərində uçacaq. Niyə onu seçdiyimi dərhal anladım: on yaşında duydum ki, ayaqlarım indini parçalayıb məni ondan qoparır; o vaxtdan qaçmışam, indiyəcən qaçıram. Mənim nəzərimdə sürət göstəricisi müəyyən vaxt kəsiyi ərzində keçilmiş məsafədən daha çox, aralanmaq bacarığıdır.

İyirmi il əvvəl axşam İtaliya meydanından keçən Cankomettini maşın vurdu. Yaralanmış, ayağı burxulmuş, huşsuzluq halında o hər şeydən əvvəl sevincə oxşar bir şey duydu: «Axır ki, başıma bir hadisə gəldi!» İfratçılığı sevən Cakometti daha pis

hadisə gözləyirdi; sonsuz sevdiyi, başqa birini istəmədiyi həyat alt-üst olmuşdu, bəlkə də, təsadüfün axmaq təcavüzü ilə sınmışdı. «Neyləmək olar, – öz-özünə fikirləşdi, – heykəltaraş olmaq qismətim deyilmiş, yaşamaq qismətim deyilmiş, nahaq doğulmuşammış». Amma dünya nizamının qəfildən öz qorxunc mahiyyətini onun qarşısında açması şəhərin işıqlarına, adamlara, palçığın içində yıxılmış öz cisminə yönəlmiş heyrətamiz nəzərlərini sezmişdi. Heykəltaraşa həmişə ölü təbiətin səltənəti yaxın olur. Məni hər şeyi qavramağa bu cür hazırlıq heyrətləndirir. Əgər gözlənilməzliyi sevmək lazımdısa, onları məhz o dərəcəyəcən, həmin nadir, həvəskarlara torpağın onlardan ötrü yaradılmadığını açan işıqlanmayacan sevmək gərəkdir.

On yaşında başqa bir şey arzulamırdım. İstəyirdim ki, həyatımın hər bir həlqəsi gözlənilmədən peyda olsun, təzə-tər rəng qoxusu versin. Qabaqcadan ziddiyyətlərə, narahatlıqlara razı idim, nəzakət xətrinə demək lazımdır ki, onları təbəssümlə qəbul eləyirdim. Bir dəfə axşam elektrik işığı söndü – qəza baş verdi; o biri otaqdan çağırdılar, əllərimi yana açıb qapıya doğru getdim, dəstəyə bərk toxunub dişimi sındırdım. Bu, məni əyləndirdi; ağrıya baxmayaraq, güldüm. Çox-çox illər sonra Cakomettinin ayağına görə güldüyü kimi, amma tamam əks səbəblər üzündən güldüm. Tarixçəmin xoşbəxt sonluqla başa çatacağını əvvəlcədən qət elədiyim kimi, bütün gözlənilməz şeylər tələ, yenilik – aldadıcı görüntü rolunu oynayırdılar, həyatın gedişi qabaqcadan məni həyata səsləyən xalqların ehtiyacı ilə nizama salınmışdı; sınmış dişdə sonralar başa düşəcəyim gizli xəbərdarlıq əlaməti görürdüm. Başqa cür desək, hər şəraitdə, hər şeyin bahasına məqsədəuyğunluğu qoruyurdum. Öz həyatımı ölüm prizmasından nəzərdən keçirib onu özlüyümdə qapalı yaddaş kimi təsəvvür eləyirdim: ona artıq heç bir şey nüfuz eləyə bilməzdi, heç bir gərəkli şey ondan düşə bilməzdi. Bundan etibarlı vəziyyət təsəvvürə gətirmək olardımı? Təsadüflər mövcud deyildilər – öncəgörmə üzündən yalnız onun oxşarları ilə qarşılaşırdım. Qəzetlərə inansaq, küçələr adi adamlardan ötrü ölümcül, hardan yarandığı məlum olmayan təhlükə doğururdular; taleyim qabaqcadan müəyyənləşdirildiyindən, qorxmalı bir iş yox idi. İstisna deyil ki, əllərimi, ayaqlarımı, gözlərimi itirə bilərəm. Amma buna müxtəlif cür yanaşmaq olar: bədbəxtlik kitablar

üçün təkan və material olacaq. Mən dərdlərə, xəstəliklərə təmkinlə dözməyi öyrəndim, onlarda öz qalibanə ölümümün ilk əlamətlərini, məni öz yanına qaldırmaq üçün yonduğu pillələri görürdüm. Bu kobudtəhər qayğıkeşlik bir qədər xoşuma gəlirdi, ona layiq olmağa çalışırdım. Hesab eləyirdim ki, nə qədər pis olsa, o qədər yaxşıdır; hətta səhvlərimin də faydası vardı, deməli, mən o səhvləri eləmirdim. On yaşında özümə əmindim; ciddi, dözülməz idim, şübhə eləmirdim ki, uğursuzluğum – ölümümdən sonrakı qələbəmin rəhnidir. Qoy kor olum, ayaqlarımı itirim, yoldan çıxım, nə qədər çox döyüşü uduzsam, müharibəni o qədər yəqin udaram. Mən seçilmişlər və qabaqcadan nəzərdə tutulmuş sınaqlarla məsuliyyətini daşıdığım uğursuzluqlar arasında heç bir fərq görmürdüm – buna görə günahlarım mənə mahiyyətcə pisliklər kimi gəlirdi, uğursuzluqlardasa öz yanlışlıqlarımı görürdüm; əslində, əgər xəstələnirdimsə – qrip, yaxud zökəm olsun – deyirdim ki, özüm günahkaram: lazımi qədər ehtiyatlı olmadım, paltonu geyinməyi, yaxud şərfimi dolamağı unutdum. Aləmi deyil, özümü günahlandırmağa üstünlük verirdim; qəlbimin xeyirxahlığından yox, yalnız özümdən asılı olmaq üçün. Üstünlük barışmağı istisna eləmirdi; öz zəifliklərimi ona görə həvəslə boynuma alırdım ki, onlar məndən ötrü xeyirə ən qısa yolu təmin eləyirdilər. Bu, rahatdır – həyatın hərəkəti istəsəm də, istəməsəm də arasıkəsilmədən təkmilləşmək məcburiyyətində qoyub, mən qeyri-iradi öz arxasınca çəkirdi.

Bütün uşaqlara uğur qazandıqları məlumdur, onlara bunu unutmağa imkan vermirlər. «Uğur qazan», «O, uğur qazanır», «Müntəzəm, ciddi uğurlar…» Böyüklər Fransanın tarixini danışırdılar: o qədər də etibarlı olmayan Birinci respublikadan sonra İkinci, sonra Üçüncü – bu dəfə yaxşı – respublika gəldi: Allah üçlüyü sevir. Həmin vaxt burjua nikbinliyi damı altında ifratçıların proqramı vardı: bolluğun inkişafı, biliklərin, xırda mülkiyyət sisteminin yayılması yolu ilə pauperizmin* aradan qaldırılması. Bizə, gənc cənablara həmin nikbinliyi yaşımıza uyğunlaşdırılmış görkəmdə təqdim elədilər, biz də məmnunluqla görürdük ki, fərdi uğurlarımız millətin uğurlarını yaradır. Amma, bununla belə, çox azımız atalarımızdan irəli getmək istəyirdik, əksəriyyət üçün hər şey yetkinliyin əldə edilməsinə gətirib çıxarırdı, bundan sonra artım, inkişaf kəsiləcək,

əvəzində ətraf aləm öz özlüyündə daha yaxşı, daha rahat olacaq. Bəziləri bu məqamı səbirsizliklə, başqaları qorxu ilə, digərləri qüssə ilə gözləyirdilər. Mənə gələndə rütbə verilənəcən artıma tamam etinadsızlıqla münasibət bəsləyirdim – həmin həddi-büluğa çatmağa tüpürmək belə istəmirdim. Babam məni balaca sayır, kədərlənirdi. «O, Sartlara oxşayıb», – nənəm onu acıqlandırmaq üçün deyirdi. Şarl özünü elə göstərirdi, guya, eşitmir, məni qabağına çəkib nəzərləri ilə süzürdü, nəhayət, bir qədər inamsızlıqla deyirdi: «O böyüyür!» Onun nə qayğılarını, nə ümidlərini bölüşürdüm: axı yaramaz ot da tez böyüyür; yaramaz qala-qala böyümək olar. Məndən ötrü həmin vaxt ən başlıcası yaxşı in aeternum* qalmaqdır. Amma həyatımı sürətlənəndə hər şey dəyişdi: artıq yaxşı hərəkət eləmək az idi, hər saat *yaxşı* hərəkət lazım idi. Özümə bir qaydanı – yuxarı dırmaşmağı tabe elədim. Öz iddialarımı qidalandırmaq, onların ölçüyə uyğun gəlmədiyini maskalayıb hamı təki hərəkət eləyirdim: mənim ötəri uşaq uğurlarımda öz taleyimin uğurunu görürdüm. Doğrudan da, xırda, tamamilə adi uğurlar qazanırdım, amma o uğur məndə yalançı yüksəliş duyğusu yaradırdı.

Tamaşaçılar üçün çalışmağa adət eləmiş uşaq idim, hamının yanında öz sinfimin, öz nəslimin mifindən fayda görür, təcrübə toplayırdım, indi keçmişin dərsləri ilə zəngindir. Öz-özümlə təklikdə bununla heç də kifayətlənmirdim. Mən varlığın əvvəlcədən bəxş olunduğu, sövqi-təbii saxlandığıyla, ruhun hər bir hərəkətinin qarşıda gözlənən hərəkətin nəticəsi olduğu ilə razılaşa bilməzdim. Tamamilə, bütövlükdə gələcək intizar tərəfindən doğulmuşdum, o, intizar mənə nur bəxş eləmişdi, irəli şığıyırdım, hər an dünyaya gəlməyin mərasimini dönə-dönə təkrarlayırdı; öz könül cəhdlərimə daxili atəşin qığılcımı kimi baxırdım. Keçmişə nə ilə borclu ola bilərdim? Məni o yaratmamışdı, əksinə, mən küldən törəyib, yoxluqdan öz yaddaşımı dönə-dönə bərpa eləyib yaratmışdım. Hər dəfə daha yaxşı yaranırdım, oyanırdım, bir sadə səbəb üzündən öz ruhumun hələ toxunulmamış ehtiyatlarını daha bütöv istifadə eləyirdim ki, qarşısıalınmadan üstümə gələn ölüm məni öz tutqun işığı ilə get-gedə daha aydın işıqlandırırdı. Mənə tez-tez deyirdilər: keçmiş bizi irəli itələyir, amma əmin idim ki, məni gələcək çəkir; özümdə nizamlı qüvvələrin işini, ümidlərin asta-asta yetişməsini

hiss eləmək nifrətamiz olardı. Burjuanın ehmallı inkişafını öz ruhuma çəkmişdim, onu daxiliyanma mühərrikinə çevirmişdim; keçmişi indiyə, indini gələcəyə çevirmişdim, dinc təkamül yolundan imtina eləmiş, inqilabi kataklizmlərin daşlı-kəsəkli yolunu seçmişdim. Bir neçə il əvvəl kimsə qeyd eləmişdi ki, pyeslərimin və romanlarımın qəhrəmanları qəfildən, sürətlə qərar qəbul eləyirlər – Məsələn, «Milçəklər»də Orestin ruhundakı çevriliş ani baş verir. Lənət şeytana, mən həmin qəhrəmanları özümə oxşar, şübhəsiz, olduğum kimi yox, olmaq istədiyim kimi yaradıram.

Satqın oldum, satqın olaraq da qaldım. Özümü bütövlükdə tutduğum hər işə əbəs yerə həsr eləyirəm. Bütövlükdə işə, hiddətə, dostluğa uyuram – bir dəqiqədən sonra özümdən imtina eləyəcəyimi bilirəm, bu, mənə məlumdur, mən bunu istəyirəm, əvvəlcədən xəyanətə sevinib, vəcdə gələ-gələ artıq özümü əyləncənin ən qızğın yerinə verirəm. Ümumiyyətlə, sözümə başqalarından pis əməl eləmirəm, amma bağlılıqlarımda, hərəkət tərzimdə daimi olub, hisslərə sədaqətimi qorumuram; vaxt vardı, hər bir abidə, portret, yaxud peyzaj mənə yalnız ona görə ən gözəl görünürdü ki, onu axırıncı olaraq görürdüm; kinayə ilə, yaxud etinasızlıqla gülə-gülə – bütün bunların məni daha təsirləndirmədiyinə əmin olmaq üçün – hələ onlardan ötrü əziz olan hər hansı bir ümumi xatirəni ələ salırdım. Özümə rəhm eləmədən irəli qaçırdım; nəticədə özümü daha az sevirəm, rəhmsiz hərəkətlərim məni öz nəzərimdə dəyərsizləşdirir – dünən pis hərəkət elədim, çünki bu, dünəndir, sabah özümə hökmümün nə qədər sərt olacağını bu gün əvvəlcədən görürəm. Başlıcası odur ki, heç bir qardaşlaşma yoxdur: keçmişimi xeyli aralıda saxlayıram. Yeniyetməlik, yetkinlik, hətta ötən il – hər şey çevrilişə cəkdi; indi yeni səltənət gələcək, amma o, Allah bilir, nə vaxt yetişəcək. Həyatımın ilk illərini xüsusilə tərtəmiz çıxarıb; bu kitaba girişib üstündən xətt çəkilənlərin açılmasına çoxlu vaxt sərf eləməyə məcbur idim. Otuz yaşım olanda dostlarım təəccüblənirdilər: «Fikirləşmək olar ki, sizin nə valideynləriniz, nə uşaqlığınız varmış». Axmaqdır, bu, mənim izzəti-nəfsimi oxşayırdı. Amma mən bəzi adamlara – xüsusilə qadınlara xas olan zövqlərə, istəklərə, uzaq niyyətlərə, uzaqlaşan sevinclərə dinc, ciddi sədaqətə hörmət bəsləyirəm, onların bütün dəyişikliklər zamanı özlərinə sadiqliyi saxlamağından,

keçmişin xatirəsini qorumağından, ilk oyuncaqlarını, süd dişlərini, ilk sevgilərini qəbrə aparmağından vəcdə gəlirəm. Ahıl vaxtlarında yalnız gəncliyik istəklərinə görə qocalmış qadınlarla bir araya gələn kişilər tanıyırdım; başqaları, hətta ölülərə incikliklərini bağışlamırdılar, öldürsən də, iyirmi il qabaq işlədilmiş tamamilə bağışlanan günahı boyunlarına almağa razı olmurdular; mənim özünütənqid üçün gözəl xüsusiyyətlərim var, bir şərtlə – onları sırımasınlar. 1936-cı ildə, yaxud 1945-ci ildə kimsə adımı daşıyan adamın xətrinə dəyib: bunun mənə nə dəxli var? Onu təhqir eləyiblər, susub; bunu zərərinin hesabına yazıram – axmaqdı, hətta özünə hörmət göstərməyə məcbur eləyə bilməyib. Köhnə dostum rastlaşıb iradlarını bildirir: artıq on yeddi ildir məndən inciyib, müəyyən bir şəraitdə ona qarşı diqqətsiz olmuşam. Tutqun halda xatırlayıram, özümü müdafiə eləyib, ona hücum çəkmişəm, o vaxt onu həddən artıq şübhələnməkdə, təqib düşkünlüyündə günahlandırmışam – qısası, baş verənlər barədə öz versiyam olub; buna görə də indi dostumun mövqeyini daha həvəslə qəbul eləyirəm; onunla tamamilə razılaşıram, hər şeydə özümü günahlandırıram: özümü şöhrətpərəst, yekəxana, sərt aparmışam; kefikök halda sağa-sola vururam, hər şeyi anladığımdan ləzzət alıram; bir halda ki, səhvlərimi bu qədər asanlıqla boynuma alıram – deməli, o səhvləri təkrar eləyə bilmərəm. İnanacaqsınızmı? Mənim cəsarətsizliyim, asanlıqla tövbə eləməyim iddiaçını yalnız əsəbiləşdirir. O deməzsənmi, məni cırnadır, onu ələ salıram. O, mənə – indikinə, keçmişdəkinə, həyatı boyu tanıdığı, həmişə eyni cür olan adama inciyir, mənsə özümü yeni doğulmuş hiss eləməkdən ləzzət almaq xətrinə onu hərəkətsiz saxlayıram. Axırda mən də həmin dinc, çürüyən meyitlərə qəzəblənirəm. Əksinə, əgər bir kəs dediklərinə görə, rusvay olmadığım hadisəni xatırladırsa, əlimin hərəkəti ilə söhbəti kəsirəm; məni təvazökar adam sayırlar, elə bir şey yoxdur, sadəcə, əminəm ki, bu gün daha yaxşı, sabahsa *ondan da yaxşı* hərəkət eləyirdim. Adətən, ilk əsərlərini həddən artıq canfəşanlıqla tərifləmək ahıl yazıçıların xoşuna gəlmir, amma şübhəsiz, bu, hamıdan az məni sevindirir. Mənim ən yaxşı kitabım – üzərində işlədiyim kitabdır; sonra yenicə nəşr olunmuş kitab gəlir. Amma artıq içimdə əlaltından nifrət yetişir, tezliklə üzə vuracaq. Tənqidçilər ikitabı pis saysalar, ola bilsin, bu gün qəlbimə dəyər, yarım ildən sonrasa

onların fikrincə yaxın olacağam. Amma bir şərtlə, həmin əsəri nə qədər mənasız, səthi saysalar da, istəyirəm ki, əvvəllər yazdıqlarımın hamısından üstün tutsunlar; razıyam, yaradıcılığım bütövlükdə alt-üst edilsin, amma xronoloji ierarxiya qorunmalıdır, bu – sabah daha yaxşı bir şey, birisi gün ondan da yaxşısını yaradacağımın, axırını şedevrlə bitirəcəyimin yeganə rəhnidir.

Şübhəsiz, özümü tərifləmirəm, öz-özümüzü təkrar elədiyimizi gözəl görürəm. Amma sonralar qazanılmış bu anlayış köhnə təsəvvürləri canlandırsa da, onları tamam-kamal dağıda bilməz. Həyatımda mənimlə gətirməyən bir neçə sərt şahidim var, məni dəfələrlə tapdanmış cığırla getdiyim yerdə yaxalayıblar. Bu barədə özümə deyirlər, inanıram, amma qəfildən son məqamda görürəm ki, hər şey gözəldir: hələ dünən kordum, bu günsə irəliləyiş sezilir – axı inkişaf eləməyə ara verdiyimi anladım. Bəzən özüm ittihamın şahidi kimi çıxış eləyirəm. Məsələn, görürəm ki, iki il qabaq yazılmış səhifə lazım ola bilərdi. Axtarıram tapmıram. Daha yaxşısı: tənbəlliyim üzündən az qala yeni əsərimin içinə köhnələri salacaqdım – indi daha dəqiq yazıram, hər şey təzədən eləyirəm. Əsəri bitirib təsadüfən itmiş səhifəyə rast gəlirəm. Donub qalıram: bir neçə vergülü nəzərə almasaq, elə həmin fikirləri elə həmin sözlərlə ifadə eləmişəm. Tərəddüd keçirib, ikinci düzəlişi saxlayır, həmin köhnəlmiş sənədi zibil qabına atıram: nə iləsə əvvəlkindən daha mükəmməldir. Bir sözlə, bacardığım kimi yerləşirəm – ayıq baxıram, amma indi də qocalığın dağıdıcı fəaliyyətinə baxmayaraq, alpinistin təzə-tər həvəsini duymaq üçün öz-özümlə tələxəklik eləyirəm.

On yaşında həmin düşkünlüklər, özünütəkrarlar mənə məlum deyildi, şübhələr yad idi: cəld, boşboğaz, küçənin mənzərəsindən heyrətlənən idim, öz hərəkətlərimi bir-birinin arxasınca atıb dərimi dəyişməyə ara vermirdim. Sufflo küçəsi ilə yuxarı qalxa-qalxa hər addımımda geri qaçan vitrinlərin gözqamaşdırıcı parıltısı içində öz həyatımın qaçışını, qanununu, gözəl heç bir şeyə sədaqət bəsləməmək haqqımı duyurdum. Hər şeyim həmişə mənimlə idi. Bax, nənəm öz yemək dəstini artırmaq istəyir, onu şüşə və çini qablar mağazasına müşayiət eləyirəm; o, qapağında qırmızı alma bəzəkli sup qabını, gül naxışı boşqabları göstərir. Bu heç də nənəmə lazım olan deyil, şübhəsiz,

boşqablarında güllər var, amma orda saplaqlarla dırmaşan qəhvəyi həşaratlar da var. Dükançı qız da canlanır, o, müştərinin nə istədiyini anlayır, belələri vardı, amma artıq üç ildir ki, buraxmırlar; bu model daha yeni, daha ucuzdur, sonrası da həşəratlarla, ya da həşəratlarsız – çiçəklər çiçək olaraq qalırlar, elə deyilmi, birə axtarmağa – yamanca yerinə düşdü – nə ehtiyac var. Nənəm razılaşmır, dediyinin üstündə durur: anbara baxmaq olmazmı? Əlbəttə, olar, amma buna vaxt lazımdı, dükançı xanımın köməkçisi yoxdur, satıcı yenicə çıxıb gedib. Heç nəyə toxunmamağı əmr eləyib məni küncə qoyur, yadlarından çıxarırlar. Ətrafımdakı əşyaların zərifliyindən, tozlu parıltılarından, Paskalın ölümdən sonrakı maskasından, prezident Falyerin başı formasındakı gecə tasından sarsılmışam. Amma yalnız görüntü xətrinə olan ikinci dərəcəli personajam. Bəzi yazıçılar köməkçi fiqurları səhnəyə bu cür çıxarır, əsas qəhrəmanısa ötəri, yarımçıq təqdim eləyirlər. Oxucunu aldada bilməzsən: o, romanın yaxşı bitib-bitmədiyini görmək üçün son səhifələri vərəqləyir, bilir ki, buxarıya söykənmiş solğun gəncin qəlbi arxasında üç yüz əlli səhifə var. Üç yüz əlli sevgi və macəra səhifəsi. Mənim azı beş yüz səhifəm var. Axırı xoşbəxt sonluqla bitən uzun əhvalatlı qəhrəmanam. Həmin əhvalatı özümə söyləməkdən əl çəkdim – nə əhəmiyyəti var? Özümü romanın qəhrəmanı hiss elədim – bu, bəsdir. Zaman yaşlı qayğılı qadınları, çinilər üzərindəki gülləri, dükanı geri dartırdı, qara tumanlar solurdular, səslər ağırlaşırdılar, nənəmə yazığım gəlirdi – əlbəttə, onun ikinci hissəsini tapmayacaqlar. Mənsə balaca oğlanda bütövləşdirilmiş başlanğıc, orta və son idim, həmin oğlan *burda,* dükanın toranlığında, hündür, boyu çatmayan boşqab yığınlarının arasında və orda, *başqa yerdə,* çox uzaqda, şöhrətin gözqamaşdırıcı matəm günəşi altında artıq qoca idi, artıq ölü idi. Mən əvvəlcə onun trayektoriyasının, dalğa axınının hissəciyi, yolun sonunda əks olunmuş maneəydir. Mən cəld, gərgin, bir əli ilə qəbrə, bir əli ilə beşiyə toxunan vəziyyətdə özümü Ani, gözəl, zülmətin udduğu şimşək parıltısı sayırdım.

Bununla belə, darıxmaq – bəzən güclə sezilən, bəzən ürəkbulandıran – yaxamdan əl çəkmirdi; ona tab gətirməyə gücüm çatmayıb faciəvi cazibəyə güzəştə gedirdim. Orfey səbirsizliyi üzündən Evridiki itirmişdi, mən səbirsizliyim üzündən tez-tez özümü

itirirdim. İşsizlikdən dəli olub bəzən öz dəliliyimə nəzər salırdım, bununla belə, onu unutmaq, diqqəti zahiri aləm üzərində cəmləşdirib qapaq altında saxlamaq lazım idı; belə məqamlarda özümü *gerçəkləşdirmək, dərhal* bu barədə düşünməyəndə məni didib-dağıdan həyatın tamlığını bir baxışla əhatə eləmək istəyirdim. Dəhşətdir! İlkin hərəkət, bədbinlik, şən xəyanətlər, gizli məqsədyönlülük – şəxsən mənim xanım Pikarın uzaqgörənliyinə əlavə elədiyim hər şey rədd olub getdi. Uzaqgörənlik qalırdı, amma onunla neyləyə bilərdim? O hər bir anımı xilas eləmək cəhdində qorxunc, ancaq mənasız şeylərin hamısını tarazlayırdı: həyat şirəsindən məhrum olan gələcək quru karkasa çevrildi, mən öz varlığımın ziyan gətirdiyini yenə görürdüm, sezirdim ki, ona heç cür bəraət tapa bilməmişəm.

Tarixsiz xatirə – mən Lüksemburq bağındakı oturacaqda əyləşmişəm: Ann-Mari yanında oturmağımı xahiş eləyib, çünki həddən artıq qaçıb tərləmişəm. Hər halda, səbəblə nəticənin real bağlılığı belədir. Amma o qədər darıxıram ki, hər şeyi təkəbbürlə geri çevirirəm: ona görə qaçırdım ki, ***tərləyim,*** bununla da anamın məni çağırmasına imkan yaradım. Hər şey bu oturacağa gətirib çıxarırdı, hər şey ona gətirib çıxarmalı idi. Onun hansı rolu var? Bilmirəm, bu barədə əvvəlcədən fikirləşmirəm, mənə aid olan təəssüratların heç biri itirilməyəcək; məqsəd var, o səbəbi sonralar dərk eləyərəm, onu törəmələrim bilər. Yerə çatmayan qısa ayaqlarımı yellədirəm, əlində zərf olan qozbel kişini görürəm – bu, lazım olar. Vəcdlə təkrar eləyirəm: «Burda oturmaq həddən artıq vacibdir». Daha da darıxıram; özümü saxlaya bilmirəm, özümə baxmağa cəsarət göstərirəm: sensasiyalı kəşflər tələb eləmirəm, amma bu dəqiqənin mənasını anlamaq, zərurətini duymaq, heç olmasa, Müssenin, yaxud Hüqonun ayağına yazdığım anadangəlmə yetkinlik vergisindən zövq almaq istəyirəm. Təbii ki, başdan-başa dumandan başqa bir şey görmürəm. Qismətimin mücərrəd postulatı ilə mövcudluğumun primitiv duyğusu toqquşmadan, bir-birinə qarışmadan yan-yanaşı mövcuddular. Bir şey – özümdən qaçmaq, məni cəlb eləyən başgicəlləndirici sürəti təzədən qazanmaq istəyirəm; əbəsdir – heyrətə xələl gəlib. Qıçlarımın tükləri biz-biz olur, özümə yer tapa bilmirəm. Lap vaxtında ilahi mənə missiya tapşırır nəolursa-olsun, yerimdən

qonmalıyam. Oturacaqdan atılıb var gücümlə qaçıram; xiyabanın axırından dönüb geri baxıram: heç bir şey tərpənmir, heç bir şey dəyişməyib. Məyusluğumu gizlədib növbəti əhvalatı quraşdırıram: Orilyakda, dəm-dəsgahlı otaqda, 1945-ci ildə – bunda israr eləyirəm – qaçışımın qiymətləndirilməmiş nəticələri aydınlaşacaq. Təsdiqləyirəm ki, razıyam, özümü qızışdırıram: Müqəddəs Ruhun yolunu kəsmək üçün ona etibarımı bildirirəm: mənə verdiyi o imkanlara layiq olmaq üçün dəlicəsinə and içirəm. Bütün bunların yersiz, başdan-ayağa əsəb oyunu olduğunu bilirəm. Anam artıq özünü yetirib: yun köynək, şərf, palto: o, məni bürüyür, qeyri-ixtiyari əllərinə təslim oluram. Hələ irəlidə Sufflo küçəsi, dalandar cənab Triqonun bığları, hidravlik liftin öskürəyi var. Nəhayət, bədbəxt balaca iddiaçı kabinetdədir, stuldan-stula vurnuxur, kitabları vərəqləyib atır. Pəncərəyə yaxınlaşıram, pərdənin altında milçək görürəm, onun qanadlarından tutub öldürücü barmağımla basıram. Bu nömrə proqramdankənardır, təsadüfdür, fəaliyyətdən qıraqda donmuş zamandan götürülüb, yeganə nömrədir ki, bu gün axşamda, sonra da heç bir şeyə səbəb olmayacaq, Orilyak heç vaxt bu bulandırılmış əbədiyyatdən xəbər tutmayacaq. Bəşəriyyət mürgüləyir, müqəddəs – milçəyi də incitməz – görkəmli yazıçısa indicə yaranıb. Bu durğun dəqiqədə hər hansı bir gələcəkdən məhrum tənha uşaq qətldə kəskin duyğular axtarır; bir halda ki, mənə əsl insan taleyi bəxş olunmayıb, özüm başqalarının – heç olmasa, bu milçək üçün – taleyinin hakimi olaram. Tələsməyəcəyəm, qoy bilsin ki, başının üstünü əjdaha kəsib: barmağım get-gedə yaxınlaşır… əzdim, çox təəssüf! Onu öldürmək lazım deyildi, lənət şeytana! Bütün mövcud olanların içində məndən qorxan yeganə varlıqdır: indi mənimlə kimsə hesablaşmır. Həşarat qatili olub qurbanımın yerini tuturam, mən – həşəratam. Mən – milçəyəm, həmişə milçək olmuşam. Başqa yolum yoxdur. Yalnız masanın üstündən «Kapitan Korkoranın macəraları»nı götürüb xalının üstünə sərilmək, yüz dəfələrlə oxuduğum kitabı bəxtbəxt açmaq lazımdır: özümü elə əzgin elə qüssəli hesab eləyirəm ki, yorulmuş əsəblərim dözmür, ilk sətirdən hər şeyi unuduram. Kapitan Korkoran boş kabinetdə əlində karabin, yanında ələ öyrəşmiş pələng balası vəhşi heyvanı qovur: keçilməz cəngəlliklər sürətlə onları əhatə eləyir – uzaqda ağaclar basdırmışam,

meymunlar budaqdan-budağa atılır. Qəfildən Luizon – pələng balası nərildəməyə başlayır, Korkoran yerində durub qalır, düşmən yaxındadır. Mənim qayıdıb gəlmək, bəşəriyyəti oyatmaq, məni köməyə çağırmaq üçün Müqəddəs Ruh qəlbimi alt-üst eləyən: «Əgər artıq tapmasaydın, məni axtarmazdın» sözlərini pıçıldamağa məhz bu maraqlı məqamı seçir. Əbəs tərifdir, onu cəsur Korkorandan başqa burda kim eşidəcək? Amma bu zaman yalnız elə bu həmin bəyanatı gözləyirmiş kimi, görkəmli yazıçı qayıdır, nəvəm sarışın başını həyat tarixçəmin üstünə əyir, gözlərində yaş gilələnir, gələcək şəfəq saçır, sonsuz sevgi məni bürüyür, qəlbimdə atəş oynayır; tərpənmirəm, illüminasiyaya fikir vermirəm, kitabdan aralanmıram. Nəhayət, işıqlar sönür, dö-yüntüdən, qarşısıalınmaz irəli getmək meylindən başqa heç bir şey hiss eləmirəm, yerimdən tərpənirəm, hərəkətə gəlirəm, hərəkət eləyirəm, mühərrik işləyir. Mən qəlbimin sürətini duyuram.

* * *

Mənim başlanğıcım belədir: qaçırdım, zahiri qüvvələr qaçışımın xarakterini müəyyən eləyirdilər, məni formalaşdırırdılar. Köhnəlmiş mədəniyyət konsepsiyası arasından din işıq saçırdı, o, nümunə rolunu – onda uşaqsayağı olanın hamısını – oynayırdı, o, uşağın ürəyincə idi. Mənimlə müqəddəs tarixlə, tövratla, sənətlə məşğul olurdular, amma inanmağa imkan vermirdilər; bu, öz nizamıma çevrilən nizamsızlığıma gətirib çıxardı. Dağ yaranması prosesində qabığın dəyişməsi prosesi baş verdi: katolisizmdən götürülmüş müqəddəslik ideyası incə söz sənətinə yatırıldı, mən mömin ola bilmədim, buna görə də qarışıq xristianı ədəbiyyatda gördüm: onun həyatının məqsədi günahdan təmizlənmə, yer üzündə mövcudluğunun bir məqsədi – sınaqlardan ləyaqətlə keçmək, axirət zövqü-səfasına layiq olmaq – idi. Ölüm keçid mərasiminə bərabər tutulurdu, əbədi ölməzlik öz xidmətlərini əbədi həyatın substutu qismində təklif eləyirdi. Bəşəriyyətin şüurunda öz sönməzliyimə zəmanət almaq üçün belə qənaətə gəldim ki, özü də həmişə mövcud olacaq. Onun bətnində ölmək doğulmaq, sonsuzluq qazanmaq deməkdir, amma mənim qarşımda hər hansı bir kataklizm nəticəsində əlli il sonra da olsa, planetin məhvi barədə fərziyyə söyləsəydilər, dəhşətə gələrdim; elə indi də

bütün illüziyalarımı itirib günəşin soyuya biləcəyi barədə qorxu hissi keçirmədən fikirləşə bilmirəm; qoy adamlar dəfn olunduğumun səhəri günü unutsunlar, bu, mənə təsir eləmir; özümdə tanımadığım, amma məhv olmaqdan qoruduğum milyardlarla yaranının olduğu kimi, nə qədər ki, onlar sağdılar, hissedilməzdilər, adsızdılar, onlardan ayrılmazam, onların hər birində varam.

Mif çətin deyildi, onu asanca həzm elədim. İki kilsənin – protestant və katolik – övladı kimi, müqəddəslərə, Məryəm anaya, hətta Allaha, onlar bu adlarla adlandırılanacan inana bilmirdim. Amma mənə nəhəng kollektiv qüvvə təsir göstərirdi – bu, başqalarının inamı idi; o inam qəlbimdə yuva qurub öz məqamını gözləyirdi: onun səcdə hədəfinin adını, görkəmini azacıq dəyişmək bəs eləyirdi ki, məni yanıldan maskanın altında onu tanıyıb üstünə atılır, caynaqları ilə ondan yapışırdı. Düşünürdüm ki, ədəbiyyata təslim oluram, əslindəsə, rahibliyi qəbul eləmişdim. Möminlərin ən dincinin əqidəsi mənim içimdə qarşısıalınmaz inamla öz taleyimə çevrildi. Taleyimə? Niyə də yox? Bəyəm hər bir xristian Allahın seçilmişi deyil? Mən katolisizmin peyinli torpağında alaq kimi böyümüşdüm, köklərim onun şirəsini çəkirdi, ondan cana gəlirdi. Ona görə də otuz il görmədən baxırdım. 1917-ci ildə La-Raşeldə bir səhər yoldaşlarımı gözləyirdim, birgə litseyə getməli idik; onlar gecikirdilər; necə vaxt keçirəcəyimi bilmədən Qüdrətli Allah barədə fikirləşməyə başladım. Elə həmin anda O, qəfildən maviliklə başıaşağı sürüşüb izahsız-filansız yox oldu. Öz-özümə nəzakətlə onun mövcud olmadığını söyləyib məsələni bitmiş hesab elədim. Müəyyən dərəcədə hər şey, doğrudan da. bitmişdi, çünki həmin vaxtdan məndə heç vaxt onu diriltmək arzusu yaranmamışdı. Amma başqa, gözəgörünməz, mənə bəxş olunan səlahiyyətlərə zəmanət verən, həyatımı adsız, böyük müqəddəs qüvvələrin köməyilə idarə eləmiş Müqəddəs Ruh qaldı. Ondan can qurtarmaq daha çətin idi, o, mənim beynimin arxa cəbhəsində, özümü, həyatdakı yerimi, öz mövcudluğumun mənasını anlamaq üçün istifadə elədiyim, əl altından alınmış anlayışların arasında məskən salmışdı. Hələ uzun müddət ölümü – din cildinə girmiş – rəhmə gətirmək, öz həyatımı təsadüfün caynağından qurtarmaq üçün yazırdım. Kilsəyə satıldım. Onun döyüşkən tərəfdarı kimi xilası yaradıcılıqda axtarırdım; mistik kimi

varlığın sükutuna əsəbiləşdirici şaqqıltılara girmək istəyirdim, başlıcasısa, adları şeylərin üzərinə qoyurdum: inam bəsləmək elə budur. Baxışların tutqunlaşdı. Zülmət sürdüyü müddətdə belə hesab eləyirdim ki, dolaşmışam. Otuz yaşında uğurla dəlisov kələk işlətdim: «Ürəkbulanması»nda, guya, özümün bura dəxlim yoxmuş kimi məqsədsiz adamın dərdini, özümə oxşayanların əsassız mövcudluğunu – mənə inanın, tamamilə səmimi təsvir elədim. Əlbəttə, mən Rokanten idim, onun vasitəsilə rəhmsiz-filansız öz həyatımı göstərirdim, amma eyni zamanda da «mən», seçilmiş, cəhənnəm salnaməçisi, özümün protoplazmatik* mayemə yönəldilmiş şüşədən və poladdan fotomikroskopdum. Sonra kefikök halda izah eləyirdim ki, insanın özü olması mümkün deyil: mən də özüm ola bilmədim, amma həmin mümkünsüzlüyü aşkara çıxarıb, bununla təkcə mənə bəxş olunmuş imkana, öz missiyamın obyektinə, öz şöhrətimin tramplininə çevirməyə imkan verən mandatım vardı. Bu açıq-aşkar həqiqətlərin əsiri idim, amma onları sezmirdim – aləmi onların arxasından görürdüm. Təpədən – dırnağa saxta, mistifikasiyanın bəhrəsi kimi insan mövcudluğu şəraitinin nə qədər ağır olduğunu görürdüm. Doqmatik kimi hər şeyə şübhə eləyirdim, təkcə şübhənin mənim seçilmişliyimin əlaməti olduğuna şübhə eləmirdim; bir əlimin dağıtdığını o biri əlimlə düzəldirdim, tərəddüdü öz mətanətimin rəhni sayırdım. Mən xoşbəxt idim.

Həmin vaxtdan dəyişmişəm. Sonra məni deformasiya eləyən şəffaf qını hansı turşuların yediyini, zorakılıqla necə, harda rastlaşdığımı, öz eybəcərliyimi gördüyümü – o qısa müddətdə mənfi dayaq, gözəl balanı əridən yandırılmış əhəng oldu – məni özümün ziddimə müntəzəm olaraq, fikirləşməyə məcbur eləyən – o dərəcədə ziddimə ki, öz mühakimələrim nə qədər güclü narahat eləyirdisə, onun həqiqiliyi məndən ötrü o qədər açıq-aşkar idi – səbəblərin hansı olduğunu danışıram. Qismət illüziyası dağılıb gedirdi; əzablar, günahların təmizlənməsi – hər şey dağıldı, ucaltdığım binadan yalnız xarabalıqlar qaldı, Müqəddəs Ruhu zirzəmidə yaxalayıb qovdum; ateizm – qəddar, dözüm istəyən ateizm – fəaliyyət məsələsini sona çatdırdı. Mən hər şeyi aydın görürəm, özümüaldatma ilə məşğul olmuram, öz vəzifələrimi bilirəm, yəqin, vətəndaşlığa görə mükafatlara layiqəm; artıq on ildir ki, acı, şirin dəlilikdən sonra özünə gəlmiş adam

kimiyəm: özünə gəlmək çətindir, öz səhvlərini gülüşsüz xatırlamaq olmur, öz həyatınla neyləyəcəyin məlum deyil. Mən yenidən, yeddi yaşımdakı sayaq, biletsiz sərnişin oldum; nəzarətçi kupemə girdi, əvvəlki təki sərt-sərt olmasa da üzümə baxdı: əslində, getməyə, axıracan sakitcə getməyimə imkan verməyə hazırdır; yalnız dəxli yoxdur, hansı üzr bildirənən vəziyyətlərə istinad eləmək lazımdır, o, nəylə istəsən razılaşar. Təssüf ki, heç bir şey tapmıram, axtarmağa həvəsim də yoxdur; beləcə, ikilikdə, bir-birimizdən utana-utana düz Dijona, məni kimsənin gözləmədiyi – bunu gözəl bilirəm – yerəcən gedəcəyik.

İnamımı itirdim, amma geri çəkilmədim. Hələlik yazıram. Başqa nəylə məşğul olum? Nulla dies sine linea (Gündə ən azı bir sətir yazmaq). Bu vərdişdir, sonra da bu – mənim peşəmdi. Uzun müddət qələmi qılınc sayırdım, indi güzsüzlüyümə inandım. Fərqi yoxdur, mən kitablar yazacağam; o kitablar lazımdır, o kitablar, hər halda, faydalıdır. Mədəniyyət heç bir şeyi və kimsəni xilas eləmir, heç haqq da qazandırmır. Amma mədəniyyət – insanın yaratdığı şeydir; o, özünü mədəniyyətdə əks etdirir, özünü onda tanıyır; yalnız həmin tənqidi güzgüdə öz simasını görür. Üstəlik də, köhnə-küşkül bina – özümüaldatmamdı, bu, həm də xarakterimdi, nevrozdan can qurtarmaq olar, özündən şəfa tapa bilməzsən. Əlli yaşımda özümün köhnəlmiş, sürtülmüş, təhqir olunmuş, uzaqlara qovulmuş, səs hüququndan məhrum edilmiş də olsam, uşaq cizgilərimi saxlamışam. Adətən, o cizgilər kölgədə gizlənirlər, ehtiyatlandırırlar; diqqətini azacıq yayındırırsan – başlarını qaldırırlar, maskalanıb işıqlı dünyaya çıxırlar. Səmimi-qəlbdən əminəm ki, müasirlər üçün yazıram, amma məşhurluq məni əsəbiləşdirir – bu, şöhrət deyil, axı hələ sağam, bununla belə, bu, çoxdankı arzularımın üstündən xətt çəkir. Deməli, gizlicə hələ də onları qidalandırıram? Həm hə, həm yox. Görünür, onların görkəmini dəyişmişəm; mənə həyatdan qiymətləndirilməmiş getmək qismət olmadı, amma bəzən özüm bir ümidlə təskinləşdirirəm ki, sağ vaxtımda mənə lazımi qiyməti vermirlər. Qrizelda ölmədi, Pardalian hələ mənim içimdədir, Stroqov da. Mən başdan-ayağa onlardanam, onlar Allahdandılar, mənsə Allaha inanıram. Get aydınlaşdır. Mənə gələndəcə, bundan heç vaxt baş açmadım, bəzən fikirləşirəm: bəlkə,

köhnə oyun – daşvurma oynayıram. Haqq-hesab çəkmək üçün köhnə ümidləri ciddi-cəhdlə tapdalamıram ki? Belə olan halda Filoktetəm: həmin əzəmətli və iylənmiş şikəst heç bir şərt qoymadan ox-kamana qədər hər şeyi verdi; amma inanın, o, gizlicə mükafat gözləyir.

Bunu bir kənara qoyaq. Mami deyərdi: «Bura sürüşkəndir – ehtiyatlı olun!» Amma mənim ağılsızlığımın yaxşı tərəfi də var: ilk gündən o, məni özümü «elitaya» aid eləmək tamahından qoruyurdu, heç zaman hesab eləmirdim ki, qismətimə «talant» yiyəsi olmaq düşmüşdü; qarşımda bir məqsəd vardı – zəhmətinlə, əqidənlə canını qurtar, əllərim və ciblərim boş idi. Heç bir şeylə əsaslandırılmamış seçimim məni kimsədən ucaya qaldırmırdı: cəmi-cümlətanı özümü xilas eləmək üçün təchizatsız-filansız yaradıcılığa həsr elədim. Amma əgər mən əbədi zövqü-səfanın gerçəkləşmədiyini anladım, onu butaforiya anbarına göndərdimsə, yerdə nə qalır. Bütün adamları öz içinə sığışdırmış bütöv adam bütün adamlardan, bütün adamlar ondan ibarətdirlər.